AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# AZƏRBAYCAN FOLKLORU KÜLLİYYATI

## XXV cild

# DASTANLAR

## XV kitab

BAKI – 2011

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*AMEA Folklor İnstitutu*
*Elmi Şurasının qərarı ilə çap olunur*

**REDAKSİYA HEYƏTİ**

**Hüseyn İsmayılov,** filologiya elmləri doktoru, prof. **(sədr);**
**İsrafil Abbaslı,** filologiya elmləri doktoru, professor;
**Teymur Bünyadov,** akademik;
**Tofiq Hacıyev,** AMEA-nın müxbir üzvü;
**Məhərrəm Cəfərli,** filologiya elmləri doktoru, professor;
**Paşa Əfəndiyev,** filologiya elmləri doktoru, professor;
**Oruc Əliyev,** filologiya elmləri namizədi;
**Qara Namazov,** filologiya elmləri doktoru, professor;
**Azad Nəbiyev,** AMEA-nın müxbir üzvü;
**Əziz Ələkbərli,** filologiya elmləri namizədi;
**Ağaverdi Xəlil,** filologiya elmləri namizədi;
**Seyfəddin Rzasoy,** filologiya elmləri namizədi **(məsul katib).**

**TƏRTİB EDƏNLƏR: f.e.d. prof. Hüseyn İSMAYILOV**
**f.e.n. Əziz ƏLƏKBƏRLİ**

**Azərbaycan folkloru külliyyatı, XXV cild, Dastanlar (XV kitab), Bakı,** "Nurlan" nəşriyyatı, 2011, - 356 səh.

Azərbaycan folkloru külliyyatının bu cildində 5 cildlik "Azərbaycan dastanları" kitabının görkəmli folklorşünas Ə.Axundovun tərtib etdiyi 5-ci cildindəki, AMEA Folklor İnstitutunun nəşr etdiyi "Azərbaycan folkloru antologiyası"nın cildlərindəki, institutun Folklor arxivindəki və R.Rüstəmzadənin "Məhəbbət dastanları" kitabındakı mətnlərdən istifadə olunmuşdur.

**4603000000**
**A ---------------- Qrifli nəşr**
**N-098-2011**

**©Folklor İnstitutu, 2011**

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# AŞIQ TƏHMİRAZ[1]

Maxaç şəhərində Zaman adlı, sinni keçmiş kasıb bir kişi var idi. Bu kişinin böyüyü Tərlan, kiçiyi Təhmiraz adlı iki oğlu var idi.

Günlərin bir günündə Zaman kişi çox bərk noxoşladı. O, ölüm halında oğlanlarını yanına çağırıb dedi:

– Ay balalarım, bəlkə mən bu yastıqdan qalxmadım. Məndən sizə vəsiyyət, bu vilayətdə qalmayın, olub-qalanımızı satıb başqa bir vilayətə qazanc ardınca gedin. Qabağınıza çıxan nemətə təpik vurub keçməyin.

Oğlanlar atalarının vəsiyyətinə əməl edəcəklərinə and içdilər. Bir azdan sonra Zaman kişi öldü, oğlanları onu el adətincə basdırdılar.

Bir gün Tərlan qardaşının yanına gəlib dedi:

– Qardaş, atamızın vəsiyyətini yerinə yetirək. İndi ki, bu yurdda qalmağımızı atamız bizə məsləhət görmədi, gəl baş götürüb qeyri-məmləkətə gedək.

Təhmiraz dedi:

– Qardaşımsan, necə desən əməl etməyə borcumdur. İki qardaş, ata varidatını satıb, həmən günü şəhərdən çıxıb, gün çıxan tərəfə bir müddət yol getdikdən sonra, gəlib bir qəbiristana çatdılar. Təhəmirazı həm aclıq, həm də yorğunluq taqətdən salmış idi. Tərlan qardaşını belə bir halda görüb dedi:

– Qardaş, gün çox ertədir, heç günorta belə olmayıb. Sən burada məni gözlə, mən bəlkəm bu yaxınlıqlardan

------------------------

1. "Adgözəl və Aslan şah" dastanının variantlarıdır. Folklorşünas Ə.H.Tahirov tərəfindən Dərbənd bölgəsindən Muxtar Əli oğlu adlı şəxsdən toplanmışdır. 1939-cu ildə "Dastanlar" adlı kitabda işıq üzü görmüşdür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sənin üçün çörək tapa bildim.Təhmiraz razı oldu. Tərlan onu burada qoyub çıxıb getdi.

Yəmən vilayətinin padşahı vəfat etmişdi. El qaydasına görə camaat meydançaya yığışıb, dövlət quşu uçurdular ki, özlərinə yeni padşah seçsinlər.

Tərlan qardaşından ayrılandan sonra, çörək üçün gəzə-gəzə yolun azıb gəlib haman şəhərə çıxıb gördü ki, burada şəhər əhli şəqirən təçirən nə ki, var meydançaya cəm olublar. Tərlan bu camaatın birinə yan alıb xəbər aldı:

Qardaş, burada nə vaqe olmuşdur ki, camaat yığışıbdır?

Camaatdan biri:

– Bu şəhərin padşahı vəfat edib, camaat özünə yenidən padşah seçmək üçün quş uçurur. Bu quş hər kimin başına qonsa, o adam padşah seçiləcək.

Çörək Tərlanın yadından çıxıb, dayandı tamaşaya. Meydana toplaşan camaat səbirsizliklə uçurulan dövlət quşunu gözləyirdi. Bir də gördülər ki, dövlət quşu qalxdı havaya, enib göydən qondu Tərlanın başına.

El yerbəyerdən çığırıb dedilər:

– Biz bu qəribi tanımırıq, dövlət quşu ağlını itiribdir. Təzədən uçurdun.

Dövlət quşunu bir də uçurdular. Quş yenə də Tərlanın başına qondu, hamı heyrətdə qaldı.

Tərlanı aparıb saldılar qaranlıq bir dama, damın qapısına bir qıfıl vurub, quşu yenidən uçurdular. Dövlət quşu qalxıb havaya, enib bacadan yenə qondu Tərlanın başına. İşi belə görən camaat Tərlanı özlərinə padşah seçdilər.

Təhmiraz Tərlanın yolunu çox gözlədi, gördü ki, gəlib çıxmadı, bir tərəfdən də hava qaraldı, canına qorxu düşən Təhmiraz, qardaşını harayına çağırmaq üçün görək nə deyir:

Aldı Təhmiraz:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Axşam oldu, qaranlıqlar qarışdı,
Gözlərəm yollları, gəlmədi qardaş,
Mən bir nadan uşaq, ürəyim bişdi,
Gözlərəm yolları, gəlmədi qardaş

Qardaş odur, qardaşımı yetirə,
Gətiribən mətləbini bitirə,
Qardaş gedib mənə çörək gətirə,
Gözlərəm yolları, gəlmədi qardaş

Təhmiraz haqdan endi azarlar,
Qələm alıb surətini yazarlar,
Allah üçün siz saxlayın məzarlar,
Gözlərəm yolları, gəlmədi qardaş.

Söz tamam oldu, ümüdi hər bir yerdən kəsilib, başladı yol getməyə. Bir meşənin içində yolunu itirdi, həm gecə qaranlıqdı, həm də qorxu. Təhmirazı çaş etmişdi. Belə bir münasib halda görək harayına kimi çağıracaq:

Aldı Təhzmiraz:

Müşküldə qalmışam, çağırıram səni,
Sən yetiş dadıma allah amandır.
Məni vətənimdən saldın aralı,
Sən yetiş dadıma allah amandır.

Ruzu qiyaməti qoparan allah,
Nuhun gəmisini qurtaran allah,
Yusifi quyudan qurtaran allah,
Sən yetiş dadıma allah amandır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Saralıban heyva kimi solmuşam,
Axıb-axıb peymanəyə dolmuşam,
Təhmirazam, bu müşküldə qalmışam,
Sən yetiş dadıma allah, amandır.

Təhmiraz sözünü qurtarıb getməyə başladı. Canını qurd-quşdan qorumaq üçün hündür bir ağaca çıxdı. Səhər açılmaqda idi. Səhər açılan kimi ağacdan enib dar bir cığır tapıb getməyə başladı.

Bir müddət gedəndən sonra zil qaranlıq bir meşəyə daxil oldu. Gördü ki, meşənin baş tərəfindən bir odunçu gedir. Təhmiraz özünü odunçuya yetirib salam verdi. Odunçu onun salamını aldıqdan sonra, onun kim olduğunu soruşdu. Təhmiraz başına gələn müsibəti ona nağıl etdi. Odunçu dedi:

– Bala, mənim övladım yoxdur, gəl mənə oğul ol.

Təhmiraz razı olduqdan sonra, odunçu onu evinə apardı.

Bu şəhərin padşahı Ədil paşanın qızı Dilşad xanım vaqiyyədə Təhmirazı görüb ona aşıq olmuşdu. Səhər tezdən qul-qarabaşını cəm edib, nar bağını səyahətə çıxmışdı ki, bəlkəm vaqiyyəsindəki gördüyü oğlanı orada tapa bilə.

Təhmiraz odunçu ilə şəhərə gəldi. Onlar bağın kənarındakı bulağın başından keçirdilər. Təhmiraz olduqca bərk yorğun idi. Odunçuya dedi:

Əşi, sən asta get mən bu bulaqda əl-üzümü yuyum, gəlib sənə çataram. Odunçu razı oldu. Təhmiraz bulaqda əl-üzünü yumaqda olsun.

Dilşad xanım, min naz, işvə ilə qızlardan ayrılıb, asta-asta bulağa tərəf gəldi ki, əl yaylığını yusun. Gördü ki, bulağın başında üç gecəlik ay misalında bir gözəl oğlan əl-üzünü yuyur. Dilşad xanım oğlanı görən kimi könül əldən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

verib saplanıb yerində qaldı.

Təhmiraz başını yuxarı qaldırıb üstünə düşən kölgənin nə olduğunu bilmək istədi. Gördü ki, bulağın başında quba qaz yerişli, ahu baxışlı, bir qız dayanıb. Haman saat çomağın götürüb getmək istəyəndə Dilşad xanım dal gərdənindəki qulac saçını saz edib sinəsinə basdı, görək Təhmiraza nə dedi:

Aldı Dilşad:

Uzaq yollardan gəlirsən,
Getmə gözəl oğlan, getmə.
Yorulub yolda qalarsan,
Getmə gözəl oğlan, getmə!

Dilşad xanım belə deyəndə, Təhmiraz çomağın saz edib sinəsinə basdı, görək qıza nə cavab verdi:

Aldı Təhmiraz:

Bəzənmisən tovuz kimi,
Dinmə gözəl xanım dinmə.
Qapında mən gəda kimi
Dinmə gözəl xanım, dinmə.

Aldı Dilşad:

Oxursan adı qaraya,
Məlhəm edərəm yaraya,

Buyur gəl, Kusku saraya,
Getmə, gözəl oğlan, getmə!

Aldı Təhmiraz:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qaşların qandadır, qanda,
Kipriklərin durub sanda,
Mən harada, saray handa,
Dinmə gözəl xanım, dinmə.

Aldı Dilşad:

Dilşadam bağlaram çalma,
Mən ölüm bu sözə qalma,
Sənə verim qızıl alma,
Getmə gözəl oğlan, getmə!

Aldı Təhmiraz:

Təhmirazın bağrı daşdır,
Bağrı daşdır, gözü yaşdır,
Təhmiraz bir cüt qardaşdır,
Dinmə gözəl xanım, dinmə!

Söz müxtəsər oldu. Dilşad gördü ki, oğlan getmək istəyir, söz ilə dedi:

– Səni and verirəm cavan canıma, gəl getmə. Qal mənim yanımda.

Təhmiraz dedi:

– Xanım, mən heç bir şey anlamıram. Mən gedib gərək qardaşımı tapam. Sağ qalsam qulluğana gələrəm.

Qız ağladı. Təhmiraz özünü odunçuya yetirib bazara tərəf getməkdə olsunlar.

Haman odunçu bu şəhərin halva bişirəninin odunçusu idi. Ulağını çəkib dükanın qabağında saxlayıb odununu boşaldırdı. Halvaçı dükandan çıxıb gördü ki, bunun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

odunçusunun yanında gözəl bir oğlan dayanıb, odunçusundan xəbər aldı:

– Bu oğlan nəçidir?

Odunçu dedi:

– Qərib bir oğlandır, meşədən tapmışam.

Halvaçı dedi:

– Gəlsənə bu oğlanı satasan mənə.

Odunçu razı oldu. Halvaçı Təhmirazı bir neçə qızıla odunçudan alıb dükanında şəyird saxladı. Təhmiraz çox çəkmədi ki, halva bişirməkdə böyük ad qazandı, şəhərin camaatı yer-yerdən axışıb halva almağa gəlirdi. Halvaçı əyər gündə bir onluq qazanırdısa, Təhmiraz onun dükanına gələndən bəri, gündə üç-dörd onluğa pul demirdi.

Dilşad xanım Təhmirazdan ayrılandan sonra daima peşəsi ağlamaq idi. Dilşad xanım bir gün paltarını dəyişib evdən çıxdı. Carsı rasta ilə gedirdi. Dükanlara, yığıncaqlara Təhmirazı görmək üçün baxırdı. Təsadüfən yolu halvaçı dükanının qabağından düşdü. Təhmirazı orada görcək, haman dükanı belədlədi, sonra imarətinə qayıdıb bir qarabaş göndərdi ki, Təhmirazı qatıb qabağına gətirsin.

Qarabaş daban basma özünü bazara, haman halvaçı dükanına yetirib xəbər aldı:

– Burada Təhmiraz kimdir?

Təhmiraz yeriyib irəli dedi:

– Mənəm, neçə girvənkə halva gərəkdir?

Qarabaş dedi:

– Nə səfeh-səfeh danışırsan? Mənə halva nə lazımdır? Düş qabağıma, xanım səni çağırır. Təhmirazı qorxu aldı, elə bildi ki, müştəriyə pis halva veribdir. Dəsliyini çıxartdı, sonra qarabaşa qoşulub getdilər.

Dilşad xanım gül bağında Təhmirazın yolunu səbrsizliklə gözləyirdi. Bir də gördü ki, yeni çiçək açmış



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ağacların arasındanTəhmiraz göründü. Haman saat qarabaşa göz elədi: Qarabaş onları tək buraxıb getdi. Dilşad xanım yüz nazı-qəmzə ilə Təhmirazın qabağına çıxıb, qulac qolunu onun boynuna salan kimi oğlan bildi ki, iş nə yerdədir. Qız onu bağın bir xəlvət yerinə çəkdi. Dilşad xanım söhbətini zərif yerdən başlayıb, əsl mətləbə gəlib çatdı. Təhmiraz da ürəyini ona açıb məhəbbətini ona söylədi. Hər iki aşiqi-məşuq bir qədər əylənəndən sonra, Təhmiraz dedi:

– Xanım, axşamdır. İzn ver gedim dükana.

Dilşad xanım dedi:

– Təhmiraz, mən səndən başqa kimsəyə gedən deyiləm. Bir keçər, ikiyə addımlayanda, elə bu vaxtda mənə deyərsən. İşimiz ətrafında bir tədbir tökərik.

Təhmiraz razılıq verib, yenidən görüşüb-öpüşüb ayrıldılar.

Hindistan vilayətində Şamil deyilən yaşı keçmiş bir tacir var idi. Şamil, Xosrov tacirin qızı Pəri xanıma aşıq idi. Dəfələrlə qıza elçi göndərib, onu istəmişsə də, qız onun qocalığını bilib, ona ərə getməkdən boyun qaçırmış idi. Şamil qızın eşqi ilə gecəni-gündüzə qatıb, ilan kimi yatağında qıvrılırdı. Bir sabah bazara çıxdı. Bir küpə girən qarıya rast gəldi. Qarı Şamili görüb dedi:

– Tacir başı, sən bu gün çox damaqsız görünürsən.

Şamil acıqlanıb dedi:

– Məndən əl çək!

Küpəgirən qarı Şamildən əl çəkməyib qır-saqqız olub yapışıb yaxasına dedi:

– Mənə bir tumanlıq al, sənin dərdinə əlac edim.

Şamil dedi:

– Ay küp dibində yatan. Sən nə bilirsən ki, mənim dərdim nədir?

Qarı dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Nə üçün bilmirəm! Səni bu kökə salan Xosrov tacirin qızı Pəri xanım deyilmi?

Şamil dedi:

– Qarı, mən necə edim Pəri xanımı alım?

Qarı dedi:

– Tumanlığımı al, sonra deyim.

Şamil qarının ovcuna qızıl basdı, qarı dedi:

– Gedərsən vilayətbəvilayət gəzərsən. Dünyada misli görünməmiş Yusif gözəlliyində bir oğlan tapıb gətirərsən. Elə ki, ikisinin də bir-birinə meyli oldu, sonra deyərsən ki, səni bu oğlan üçün alıram. Kəbin kəsiləndən sonra bu şəhərdən çıxıb oğlanın başın batırıb, qıza sahib olarsan.

Şamil qarıdan ayrılıb, şəhər-şəhər gəzə-gəzə gəlib çıxdı Təhmiraz olan məmləkətə. Bu qədər gəzdi ki, elə bir gözəl oğlan tapa bilmədi. Geri qayıdırdı ki, yolu halvaçı dükanının qabağından düşdü.

Gördü burada elə bir oğlan vardır ki, gözəllikdə "Yusifi-Kənan" kimidir. Şamil sevincək dükana girib halvaçıya yan alıb dedi:

– Bu oğlanı sat mənə.

Halvaçı dedi:

– Satmaram. O, mənim dükanıma gələni mən çörək tapmışam.

Şamil dedi:

– Ağırlığı barabarında qızıl versəm, verərsənmi?

Halvaçı qızıl adı eşidən kimi gözləri halqalandı, razılıq verdi. Şamil tez bir sandıq qayırtdırıb dükana gətirtdi, halvaçının haq-hesablarını kəsib, səhər gün çıxan kimi Təhmirazı sandığa qoyub, ağzını bağlayıb qatırlara çatıb, yol getməyin binasın qoydular.

Dilşad Təhmirazın verdiyi vədədə çıxıb yol ağzında onu gözləyirdi, gördü ki, karvan gəlir Təhmiraz da sandığın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

içindən nəfəs yerindən baxırdı, Dilşad xanımı görən kimi, alıb görək onu harayına necə çağırdı:

Aldı Təhmiraz:

Yolum düşdü qərib elə,
Halal elə nazlı yarım.
Düşmüşəm mən dildən-dilə,
Halal elə, nazlı yarım.

Təhmiraz belə oxuduqda Dilşad onu səsindən tanıyıb, bildi ki, sevgilisi sandığın içindədir. Özünü atıb, qatır karvanının qabağını saxlayıb, qulac saçın saz edib, görək nə dedi:

Aldı Dilşad:

Saxla karvan, qoyun düşsün,
Bu gələn yarın səsidir.
Qatırların mövlam qırsın,
Bu gələn yarın səsidir.

Aldı Təhmiraz:

Sandıqlara atılmışam,
Qatırlara çatılmışam,

Bir tacirə satılmışam.
Halal elə nazlı, yarım.

Aldı Dilşad:

Əynimə geyim darayı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən kimə edim harayı,
Yıxaram Küşkü sarayı,
Bu gələn yarın səsidir.

Söz tamama yetdi. Dilşad xanım ağlaya-ağlaya qalmaqda, karvan gözdən itdi, ta gəlib mənzilə çatdı. Şamil, sandığın ağzını açıb Təhmirazı bayıra buraxdı. Təhmiraz Şamildən soruşdu:

– Sən kimsən? - məni niyə buraya gətirmisən?

Bütün bunlar mənə tilsim kimi görünür.

– Oğul, niyə tilsim olur, mən səni oğulluğa götürmüşəm. Sənin ağlına, kamalına, əxlaq və əqidənə o qədər aşıq olmuşam ki, səni rəva bilmədim halva satasan. Sənə hind gözəli almışam və bütün var-dövlətimi də sənin adına keçirəcəyəm. Mənim ölüb gedən vaxtımda qoy bu var-dövlət sənin kimi bir oğlana qalsın.

Təhmiraz Şamilin hiyləsindən heç nə anlamadı. Çarəsiz qalıb ona razılıq elədi, minnətdarlığını bildirdi.

Şamil oradan çıxıb tacir Xosrovun evinə gəldi. Bir neçə gün qonaq qalandan sonra dostuna dedi:

– Əziz dost, qızın Pəri xanımı oğluma almaq istəyirəm, sözün nədir? O, Təhmirazı içəri çağırdı. Hamı oğlanın gözəlliyinə heyran qaldı.

Xosrov dedi:

– Şamil, iş sahibi özü bilər, qoy qız desin.

Səhəri gün anası qızına məsələni açdı.

Qız dedi:

– Oğlanı görməsəm, söz deyə bilmərəm.

Odur ki, axşam çağı Pəri xanım rəfiqələri ilə Təhmiraz olan bağa gəldilər. Qızlar Təhmirazı görən kimi onun gözəlliyinə heyran qaldılar.

Pəri isə Təhmirazı görən kimi bir könüldən min



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

könülə ona aşiq oldu. Pəri ona yaxınlaşıb onun kim, nəçi olduğunu, niyə belə dərdli olduğunu soruşdu.

Təhmiraz dedi:

– Xanım, izin ver dərdimi saznan deyim.

Pəri xanım izin verdi. Aldı Təhmiraz:

Qurban olum ala gözlü dilbərim,
Yolum düşüb, sizin yanə gəlmişəm.
Atam yox, anam yox, qərib ellərdə,
Yolum düşüb, sizin yanə gəlmişəm!

Açılıbdı gül üzünün laləsi,
Görüm ölsün seryaqıbın balası,
Çıxıb ərşə mən yetimin naləsi,
Yolum düşüb, sizin yanə gəlmişəm.

Təhmiraz deyir: işim ahu-zar olub,
Gül yanağım saralıban, həm solub,
Cavan canım əldən-ələ satılıb,
Yolum düşüb, sizin yanə gəlmişəm.

Söz tamama yetəndən sonra Təhmiraz başına gələni Pəri xanıma nağıl etdi. Hər ikisinin meyli bir-birinə düşüb, könüllərini bir-birinə açdıqdan sonra qol-boyun olub, çəkildilər bağın xəlvət bir guşəsinə. Sarmaşıq gülə sarılan kimi bir-birinə sarılıb, kefdə, damaqda olsunlar.

Şamil çox gözlədi, gördü ki, Təhmiraz gəlib çıxmadı, başladı axtarmağa. Bir qədər irəli gəlib, gördü ki, Təhmiraz Pəri xanımı qucaqlayıb, elə yatıblar ki, heç özlərindən xəbərləri yoxdur. Şamil başına döyə-döyə özünü yetirib qarıya dedi:

– Ay imansız, bu nə işidi sən gördün. Təhmiraz Pəri



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

xanımı alıb qucağına bağda yatıblar.

Qarı dedi:

– Qorxma, yarım saat çəkməz ki, Təhmirazı burada görərsən, - deyib, daban basma özünü yetirdi Pəri xanımın bağına. Bağın qapısında bir qazaqa rast gəlib ovcuna bir qızıl basıb dedi:

– Qardaş, mənim oğlum evdən neçə gündür acıq edib, Pəri xanımın bağından çıxmır. Aman günüdür onu mənə yetir.

Qazaq qızılı alıb, bağa daxil oldu. Gəlib gördü ki, bir qız bir oğlan burada ya, tıblar. Yapışıb oğlanın qolundan, qucağına yola düzəldi. Qarı Təhmirazı qazaqdan alıb, birbaşa özünü Şamilə yetirdi. Şamil Təhmirazı qarıdan alıb evdə saxlamaqda olsun.

Qazaq Təhmirazı aparanda Pəri xanımın xəbəri olmadı. Bir vədə Pəri xanımın bədənini üşütmə aldı, qız hövlank gözünü açıb, gördü ki, Təhmiraz yanında yoxdur, ağlaya-ağlaya özümü imarətə yetirib, yataq otağına keçib, üzü quylu yıxılıb, başladı ağlamağa. Günü-gündən gül üzü saralıb soldu. Tacir Xosrova xəbər çatdı ki, qızın bərk xəstədir. Xosrov tacir həkimi çağırıb qızını müalicə etdirdi. Yenə də qız özünə gəlmədi. Xosrova xəbər getdi ki, qızın lap əldən gedir. Tacir Xosrov elan etdi ki, hər kim mənim qızımı sağatsa qızımı ona verəcəm.

Şamil bu xəbəri eşidən kimi Təhmirazı çağırıb, ona bir dəst libası geyindirib dedi:

– Oğul, Xosrov tacirin qızı Pəri xanım bərk naxoşdur, gedərsən haman imarətin qabağında dayanarsan. Qapıçı səndən nəçi olduğunu xəbər alacaq, onda deyərsən ki, həkiməm. Səni aparacqlar tacir Xosrovun yanına, onunla şərt kəsərsən ki, qızı sağaltsan, gərək sənə versin. Elə ki, razılaşdı, girərsən Pəri xanımın otağına, sən qorxma, mən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

elə bir iş eləmişəm ki, Pəri xanım səni görən kimi ayılacaq.

Təhmiraz həkim libası geyib Pəri xanımın iqamətinin qabağına gedib, bir baş tacir Xosrovun yanına gəldi.

Xosrov oturmuşdu otağında, gördü ki, cavan bir həkim gəlir. Tez ona yer göstərib xəbər aldı:

– Oğul, həkimsən?

– Bəli, həkiməm!

– Oğul, mənim xəstə qızıma dərman edib, onu sağalda bilərsənmi?

– Sağaldaram, ancaq mənə bir həftə vaxt ver.

– Xub, indi ki, belə oldu qulaq as deyim: əgər mənim qızım Pəri xanımı sağalda bilsən, qızımı sənə verəcəyəm. Sağalda bilsən buradan sağ-salamat evinə qayıda bilməyəcəksən.

Təhmiraz razı oldu, şərt qoyub, kağız bağlaşmasından sonra Pəri xanımın otağına keçdi.

Pəri xanımın Təhmirazı görən kimi qulac qollarını açıb Təhmirazı qucaqladı. Hər iki aşiq-məşuq bir həftə burada qalıb, kef-damaqda oldular.

Bir həftə tamam olan kimi, Təhmiraz Pəri xanımın sağaldığını şadyanaçılıqla Xosrova söylədi.

Xosrov haman günü böyük şadlıq etdi: öz ilqarından dönməyib, Pəri xanımı Təhmiraza verdi. Şamil bu xəbəri eşidən kimi Təhmiraza yiyə çıxıb üç gün, üç gecə toy edəndən sonra, Təhmiraz istədi gəlin otağına keçsin - Şamil Təhmirazın qabağını kəsib dedi:

– Sən necə qardaşsan ki, qardaşın Tərlanı tapmamış toy edirsən! Gəl mən xərcini çəkim, gedək Tərlanı tapıb sənə yetirim, yenidən toy edək.

Təhmiraz razı oldu. Şamil tez bir gəmi tutub, bütün malını, pulunu, hər nə var idi, həmin gəmiyə yığıb, Pəri xanımı və Təhmirazı gəmiyə mindirib bir baş Yəmən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şəhərinə getdilər.

Gəmi dəryanın lap ortasından gedirdi. Şamil qalxıb gəmiçinin qulağına dedi:

– Al bu kisə qızılı. Təhmirazı dəryanın elə bir yerinə tullarsan ki, heç nişanəsi tapılmasın. Gəmiçi qızılları görən kimi gözləri kəlləsinə çıxıb, razılıq verib, gün batan kimi öz adamlarını hazırlatdırıb, Təhmiraz Pəri xanımnan gəzişən yerdə yapışıb qolundan dəryaya atmaq istəyəndə Pəri xanım başladı bunlara yalvarmağa. Təhmiraz işi belə görəndə göz yaşlarını bahar buludu kimi axıdıb görək gəmiçiyə necə yalvarmağa başladı:

Aldı Təhmiraz:

Sənə qurban olum ay gəmi sürən!
Tut qolumdan, qoyma, batım dəryaya!
Sənə kömək olsun, yaradan xuda,
Tut qolumdan qoyma, batım dəryaya!

Təhmiraz belə deyəndə, gəmiçinin ürəyinə rəhm düşüb, göz işarəsi verdi. Əlaltı adamları əl saxladılar.

Aldı Təhmiraz:

Saralıban heyva kimi soldum mən,
Axıb-axıb peyvanəyə doldum mən,

Gəmiçi qardaş, sənə qurban olum mən,
Tut qolumdan qoyma, batım dəryaya.

Təhmirazam, bu ellərdə bəykəstəm,
Dərilmişəm qızıl gül tək mən dəstəm,
Dərdi-qəm əlimdən mən çox şikəstəm,
Tut qolumdan qoyma batım, dəryaya!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Söz tamama yetdi, gəmiçi özünü itirib nə edəcəyini bilmirdi. Şamil işi belə görəndə özünü gəmiçiyə yetirib göz vurdu. Zalım gəmiçi puldan keçə bilməyib o, da, adamlarına işarə verdi. Həmən saat Təhmirazı atdılar dəryaya. Pəri xanım da özünü saxlaya bilməyib onun dalınca dəryaya atılmaq istəyəndə tutub, qoymadılar. Şamilin Təhmiraza etdiyi ziyan və sitəmi görən Pəri xanıma iş aşkar olundu. Dal gərdənindəki qulac saçın sinə-sinə saz edib görək nə dedi:

Aldı Pəri xanım:

Sənə qurban olum kərəmli xuda!
Xudam Təhmirazı sən özün saxla.
Səndən mədət istərsən qərib eldə,
Xudam Təhmirazı sən özün saxla.

Gizlin sirlərini demədi mənə,
Pünhan dərdlərini demədim ona,
Şamil atdı onu dərya, ümmana,
Xudam Təhmirazı sən özün saxla.

Ağı çıxarıbsan, qara bağlaram,
Şirin canı eşq oduna dağlaram,

Mən Pəriyəm məhsərə can saxlaram,
Xudam Təhmirazı sən özün saxla.

Söz tamam oldu. Pəri xanım olub yenə yıxıldı. Onu otağa apardılar, gəmiçi də xod verib gəmini sürdü.

Şamil Yəmən şəhərinə gəlib özünə mənzil tutdu, Pəri xanıma xüsusi bir gözəl imarət verdi. Darıxmamaqçun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

əlinin altına bir çox xidmətçi verdi. Bir gün özü durub Pəri xanımınyanına gəlib dedi:

– Ey nazənin sənəm, bil və agah ol! Səni mən özüm üçün gətirmişəm. Təhmiraz yurdsuz bir uşaq idi. Dəryada qərq olub getdi. Gəl kəbininizi kəsək, adəti üzrə toyumuza başlayaq.

Pəri xanım bu zalım tacirin əlindən yaxasını qurtarmaq üçün dedi:

– Mən razıyam, ancaq mən əhd eləmişəm ki, hər kim məni almaq istəsə, gərək bir il gözləsin. Sən də gözləməlisən.

Şamil razı oldu, həmin barmağına bir üzük taxıb getdi. Pəri xanım da çəkilib otağına Təhmiraz deyib, ağlıya-ağlıya onun yolunu gözləməkdə olsun.

Təhmiraz dəryaya düşən kimi qoluna qüvvət gəlib, üzməyə başladı, o qədər üzdü ki, ta qüvvədən düşdü, başladı ağlamağa. Birdən bir tufan qopdu. Dərya moça gəldi, Təhmirazı ağzına alıb, o yan-bu yana ata-ata  sahilə çıxartdı.

Nəfəsi kəsilmiş Təhmiraz sürünüb bir az bəridə qumun altında uzandı, ta bir neçə saat, özünə gəldikdən sonra, qalxıb başladı yol getməyə, ac-susuz çölləri gəzirdi ki, bəlkəm bir adama rast gəldi. Ağzını çevirib gün çıxan tərəfə neçə gün-neçə gecə yol getdikdən sonr bir çobana rast gəldi. Salam verdi. Çoban onun salamını aldıqdan sonra haradan gəlib haraya gedəcəyini soruşdu. Təhmiraz, çobanın çomağını götürüb saz edib aldı görək nə dedi:

Aldı Təhmiraz:

Canım çoban, gözüm çoban,
Bu şəhər, hansı, şəhərdir?
Sənə qurban özüm çoban,
Bu şəhər, hansı, şəhərdir?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Çoban:

Canım oğlan, gözüm oğlan,
Bu şəhər Yəmən şəhridir.
Sənə qurban özüm oğlan,
Bu şəhər, Yəmən şəhərdir?

Aldı Təhmiraz:

Hansıdır sizin obanız?
Hara çıxıb ah-nalınız?
Necədir bəy-bəyzadınız?
Bu şəhər, hansı şəhərdir?

Aldı Çoban:

Görünən bizim obamız,
Ərşə çıxıbdır nalamız,
Tamam bəydi-bəyzadımız,
Bu şəhər, Yəmən şəhridir.

Aldı Təhmiraz:

Təhmirazam, nədir adın?
Nədir sənin qibləgahın?
Kimdir sənin padışahın?
Bu şəhər, hansı şəhərdir?

Aldı Çoban:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əli çoban mənim adım,
Bil Kəbədir qibləgahım,
Tərlan şahdır padişahım,
Bu şəhər, Yəmən şəhridir?

Söz tamam olan kimi Təhmiraz başına gələn müsibəti ona nağıl elədi, ancaq Tərlan şahın onun öz qardaşı olduğunu bilmədi. Çoban Təhmiraz üçün süd sağıb, çörək doğradı, başladılar yeməyə. Yeyib doyandan sonra çoban Təhmirazı özünə sıgə qardaş qəbul edib, birbaş evlərinə gəldi, anasını çağırıb, Təhmirazı ona tapşırıb özü qoyuna getdi.

Şamil Yəmən şəhərində tanınan adam olmuşdu. Tərlan şahın da bu adam xoşuna gəlib, özünə vəzir eləmişdi. Bir gün Şamil bazarı gəzirdi. Təhmiraz da çobanın anasına yalvarıb ət almağa bazara çıxmışdı. Təhmiraz qəssab dükanına ət almaq üçün getdi. Şamil onu görüb tanıdı. Tez özünü yetirib qəssabın yanına, onun qulağına dedi:

– Xəbər al, bu oğlanın adı Təhmiraz olsa, dükanın dalına çəkib, başını kəs.

Şamil üstəlik bir ovuc qızıl dəxi qəssaba verib getdi. Qəssab başladı Təhmirazı yubandırmağa, başını kəsmək üçün qəssab Təhmirazı qəsdən yubatdı.

Təhmiraz qəssabın ona ət vermək istəmədiyini görüb dedi:

– Məni yola sal gedim.

Qəssab dedi:

– Oğul, səbr elə, sənə ətin yaxşı yerindən vermək istəyirəm.

Təhmiraz bir söz deməyib bir tərəfdə durdu, ət qurtaran kimi qəssab Təhmirazın qolundan tutub çıxdı dükanın dalına, istədi kəsə başını. Təhmiraz ağladı və görək qəssaba



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

necə yalvardı:
Aldı Təhmiraz:

Sənə qurban olum qəssablar başı,
Amandır qəssabım, kəsmə başımı,
Axıtma didəmdən qanlı yaşımı,
Amandır qəssabım kəsmə başımı.

Mən burada iki dolu bağlıyam,
Lalə kimi ciyər başı dağlıyam,
Qəssab başı bir tacirin oğluyam,
Amandır qəssabım kəsmə, başımı.

Təhmiraz belə oxuyanda qəssab xəbər aldı:
– Ədə, adın nədir?
– Qulaq as adımı da deyim:
Aldı Təhmiraz:

Qəssablar içində ucalsın başın,
Var oslun dünyada alverin, işin,
Mahmudun oğluyam, cavandır yaşım,
Amandır, qəssabım, kəsmə başımı.

Qəssab bir az fikrə getdi. Sonra bıçağını itiləməyə başladı. Təhmiraz da başladı, ağlamağa.

Əli Çoban çox gözlədi, gördü ki, daha Təhmiraz gəlib çıxmadı. Çomağını əlinə alıb bir baş qəssabın yanına gəldi, bir tərəfdən də qəssab bıçağın hazırlayıb, Təhmirazın başını kəsmək istəyirdi ki, bir də gördü ki, bir gurultu qopdu. Əli Çoban əlində çomaq içəri girib qəssabın başının üstünü aldı. Əli Çoban gördü ki, qəssab Təhmirazın başını kəsmək istəyir, dəyənəyi qaldırıb, qəsabın başına vurdu və onun başını qarpız kimi para-para etdi. Təhmirazı evlərinə gətirib,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sonra onu evdən bayıra buraxmadı.

Bir neçə ay Təhmiraz Çobanın yanında qalıb, əmlik quzunun ətindən yeyib, ətə-cana gəldi. Bir gün sevgilisi Pəri xanım yadına düşdü. O, Əli Çobana dedi:

– Qardaş, mənə bir dəst falçı paltarı tap. Əvvəl gedim öz sevgilimi tapım, sonra Şamildən öz qisasımı alım.

Əli Çoban dedi:

– Gəl, sən getmə, qal evdə. Mən gedim sənin qissını Şamildən alım, sonra soraqlaşıb sevgilini də tapıb sənə yetirim.

– Xeyr, mən özüm getməliyəm - dedi.

– İndi ki, getmək istəyirsən, mən də səni tək buraxmaram. Mən də gedirəm.

Hər ikisi libaslarını dəyişib çoban dəyənəyini əllərinə aldılar. Təhmiraz bir neçə kitab götürüb düşdülər şəhərin küçələrinə. Gəlib çatdılar bağlı-bağatlı bir imarətin qabağına. Təhmiraz gördü ki, eyvanda gözəl bir qız oturub. Onu görən kimi, bildi ki, bu Pəri xanımdır. Əli Çobanı işdən halı etdi və onu qoydu qapıda. Özü kitab əlində "fala baxıram" - deyə-deyə daxil oldu eyvana. Aynanın qabağında dayanıb durdu.

Pəri xanım Təhmirazı tanımadı, ancaq xəbər aldı:

– Kimsən?

– Falçıyam.

Belə deyəndə Pəri xanım hörüklərini sinəy saz edib, görək Təhmirazdan nə xahiş etdi:

Aldı Pəri xanım:

Sənə qurban olum a falçı qardaş,
Allahçın baxginən, kitablara sən.
Yanımdan gedibdir sən tək sirdaşım,
Allahçın baxginən, kitablara sən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Pəri xanım belə oxuyanda Təhmiraz kitabları qoyub qabağına bir neçəsini vərəqləyib, sonra Pəri xanıma görək nə cavab verdi:

Aldı Təhmiraz:

Sənə xəbər verim can, Pəri xanım,
Baxcağın bilmişəm kitablara, mən,
Sənə qurban olsun, bu şirin canım,
Baxcağın bilmişəm kitablara, mən,

Aldı Pəri xanım:

Uzaq ellərə mən salmışam  soraq,
Niyyətim yaxındır, yoxsamı uzaq,
Baxginən kitaba vərəqbəvərəq,
Allahçın baxginən, kitablara sən.

Aldı Təhmiraz:

Uca dağlar bürünübdür dumana,
Könlün gedib başqa-başqa gümana,
Sevdiyin atılıb,dərya, ümmana,
Baxcağın bilmişəm kitablara mən.

Aldı Pəri xanım:

Mən Pəriyəm budur sözün əzəli,
Payız olcaq bağlar tökər xəzəli,
Aldılar əlimdən Təhmiraz gözəli,
Onunçun baxginən kitablara sən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Təhmiraz:

Təhmirazam, hər qız qallam amanda,
Seryaqıblar görüm qalsın damanda,
Sevgilin qalmayıb dərya, ümmanda.
Baxcağın bilmişəm kitablara, mən.

Hər ikisi sözlərini bitirib, Təhmiraz falçı paltarını soyunub bir yana atdı. Pəri xanım Təhmirazı tanıdı, hər iki həsrətli yenidən görüşüb - öpüşdülər. Onlar burada qalmaqda olsunlar. Sizə deyim Şamildən.

Pəri xanım Şamilə verdiyi vədə tamam idi. Durub bir baş özünü Pəri xanımın imarətinə yetirdi. Əli Çoban da qapıda dayanıb Təhmirazı gözləyirdi. Əli Çoban gördü ki, Şamil gəlir. Şamil Əli çobanı görən kimi qorxusundan qayıdıb tez özünü padşahın imarətinə yetirib, qoşundan bir neçə nəfərini götürüb gəldi. Əli çoban gördü ki, Şamil bu dəfə qoşunun bir hissəsini gətirir, çuxasını çıxarıb qoluna doladı, dəyənəyini əlinə alıb, çıxdı qoşunun qabağına. Başladılar vuruşmağa. Bu qoşunun içində heç bir işdən xəbəri olmayan Həmid deyilən bir zırpı var idi. Həmid gördü ki, Çoban qoşunu qırıb tökəcək, əlini göyə qaldırıb onun çomağını əlindən aldı və ikiyə böldü. Əlinin tez əl-qolunu bağladılar. Şamil içəri girib gördü ki, Təhmiraz Pəri xanımla kefdədilər. Əmr verdi ki, Təhmirazın qollarını bağlasınlar. Pəri xanım buna dözməyib zülm-zülm ağladı. Buna dözməyən Təhmiraz aldı görək nə dedi:

Səhər-səhər mey içdiyin,
Əcəb gəzir sağı bülbül,
Mənim kimi məcnun olmaz.
İtirmisən yarı bülbül.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ayağının bax məsfinə,
Durub zalım can qəsdinə,
Uç qon piyalə üstünə,
Eylə cəh-cəh barı, bülbül.

Təhmirazam bu medarə,
Tapılmaz dərdimə çarə,
Qaşın qara, gözün qara,
Çöksün altı, sarı bülbül.

Söz tamama yetdi. Şamil Əli Çoban ilə Təhmirazı tutub padşahın hüzuruna apardı. Padşahdan xahiş etdi ki, onları assınlar.

Tərlan şah Şamilə dedi:

– Vəzir, mən and içmişdim ki, qardaşımdan sonra qan tökməyəcəyəm, amma sən məni vadar edirsən ki, bunlara ölüm fərmanı verim? Bu nə məsələdir?

Baş vəzir işə qarışdı:

– Şah sağ olsun, səbrdən salamat çıxar. Sən bu səfər başqa cür yol ilə onlara müraciət edin, görək nə olur. Şah əmr etdi. Tutulanları padşahın hüzuruna gətirdilər. Təhmiraz içəri daxil olanda, Tərlan şah baxdı ki, bu oğlanın gözləri qardaşının gözlərinə oxşayır. Bir az səbr etdi Tərlan şah onları dindirməyə başladı. Təhmiraz xahiş etdi ki, izin versinlər mən sözümü sazla deyim:

Aldı Təhmiraz:

İki qardaş idik padşahzadə,
Ədalətli şahım, eşit ərzimi.
Atımız yoruldu, qaldıq piyadə,
Ədalətli şahım, eşit ərzimi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gözlədim gəlmədi, gün batdı,
Tamam inni-cinni çəkildi, yatdı,
Halvaçı mənə atalıq etdi,
Ədalətli şahım, eşit ərzimi.

Təhmiraz gördü ki, şahın gözlərindən yaş gəlir. Tərlan dedi:

– Şah sağ olsun, siz niyə ağlayırsınız?

– Biz də iki qardaş idik.

Aldı Təhmiraz:

Bir halvaçı ilə halva satdım,
Bir qul olub bil Şəmiyə satıldım,
Sandıqlarda dəvələrə çatıldım,
Ədalətli şahım, eşit ərzimi.

Əli Çoban ilə qoyun otardım,
Gələndən, gedəndən xəbər tutardım,
Təhmirazam, qızıl verib qurtardım,
Ədalətli şahım, eşit ərzimi.

Söz tamama yetdi. Təhmiraz saz ilə dediyi kimi, başına gələnləri sözlə nağıl etdi. Tərlan şah baxdı ki, elə bu onun doğmaca qardaşı Təhmirazdı. Qucaqlayıb - öpüşdülər.

Tərlan şah əmr verdi cəlladlara, cəlladlar Şamil vəzirin boynunu vurdular. Çoban Əli ilə Təhmirazın qollarını açdırıb, dedi:

– Siz burada durun, mən bu dəqiqə gəlirəm. Tərlan oradan çıxıb paltarın dəyişib, gəldi Pəri xanımın yanına. Tərlan Pəri xanımın otağına gələn kimi elə bildi ki, gələn Təhmirazdır. Aldı görək nə dedi:

Aldı Pəri xanım:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çəmənlər laləzar olsun,
Budur gözəl yarım, gəldi.
Qəmgin könüllər sağ olsun,
Budur gözəl yarım gəldi.

Aldı Tərlan şah:

Çəmənlər laləzar olsa,
Sənin yarın mən deyiləm.
Qəmgin könüllər şad olsa,
Sənin yarın mən deyiləm.

Aldı Pəri xanım:

Cibiyə tökdün alçanı,
Gəzirsən bağı-bağçanı,
Sevmisən məndən yaxşını,
Budur gözəl yarım gəldi.

Aldı Tərlan şah:

Qoç igidlərin başıyam,
Həm ipəyi, həm aşıyam,
Təhmirazın qardaşıyam,
Sənin yarın mən deyiləm.

Aldı Pəri xanım:

Məni Pəriyəm, əldə sazım,
Dəhanda qalmasın sözüm,
Həm qaynım, həm iki gözüm,
Budur gözəl yarım gəldi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Tərlan şah:

Tərlan şaham sərdə tacım,
Misirdən gəlir xəracım,
Həm gəlinim, həm də bacım,
Sənin yarın mən deyiləm.

Söz tamama yetdi. Tərlan Pəri xanımı götürüb bir baş imarətinə gətirdi. Təhmiraz yenidən sevgilisiylə görüşdü.

– Qardaş, izin ver indi gedim.

Tərlan dedi:

– Hara gedirsən?

Təhmiraz dedi:

– Əli Çoban ilə şərtim var, gərək onun yanında qalam. Təhmiraz pəri xanımı götürüb Əli Çobana qoşulub, gəldilər Şamilin varından, pulundan özlərinə lazım olan qədər götürüb, qalanını fəqirlərə payladılar. Əli Çoban Təhmirazla Pəri xanıma toy edib, Pəri xanımın əlini Təhmirazın əlinə verdi.

## KÜÇƏ RZA

## USTADNAMƏ

Bir yaşından-beş yaşına gələndə,
Gözəlləşib bu qız, yaxşı qız olar.
Beş yaşından-on yaşına gələndə,
Açılar qönçə tək bir nərgiz olar.

On birində, vəsmə yaxar qaşına,
On ikidə kətan örtər başına,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Elə ki, yetişdi on üç yaşına,
Qoyma gedə qonşulara söz olar.

On dördündə gözəllərə qatılar,
On beşində elçilərə satılar,
On altıda şirin toyu tutular,
Elçilər qapıda pəyənduz olar.

On yeddidə al gərdəni qurular,
On səkkizdə şux məmələr qırılar,
On doqquzda sular kimi durular,
Ürəyi-ürəklə əcəb saz olar.

İyirmidə sanki bənzər gəlinə,
İyirmi birdə sığal verər telinə,
Elə ki, baş vurdu eşqin gölünə,
Silinər tazədən quba qaz olar.

-----------------

1. Şirvanda bu dastan - "Kiçik Rza" və "Küçə Rza" adıyla məlumdur.

Otuzunda, oğul-uşaq yetirər,
Qırx yaşında hər zülümü götürər,
Əlli yaşda ölüm köksdən ötürər,
Utanmaz heç kəsdən, üzbəüz olar.

Altmışında Mustafanın sözünə,
Yetmişində ağ tor gələr gözünə,
Səksəndən, doxsandan keçsə yüzünə,
Ocaqlar başında tək yalqız olar.

Ustadlar ustadnaməni bir deməyib, iki deyib, biz də deyək iki olsun: Dostların başı dik olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir xuyi mələkdi, xilqəti insan,
Yoxdu bərabəri söz arasında.
Məsəl ki, bir ovçu ahusun görsə,
Var qiya baxışı göz arasında.

Var qiya baxışı canlar dəlinə,
Canını qoyasan can bədəninə,
Düşməmisən tülək-tərlan əlinə,
Dağıda tükünü toz arasında.

Dağıda tükünü, tökə çöllərə,
Dibaça deyəllər hər misallara,
Laçın kimi süzdürəsən göllərə,
Öldürdü aşığı, naz arasında.

Öldürdü aşığı ötdükcə dil-dil,
Gözləri yasəmən, saçları sünbül,
Sənin təki bir gül, mən təki bülbül,
Olmaz zimistannan yaz arasında.
Olmaz zimistanda tayın, yoldaşın,
Xuraman yerişin, qəh-qəh gülüşün,
Tanıram yerişin, ceyran baxışın,
Əgər olsan yüz min qız arasında.

Əgər olsa bizim ilə dillərin,
Var olsun əllərin, aç düymələrin,
Miskin Baba deyər,-ağ məmələrin-
Öləndə qəbrimi qaz arasında.

Ustadlar ustadnaməni üç demiş, biz də deyək üç olsun, düşmən ömrü puç olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Könül, yaş ötüşür, ehtiyatlı ol,
Eyləmə başına güc, qocalanda.
Ağıl azalanda, tamah çoxalar,
Yaxşını, yamanı seç qocalanda.

Karvanın ötüşüb eyləmə soraq,
Tanımaz, gəzəsən əlində çıraq,
Doğru-yalan olar, yaxının-uzaq,
Dilin də dayanmaz dinc, qocalanda.

Gənclikdə nə oldu, almadın vecə,
Ömür gəldi-getdi bilmədin necə,
Qorx ki, oğul-uşaq, nəvə-nəticə,
Baxmaya üzünə, heç qocalanda.

Dediyim şerlər, yazdığım qəzəl,
Bir vaxt sənin idi, a nazlı gözəl,
İndi, heç olmasa, arada bir gəl,
Gözlərim önündən keç qocalanda.
Ağrılar tapılar canında tez-tez,
Başqa nə çarən var, dözməmisən, döz,
Nə çəkilən dərddir, nə deyilən söz,
Qızıldan da olsa tac qocalanda.

Toylu günlərini döndərər yasa,
Göz tovuşdan düşər, dil olar qısa,
Ömür də vec verməz, Aşıq Xanmusa,
Başlar yurddan yurda köç qocalanda.

Ustadlar belə buyururlar ki, Əcəm vilayətində bir aşıq var idi. Bu aşığın adına Dədə Yedgar deyərdilər. Dədə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yedgar öz dövrünün adlı-sanlı ustad aşıqlarından idi. Onun səsi, sədası eldən-elə, obadan-obaya, dildən-dilə gəzirdi.

Bir gün şah oğlu, Şah Abbas dərviş libasında vəziri ilə bir kəndin kənarından keçərkən, kənddə toy səsi eşidib, yanındakı vəzirə dedi:

– Vəzir, gəl bir bu kəndin toyuna tamaşa edək. Onsuz da burada bizi tanıyan olmaz.

Elə də etdilər. Toyda aşığın məharəti - gözəl danışığı, məlahətli səsi şahın xoşuna gəldi və toyda onu kənara çağırtdırıb dedi:

– Aşıq, adın nədir?

Aşıq dedi:

– Dədə Yedgar.

– Çox gözəl addır. Həm Dədə, həm də Yedgar, mən də Şah Abbasam, amma heç kəsə demə. Sən mənim xoşuma gəlmisən, amma de görüm, sənin də aşıq yadigarın var, ya yox? Yəni şəyird yetirmisənmi?

Dədə Yedgar dərviş libasında olan Şah Abbasa dedi:

– Yox, qurbanın olum, şah, yoxdu.

Şah Abbas dedi:

– Bəs, ay aşıq, səndən sonra, bu qədər ad-sanı, söz-sovu kimə tapşırıb gedəcəksən? Sənin yəqin ki, yaşın əllini keçib, amma hələ bir şəyirdən yoxdu. Şəyirdsiz aşıq sonsuz adam kimidir. Ondan sonra onun yolunu davam etdirən, çırağını yandıran olmur. Al, bu sənin xələtin, amma unutma ki, sən mütləq şəyird yetirməlisən. Sözünə əməl etməyi unutma. Özün də heç kimə bir söz demə.

Şah Abbas öz vəziri ilə yollarına davam etdilər, aşıq isə o gündən şagird axtarırdı ki, sonra şahın qəzəbinə gəlməsin. O gündən kəndlərdə, obalarda, toyda-şənliklərdə gözü kamil şagird axtarırdı.

Günlərin birində Dədə Yedgar yenə də böyük bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məclisdə idi. Orada arif adamlar, bəylər və xanlar da var idi. Aşıq gördü ki, məclisin lap ayaq tərəfində bir cavan uşaq əyləşib, ona çox fikir verir. Aşıq məclisi yola verib qurtarandan sonra gördü ki, həmin cavan uşaq hələ yerindən durmayıb. Elə mattım-mattım ona baxır. Aşığı maraq götürdü:

– Bala, nə qulluğun var?

Uşaq tez yerindən qalxıb aşığa yaxınlaşdı:

– Ustad, yanına gəlmişəm, əl mənim, ətək sənin. Ya əlimi kəs, ya da ətəyimi. Mənə bu sənəti öyrədərsənmi?

– Adın nədir?

Yetim olduğuma görə mənə Küçə Rza deyirlər. Nənəmlə yaşayıram. Deyirlər babamın da gözəl səsi olub.

Uşağın belə sərrast danışmağı aşığı tutdu. Odur ki, Dədə Yedgar uşağı xeyli sorğu-sual elədi, səsini dinlədi, və bəyəndi. Onun sənətə bağlılığını görüb, özünə şagird götürür. Bir neçə vaxt ustad-şagird toylarda, şənliklərdə saz çalıb, söz qoşub, məclis apardılar. Oğlan getdikcə püxtələşirdi və çalışırdı ki, çox şey öyrənib, bilsin. Amma Dədə Yedgar hiss edir ki, belə getsə, bu oğlan onun hörmətindən də artıq hörmət qazanacaq. Ona görə kim aşıqdan xəbər alırdısa ki:-Ay Dədə Yedgar, bu şagirdinin adı nədir? Deyərdi:

– Küçə Rza.

– Ay aşıq, Rzanı başa düşdük, bəs küçə nə deməkdir?

– Yetim idi, küçələrdə qalmışdı, mən gətirib adam eləmişəm.

Bu sözdən Rza çox pərişan olardı, amma etiraz etməzdi. Ona görə də çalışırdı ki, daxilən zənginləşsin və sənətə daha da möhkəm yiyələnsin.

Sizə haradan xəbər verək, Şah Abbasdan. Günlərin bir günü Şah Abbas vəzirə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Vəzir, sən bilirsən ki, Osmanlı Şah Xotkarın qızını almaq istəyirəm. Oraya kimi və nə göndərsək mərifətli olar?

Vəzir dedi:

– Şah sağ olsun, ora əvvəl adlı-sanlı adamlar,və hədiyyələrlə elçi getmək lazımdır.

Şah dedi:

– Ağıllı fikirdir. Elsilərlə bir aşıq da olsa pis olmaz. Deyirlər ki, Şah Xotkar çox aşıqbazdır. Bir aşıq da lazımdır. Həm bizim adamlar üçün, həm də oradakılar üçün çalsın-çağırsın, şadlıq eləsin. Aşıq həmişə xeyir-duaçıdı.

Vəzir razı oldu. Şah Abbas soruşdu:

– Bəs aşıq kimi göndərək?

– Dədə Yedgar kamil aşıqdır. Onu göndərsək pis olmaz, - deyə vəzir dilləndi.

Bəli, bir neçə gün sonra həm tədarük hazır oldu, həm də əyanlar, əşrəflər, aqillər, kamillər cəm oldular.

Vəzir ustad aşıq Dədə Yedgar üçün adam göndərdi ki, tez olsun, durmasın gəlsin Şahın hüzuruna. Qasid gəlib aşığı Şahın hüzuruna dəvət etdi. Dədə Yedgar “məmuniyyətlə”, - deyib, sevincək yola hazırlaşdı.

Küçə Rza ustadın yenə də hansısa bir məclisə hazırlaşdığını görüb istədi ki, o da ustadıyla getsin. Amma aşıq Küçə Rzanı aparmaq istəməyib dedi:

– Sən gəlmə, ora uşaq-muşaq məclisi deyil. Küçə Rza dedi:

– Ustad, heç bir ağırlığım olmaz. Xahiş eləyirəm ki, qoy mən də gedim. Sazımı götürürəm, qulluğunda duraram.

Birdən Dədə Yedigarın yadına vaxtilə Şahın ona verdiyi söz düşdü. Küçə Rzaya hiss etdirmədən dedi:

– Yaxşı, amma saraya girmərsən. Oturarsan qapının ağzında.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğlan çox dedi, çox yalvardı, axırda Dədə Yedgar razı oldu, bu şərtlə ki, şahın otağına girməsin və qapının ağzında oturसun. Küçə Rza razı oldu. Amma ürəyində min bir xəyal və arzuları var idi.

Bir azdan onlar şahın qulluğuna yetişdilər. Saraya girəndə Dədə Yedgar Küçə Rzaya dedi:

– Bax burada otur.

Küçə Rza qapının ağzında oturmaqda olsun, Dədə Yedgar içəri daxil olub, Şah Abbasa ədəb-ərkanla salam verib, əmrini gözlədi. Şah onunla görüşəndən sonra dedi:

– De görüm, sənin indi şagirdin var, ya yox?

Dədə Yedgar dedi:

– Var, şah, qurbanın olum.

– Bəs hanı?

– Qapıda gözləyir.

Şahın göstərişi ilə Rzanı içəri gətirdilər. Küçə Rza içəri girib şaha təzim etdi.

Küçə Rza ilə görüşəndən sonra şah üzünü Dədə Yedigara tutub dedi:

– Səni Osmanlı vilayətinə göndərirəm. Mənim əyyan-əşrəflərimlə orada çalıb-oxuyub, mən istəyən qızı saz ilə, söz ilə alıb, gətirə bilərsənmi?

Dədə Yedgar qeyri-iradi olaraq dedi:

– Qoç oğlu, qoç kimi, şahım, onda nə var ki, o mənim əlimdə.

Bu sözləri eşidən Küçə Rza narazı halda başını yelləyir. Şah dedi:

– Bala, biz söhbət edəndə sən başını niyə tərpədirdin?

Dədə Yedgar oğlandan qabaq tez dedi:

– Şah, qurbanın olum, onun başı elə anadan gəlmə belədir.

Küçə Rza ustadını pərt eləməyib dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Şah sağ olsun, ustadım düz deyir, başım anadangəlmə yellələnir, amma bu, o yellənməkdən deyil. Bunun başqa  məqsədi var.

Şah oğlana dedi:

– Bala, nə məqsəddi?

Küçə Rza dedi:

– Şah sağ olsun, mən sizin söhbətinizə qulaq asıram. Hər şey yaxşıdır: amma bu uzun səfərə getməkdə və bu xeyir işdə, ustadının dilindən bir dəfə də "Allah qoysa" eşidilmədi. Qoysun mən də gedim.  Allah qoysa qızı tezliklə şad-xürrəm gətirərik, inşallah.

Şah Abbas gördü ki, Küçə Rza çox ağıllı danışır, əmr elədi, Küçə Rza üçün də bir dəst aşıq paltarı və bir sədəfli saz gətirsinlər. Sonra Dədə Yedgara dedi:

– Şagirdini də aparарsan, ustad.

Dədə Yedgar üzdə razı oldu, ürəkdə isə yox. Bu zalım oğlu haradan mənə rast oldu? Bu mənim deyəsən, zavalım olacaq. Mağıl bir təhər başımı saxlayırdım.

Söz tamama yetdi. Səhəri gün qoşun-kəcavə Osmanlı vilayətinə yola düşdü. Günə bir mənzil gəlib, yetişdilər Osmanlı vilayətinə. O yerə gəldilər ki, artıq şəhərin kənarı idi. Vəzir gəcavəni saxlatdırıb, dedi:

– Biz  bu şəhərin kənarında çadırları qurub, həm dincimizi alaq, həm də gözləyək aşıqlar getsin şəhərə, şahdan icazə istəsinlər və sonra da  biz gedək.

Elə də oldu. Aşıqlar sazlarını çiyinlərinə salıb, şəhərə daxil oldular və gəlib şahın sarayına çıxdılar. Əvvəlcə elçi gəlib şahı soruşdu. Şah sarayda olmadı. Şahın qızı aşıqları özü qəbul etdi. Aşıqlar şah otağına qədəm qoyanda, qız min bir ziynətlə bəzədilmiş otaqda əyləşmişdi. Aşıqlar otağa daxil olanda Küçə Rza dedi:

– Ustad, ayaq saxla, bu otağa, bu təntənəyə və bu qıza



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bax, bunlara söz deməmək, lap qəbahətdi.

Dədə Yedgar dedi:

– Ay bala, başına dönüm, bizi bəlaya salma.

Ağzımızdan bir başqa söz çıxar, hər iki şahın yanında biabır olarıq.

Küçə Rza dedi:

– Ustad, heç elə şey ola bilməz, onda mənə icazə ver mən deyim. Dədə Yedgar  naəlac icazə verdi.

Küçə Rza sazı köynəkdən çıxarıb dedi:

– Xanım, ustadım bir az kefsizdir, mənə icazə ver sizin görüşünüzə bir xanə oxuyum.

Şah qızı dedi:

– Buyur, aşıq.

Aldı görək Küçə Rza nə dedi:

Qədəm qoyub gəldik şah otağına,
Şahın otağında bir qız durubdu.
Düzülmüş aynalar sağı-soluna,
Elə bildim ayla, ulduz durubdu.

Qız dedi:

- Ustadına bərəkallah. Əyər mümkünsə, bir bənd də qoy ustadın oxusun.

Küçə Rza dedi:

- Xanım, ustadım yorğundu, izin verin, ikinci bəndi də özüm deyim.

Qız dedi:

- Buyur.

Aldı Küçə Rza görək nə dedi:

Piyalələr irəfdədir birbəbir,
Xalı, gəbə döşənibdi yerbəyer,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hər tərəf gül-çiçək, iy verir ətir,
Ürəyim qəşş edib tabsız durubdu.

İstədi desin ki, - ay ustad, üçüncü bəndi buyur, Gördü Dədə Yedgar ona göz ağardır. Aldı Küçə Rza:

Rza deyir, bir də çəkmərəm ahı,
Dadıma yetişsin şahların şahı,
Ərşdə məlakələr, qadir, ilahı,
Görəm bu qız, necə mənsiz durubdu?

Söz tamama yetdi. Şah qızı axırıncı sözdən bərk qəzəbləndi və Küçə Rzaya acığı tutdu.

- Aşıq, o nə sözdü mənə oxudun? "Görən bu qız, necə mənsiz durubdu?"

Küçə Rza dedi:

- Xanım, qafiyə xatirinə dedim. Məni bağışla.

Xanım dedi:

– Yox, mən bu sözün üstündə səni zindana saldıracam. Şah qızı Küçə Rzanı həmin anda zindana saldırdı. Dədə Yedgarı isə buraxıb dedi:

– Aşıq, sən get, sənə dəymirəm.

Dədə Yedgar sarısını udmuşdu. Bu sözü eşidəndə bir az özünə gəldi. Ürəyində toy-büsat idi və deyinə-deyinə şəhrin kənarındakı adamlarının yanına gəlib çıxdı. Gördülər Dədə Yedgar tək gəlir, Ondan soruşdular:

– Ay aşıq, bəs Küçə Rza hanı?

Dədə Yedgar dedi:

– Ağzı pədər havayı danışdığına görə, şahın qızı onu damladı.

Camaat əhli çox peşman oldular. Vəzir irəli gəlib dedi:

– Qəm eləmiyin, Şah Abbasın məktubu var, aparıb Şah



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xotkara yetirərəm. Küçə Rzanı da xilas edərəm.

Sonra vəzir üz qoydu şəhərə. Gəlib Şah Xotkarın sarayına daxil oldu. Bu zaman şah haradansa səfərdən təzəcə qayıtmışdı. Vəzir şahın yanına gəlmək üçün icazə istədi. Şahın adamları şaha bildirdilər:

– Şah sağ olsun Şah Abbasın bir elçisi sənin hüzuruna gəlib.

Şah buyurdu:

– Deyin gəlsin.

Şah Abbasın vəziri içəri girib ədəb-ərkanla məktubu ona verdi. Şah Xotkar məktubu oxuyub məzmunundan hali oldu.

Vəzir dedi:

– Şah sağ olsun, biz sənin qızını, Şah Abbasa almaq üçün elçiliyə gəlmişik və bütün şaha layiq qızıl-gümüş, xonça-xələt bir sözlə nə lazımdı öz qaydasında. Biz hər cür hazır gəlmişik. Sizin aşıqsevər olduğunuzu yaxşı bildiyimiz üçün qulluğunuza aşıq da gətirmişik.

Şah Xotkar sözlərdən razı qalır və deyir:

– Mənim Şah Abbasa böyük hörmətim var. Mən razı, sabah gəlin, şənliyimizi eləyək. Əvvəlcə həm sizin, həm də bizim aşıqlarımız çalıb-çağırsınlar, cavanlarımız oynayıb şənlənsinlər və toy şənliyindən sonra sizinlə toy barədə danışaram.

Vəzir bu təklifə çox şad oldu və dedi:

– Şah sağ olsun, bir də bizim aşığı sizin qızınız zindana saldırıb.

Şah əmr verdi, aşığı zindandan azad edib, gətirdilər. Şah maraqlanıb qızına dedi:

– Ay qızım, bu aşığı niyə zindana saldırıbsan? Bu nə əhvalatdır?

Qız olduğu kimi əhvalatı atasına danışdı. Şah Xotkar



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gülüb qızına dedi:

– Ay qızım, nə olsun, aşıq elə qaşdan, gözdən, gözəllikdən danışar, oxuyar. Bir qəbahət deyil ki, ondan ötrü yazığı bir zindana da saldırmısan. Aşıq səni təriflədiyinə görə hələ aşığa bir xələt də verməlisən.

Qız gülümsəyərək otaqdan çıxdı.

Şah dedi:

– Vəzir, sabah mən də bir aşıq gətirirəm sizin aşıqlarla deyişərlər. De görüm, sizin bu aşıq, bizim aşıqlarla bacararmı?

Küçə Rza vəzirdən qabaq əlini gözünün üstə qoyub, razılığını bildirdi.

Səhəri şah Xotkar əmr verdi ki, gedin bir aşıq gətirin! Meydanda aşıqlar oxusun, çalsın, deyişsin, amma Ərəb Eyvazı gətirməyin.

ƏrəbEyvaz məmləkətdə adlı-sanlı aşıq idi. Özü də meydangir. Amma ağzından çox pədravayi və sözün bilməz idi.

Cavanlar aşıq dalınca getdilər, ancaq Ərəb Eyvazdan başqa bir aşıq tapa bilmədilər. Əlacları kəsilib, Ərəb Eyvazı gətirdilər. Şah dedi:

– Neynək, gətirmisiz, qoy çalıb-oxusun amma, cızığdan çıxmasın.

Sabahı meydan qızışdı, çalan, çağıran, deyən-gülən, bir sözlə, şənlik başladı! Ərəb Eyvazın adını eşidən Dədə Yedgar məclisə gəlmədi. Özünü xəstəliyə vurdu. Dedilər, aşıqlar gəlsin!

Ta bayaq Ərəb Eyvaz sazı köyəkdən çıxarıb, meydana girdi, meydan sulamağa başladı. Bu tərəfdən də çarəsiz qalan Küçə Rza sazını sinəsinə basıb, meydanda var-gəl etdi. Ərəb Eyvaz belə baxdı ki, gördü bir cavan oğlan onun önündə dayanıb, sinəsində də sazı var. Ərəb Eyvaz cavana



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dedi:

– Bala, sən kimsən? Mənim meydanıma gəlmisən. Bu uşaq, muşaq meydanı deyil. Get, ustadın varsa, qoy o gəlsin!

Küçə Rza  dedi:

– Aşıq, mənim ustadım burdadı, ancaq mən onu rəva bilmədim səninlə döş-döşə gəlsin. Buyur bu meydan, bu da biz.

Ərəb Eyvaz özünü şahın yanında yaxşı olsun deyə, birinci şahı tərifləməyə başladı. Aldı görək Eyvaz nə dedi:

Sənə salam olsun, ay Əcəmzadə,
Bu dövran, Osmanlı şah Xötkarındı.

Hər kəsənin məzhəbi var, dini var,
Bu dövran, Osmanlı şah Xötkarındı.

Küçə Rza aldı onun cavabında görək nə dedi:

Al, cavabını deyim, ay Osmanzadə,
Bu dövran, şah oğlu Şah Abbasındı.
Biz tutmuşuq Məhəmmədin dinini,
Bu dövran şah oğlu Şah Abbasındı.

Ərəb Eyvaz:

Bizim şahın mayası var, nəri var,
Tükənməyən dövləti var, varı var,
Şah Abbas tək onun çox nökəri var.
Bu dövran, Osmanlı şah Xötkarındı.

Küçə Rza:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bizim şahın gövhəri var, xanı var,
Hər dərdə yüz min-yüz min malı var,
Şah Xötkartək çoxlu hərzəkarı var,
Bu dövran şah oğlu Şah Abbasındı.

Ərəb Eyvaz:

Bizim şahın qalası var, bürcü var,
Yüzmin-yüzmin gəliri var, xərci var,
Çox şahların  hələ ona borcu var,
Bu dövran, Osmanlı, şah Xötkarındı.

Küçə Rza:

Küçə deyir, könül qalıb təlaşda,
Uzaqdı, vətən də, qohum-qardaş, da,
İnsaf da, mürvət də, ağıl da, baş da,
Bu dövran şah oğlu, Şah Abbasındı.

Söz tamam oldu. Əmr olundu ki, aşıqlar oxumasın. Hər iki aşığın sazını aldılar və Şah Xotkar əmr verdi ki, onların boynu vurulsun! Bir qədər fikirə gedən Şah aramla dilləndi:

– Ay camaat, biz dedik ki, aşıqlar ürək açan sözlər oxusunlar, bu şənlikdə hamının üzü gülsün, qəlbi açılsın. Onlar isə hər ikisi əksinə, hələ oxumaqları bir yana. biz şahları təhqir etdilər. Biri məni hərzəkar, o biri isə Şah Abbası nökər elədi. Mən sizə dedim axı, Ərəb Eyvazı məclisə gətirməyin. Mənim Şah Abbasla hələ əvvəldən dostluğum var. Bu sözü eşidib o mənə nə deməz.

El-camaat hamı şaha minnət etdilər, yalvardılar ki, aşıqları əhv etsin. Şah onlara qulaq asıb dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qoy, Ərəb Eyvaz onda bir şey oxusun, görək öz günahını bilirmi?

Aldı Ərəb Eyvaz görək nə dedi:

Ay ağalar, bir tərlanım uçubdur,
Sağ əlimdən, sol əlimə alıncan.
Onu tutan heç xeyrini görməsin,
Mən yazığın naləsi var dalıycan.

– Şah, məni bağışla, bir qəfil sözdü özümdən asılı olmayaraq çıxdı ağzımdan.

Aldı ikinci bəndi görək nə dedi:

Meyxanələr qurulubdu mey üçün,
Molla olan əlif yazar bey üçün,
Dəli könlüm, qəm çəkirsən, nə üçün?
Hər əməlin sədası var dalıycan.

Şah Xotkar aşığın nəyə işarə vurduğunu başa düşdü, yəni aşığı öldürmək günahdı. Bu əməlin səndən sonra, sənin dalınca deyiləcək. Şah dedi:

– Deyin, üçüncü bəndini də oxusun.

Aldı Ərəb Eyvaz:

Budur gəldi gözəllərin gallahı,
Sinəm üstə eşqin kəlamullahı,
Ərəb Eyvaz deyir:-qədir ilahı,
Min bir dərdin dəvası var dalınca.

Söz tamama yetdi. El-oba Ərəb Eyvazı xilas etdilər. Küçə Rza isə qolları bağlı dar meydanına aparıldı. Arxadan bir səs eşitdi.

– Necəsən, axır ki, sənə mənə qalib gəldim. Bir də ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mən sənə dedim axı, bura uşaq-muşaq meydanı deyil. İndi səni dara çəkərlər, onda bilərsən.

Küçə Rza belə baxdı ki, görsün bu kimdi, gördü ki, Ərəb Eyvazdı. Özünü o yerə qoymayıb dedi:

– Mənim də sənin kimi havadarlarım olsaydı, mən də xilas olardım.

Şah dedi ki, çağırın bunun havadarını. Küçə Rza bir məktub yazdı havadarına:

– Dədə Yedgar, işimin bitən yeridi, tez özünü mənə yetir!

Dədə Yedgar öz adamlarının əlində bir məktub gəldiyini görüb, tez başını bürüdü və özünü möhkəm xəstəliyə vurdu. Qasid ona yaxınlaşıb dedi:

– Ay Dədə Yedgar, yaman yerdə oxşamladıq. Küçə Rzanı dara çəkirlər, dedi-ustadım gəlsin bir halal-hümmət eyləyək.

Dədə Yedgar güclə başını qaldırıb dedi:

– Bala, mən də ölüm yatağındayam. Yaman haldayam. Mənim ora gedən halım hanı? Mən də ölürəm, məndən ona çarə yoxdu.

Qasid kor-peşman qayıtdı. Qasidin getdiyini görən Dədə Yedgar öz-özüylə deyinərək deyirdi:

– Hə, ustadına kəm baxanın gözlərinə qan damar. Çox mənəm-mənəm deyirdin, indi çək cəzanı. “Dərin suda nə işim var ki, Xıdıo İlyası da çağırım”. Aşıq babasan, get “gəraylını, “gözəlləmə”ni oxu, beş-on şahını al. Allah min bərəkət versin. Yoxsa indi, özü yıxılan, ağlamaz. Yaxşı ki, mən getməmişəm.

Qasid şəhərin  qırağındakı bərxanadan çox çəkmədi ki, qayıtdı gəldi dar meydanına və Küçə Rzaya, nə cür olmuşdu, o cür də dedi. Küçə Rza bilirdi ki, belə də olacaq, aldı görək nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bizimlə yar-yoldaş olan,
Yorlub  yolda qalan oldu.
İki dostun söhbətisə,
Bir-birinə yalan oldu.

Yalanın heç olmaz adı,
Şeytandı onun ustadı,
Bir kəsənin çıxsa adı,
Deyirlər, bu filan oldu.

Küçə Rza arar, arar,
Can cəsəddə tutmaz qərar,
Daha demək niyə yarar,
Keçən keçdi, olan oldu.

Ustadından gileylənən Küçə Rza ətrafa göz gəzdirib, öz adamlarını gözü yaşlı gördü və onlara təsəlli verərək, hamının eşidəcəyi səsə dedi:

İgid ölər, adı qalar,
Müxənnətin nəyi qalar?!

Bu atalar sözünü eşidən Xötkar şah dilləndi:

– Deyin, bu cavan aşıq daha bir bənd oxusun! Sözləri xoşuma gəlsə, imdad edərəm.

Küçə Rza dedi:

– Şah sağ olsun, aşıq qolu bağlı və sazsız nə oxuyar?

Şah onun qolunu açdırdı və sazını da özünə qaytardı. Aldı görək Küçə Rza "Qoçaman şikəstə" üstündə nə dedi:

Duman gəl, get bu dağlardan,
Bahar olcaq, qar əylənməz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedim, sevmə dəli könül,
Bivəfadı yar, əylənməz.

Şah dedi:

– Oğlan, bizdən diləyin nədir? Sənin boynunu vurdururam. Bir sözün varsa, de, bəlkə xilas oldun.

Küçə Rzanın gözünə yenə də Ərəb Eyvaz göründü, özünü itirmədən aldı görək nə dedi:

Tərlanın boynu aladı,
Bayqunun bağrı yaradı,
Dünya boş karvansaradı,
Hər gələn gedər, əylənməz.

Şah gördü ki, Küçə Rza da nə yalvarmaq, nə yaxarmaq, nə də ayağa düşmək yoxdur. Bir tərəfdən acığı tutmuşdu, bir tərəfdən isə oğlanın belə mərdanə olmağı xoşuna gəlirdi, dedi:

– Aşıq, sənin vaxtın qurtarır və sənin ölüm dəqiqələrin yaxınlaşmaqdadır. De görək axrıncı sözün nədir?

Aldı Küçə Rza:

Şamama bəslənər tağda,
Piltələr qovrular yağda,
Küçə Rza yaman çağda,
Əcəl gəlsə can, əylənməz.

Sözünü tamam eləyən Küçə Rza dedi:

– Şah sağ olsun, mən hazır, əmrini ver!

Şah Xotkar gördü ki, bu oğlan çox mərd və qorxmaz oğuldu. Əmr etdi ki, onun ölüm hökmü geri oxunsun və mənim yanıma gətirilsin! Ölüm hökmü geri oxundu və



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Küçə Rzanı şahın hüzuruna gətirdilər. Şah Xötkar Küçə Rzaya dedi:

–Bala, sən canından qorxmadın?

Küçə Rza dedi:

– Bir canımız var. Allah əmanətidir, haçan aparar-aparar. Ancaq kişi gərək yaltaq və xain olmasın.

Şah dedi:

– Sənə bir təklifim var, əgər onu yerinə yetirə bilsən, qızı da sizə verəcəyəm, üstəlik çoxu qızıl-gümüş də.

Küçə Rza dedi:

– Buyurun, bəqədir qüvvə.

– Bizim bu ətrafda bir gözəl var, adına Xalıqoşa deyirlər, hələ onun xallarını tərif eləyən bir bənzərsiz, qənirə aşıq olmayıb. Onun da şərti belədir ki, kim onun xallarımı düzgün, taraz, yerbəyer tərif eləsə, ona gedəcəm. Ancaq neçə aşıq gedibsə, tərif yox təhrif edib, o, da onların sazın əlindən alıb özlərinin də aşıqlıq adını üstündən götürüb. İndi de görüm, sən bu işin öhdəsindən gələ bilərsən, ya yox?

Küçə Rza dedi:

– Orada nə böyük iş var. Allahı çağırıb düşərəm yola. Xuda yar olsa, onun xallarını tərif edib, sizin saraya gətirərəm.

Küçə Rzanı burxdılar ki, get adamlarınla görüş, səhər tezdən burada ol!

Küçə Rza şəhərin kənarındakı öz bərxanələrinə gəlib, adamlarıyla görüşüb, əhvalatı onlara söylədi və sonra Dədə Yedgara dedi:

– Ustad, yaman günün ömrü az olar. Şah Abbasın yanında basıb bağlamaq şərt deyil ey... Adam gedib, o dünyanı görüb gəlir. Neynək, hər cəfayə dözərəm, təki sən sağaldur ayağa... öz işində ol.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səhəri Küçə Rza şahın adamları ilə getməkdə olsunlar Xalıqoşagilin elinə. Onlar gəlib Xalıqoşagilin evinə yetişəndə şahın adamları Küçə Rzaya dedilər:

– Ev budur, indi biz səni kənarda dayanıb gözləyirik, görək Xalıqoşa səni nə günə qoyacaq.

Küçə Rza şahın adamlarına dedi:

– Siz oturun məni gözləyin, mən də görüm sizin bu Xalıqoşa doğrudanmı siz  deyənnəndi.

Tək-tənha sazını götürüb, düz Xalıqoşagilin qapısının ağzında əyləşdi. Xalıqoşanın anası qapıdan çıxanda, qapının ağzında cavan bir aşıq görüb ah çəkdi.

– Sən kimsən, ay, bala? Yazıq deyilsən? Özünü tələyə salma, cavansan nə qədər ki, qızım səni görməyib, çıx get! Olmaya sən də sövdaya düşmüsən?

Küçə Rza dedi:

– Hə xala, bu sövdadan əl çəkən deyiləm.

Xalıqoşanın anası yenidən ona dedi:

– Ay bala, şahzadələr, xanzadələr onun eşqinə düşüb. Arzularına çata bilməyiblər. Sənin ağzından süd iyi gəlir, yazığsan, get çörəyini qazan. Bundan sənə kar aşmaz.

Bu söz-söhbətə, səsə Xalıqoşa evdən çıxdı, nə çıxdı!

Küçə Rza Xalıqoşanı görəndə, onun gözəlliyinə heyran oldu. sanki o aya deyir sən çıxma, mən çıxım. İki göz gərəkdi ki, qızın xətti-xalına, gül camalına tamaşa edə. Küçə Rza yapışıb yerində qalmışdı. Gözünü qıza o qədər zilləmişdi ki, heç kiprik  qırpmırdı da, ağzından da dabaq dəymiş mal kimi su axırdı. Xalıqoşa cavan aşığa baxıb dedi:

– Ay aşıq, xeyir olsun? Sən hara, bura hara?

Küçə Rza bu səsdən  eləsən, qəflət yuxusundan  ayıldı. Tez özünü birtəhər ələ alıb ağzının suyunu silib dedi:

– Xanım, eşitmişəm, kim sənin xallarına tərif desə, şərtinə əməl edəcəksiniz. Mən də bu sorağa gəlmişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xalıqoşa baxdı ki, bu oğlan lap cavandı, ona görə heyfislənib dedi:

– Bala, sən uşaqsan. Mənim xallarımı hələ düzgün vəsf eyləyən aşıq olmayıb. Sonra bir evin qapısını açıb, bir neçə saz göstərdi.

– Gör neçə aşıqların sazını alıb, onların aşıqlıq adını da üstündən götürmüşəm. Amma sənə heyfim gəlir. Çıx get!

Küçə Rza bir az irəli yeriyib dedi:

– Xanım, nə danışırsız, ölüb-qalan yerimdi.

Xalıqoşa naəlac qalıb, hirslə dedi:

– Neynək, bax on, üç iki xalımın hansını biri-birindən əskik vəsf etsən, vay halına!

Səs-küyə camaat yığıldı. Məclis quruldu.

Küçə Rzaya da elə bu gərək idi. Sazı köynəklən çıxarıb sinəsinə basdı və ərz etdi. Xanım, bir şərtim var. Gərək axıra kimi gözümün qabağında əyləşəsən. Xalıqoşa da maraqla onun qarşısında əyləşdi. Görək Küçə Rza Xalıqoşanın xallarını "Şirvan şikəstəsi" üstündə necə tərif edir:

Bir xalın yaxşıdı, bir xalın yaman,
Bir xalın könlümə salıbdır güman.
Bir xalın buluddur, dağlarda duman,
Bir xalın baharnan, yazınan gəlir.

Bir xalın qaradı, gedir qeysəri,
Bir xalın sarvandı, çəkər övsarı,
Bir xalın da gəzir abi-kövsəri,
Bir xalın ördəynən, qazınan gəlir.

Xalıqoşa lap mat qalmışdı. Gördü ki, yox bu aşıq o, aşıqlardan deyil. Bir də ki, özü dediyindən də, xallarına bir az da artıq tərif deyir. Bu yerdə Xalıqoşa cavan aşığa dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Aşıq çox sağ ol! Yaxşı tərif dedin. Gəl xələtini verim, çıx get. Qorxuram axırda işləri korlayasan. Sənə yazığım gəlir. Küçə Rza dedi:

– Keçəl suya getməz. Xanım, ölüb-qalan yerim buradır, qovsan da gedən deyiləm.

Xalıqoşa yenə naəlac qalıb dedi:

– Görürəm, yaman üzlü yetimsən, de gəlsin!

Aldı Küçə Rza axırıncı bəndi, görək nə dedi:

Bir xalın sarıdı, bənzər irəngə,
Bir xalın heyvatək, gələmməz rəngə,
Bir xalın Küçəni salıbdı ləngə,
Bir xalın söhbətnən, saznan gəlir.

Xalıqoşa dedi:

– Aşıq, çox sağ ol! Sən mənim xallarımı mən deyəndən artıq vəsf elədin, indi mən öz şərtimə əməl etməyə hazıram.

Sonra anasını yanına çağırıb dedi:

– Anacan, mənim baş paltarımı, toy libasımı, hazır elə, mən bu cavan aşıqla gedirəm.

Anası Xalıqoşanın pal-patarını hazır edəndən sonra Küçə Rzaya dedi:

– Ay kürəkən, mənim qızımı hansı vilayətə aparırsan? Harada olmağınızı bilim, hərdənbir qızıma baş çəkim?

Küçə Rza dedi:

– Ay ana, mən sənin kürəkənin deyiləm. yetimə qoğal hardadı, sən qızını Şah Xötkarın sarayında tapa bilərsən.

– Ay bala, bəs sənin zəhmətin?

– Ana, mənimki də qalıb Allaha.

Xalıqoşa da işin nə yerdə olduğunu bilib, heç bir söz demədi. Şah Xötkarın adamları gəlib təntənə ilə Xalıqoşanı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şahın sarayına  apardılar. Bir neçə gün toy-şənlik başladı.

Sizə xəbər verək Dədə Yedgardan. Dədə Yedgar gördü ki, Küçə Rza buradan da alnıaçıq, üzü ağ qayıtdı. Ürəyində fikirləşdi ki, bu məni çörəkdən qoyacaq. Bu bilik ki, bu istedad ki, onda var, bunun döşündə fil də dayanmaz. Mənim bazarım bağlandı-Allaha təvəkkül-deyib, fikirə getdi.

Bir neçə gün keçdi. Xötkar şah qızı üçün  də böyük təmtəraqla toy çaldırıb, Küçə Rzaya və Dədə Yedgara bəsdi deyincən qızıl, pul və xələt verdi. Kəcavə bəzənib, Əcəm vilayətinə yola düşdü. Vətənə daxil olanda Küçə Rza, Dədə Yedgara dedi:

– Ustad, gəl bu qızıldan, puldan mənim payıma nə düşür onu ver, burdan bizim kəndə yaxındı. Mən çıxım gedim, nənəmin yanına, ad da olsun sənin ki, qızı sən aldın gətirdin.

Dədə Yedgar üzünü turşudub dedi:

– O nə qızıl, nə pul, nə xələtdi, sən mənə hələ çox borclusan. Mənim haqqımdan çıxmamısan.

Küçə Rza dedi:

– Ustad, heç olmasa, beşdən bir, ondan bir də versən razıyam.

Dədə Yedgar bir az da acıqlı:

– Sənə, heç bir manatın özü də düşmür.

İşi belə görən Küçə Rza ustadının lap ağ elədiyini görüb, sazı köynəkdən çıxarıb, “Sallama gəraylı”yla aldı görək nə dedi:

Gədədən bəyliyə çatan,
Elin qədrini, nə bilər?
Danışıb sözün bilməyən,
Dilin qədrini, nə bilər?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bağ becərib, gül əkməyən,
Barı çəkib, ev tikməyən,
Zəhmət çəkib, tər tökmiyən,
Pulun qədrini, nə bilər.

Küçə Rza düşüb bəndə,
Can qurbandı  dərdi məndə,
Haqqa qul olmayan bəndə,
Qulun qədrini, nə bilər.

Gəcavədə olanlar hamısı-əyan və əşrəflər Küçə Rzaya afərin dedilər. Amma iki aşıq sirlərini özlərindən başqa heç kəsə bildirmirdilər.

Bu dəfə Dədə Yedgar sazı köynəkdən çıxarıb, aldı görək Küçə Rza neçə imtahana çəkdi:

Səndən xəbər alım, ay Küçə Rza,
Ərşin xoruzunun nə irəngi var?
Ağzını açanda nə deyib, açır?
Niyə  oxşar, niyə bənzər həngi var?

Aldı Küçə Rza:

Al cavabın deyim, ay Dədə Yedgar,
Ərşin xoruzunun, ağ irəngi var.
Ağzını açanda bismillah deyir,
Lailhadan, illəlaha həki var.

Dədə Yedgar:

Nə günü mehraca gedib peyğəmbər?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Neçə yerdən ona qurulub minbər?
Neçə burcu var, göylərdə ləngər?
Neçə yerdən hasasının bəndi var?

Küçə Rza:

Cümə günü mehraca getdi peyğəmbər,
Səkkiz yerdən ona quruldu minbər,
On iki bürcü var, göylərdə ləngər,
Doqquz yerdən hasasının bəndi var.

Dədə Yedgar dedi:

– Küçə Rza, başın salamat ikən çıx burdan get!

İndi nənən kənddə çoxdandı gözləyir, bir qıfılbənd də desəm boğazın quruyacaq, sonra səni yaman günə salaram.

Küçə Rza isə üçüncü bəndi gözləyirdi.

– Ustad, əl çəkən deyiləm. Sözünün üçüncü bəndini de.

Dədə Yedgar belə baxdı ki, xeyr, bu xına, o, xınadan deyil, daş qayaya rast gəlib. Ona görə aldı axırıncı bəndi görək nə dedi:

Dədə Yedgar:

Nə günündə yaranıbdı bu dünya?
Nə günündə hasil oldu mühəyya?
Nə çəkildi xəcil oldu Sürəyya?
Nə günündə məlamətin cəngi var?

Küçə Rza:

Cümə günü yaranıbdı bu dünya,
Gələn şənb hasil oldu mühəyya,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nur çəkildi, xəcil oldu Sürəyya,
Məşhər günü məlamətin cəngi var.

Söz tamam oldu, amma Dədə Yedgar Küçə Rzaya bir arşın bez də vermədi. Küçə Rza da ondan ayrılıb, düz öz evlərinə gəldi. Nənəsi onu sağ-salamat görüb, çox sevindi. Allaha dua etdi.

– Ay bala, səfəriniz necə keçdi?

– Ay nənə, lap uğurlu, çox yaxşı keçdi.

– Allaha şükür, olsun ay bala. Ay oğul, bəs xələtdən, zaddan heç bir şeyin olmadı?

Küçə Rza başını aşağı salıb bikef-bikef dedi:

– Bağışladım ustadıma.

Küçə Rzanın nənəsi dedi:

– Çox yaxşı, bala, qazancın daha da halal olar. Nə qədər ustadı uca tutsan, bir o qədər də ucalarsan, qəm eləmə, bala.

Küçə Rza bir neçə gün evdən bayıra da çıxmadı. Al xəbəri Şah oğlu Şah Abbasdan. Muştuluqçular gəldi ki, bəs gedənlərimiz sağ-salamat, uğurla qayıdıblar. Şah hamını qəbul etdi. Böyük qonağlığ verdi, şadyanalıq etdi. Üç gün-üç gecə məclis qurdurdu. Dədə Yedgara xələt verib evinə yola saldı.

Dədə Yedgar evinə çatanda arvadı onu qarşıladı. Gördü ki, kişi o qədər xələt, pul gətirib ki, gəl görəsən. Hələ ömründə bu qədər qızıl, pul, ipək, şal görməmişdi. Arvad dedi:

– A kişi, gətir xələti tök ortalığa.

Dədə Yedgar arvadına dedi:

– Arvad, gətirdiklərim xələtdən, puldan, bir arşın çit, bir manat pul götürsən, mənəm-sənsən!

Arvad dedi:

– Ay kişi, belə niyə? Bunlar hamısı bizim deyil?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kişi dedi:

– Arvad, malımız ortaqdı. Ona görə də əmanətə xəyanət olmaz. İşin axırını gözlə.

Aradan on-on beş gün keçmişdi. Günlərin birində Dədə Yedgar bir qıfılbənd yazıb, Küçə Rzaya göndərdi və altından da yazdı ki, Küçə Rza, bu qıfılbəndin cavabını açа bilməsən, nəinki kənddən, hətta bu məmləkətdən çıxmalısan! Səni gözüm görməsin!

Aldı görək, o, qıfılbəndi necə yazdı:

Əzəl-əldən bəlli bəşər yox ikən,
Əzəl başdan hansı şəhər salındı?
De, kimə can gəldi, də iləm çalındı?
Neçə il cəsədi yerdə, kim qıldı?

Nədən yaranıbdı, İsrafil suri?
Kim qıya baxçağnan yandırdı Turu?
O, kim idi, onun alnında nuru?
Onu kim tanıdı, müsəlman oldu?

O nədir ki, durub canı üstündə?
O kimdir ki, gəzər diri qəstində?
O kim olub inayəti üstündə?
Mayallaq daşını səhraya saldı.

Sonra isə kağızı qatlayıb, verdi bacısı oğluna.

– Apar, bu kağızı Küçə Rzanı harada olsa, tap, ver ona və gör sənə də deyəcək. Nə desə, onu tez mənə yetir.

Oğlan gecəni yatıb, xoruzun ilk banı ayılıb yola düşdü. Ta gün bir selbə boyu qalxmış, o Küçə Rzagilin kəndinə yetişdi. Yolda ona bir qarı rast gəldi. Oğlan qarıya dedi:

– Ay nənə, Küçə Rzanın evi hansıdı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarı çoxbilmiş və zarafatcıl idi. Gördü ki, oğlan qərib adamdı, ona görə ona dedi:

– Ay bala hansı Küçə Rzanı deyirsən? O, mənim ərimin arvadının, bacısı oğlunu?

Oğlan çaş-baş olub qarıya dedi:

– Xeyir, nənə. Mən Küçə Rzanı deyirəm.

Qarı bir az gülümsəyib dedi:

– Bala, o görünən dəyə onunkudu, get! Ömrün uzun olsun, sözün gödək!

Oğlan gəlib Küçə Rzagilin evini tapıb, onunla görüşüb üç bənd bağlama şeri ona təqdim etdi. Küçə Rza məktubu oxuyub, məzmunundan halı oldu və düşüb cürə sazını sinəsinə alıb, bir var-gəl etdi. Nənəsi onu belə görüb dedi:

– Ay oğul, yenə yadına nə düşdü? Bir çay-çörəyini ye, yanına adam gəlib, bəlkə qonağın acdı, çörək yeyin, sonra toyu danışarsız.

Küçə Rza nənəsinə dedi:

– Nənəcan, bu adam toyçu deyil. Sən işində ol, mən də öz işimdə.

Sonra Küçə Rza aldı görək "Aşuran" havası ilə qıfılbəndlərin cavabını necə dedi:

Əzəl əldən bəlli-bəşər yox ikən,
Əzəl başdan Yəmən şəhri salındı.
Adəmə can gəldi, qələm çalındı,
Yetmiş il cəsədi yerdə o, qaldı.

Nurdan yaranıbdı İsrafil suru,
Haqq qiya baxcağın yandırdı Turu,
Həzrət Rasulun alnında nuru,
Xədicə tanıdı, müsəlman oldu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O torpaqdı durub diri qəsdində,
O, Küçədi gəzər canı üstündə,
Həzrət Əli inayəti üstündə,
Mayallaq daşını səhrayə saldı.

Söz tamama yetdi. Küçə Rza qıfılbəndlərin cavabını yazıb oğlana verdi və dedi:

– Ustadıma məndən salam de. Bir də de ki, uzağı bir həftəyə mən bu kənddən çıxıb gedəcəyəm, ondan narahat olmasın. Amma üç bənd bağlama da mən yazıram, onu da ustadıma ver! Və ona de ki, sağlıq olsa görüşərik.

Aldı görək Küçə Rza ustadına yazdığı üçbənd bağlamanı necə dedi:

Sənə salam olsun, ay Dədə Yedgar!
Alnımızda yazı, nə irəng idi?
Yazıçı kim idi, yazan kim idi ?
Əlində qələmi, nə irəng idi?

Nədən qara idi, zülmətin daşı?
Neçə min illikdir dünyanın başı?
Yerin altındakı gov mahu, yaşı?
Arxasının tükü nə irəng idi?

Küçə deyir: nədir dərdin çarası?
Nə qədərdir yernən-göyün arası?
O kim idi peyğəmbərin lələsi?
Çiynində əbası, nə irəng idi?

Söz tamama yetdi. Birlikdə yedilər, içdilər. Küçə Rza oğlanı yola salanda oğlan dedi:

– Ay aşıq, mən sizin kəndə girəndə bir qarı belə bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

söz dedi: “o, oğlan mənim ərimin, arvadının bacısı oğludur”. Və mən də çaş-baş qaldım, onun kim olduğunu da bilmədim.

Küçə Rza gülərək dedi:

– O, qarı mənim xalamdı.

Oğlan dedi:

– Axı belə də bir söz dedi: - ömrün uzun olsun, sözün gödək!”

– Hə, ona görə deyib ki, yəni onunla gödək danış. Ondan narahat olma, hələ az bilənimiz odur.

Odur ki, əl-ələ verib, xudahafizləşdilər. Dədə Yedgarın gözü yolda qalmışdı. O, bacısı oğlunu səbrsizliklə gözləyirdi. Nəhayət, oğlan özünü Dədə Yedgara yetirib onun intizarına son qoydu. Dədə Yedgar ondan soruşdu:

– Hə, de görək, hərif neylədi?! Bacıoğlu, indi bildin mənim kim olduğumu?

Bacıoğlu heç bir söz də demədən məktubu çıxarıb, Dədə Yedgara verdi və dedi:

– Ustad, Küçə Rza dediyin qıfılbəndləri açdı, sonra da o bir bağlama göndərib sənə, açmağa, gör nə yazıb.

Dədə Yedgar Küçə Rzanın yazdığı qıfılbəndi oxudu, gördü ki, xeyr, bu açılan qıfılbənd deyil.

– Oğul, bəs axırıncı sözü nə oldu?

– Ustad, o dedi ki, uzağı bir həftəyə mən bu kənddən çıxıb, başqa vilayətə gedəcəyəm, təki ustadım məndən narazı qalmasın.

Dədə Yedgar hər şeyi yaxşı ölçüb-biçirdi. Səhər tezdən bir ata süvar olub, özünü yetirdi Küçə Rzanın yanına. Gəlib onların evinə çatdı. Küçə Rza gördü ki, ustadı gəlib. Tez əl-ayağa düşdü, görüşüb-öpüşdükdən sonra yeməkiçmək üçün əyləşəndə Dədə Yedgar dedi:

– Küçə Rza, yemək vaxtı deyil, gedirik bizə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ustad, xeyir olsun?

Gedərik, görərsən.

Ustadlı-şagirdli gəldilər Dədə Yedgargilə. Sonra Ustad Dədə Yedgar böyük məclis düzəldib, xalqın içində Küçə Rzaya "Ustad Aşıq" adı verdi. O, Küçə Rzaya yaxınlaşıb dedi:

– Küçə Rza, sən mənim sınaqlarımdan çox məharətlə çıxmısan. İndi mən ölsəm də qəm etmərəm. Çünki sənin kimi bir şagird qoyub gedirəm. Bunu da səbəbi Şah oğlu Şah Abbas oldu, rəhmət düzənə. Onun sözü olmasaydı, mən şagird barədə sonsuz qalardım.

Məclisin sonu yaxınlaşanda Dədə Yedgar Küçə Rzaya dedi:

– İndi gedək xələtini verim. Allah əmanəti kimi saxlamışam. Gəl əmanətə yiyə dur, mənimki buracan idi.

Küçə Rza da xələtin çox hissəsini ustadına verib dedi:

– Ustad, mənə halal elə bunlar hamısı sənin sayəndədir.

Ustadla-şagird görüşüb-öpüşüb yenidən məclisə başladılar. Bir neçə gün yemək-içməkdən sonra Toyda Şah Abbasda iştirak edirdi. ustadı Küçə Rzanı evləndirib, ona elə bir toy şənliyi elədi ki, gəl görəsən.

Onlar mətləblərinə yetişib, ömürlərini axırınadək yenə də bir oldular.

Allah sizi də xoş muradınıza yetirsin.

## TUFARQANLI ABBAS*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Fars əyaləti[1] Azərbaycanda Saleh adında varlı bir tacir yaşayırdı. Onun var-dövləti başından aşırdı və bu da tacirə şan-şöhrət gətirmişdi. Odur ki, ona tacirbaşı, tacirlərin «xası» deyirdilər. Saleh gözəllər gözəli Səlbinaz xanımla evlənmişdi. Neçə il keçirdi, ancaq onların övladı olmurdu.

Bir dəfə Saleh başını qırxdırmaq üçün bərbəri evinə çağırmışdı. Bərbər tacirin başını qırxıb, saqqalını səliqəyə saldı. Sonra büllur güzgünü ona verdi ki, kərə başına və daranmış saqqalına baxsın. Saleh güzgünü alıb baxdı. Bərbərin işindən çox razı qaldı. O, əlini bir neçə kərə başına çəkdi. Saqqalını tumarladı. Elə ki, saqqalına gözü sataşdı, bir anın içində özündən çıxdı; saqqalında üç-dörd ağ tük görmüşdü. Bərk qorxuya düşdü. Demək, artıq qocalır, vərəsəsi də yoxdu. Ona görə də güzgünü hirslə yerə çırpıb, çilik-çilik elədi.

Salehin bu hərəkəti bərbəri heyrətə saldı və ondan dönə-dönə üzr istədi. Tacir bir neçə pənahavat[2] sayıb bərbərin qarşısına atdı. Hətta onu borclu da çıxartdı.

Bu əhvalatdan sonra, Saleh öz otağına çəkilib, bütün günü yalnız ibadətlə məşğul olmağa başladı. Axırda, Tanrı onun yalvarışını eşitdi və Salehə bir oğul əta etdi. Təzə doğulan körpənin adını Abbas qoydular.

----------------------

* "Abbas və Gülgəz" dastanının variantıdır.

1. "Fars əyaləti Azərbaycan" – dedikdə burada Güney Azərbaycan başa nəzərdə tutulmuşdur.

2.Pənahavat–pul vahidi. «Pənahabad» dedikdə Pənah xanın tikdirdiyi Şuşa qalası nəzərdə tutulur. Bir müddət onun şərəfinə Pənahabad adlanırdı. Xan həmin adda sikkələr buraxdırmışdı.

Abbas tez böyüdü və səkkiz yaşında molla mək-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

təbinə getdi. O, çox hafizəli uşaq idi, molla və yoldaşları onun bacarığına mat qalmışdılar.

Tacir oğlu olduğu üçün molla da ona ayrıca qayğı göstərirdi. Yoldaşları paxıllıqdan buna dözə bilmirdilər və nə yolla olur-olsun, mollanı Abbasa qarşı acıqlandırmağa çalışır-dılar. Onlar o qədər yalanlar uydurdular ki, axırda, molla öz sevimli şagirdini ciddi cəzalandırmalı oldu. Abbas atasının yanına qaçıb, mollanın ona haqqsız cəza verdiyini söylədi. Tacir onun dediklərinə fikir vermədi və mollanın yanına qayıtmağı tələb etdi. Həm də tapşırdı ki, mollanın tələblərini yerinə yetirsin.

Atasının bu cavabından sonra, Abbas mollanın yanına qayıtmadı, evdən çıxıb bağa getdi və uca ağacın dibində oturub, fikir dəryasına qərq oldu. Bir azdan yuxu onu tutdu və qəribə bir yuxu gördü. Başı yaşıl çalmalı, üzü niqabla[3] örtülü bir ərəb ona yaxınlaşdı. Bu ulu imam Əli idi. O, əlini Abbasın çiyninə qoyub dedi:

– Sən Təbrizə getməlisən, orada Gülgəz Pəri yaşayır, onu sənə buta[4] veriblər.

Abbas yuxudan oyandı və qərara aldı ki, aşıq[5] kimi öz butasının ardınca getsin. O, sazbəndin yanına yollandı və bildirdi ki, mənə buta verilib, ona bir saz bağışlasın.

Sazbənd Abbasa baxıb başını aşağı saldı. Ona inanmadı. Odur ki, küncdə köhnə bir saz vardı, onu göstərib dedi:

----------------------------

3. Niqab–ərəb sözüdür, müqəddəs adamların üz örtüyü deməkdir.

4.Buta–«büt» fars sözündədir, gözəl, sənəm deməkdir.

5.Aşiq–«eşq» ərəb sözündədir, aşiq olan, vurulan deməkdir.

– Bu, bir aşığın sazıdır, neçə ildi çalınmayıb, al bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yoxla...

Abbas sazı aldı və ona toxunan kimi, tellər öz-özünə səsləndi, şirin bir hava çalmağa başladı.

Sazbənd əlacsız qalıb, sazı Abbasa verdi. Abbas sazı çiyninə salıb bazara yollandı və anası Səlbinaz xanımı gördü.

Səlbinaz xanım oğlunu qucaqladı, üzündən-gözündən öpdü və xəbər aldı:

– Ay oğul, bu nə sazdı belə?

Abbas dedi:

– Ana, mənə xeyir-dua ver, mən Təbrizə butamın ardınca gedirəm...

Səlbinaz xanım gözlərinin yaşını sel kimi axıtdı. Oğluna yalvarmağa başladı.

– Ay oğul, gözümün işığı, gəl daşı ətəyindən tök, getmə, yollarda itib-batarsan, buta verilib nədi, dəli olmusan?!

Abbas gördü ki, anasına anlada bilməyəcək, sazı köksünə basıb, oxumağa başladı:

Yatmışdım, üstümə gəldi ərənlər,
Ağam mövlam mana buta veribdir.
Ərşi, kürsi, yeri-göyü görənlər
Ana, mövlam mənə buta veribdir.

Xorasanda qızıl günbəz ağası,
Silindi, könlümün getmədi pası.
Düldülün sahibi, Qənbər ağası
Ana mövlam mənə buta veribdir.

Mənim ağam Şahi-Mərdan Əlidi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hayxıranda düşmən bağrın əridi.
Adım Abbas, butam Gülgəz Pəridi,
Ana, mövlam mənə buta veribdir.

Səlbinaz xanım gördü, oğlunu yolundan döndərə bilməyəcək. Sözlə sınağa çəkdi. İstədi, öyrənsin ki, doğrudanmı, ona haqdan vergi verilib, ya bu buta söhbətidi?

– Ananı salırsan zarə,
Mətləbini Allah verə,
Dörd kitabı göydən yerə
De, görüm, kim yendiribdi?

Abbas haqdan vergi almışdı, odu ki, sorğusunu cavabsız qoymadı:

Nazlı anam, batma zarə,
Mətləbimi Allah verə.
Dörd kitabı göydən yerə
Cəbrayıl yendirmədimi?

Səlbinaz xanım söz tapa bilmədi. Əlacsız qalıb, bir daha, oğluna yalvardı ki, ata-anasını burda qoyub, heç yana getməsin:

Oğul, qoy ağ olsun uzun,
Başına dolanım özüm.
Gəl, eşit ananın sözün,
Gəl, getmə, aman günüdü!..

Abbas anasının ayaqlarına düşdü ki, onu yolundan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

saxlamasın, xeyir-dua verib, yola salsın:

Unutma Abbası, salginən yada,
Dua eylə, mən də çatım murada.
Yarsız günüm keçməz fani dünyada,
Ana, hümmət eylə, hümmət günüdü.

Çox yalvarıb-yaxarandan sonra, Abbas anasından xeyir-dua aldı və o biri gün səhər evdən yola düşdü. Yolu-irizi tanımırdı, bir səmt tutub gedirdi...

Yolda tacir karvanına rast gəldi. Tacirbaşı onu sorğu-suala tutdu, haradan gəlib, hara getdiyini soruşdu. Abbas dedi:

– Mənə Təbrizin yolunu göstərin, Azərbaycan əyalətinin hakimi Məhəmməd bəyin bacısı Gülgəz Pəri mənə buta verilib, butamın ardınca gedirəm...

Tacirləri heyrət götürdü, onu dəli hesab etdilər. Heç elə bir şahzadə də deyil, buna buta verilərdimi? Abbası lağa qoyub, gülməyə başladılar...

Abbas sazı çiynindən aşırıb, köksünün üstünə aldı və görək tacirlərə nə cavab verdi:

Xəbər aldın təbrizlidən,
Məni – hərcayi çağladı.
Yıxdı könlümün evini,
Didələrim qan ağladı.

Bülbüləm, dala qonaram,
Zərgərəm, gümüş yonaram.
Öylə bir dərdə yanaram;
Çirkin söz məni dağladı.
Mən Abbasam, çoxdu ahım,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir yerdən yoxdu pənahım.
Şəhrinizdə Gülgəz xanım
Sidqimi Mövlam bağladı.

Abbasın bu sözlərindən sonra, tacirlərin ona rəğbəti artdı. Buta verildiyinə inandılar. Onu şahzadə xanımın yaşadığı Təbriz şəhərinə aparacaqlarına söz verdilər. Abbas onların köməyi ilə Təbriz şəhərinə yetişdi. O burada qalsın, sizə kimdən xəbər verim, Gülgəz Pərinin qardaşı Məhəmməd bəydən.

Məhəmməd bəy saray baxçasında aşıq məclisləri təşkil edir, aşıqların yarışmasından xoşlanardı. Abbasın Təbrizə çatdığı gün də belə bir yığnaq vardı. Təbrizin sakinləri tanınmış Aşıq Qaranı dinləməyə toplaşmışdılar. O, qırx şagirdi ilə yarışacaqdı. Qərib bir gənc aşığın məclisə girməsi hamının diqqətini çəkdi. Məhəmməd bəy özü də ona ayrıca maraq göstərdi və Aşıq Qaraya tapşırdı ki, axırda təzə gələn aşığı da yarışa dəvət etsin. Ancaq bu, Aşıq Qaranın acığına gəldi, bunu özünə alçaqlıq sandı. Odur ki, dedi:

– Ağam mənim, burda qoç qoçla toqquşur, quzu ilə qoç döyüşə girə bilməz!

Bu sözü eşidən Abbas özünü saxlaya bilmədi:

– Elə bilmə, bütün yırtıcıların hamısı tülküdür, içində pələng də ola bilər.

Məsəldən, Aşıq Qara alındı və onu yarışa buraxmağa razı oldu, bir şərtlə ki, birinci, Abbas başlasın. Abbas buna ürəkdən şad oldu. Sazını köksünə basıb üzünü Aşıq Qaraya tutdu:

Səndən xəbər alım, ay Aşıq Qara,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Rəsul nə gündə tacisər oldu?
Kim sual eylədi ondan(bu sözü),
Bəs onun cavabı nə təhər oldu?

Nədən hasil oldu İsrafil Suru,
Kim qıya baxınca yandırdı Turu?
Hansı peyğəmbərdi alnında nuru,
Kimdi, onu görcək (peyğəmbər) oldu?

Abbas deyər, dünya günü neçədür
Neçə ləldi, neçə gövhər, neçə dürr?
Peyğəmbər sərində muyu neçədür?
De görüm, söz harda müxtəsər oldu?

Aşıq Qara diqqətlə Abbasa qulaq asdı, ancaq suallarının heç birinə cavab vermədi. İşi belə görüb, sazı qoltuğunda camaatın içindən çıxdı. Abbas isə təzə-təzə sözlər oxuyub, özünə qənim axtarırdı. Aşıq Qaranın kütbeyin qırx şagirdi də ona cavab verməkdə aciz qaldı. Abbas yarışdan qalib çıxdı. Onun söyləmələri Məhəmməd bəyin də xoşuna gəlmişdi.

Odur ki, yığışanlara üz tutdu:

– Məni istəyən aşığa xələt versin!

Məhəmməd bəy bunu deyib, özü də yığışanlardan pul toplamağa başladı. Onun bu səxavətini görən Abbas sazını köksünə basıb dedi, görək nə dedi:

Yanında əgləşib vəkilü vəzir,
Gülgəz qəmzələri bağrımı əzir.
Gör nə nizam ilə məclisi gəzir?
Dövlətin artırsın Allah bu bəyin!

Məhəmməd bəyin Abbasın iki sözünü o saat qulağı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çaldı:

– Aşıq, əgər mənim bacım Gülgəz barədə deyirsənsə, söz verirəm ki, onu sənə ərə getməyə razı salaram. Yox, əgər sən özgə gözəldən danışırsansa, and içirəm ki, bu işin düzəlməsinə əlimdən gələni əsirgəmərəm. Qaldı pul məsələsi, əgər yığılan azlıq edirsə, göstəriş verim, yenidən toplasınlar?!

Bu sözləri deyəndən sonra, parçı götürdü ki, təzədən pul toplasın. Bunu duyan Abbas sözünün ardını başladı:

Budu, gəldi hacıların hacısı,
Ürəyimdən getməz yarın acısı.
Abbas yarı Məhəmməd bəy bacısı,
Dövlətin artırsın Allah bu bəyin!

Abbası heyrət götürdü: bu sözlər Məhəmməd bəyi qəzəbləndirmək əvəzinə, daha da ona xoş gəldi. O, Abbası özünün saray aşığı elan etdi və sarayda yaşamaq təklifini ona bildirdi.

Azərbaycan hakiminin gəlmə bir aşığa belə qəyyumluq etməsi çoxlarının xoşuna getmədi. Xüsusən alçaqlıq edənlər və xəsislər bu işdən çox narazı qaldılar. Bunu hiss edən Abbas onlara üzünü tutub, öz sözünü dedi:

Bidövlət oğulu başdan tanıram,
Çör-çöp yığar, özgə ocaq yandırar.
Ayağa duranda qeyrəti olmaz,
Suyu tökər, öz ocağın söndürər.

Dağ qoysan dağ üstə, dağdan dağ olmaz,
Söyüd bar gətirsə, ondan bağ olmaz!
Zibildən təpə qur, küldən dağ olmaz,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yel əsəndə çuxurları doldurar.

Abbas deyər: – kamal gərək dərindən,
Əqlimi oynatdım, çıxdı sərimdən.
El bir olsa, dağ oynadar yerindən,
Söz bir olsa, zirpi-kiram sındırar.

Bununla da, Abbas Məhəmməd bəyin sarayına düşdü və ürəkdən ona bağlanıb, orada yaşamağa başladı. Günlərini çox şən keçirərdilər; gündüzlər şəhərin kənarında bağlara gəzməyə çıxar, yaxud meşələrdə ov edərdilər. Axşamlar isə həyətdə əyləncələr təşkil olunar, Abbasın yanıqlı nəğmələrinə qulaq asardılar. Bir müddət beləcə yaşadılar. Məhəmməd bəy Azərbaycan əyalətinin vəziyyəti barədə şaha məlumat vermək üçün getməli oldu. Abbas sarayda tək qaldı. Məhəmməd bəy gedəndən sonra, onun otağında yalqız qalmağa səbri çatmırdı. Tez-tez həyət bağına çıxar, yolunu şahzadə Gülgəzin yaşadığı otağın yanından salardı ki, bəlkə, onu görə bilsin. Axırda, o, istəyinə çatdı; bir kərə bağın içində gəzirdi, birdən iki gözəlin ona sarı gəldiyini gördü. Bunlardan biri Gülgəz xanım, o biri isə onun rəfiqəsi Nazlı xanım idi. İkisi də bir boyda, bir biçimdə, bir geyimdə. İlk baxışda onları bir-birindən seçmək o qədər də asan deyildi. Gözəllər Abbasa lap yavıq gəldilər. O, yuxuda gördüyü qızı o saat tanıdı. Ürəyi yerindən oynadı. Sazı sinəsinə sıxıb, öz butası ilə ilk görüşünə görək nə dedi:

Sallandı (yerindən) durdu, yeridi,
Canım aldı genə nazlı bəxtəvər.

Hər qıya baxanda yüz min qan eylər,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Özü nazlı, sözü nazlı bəxtəvər.

«Nazlı» sözünü eşidən Nazlı xanım elə bildi ki, aşıq ona işarə edir. Sevincək Gülgəz xanıma dedi:

-Eşitdin, Gülgəz, mənim barəmdə nə gözəl sözlər oxudu? Görünür, onun xoşuna gəlmişəm? Abbas isə sözünə davam edirdi:

Səhər-səhər mehman oldum onlara,
Geyinmiş, bəzənmiş yaşıl-allara.
Səhər-səhər cumar soyuq sulara,
Deyəsən, ördəkdi, qazdı bəxtəvər.

Gülgəz xanım Nazlının sözünə etiraz etdi:

– Yox, o mənim barəmdə deyir, sən özün yaxşı bilirsən ki, hər səhər soyuq suda çimirəm?!

Qızlar ecəşməyə başladılar. Onları maraq bürümüşdü; görəsən, aşıq sözü hansımsıza qoşub? Abbas da ara vermədən oxuyurdu:

Hər yana gedirəm; açıqdı, açıq,
Tökülübdü tamam ellər alaçıq.
Qışın çilləsində bel-buxun açıq,
Məhlim, sənin üçün yazdı, bəxtəvər?!

Bu sözlər hər ikisinə aid idi; çünki onların həm sinəsi, həm də boynu açıq idi. Ancaq Nazlı xanım sözün hamısını özünə aid edirdi. Abbasın sonuncu qatar sözü qızların ecəşməsini kəsdi:

Tanımanam sultanımı, xanımı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Buyur, Gülgəz, cəllad töksün qanımı!
Yüz min işvə ilən aldı canımı,
Abbas deyər, əlisazlı, bəxtəvər!

Bu görüş Gülgəzə Abbasla tanışlıq və ona olan sevgisini öyrənməyə kömək etdi.

Bundan sonra, Abbasa olan sevgisi birəmin artı, hansı daxili bir gücsə, ona bağladı. Sizə kimdən deyim, Nazlı xanımdan.

Elə ki, Abbasdan ayrıldılar, paxıllıq Nazlı xanımın içini doğram-doğram doğradı. Evə yetişən kimi, Gülgəzlə Abbasın sevgisini hamıya danışdı. Xəbər vəzirin qızı Nigar xanıma çatdı. O, bir qarının məsləhəti ilə ətirli güllərdən kum bağlayıb Abbasla Gülgəzin görüşdüyü yerə gəldi.

Abbas ağacın altında dayanıb, Gülgəzin yolunu gözləyirdi. Nigar gülə-gülə ona yaxınlaşdı ki, gül kumunu ona versin. Ancaq Abbas gülü almadı. Sazı köynəyindən çıxardı və çalıb oxumağa başladı:

Payız olu, bağlar tökər xəzəli,
Bahar olsa, bağçamıza bar gəli.
Bir iyidin etiqadı düz olsa,
Cənnət bağçasından ona nar gəli.

Qara yerli, zərli kəmər belində,
Qızılgülü dəstə tutmuş əlində.
Nigar, sağ ol ulusunda, elində,
Mənim üçün Gülgəz kimi yar gəli.

Abbas deyər: uruf çanda bədəndi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ah çəkməkdən bağrım başı zədəndi.
Aman, Gülgəz, heç bilmirəm, nədəndi,
(Bu) gen dünya mənim üçün dar gəli.

Abbasın gül kumunu almadığını görən Nigar burnunun ucuna kimi qıpqırmızı qızardı. Özünü alçalmış hesab etdi, dala-qabağa baxmadan, birbaşa evə qaçdı. O, evdə bu əhvalatı anasına danışıb, and içdi ki, anlamaz aşıqdan qisas alacaq. Bu məqsədlə ona yol göstərmiş qarını evə çağırdı və ondan məsləhət istədi.

Qarının belə işlərdə səriştəsi vardı. O, söz verdi ki, Gülgəzlə Abbası ayrıca bir otaqda görüşdürəcək, bunu hamı biləndən sonra, hər ikisi biabır olacaq.

Qarı evə gəldi və bu qurğunu necə qurmaq, necə hiylə işlətmək üçün gecə-gündüz baş sındırdı. Axırda, düz Gülgəzin yanına getməyi qət etdi. Gülgəzlə görüşüb, Abbasın ona olan sevgisindən söhbət açdı, dönə-dönə aşığı xeyli təriflədi.

Gülgəz bağçada Abbasla görüşəndən sonra, qəti fikrini açıqca söyləmişdi. Qarının gəlişindən ona qarşı heç bir xəyanət görmədi və Abbası sevdiyini çəkinmədən açdı.

Hiyləgər qarıya da elə bu lazım idi. İndi Gülgəz ovçunun içindəydi. O, yalandan xəbər verdi ki, Abbas onunla görüşmək istəyir, güya qarını onun fikrini öyrənməyə göndərib.

Gülgəz bu xəbəri sevinclə qarşıladı və ən gözəl paltarlarından birini geyinib bəzəndi, qapının ağzında onu gözləməyə başladı.

Bir-birini odlu baxışlarla süzmək, əl-ələ tutmaq, sevişmək gənclərdə ilk görüşün əlamətləridir. Bu səbəbdən Gülgəz Abbası gülərüzlə qarşılayıb, yanında oturmağa



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yer göstərdi. Bir-birini ürəkdən sevən iki gəncin şirin söhbəti uzun çəkdi. Qarı bu xəbəri Nigar xanıma çatdırmaq üçün getmək bəhanəsilə dedi:

– Mən gedim, sizin üçün şərbət hazırlayım...

Hiyləni başa düşən Abbas qarını saxlayıb, üzünü ona tutdu:

Gülgəzimin qəmər hüsnü –
Ay, Gündü-tələti neylər?
Onun o ləbindən əmən
Şəkəri, şərbəti neylər?

Qarı ayaq saxlayır və Abbasla Gülgəzin söhbətinə maraqla qulaq asır. Yarım saat keçəndən sonra, o yenidən dilləndi:

– Bəlkə, mən gedim. Siz ilk dəfədi, belə yerdə görüşürsüz, burada mənnən özgə heç kim yoxdu. Mən burada artıq adamam?!

Abbas qarının bu sözünü də cavabsız qoymadı:

Bülbül oldu, gülən oldu,
Göz yaşımı silən oldu,
Bir yar ki, dərd bilən oldu,
Qaş-göz, işarəti neylər?

Bu gözlər hiyləgər qarını bir az da karıxdırdı. Heç bilmədi, nə cavab versin, özünü doğruluğa çıxarmaq üçün təzə sözlər uydurdu:

– Mənə gəncləri bir-biri ilə görüşdürmək çox xoşdu, amma bir qadın kimi, bu görüş zamanı onların yanında olmağım yaxşı düşməz...

Abbas genə onun sözünün üstünü aldı:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Süsən, sünbülü bitirən,
Ah çəkib, köksün ötürən.
Abbası yara yetirən
Kəbə ziyarəti neylər?

Qərəz, Abbasla Gülgəz üçüncü bir adamın iştirakı ilə gecəyarıya qədər söhbət etdilər. Abbas qarıya xəbərçilik etməyə imkan vermədi. Onu da özü ilə saraydan çıxarıb apardı...

Bundan sonra, onlar saray bağında daha tez-tez görüşməyə başladılar. Bir dəfə yenə bağda gəzirdilər. Elə bu zaman Abbasa bir məktub gətirdilər. Məktubu Tufarqandan göndərmişdilər. Abbas məktubu açıb oxudu. Məktubda atası Salehin öldüyünü yazmışdılar. Bu xəbərdən o, yerindəcə quruyub qaldı, bilmədi, nə etsin. Qayıdıb, Tufarqana getməliydi, orada özündən sonra, doğulmuş bacısı və kimsəsiz anası qalmışdı.

Abbas Gülgəzlə halallaşıb belə dedi:
Səlamat ol, Gülgəz, məni sal yola,
Görüm, allah səndən irazı ola.
Anam, bacım gözün tikibdi yola,
Gülgəzə, ay Allah, səbr ver, amandı!

Gülgəz acı xəbərdən qəm-qüssəyə batdı. Göz yaşı içində Abbasla görüşüb, belə cavab verdi:

Oğlan, söhbətdarsan damaqda, dəmdə,
Məni qoyub getmə möhnətdə, qəmdə.

Apar, gərdənbağım qoy qalsın səndə,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yadına düşəndə tez gəl, amandı!

Abbas cavabında:

Mən Abbasam, bağçalarda barım var,
El içində namusum var, arım var.
Qayıdaram, burda intizarım var,
Gülgəzə, ay Allah, səbr ver, amandı!

Gülgəz Abbasın doğma yurduna getməyinə razılıq verdi və onun yolunu intizarla gözləyəcəyini bildirdi. Sonra belə dedi:

Mən Gülgəzəm, otaqda tut əlimi,
Barıngınan dodağımı, dilimi.
Yeddi il gözlərəm tamam yolunu,
Ondan artıq qalma, tez gəl, amandı!

Abbas yeddi gündən sonra, qayıdacağına Gülgəzi arxayın edib, elə həmin gün Təbrizdən çıxdı.

Abbas gedəndən az keçməmiş, Gülgəzin günü qara əsgiyə büküldü. O zaman İranın hökmdarı Şah Abbas idi. Şah öz saray hərəmxanasına qırx gözəl qız yığmaq fikrinə düşmüşdü. Odu ki, xidmətçisi Becana göstəriş vermişdi ki, ölkənin hər yerini gəzsinlər. Harada gözəl-göyçək xanım varsa, onu hərəmxanaya gətirsinlər. El içində onu «insan dəllalı» kimi tanıyırdılar. Becan ölkənin başqa yerlərindən 39 gözəl tapmışdı. 40-cı gözəli isə Təbrizdə aramaq fikrinə düşmüşdü. O, şəhərə girən kimi, vali xəbər vermişdi ki, Məhəmməd bəyin özü burada yoxdu, ancaq onun sarayında yeganə gözəl bacısı var. Ancaq o gözəl şaha layiq ola bilər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Becan gözəlin barəsində məlumat alandan sonra, gördü ki, onu şahın hərəmxanasına aparmağa heç cür razı sala bilməyəcək. Odu ki, qızı qaçırmaq qərarına gəldi. Bunun üçün o, yollar aramağa başladı. Bircə yol vardı; Abbasla Gülgəzi görüşdürən qarıdan başqa heç kəs şahzadənin yanına sərbəst gedib-gələ bilmirdi. Qarı gizli yolla Becanın adamlarını təyin olunmuş vaxtda saraya apardı. Qarı onları bütün gözətçilərin gözündən yayındırmışdı. Onun işarəsi ilə adamlar Gülgəzin yataq otağına soxuldular evə onu sakitcə götürüb qaçırdılar. Təzə ələ keçirdiyi ov öz gözəlliyi ilə Becanı ovsunlamışdı. Ona görə də, şahın hüzuruna birinci onu çıxarmaq barədə göstəriş verdi. Başda Gülgəz xanım olmaqla qırx gözəli paytaxt şəhəri İsfahana aparırdılar.

Bu vaxt Abbas Tufarqanda idi. Təbrizdən ayrılandan sonra, yeddi gün keçmişdi. Təbrizə qayıdanda qara xəbəri eşitdi. Göz yaşları içində qəm-qüssəyə qərq oldu. Saray bağçasına düşüb, Gülgəzlə ilk dəfə görüşdüyü ağacın dibinə gəldi. Sazını inləyib, sızlaya-sızlaya oxudu:

Əyri, əyri, əyrinçələr,
Başına dönüm, bağçalar,
Qavış, yol vermə, küçələr,
Yar atlanıb gedər oldu.

Mən bülbüləm, dala səkdim,
Göz yaşımı yola tökdüm.
Cəfa çəkdim, bir yar seçdim,
Sahibi özgələr oldu.

Məsələdən hərtərəfli hali olan Abbas qırx gözəli



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

aparan karvanın dalınca yollandı. İki gün yol gedəndən sonra, gəlib karvana çatdı. Güzgəzin gəcavəsini aparan dəvə lap qabaqda gedirdi. Abbas tələsik o tərəf, bu tərəfə qaçdı ki, bəlkə, onu görə bilsin. Başına gətirilən əhvalatdan sonra, Gülgəz tanınmaz hala düşmüşdü, saçları dağınıq idi, yel vurduqca üzünü örtürdü. Abbas onu bu halda görəndə dözə bilmədi, sazını köksünə basıb, simləri inlətməyə başladı:

Ay qız, sənin ziba tellərin,
Yel vura, əsə tellərin.
Məhlim, məşuqun olubdu,
Batıbdı yasa tellərin.

Uca dağlar ucasıtək,
Şahmar ilan sücasıtək,
Yaşılbaş əyricəsitək
Üzündə əsə tellərin.

Xəbər aldım o Becandan,
Başında dürlü tacından.
Abbası dar ağacından
Mənsürtək asa tellərin.

Gözəlləri aparan karvanın başçısı Becan, nədənsə, dəvələrin birdən dayandığını gördü. Bunun səbəbini soruşdu. Xəbər verdilər ki, gəlmə bir adam karvanının qabağını kəsib, şahzadənin şəninə nəğmələr oxuyur. Bunu eşidən Becan Abbasın yanına gəlib, qəzəblə soruşdu:

– Onun nə haqqı var, şahın hərəmxanası üçün gözəllər aparan karvanın qabağını kəssin?

Abbas çəkinmədən ona kəskin cavab verdi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bu mənim butamdır, siz onu qardaşı Məhəmməd bəyin malikənəsindən qaçırmısız?

Becan isə heç onu eşitmək belə istəmədi və tələb etdi ki, Abbas yoldan çıxıb tez buradan rədd olsun. Şahın hərəmi olacaq bir qız barədə danışmağa onun haqqı yoxdu.

Abbas isə Gülgəz haqqında öz sözünün üstündə bərk durmuşdu:

Ağa Becan, sultan Becan, xan Becan,
Gülgəz hara gedər, mən də yanıncan.
Alış Becan, tutuş Becan, yan Becan,
Gülgəz hara gedər, mən də yanıncan.

Ağam Əli bana verüb butanı,
Yardan ayrı salma mən binavanı.
Ağa, görürsənmi dəli Becanı?
Gülgəzi aparır, mən də yanıncan.

Yarın dərdi ürəyimi yandırı,
Ağam Əli qəribləri dindiri.
Götür Qənbəri sən, minə Düldülü,
Gülgəz hara gedər, mən də yanıncan...

Bu sözlər Becanı heyrətə saldı. O, Abbası miskin bir aşıq hesab edirdi. Ancaq onun özündən belə yekə-yekə danışmasından, Gülgəz barəsində təmənnada olmasından hiddətləndi...

Abbas isə Gülgəzin gəcavəsindən aralı durmur, onun şəninə saz çalıb, nəğmələr oxuyurdu.

Becan aşığın fikrindən dönməyəcəyini görüb, yalandan söz verdi ki, karvan dayanan kimi, Gülgəzi ona qay-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

taracaq. Karvan susuz, qumlu səhra ilə irəli gedirdi. Dəvələr yorulmuşdu. Mənzilə çatmaq üçün onların dincini alması vacib idi. Uzun və yorucu yolu keçəndən sonra, nəhayət, karvan İsfahan şəhəri yaxınlığındakı Mirzə Əyyub quyusunun yanında dayandı. Bu quyudan su çıxarmaq o qədər də asan deyildi. Quyu çox dərin idi. Oradan su çıxarmaq üçün gərək, bir adamı quyuya sallayaydın. Becanın əlinə fürsət düşmüşdü. O, Abbasa təklif etdi ki, sən quyuya düşüb, 40 gözəl və dəvələr üçün su çıxarmalısan. Ondan sonra, verdiyi vədə əməl eyləyər, şahzadə Gülgəzi ona qaytarar.

Abbas bu şərtə həvəslə razı oldu. Sonra ipi belinə bağlayıb, quyunun dibinə düşdü. O, böyük su qabını doldurduqca Becanın xidmətçiləri onu yuxarı çəkib boşaldırdılar. Quyudan qədərincə su çıxardılar. Həm gözəllərə çatdı, həm də dəvələr doyunca içidi. Hələ mənzilə çatmağa çox qalmışdı. Abbas öz işini qurtarmışdı, onu çəkib quyudan çıxarmaq lazım idi. Ancaq aşığı yuxarı qaldıranda Becan ipi kəsdi. Abbas guppultu ilə fırlana-fırlana qaranlıq quyunun dibinə düşdü...

Beləcə, varlı tacir Salehin yeganə oğlu kimsədən kömək almadan quyunun dibində qaldı. O özü haqqında bir qırıq da düşünmürdü, fikri-zikri şah sarayına aparılan Gülgəz xanımın yanında idi. Abbas yeddi gün burada qaldı, əziyyət çəkdi. Bir hala düşmüşdü ki, baxsan, tanımazdın. Ancaq xilas olmağa ümüdünü itirmədi. Ağlına gəldi ki, yalvarıb, imam Əlidən kömək istəsin. Abbas üzünü göyə tutub, göz yaşını sel kimi axıda-axıda yalvarmağa başladı:

Yoxdur bərabərin, həm tayı, həm tab,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Behiştə maliksən, saqiyi-gövsər.
Qurani-natiqsən, kəlami-bəyan,
Bir ismin Qul-kəfa, bir ismin Heydər.

Tifl ikən ağ devin bəndini çatan,
Adına qul deyib Bərbərə satan,
Məraşda Rəsulun yolunda yatan
Vəsiyi-Mustafa, qaziyi-məhşər.

Yer, göy varlığından tutdu bir qərar,
On səkkiz min aləm, tamam hər nə var.
Sənə bəxş edibdi bir pərvərdigar,
Fatimə, Zülfüqar, Düldülü Qənbər.

Abbas deyər, – sirri tək bilir Allah,
Günbəzi-xizradə zikri illəllah,
Beytül-müqəddəsdə vallahi, billah,
Yoxdur sənin kimi zəti-pürhünər!

Bu sözləri deyəndən sonra, Abbas intizarla imam Əlinin gəlişini gözləməyə başladı. İmam Əli Abbası dərin quyuda boğulmağa qoymadı. Qəfildən divar yarıldı və qaranlıq yarıqda öz əzəmətli görkəmi ilə imam Əli göründü. O, gurultulu səslə danışırdı. Abbasa tapşırdı ki, gözlərini yumub, onun işarəsini gözləsin. Abbas gözlərini bərk-bərk yumdu, o saat hiss etdi ki, hansı görünməz qüvvə isə onu yuxarı qaldırır. Ona elə gəlirdi ki, quyunun içindən çıxıb, səmada uca-uca gedir, iki saata yaxın beləcə göydə uçdu. Birdən imam Əlinin gurultulu səsini eşitdi. İmam ona torpağın üstə düşüb, gözlərini açmağı əmr etdi. Elə ki, Abbas torpaba enib, gözlərini açdı, özünü İsfahan şəhərinin alaqapısında gördü. Onu xilas edən ulu kişi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

artıq yanında yox idi, qeyb olmuşdu.

Bununla da, Abbas 7 günlük yolu iki saata gəlmiş, hətta onu quyuya salanları qabaqlamışdı.

İsfahan əhli qırx gözəlin gətirildiyini eşidib, onları qarşılamağa çıxmışdı. Gözəlləri şah Abbasa göstərəcəkləri bağın hər tərəfi rənglənmiş və bəzədilmişdi.

Aşıq Abbas saray bağına girməyi və fürsət düşən kimi, onun butası Gülgəzin zorla qaçırılmasından şaha şikayət etməyi qərara aldı.

Karvan bağın yanına çatanda bir neçə fişəng atdılar. Gülgəzi gətirən dəvə bağa birinci girdi. Onun ardınca o biri dəvələr gəldi. Şah Abbas gözəlləri seyr etməyə çıxdı. İlk baxışda şahənşahın gözü Gülgəzi çaldı. Dalğın halı onun gözəlliyini daha da artırırdı; saçları üzünə dağılmışdı. Həyadan dodaqları əsirdi, ağ almaya bənzər yanaqları qıpqırmızı qızarmışdı. Vəziri Allahverdi xanın müşaiyəti ilə gözəllərə tamaşa edən şah Becana dedi:

– Bircə Gülgəz otuz doqquz gözəlin hamısına dəyər. Onları satıb, pulunu bu gözələ sərf etmək lazımdır.

Bu vaxt Abbas Gülgəzə baxırdı, onun bu görkəmi içini odlayır, ürəyini yandırıb-yaxırdı. Odur ki, sazını dilləndirib, oxumağa başladı:

Xəyyami barmaqlar, o nazik əllər
Tərpənmə, cıqqalar, tel inciməsin.
Sərində (titrəşən) o durna tellər
Tərpənmə, cıqqalar, tel inciməsin.

Nazik əldi, barmaqları hənalı,
Burun ucdan qulaqları tənalı.

Dörd tərəfi yaşılbaşdı, sonalı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Elə (silkin), çalxan, göl inciməsin!

Başına döndüyüm, yaradan Tanrı,
Mən yarı sevmişəm üzündə xalı.
Şikəstə Abbasın gülüzlü yarı,
Gəlin, burdan köçək, yol inciməsin!

Şah Abbas, əvvəl, onu el-oba gəzən ara aşığı hesab edirdi. Sonuncu sözlərdən anladı ki, Abbasın Gülgəzlə nə isə münasibətləri var. O, üzünü Becana tutub soruşdu:

– Bu aşıq haradan gəlib bura çıxdı, onun şahzadəyə münasibəti necədir?

Becan cavab verdi ki, Abbas yolda karvanın qabağını kəsib, Gülgəzi qaytarmağı tələb etdi. Onun dediyinə görə, güya şahzadə ona buta verilib.

Şah aşığın bu cəsarətindən qəzəbləndi və əmr etdi ki, onu yubanmadan bağdan çıxarsınlar.

Becan isə Abbasın Mirzə Əyyub quyusuna salındığını və orada 7 gün qaldığını şaha danışdı.

Şah buna xeyli təəccübləndi. Bu necə ola bilər ki, bir adam 7 gün quyuda qalsın, sonra isə sağ-salamat çıxıb, karvan gəlməmişdən qabaq, özünü bir neçə saata İsfahana yetirsin? Ona görə, göstəriş verdi ki, Abbası tapıb saraya gətirsinlər. Göstərişə əməl olundu.

Bəli, Abbası tutub saraya gətirdilər. Şah onu görən kimi, sorğuya başladı:

– De görüm, necə oldu ki, 7 günə sən nəm quyuda qaldın, çürümədin?

Abbas sazı köksünə basıb, şaha cavab verdi:

Sənin kimi şahi-xuban sevənin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə baki var, qala qəmlər içində.
Gözəl şahın üzün görən çürüməz,
Yüz il qalsa belə, nəmlər içində.

Şah, buyurdun, çəkdin məni fərmana,
Dəvasız dərdimi yetir dərmana.
Necə ki, şəmlərə yanar pərvana,
Yandı şirin canım şəmlər içində.

Gülgəz (öz) dilindən eyləsin ənam,
Qaymaq dodaqların göndərsin təam.
On iki pərdədə tutaram nəğam,
Sızıldaram mən zəmzəmlər içində.

Sonuncu ifadələr Gülgəzlə yaxınlıq əlaqələri qurmaq istəyən qısqanc şahı təbdən çıxardı. Ancaq qəzəbli baxışları Gülgəzi ürəkdən-candan sevən Abbası bir tikə də qorxutmadı və o oxumağında davam etdi:

Gülgəz ləbindən (izn) versə, əmərəm,
Keçən günü mən ömürdən sanaram.
Gecə od tutaram, gündüz yanaram,
Yarı gördüm naməhrəmlər içində.

Əvvəldən Abbası məsnədi-sansan,
Süleyman hökmündə taxta tamkünsən.
Hər yanda əyləşib, sədri-nişansan,
Mülayimsən mahi-vəhmlər içində.

Şahənşah Abbasın bu sözlərindən qorxuya düşdü və əmr etdi Becana, onu zindana salsın. Haman dərin zindana şaha qarşı çıxan ən qorxulu adamlar salınardı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yazıq Abbası qaranlıq zindana salıb, quyunun ağzını yüz pudluq daşla örtdülər.

Gətirilən hərəmləri sarayın ayrı-ayrı otaqlarına payladılar. Gülgəz baş hərəm təyin olundu. Gözəllərə sərbəstlik verilmişdi, onlar hər gün Gülgəzin müşaiyəti ilə saray bağına gəzməyə çıxar, cürbəcür oyunlarla əylənərdilər...

Bir dəfə Gülgəzin təklifi ilə qızlar Abbasa baş çəkməyə getdilər. Quyunun ağzında yekə daş vardı. Daşın ortasındakı kiçik deşikdən içəri baxmaq olurdu. Onlar Abbasın bu qaranlıq zindanda sağ qalıb qalmadığını öyrənmək istəyirdilər. Ona görə, deşikdən xırdaca daşlar salmağa başladılar. Daşlar düz Abbasın başına düşürdü. Hamıdan çox Gülgəz daş tökürdü. Abbas onun ağ əllərini görən kimi tanıdı və altdan-yuxarı oxumağa başladı:

(Söylə, bəs) sevən sevənə
Necə etibar eyləsin?!
Zalım, bu qədər yanıram,
Qoy sana bir kar eyləsin!

Haşa, sevdiyim, haşa,
Yazılanlar gəlür başa.
Bir yandan özün bas daşa,
Bir yandan el car eyləsin.

Gəlib Abbasın məşuqi,
Aləmi tutar işığı.
Beylə zindanda aşiqi
Qoyma, ahüzar eyləsin!

Gülgəz Abbasın sağ-salamat olduğunu biləndən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sonra, qızlarla birgə saraya döndü. Bu zaman şah xarici ölkələrdən gələn elçiləri qəbul edirdi. Onlara tapşırılmışdı ki, gediş-gəliş münasibətlərindən başqa, şahın da öz təbəələrinə necə qayğı göstərməsi barədə də maraqlansınlar.

Artıq çox yerdə Böyük Abbasın ədalətli şahlığı haqqında söz-söhbət gedirdi. Ona görə, bir sıra ölkələrin hakimləri bununla çox maraqlanır və bu məsələni yerində öyrənmək üçün bura elçilər göndərirdilər. Şah bu məqsədlə bir məclis düzəltmişdi. Məclisə yerli müsiqiçilər də çağırılmışdı, ancaq ustad aşıq tapa bilməmişdilər. Onda, şah əmr etdi ki, Abbas sağ qalıbsa, onu zindandan çıxarıb məclisə gətirsinlər...

Becan quyuya yaxınlaşıb, deşikdən içəri baxdı. O, yerindəcə donub qaldı: Abbas hələ də sağ idi, yalnız paltarı nəmdən didim-didim olmuşdu.

Abbası zindandan çıxardılar. Məclisə gedən yol sarayın yanından keçirdi. Gülgəz cırım-cındır içində onu görə bilərdi. Abbas Becandan xahiş etdi ki, onu başqa yolla aparsınlar. Gülgəz belə halda onu görməsin.

Becan Abbası eşitmək belə istəmədi. O, şahın fərmanını yerinə yetirməyə tələsirdi.

Xatalı kimi, onlar sarayın yanından keçəndə bədbəxtlikdən Gülgəz qızlarla bir yerdə qarşıdan çıxdı. O, Abbası bu kökdə görən kimi, bərkdən şaqqanaq çəkdi. Onun bu kinayəli gülüşü Abbasın ürəyinə dağ çəkdi və yol gedə-gedə oxumağa başladı:

(Adam var, çox iş də eylər arada),
Adam var, özündən dalı bəyənməz!

Adam var, nan tapmaz fani dünyada,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Adam var, qənd yeyər, balı bəyənməz!

Adam var ki, dağda gəzər sərsəri.
Adam var, şərbətdən yoxdu xəbəri.
Adam var, əyninə tapmaz bir dəri,
Adam var, mal geyər, şalı bəyənməz!

Adam var, dəstində tutmasan güllər,
Adam var gözünə çəkəsən millər.
Tufarqanlı Abbas, başına küllər,
Nə günə qalmısan, yarın bəyənməz!

Becan Abbası saray onbaşısının yanına apardı. O, aşığa pal-paltar verib, geyindirdi. Məclisdə Abbas əcnəbi qonaqları öz çal-çağırı ilə əyləndirməliydi. O, məclisə girib, qonaqlara baş əydi, sonra keçib onun üçün ayrılmış yerdə oturdu. Damın bir tərəfində pərdə asılmışdı. Pərdənin dalında başda Gülgəz olmaqla şahın hərəmləri əyləşmişdilər. Gülgəz pərdənin arasından bir gözlə qonaqlara baxa bilirdi. Onun gözləri və qalın qaşları Abbasın diqqətini o saat cəlb etdi...

Elə ki, İran hakimi aşığa mənalı sözlər oxumağı tapşırdı, Abbas Gülgəzin qaşlarını yada salıb, söhbəti onlardan saldı:

Dəryayi-həbibdən mehrabın olmuş,
Məhəmməd-ül Mustafaya qaşların.
Dərs almamış ibran dili oxuyur,
Ehtiyacı yox bir ustaya qaşların.

Geyinibdi yaşılından, alından,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Göz çəkmərəm yarın məh camalından.
Tazə çıxmış ustasının əlindən,
Bənzəyir qurulu yaya qaşların.

Qaşların bəzirgan, zülflərin xoca,
Ver, ləbindən əmsin mənim tək aca.
Abbasdım, qılmazdım şaha iltica,
Məni gətdi ilticaya qaşların.

Maraqlı söhbətlər dinləmək istəyən qonaqlardan biri bu sözlərdən heyrətə düşüb, Becandan soruşdu:

– O kimin qaşları barədə danışır belə?

Becan cavab verdi:

– Şahın hərəmi Gülgəz barədə deyir, ona aşiq olub.

Şah Abbasın gurultulu səsi eşidildi:

– Bəli, o mənim qullarımdan birinin gözəlliyinə vurulub, güya, ona buta veriblər?

Bu sözlər aşıqa bərk təsir etdi. O, üzünü elçilərə tutub dilləndi:

Elçi bəylər, sizə ərz-hal eyləyim,
(Kəsib) qara bağrım közə tutarlar.
Bu dünyanın tamam mülkü malını,
Qiymət pərdəsini üzə tutarlar.

Dəvələr əsnəşər yanında köşək,
Ərənlər damına yetcək bir «hu» çək!
Ərbab yalan desə, yoxsul da gerçək,
Ərbabın sözünü sözə tutarlar.

Bülbül kimi dalda qonub oxuya



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hər barmağı min-min ətlas toxuya.
Yoxsul əgər ibran dili oxuya,
Onu mərkəb deyib bizə tutarlar.

Dərin-dərin dəryaları boylasan,
Gəncər alıb, bağrım başın teyləsən.
Abbas deyər: «-Yüz il qazanc eyləsən»,
Öləndə beş arşın bezə tutarlar!

Abbasın bu sözlərindən sonra, əcnəbi qonaqlar onun tamam ağlı başında olduğu qənaətinə gəldilər. Onlar Şahdan xahiş etdilər ki, aşığın sevgilisi Gülgəz xanımı özünə qaytarsın. Ancaq Şah hörmətli qonaqların xahişini yerə saldı. Bəhanəsi bu oldu ki, Abbas tamam başqa bir adamdı. Gülgəzi heç tanımır, onun oxuduqlarına o qədər də fikir verməsinlər...

Abbas isə oxumağında davam edirdi:

Dövlətlinin heç salamın almazlar,
Yoxsul qapısına qədəm basmazlar.
Dindirib, (sözünə) qulaq asmazlar,
Danışdığı gövhər olsa, dürr olsa.

Yoxdur kasıblığın, əzəl, binası,
Dövlətluya sığınmaqdur çarəsi.
Çirkin zənən geysə fəxri libası,
Keçər işə, gedər, gözü kor olsa.

Abbas deyər, keçən günüm qəzadür,
Bu məclisin işi tamam məzədür.

Hər kəsin ki, doncuğazı təzədir,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Keçər yuxarıya əsli xər olsa!

Abbasın cəmiyyətin çirkinliklərini yamanlayan qoşmaları əcnəbi qonaqları bir daha təsirləndirdi. Gülgəzin qaytarılmasını Şahdan xahiş etmək məsələsinə ciddi yanaşmağı qərara aldılar. Onlar Abbasın elə-belə müğənni olmadığına, aşıq sənətinin kamil ustadlarından sayıldığına inandılar. Axırda, etiraz əlaməti olaraq bildirdilər ki, onların xahişi yerinə yetirilməsə, Şah Abbası təbəələri ilə ədalətsiz rəftar etdiyi barədə öz ölkələrinə xəbər çatdıracaqlar. Ancaq Şah aşığa buta verildiyinə inanmırdı. Bunun üçün Abbas sınaqdan keçməli idi.

Şahın əmri ilə Abbasın gözlərini dəsmalla möhkəm bağladılar. Molla iki cam gətirdi: birinə şərbət, o birinə isə zəhər tökmüşdülər. Abbas zəhər dolu qabı tanıyıb, molladan almadı və yenə cavabını sözlə dedi:

Şahın otağında bir molla gördüm:
Tutubdu dəstində, var, ağuni, gör.
Necə dad çəkməyim qəmzən əlindən,
Doğruyur bağrımı, var, saqini gör.

Bundan sonra, Şahın göstərişi ilə Abbası 2-ci sınaqdan keçirməli oldular. Haman molla bir almanı zəhərləyib Abbasa verdi. Abbas almanı aldı, ancaq yeməyib, sözünü sazla davam etdirdi:

Dost bağında bitən canım alması
Niyə dərdin, qaldı, canım alması?!
Şah necə qıysın mənə canım alması?!
Doğruyur bağrımı, var, sağını gör!

Gülgəz pərdənin arxasından Abbasa göz qoyurdu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Onun sınaqlardan uğurla çıxmasından xeyli təsirlənmişdi. Ona görə, başını asta-asta tərpədir, gülümsəyirdi. Abbasın gözü bağlı olsa da, onun bu hərəkətlərini duyurdu. Odu ki, sazı köksünə basıb dilləndirdi:

Yaxşı olu, gözəllər də baş bular,
Hərcayi yar qaş oynadı, baş bular.
Qibləgahım sərimüstə baş bular,
Dilavər sırqanın var, sağını gör!

Kakilim bədəndə, bu cani təndə,
Can canana qurban bu cani məndə.
Abbasın ömrünə əcəl yetəndə
Üstünə salginən var, ağını gör!

Bununla Abbas şahın fikirlərini tapdı. Bundan sonra, əcnəb qonaqlar aşığın sevgilisini qaytarmaq üçün Şaha daha artıq təsir etməyə çalışdılar.

Axırda, Şah Abbas əlacsız qalıb, yumşaldı və əcnəbilərin xahişini yerinə yetirməli oldu.

Uzun və əzablı ayrılıqdan sonra, sevgililər yenidən görüşdülər. Bu görüş həmişəlik oldu...

Abbas Gülgəzi İsfahandan Tufarqana gətirdi. Atası Saleh öldükdən sonra, anası Səlbinaz da dünyadan köçmüşdü. Onun səfərdən uğurla qayıtması hamını sevindirdi.

Doğma kəndə dönməyindən az keçməmişdi Abbas çoxlu qonaq çağırdı və özünə bir toy elədi ki, hələ Yer üzündə heç kəs belə şənlik görməmişdi...



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# «ZİNHAR VƏ MAHƏFRUZ» DASTANI

Dastana başlamazdan əvvəl ustadlar ustadnamə deyər. Ona görə biz də ustadların yolu ilə gedək dastana başlamazdan əvvəl ustadnamə deyək:

Şeir deyib, şəni şəms olan şair,
Şairlikdə yol ərkanı gördünmü?
Dünya mənim deyib, basıb-kəsənlər,
Köç eyləyən sultan xanı gördünmü?

Möcüzat göstərdi səkkiz yaşında,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağ devin nişani qaldı quşunda.
Zöhr ulduzu şəms olmuşdu qaşında,
Əliyi İmranı gövhər kanı gördünmü?

Mülkə sərdar idi həm təxtü tacı,
Baş əyib fələyə vermədi bacı,
Dəryada mahıdan aldı xəracı,
İsgəndər tək pəhləvanı gördünmü?

Lənət de şeytana, şərindən utan,
Həqiqət dərk eylər kamala yetən.
Tifilkən Ağ devin bəndini çatan,
Quzey Məşhər haqq divanı gördünmü?

Təəccüb qalmışam sirri xudaya,
Nəynən qərar tutdu ərşində paya.
Yükləndi karvanım, köçdü bəqaya,
Nəcəf kimi binəvanı gördünmü?

Ustadlar ustadnaməni bir deməz, iki deyər, biz deyək iki olsun, düşmənin ömrü gül tək solsun:

Heç bir zaman qeylü-qalın kəsilmir,
Vaxt olar, xoş günün zara çəkərlər.
Yığılar çuğulun, xülqan, fəsadın,
Töycüdə yoxsulu vara çəkərlər.

Süludin, firudin bilməyən bəndə,
Dünya səni necə salıb kəməndə.
Qiyamətdə olacaqsan şərməndə,
Sorarlar sualın nara çəkərlər.

Xüms, zəkat əyləyənlər malında,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xəcalət qalarsa mövlan yanında,
Ərəsət günündə, haqq divanında,
Oyarlar gözünü, dara çəkərlər.

Hərgiz naməhrəmə baxmasın gözün,
Xeyir, şər nə tutsan yazarlar yazın.
Nütvədə napaka söyləmə sözün,
Dostunun qəlbinə qara çəkərlər.

Nəcəf haram maldan istəməz dövlət,
Onun dövranı olmaz çəkəsən ləzzət.
Bir oğul əzəldən olsa bədöylət,
Ata sinəsinə yara çəkərlər.

Ustadlar ustadnaməni iki deməz, üç deyər, biz də deyək üç olsun, düşmənin ömrü puç olsun:

Yatmış idim xabi-qəflət içində,
Saqeyi kövsərin bulağın gördüm.
Bir məqamda günahkarı seçirlər,
Ərəsət məşhərin ayağın gördüm.
Mövlam orda saqi paylar əlində,
Düldül rikabında, Qəmbər yalında.
Zülfüqar belində, ümmət yolunda,
Ağam şahi – Mərdan növrağın gördüm.

Qırx iki sinninə yetəndə yaşı,
Alnına yazıldı ölmün naxışı.
Səkkiz şölə çəkir həyatın başı,
Nuri Məhəmmədin çırağın gördüm.

Nəcəfəm, dünyada sərgərdan qaldım,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Axtardım dostumu, yamanı bildim.
Min üç yüz qırx altıda dərsimi aldım,
Oxudum Kəlamın, varağın gördüm.

Xorasan şəhərində Şövkət paşa adlı bir padşah var idi. Bu padşahın övladı olmurdu. Bir gün bu padşah namaz üstə dua eləyir ki, Allah, sən mənə bir oğul kəramət eylə ki, mən öləndə mənim yerimi tutsun, səltənətimi idarə etsin.

Şövkət paşa namazdan farıq olanda öz vəziri Yaqubu yanına çağırıb təklif eləyir ki, dərviş paltarında səyahətə çıxsınlar. Vəzir razı olub şahla bərabər dərviş libası geyib səyahətə çıxırlar.

Yolda bunların qabağına bir dərviş çıxır. Bu dərvişlə xoş-beş, həmsöhbət olaraq tanış olurlar. Səyahətdən qayıtdıqdan sonra padşah onu ziyafətə dəvət eləyir. Ziyafətdə Şövkət paşa sözgəlişi dərvişə qandırır ki, bir oğul züriyyəti arzusundadır. Dərviş bu sözü eşidib əlqabına çıxır, amma bir daha qayıtmır.

Şövkət paşa bu işdən təəssüflənib vəzirə, vəzir isə şahın üzünə baxır.

Axşam olur, yatmaq vaxtı çatır. Şövkət paşa yatağına gəlib yuxulayır. Yuxuda padşahın gözünə həmin dərviş görünərkən xəbər verir ki, şah sənin duan müstəcəb olubdur. Şövkət paşa yuxudan sərsəm olub vəzirini çağırır və ona təklif eləyir ki, miskinlərə ehsanlar, sədəqələr verdirsin.

Vəzir hökmü yerinə yetirir. Gəlir padşahın bir oğlu olur. Oğlu olan günü həmin dərviş zahir olur.

Padşah dərvişi görcək onun əlindən öpüb təvəqqe edir ki, uşağın adını dərviş qoysun. Dərviş razı olub oğlanın adını Zinhar qoyur. Zinhar bir yaşından iki yaşa, iki



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yaşından üç yaşa, dörd, beş, altı yaşa dolanda atası bunu məktəbə qoyur. Bir-iki il sonra Zinharın yuxusuna bir nurani qoca girərək deyir:

– Oğlan, sənin bir qız qismətin var.

Belə dedikdə həmin dediyi qız da həmən saat göz önündə müstəcəm olur. Nurani kişi qızın əlindən tutub deyir:

– Bax, qaşları hilal, hürü misallı yarın hind padşahının qızı Mahəfruzdur, tanış ol – deyib, qeyb olur.

Zinhar yuxudan ayılıb başlayır ağlamağa. Bunun ağlamağını görən məktəb yoldaşları ağlamağının səbəbini xəbər alırsa da, Zinhar cavab vermir, sonra anası eşidib gəlir, ona da cavab vermir. Xəbər padaşaha çatcaq Şövkət paşa onu yanına apartdırır.

Padşah da Zinhardan bir düzgün cavab ala bilməyib oğlunun könlünü ələ almaq məqsədi ilə onunla bərabər gəzməyə çıxır. Gəzərkən bir dükanda aşıqların oxumasını görən Zinhar atasından xahiş edir ki, onları evə apartdırıb çaldırsınlar. Padşah aşıqları evə apartdırıb onlara aid məclis düzəldib oxutdurur. Aşıqlar oxuyarkən Zinhar eşqə gəlib birisinin sazını alıb basır sinəsinə, görək nə deyir:

**«Qafiyə» havasında:**

Ah çəkərlər eşq əhlilər dərdimdən,
Bilməzlər mənim qəlbimdə nə var
Qanlı yaşlar süzülübdü gözümdən,
Leyli üçün Məcnun tək hicranə var.

Möhübbət eşqinə yanar pərvanə,
Rəngin solub dərdim düşüb hicranə.
Bülbül kimi fəryad edər gülxanə,
Ah edərəm canım yanə-yanə var.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir sövdadır gəlib mənim başıma,
Çarə qılam indi bu gənc yaşıma.
Bir yar düşüb bilin, mənim duşuma
Atam təki canım yanə-yanə var.

Xəbər verin mənim şah babama,
Abdal olub girrəm qeyri hərama,
Sevdiyimin dərdi vurub sinəmə,
Mən Zinharam, qaldım yanə-yanə var.

Anası oğlunun saz çalıb oxuduğunu bilincə onu yanına çağırtdırıb deyir:

– Oğlum, səne şah oğluna ayıb deyilmi saz çalıb oxuyursan, heç sənə yaraşan işdirmi?

Zinhar götürüb görək nə cavab verir:

**«Qafiyə»**

Bu gecə mən şirin tavə varmışam,
Pir gəlib göstərdi mənə ceyranı.
Cavan ikən eşq ataşa qalmışam.
Kim eyləsin bu dərdimə dərmanı.

Doldurub bil mənə badələr verdi,
Canıma salıbdı olmazın dərdi.
Şah babam da  məni çox məhzun gördü,
Mayıl oldum görcək Mahı-tavanı.

Görcək onu mən boynuna sarıldım,
Əziyyət çəkmədən bilin yoruldum,
Hərdən-hərdən hər dərdimə darıldım.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yolum düşdü gəzdim Hind-Xorasanı

Saxladım qəlbimdə onun sirrini,
Arayıb öyrəndim həm də yerini
Gözəl qismət etdi mənə pərini,
Buraxmaram əldən böylə sonanı.

Anası oğlunun oxumasından bir şey başa düşməyib dedi:

–Oğul, açıq danış görüm nə demək istəyirsən?

**«Qafiyə»:**

Nə sorursan halım aman, ay nənə,
Göndər Hindistana bir xəbər getsin,
Hicranlar tökdüm bu dərdli sinəmə,
Təbibim loğmana bir xəbər getsin.

Sevdiyim görmüşəm röya içində,
Alışıb yanıram dünya içində.
Görmürsən, qalmışam dərya içində,
Göndər Hindistana bir xəbər getsin.
Heç bir mövla kəsməz söhbət sazını.
Xızır yazdı bizə beylə yazını.
Hindistan şahıın Əfruz qızını
Göndər Hindistana bir xəbər getsin.

Bu canımı ataşlərə salaram,
Heyvanlar tək saralıban solaram,
Mən bu dərtdən geci-tezi ölərəm,
Göndər Hindistana bir xəbər getsin.

İndi Zinhar gedər sənin əlindən,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir cavab söyləyib çıxart dilindən.
Ağlama, dözmərəm yaşı-selindən,
Göndər Hindistana bir xəbər getsin.

Anası «vay mənim halıma, oğlum dəli olub» – deyə şahın yanına qaçır. Padşah deyir:

– Qoy mən bir də onu gəzdirim, könlü açılıb, ağlı başına gəlsin.

Şövkət paşa bu dəfə oğlunu bağa aparır.Bağda gəzinən qızlara müraciətən Zinhar deyir:

**«Qafiyə»**

Bir dəstə qız gördüm bu bağ içində
Görünməz gözümə Mahəfruz, hanı?
Gülə-gülə, qol-qol olub gəzirlər,
Görünməz gözümə Mahəfruz, hanı?

Əyninə geyinmiş əlvan libası,
Xəstəyə verirlər şəfa dəvası.
Gah oynayır, gah gülür bir parası
Görünməz gözümə Mahəfruz, hanı?
Bir xalı var qaş tellərin arada
Bir neçəsi salmış yolun orada
Sallanıban hey gəzirlər burada
Görünməz gözümə Mahəfruz, hanı?

Məlul könlüm sən baxginən qızlara
Ay qabaqda xumarlanmış gözlərə.
Sən as qulaq şirin-şirin sözlərə,
Görünməz gözümə Mahəfruz, hanı?

Sevdiyim yar, məni gəl dərdə salma,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Zinhar tək cavanı gəl eşqə dalma,
Əhvalım bilginən, bixəbər olma,
Görünməz gözümə Mahəfruz, hanı?

Qızlar bu sözü eşitcək gülüşüb Zinharın ətrafına yığışdılar. Onların içində olan bir qarı Zinhara yanaşaraq:

– Oğul, mənə bir gözəlləmə desənə – deyir.

**«Qafiyə»**

Bir qarı gördüm üç otuzunda
Yüzünə baxanda havası getməz.
Qırış-qırış görünür qaşı yüzünd
Çalından sirkənin yuvası getməz.

Əyri-üyrü bükülüb sallanır başı,
Bil gedibdir qışı, tökülüb dişi.
Uzanıb burunu, ağarıb qaşı,
Ölsə namazına mollası getməz.

Bu neyləyir haqdan gözəl sufatı,
Görən çəkər bundan tezcə xifəti.
Göstərməyin buna abı-həyatı,
Fitnəvaz insandı, fitvası getməz.

Yalan deyib insanları öyübdü,
Lənət deyib şeytanlara söyübdü,
Onun fitnəsini aləm duyubdu,
Loğman gəlsə, buna davası getməz.

Zinhar kimi yoxsa olandandır bu,
Şeytan yığınında dilindədir bu.
Gözəl cavanları azdırandı bu,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Heç canından şeytan binəsi getməz.

Qarı deyir:
– Sağ ol oğlan, çox xəcalət verdin.
Qızlar gülüşməyə başladılar. Zinhar qızlara göz gəzdirib görür ki, onlardan biri Mahəfruza oxşayır. Alır görək nə deyir:

**«Dübeyt»**

Cümləniz gülə bənzərmiş
Sən oxşarsan ayə, gözəl.
Qaşın hilalə bənzərmiş,
Mən olmuşam zayə, gözəl.

Siyali kipriyin gözlərimi,
Ənvar boyun dizlərimi,
Dodaq qonça, sözlərimi
Bil, elədin zayə, gözəl.

Zülflərin pərişan olmuş,
Səni görüb heyran olmuş.
Mən xəstəyə dərman olmuş,
Şükür ol mövlayə, gözəl.

Oxşayırsan qızılgülə,
Mən qurbanam şirin dilə,
Gəl yanıma gülə-gülə
Qaşlar bənzər yayə, gözəl.

Zinhar deyər sirlərimiz,
Xızır bizim pirlərimiz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məhşər-divan yerlərimiz,
Məni etdin divanə, gözəl.

Padşah oğlunun belə oxumasından təəccüblənib dedi:

– Doğrudanmı dəli olub, bu ki oxuyub çalmaq bilmirdi?

Evə qayıdarkən vəzir-vüzürə, vəkil-vükülə oğlanın başına toplaşaraq təvəqqe edirlər ki, az oxusun.

Zinhar alır görək «Şikəstə turabi» havasında nə deyir:

Ayıb etmə, şah pədərim,
Eşq əhlilər əsəridir.
Muradım haqdan istərəm,
Eşq əhlilər əsəridir.

Eşq əhlini kimsə bilməz,
Heç kim dərd əhlinə gülməz.
Gizli sirlərin söyləməz,
Eşq əhlilər əsəridir.

Ürəkdən sevdiyim getməz,
Su verməsən, gülüm bitməz.
El dərdimə çarə etməz,
Eşq əhlilər əsiridir.

Dərdimə sən eylə çara,
Gülümü verməynən xara.
Yarım oxşayır xumara,
Eşq əhlilər əsəridir.

Zinhara edin hörməti,
Könlümdə yanır həsrəti.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xızır verdi bu xiflәti,
Eşq әhlilәr әsәridir.

Vәzir-vәkil hamı Zinharın belә oxumasına mәtәl qalırlar, üz basırlar ki, yenә dә oxusun. Alır Zinhar «Tiravı şikәstә» havasında:

Yoluna canım qoyaydım,
Ruhumu al, buyur, mövla!
Әrәnlәri mәn uyaydım,
Ruhumu al, buyur, mövla!

Gәncliyimdә azdım yolumu,
İndi görürsәn halımı.
Eşidin şirin dilimi,
Ruhumu al, buyur, mövla!

İşarәt göstәrdilәr mana,
Dönüb ciyәrim al-qana.
Saldım başımı dumana,
Ruhumu al, buyur, mövla!

Vәzirlәr deyirlәr ki, padşah, qurbanın olaq, şahzadә deyәsәn Hindistan padşahının qızına aşiq olub. Gәl sәn o padşaha bir tәklif yaz, әhvalatı bildir, bәlkә heç qızını müzayidә etmәdi.

Zinhar başlayır oxumağa, padşah isә oxuyan sözlәri yazdırır.

**«Dübeyt» havasında:**

Bölük-bölük oldu yaram



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yara məndən salam olsun!
Dünya mənə oldu haram
Yara məndən salam olsun!

Ver gülüm, mənə sən dərman,
Tökmə gözlərimdən al-qan,
Sənə qurban bu şirin can,
Yara məndən salam olsun!

Salamı qəbul eyləyər,
Mən olmuşam dərbə-diyar.
Gülümü qucmasın heç xar,
Yara məndən salam olsun!

Duman gəlib yolum kəsdi,
Bülbül gəlib gülə əsdi,
Padşah, bu da bəsdi,
Yara məndən salam olsun!

Yaqub, Yusif kimi ərəb,
Oğrayıbdır namərd turab.
Badə içmişəm, həm şərab,
Yara məndən salam olsun!

Şövkət paşa oğlu oxuduğu sözləri və öz tərəfindən də Hind padşahına kağız yazdırıb paketə qoyur və Hind padşahına göndərir ki, qızının nigahını Zinhara kəssin.

Hind padşahına namə çatcaq oxuyub məzmunundan xəbərdar olur və qızını çağırtdırıb soruşur ki, bu nə əhvalatdır? Səni dəli Zinhara bənd ediblər yoxsa...

Qız qolunda sazın telindən sim edib, alır görək nə cavab verir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### «Turabi şikəstə»

İsmi əzəm duasını
Loğman, təbibim oxuyur.
Eşq kitabını aldım
Loğman, təbibim oxuyur.

Eşqin halı necədir necə?
Oxudum Quranı heca-heca.
Ərənlər yanına gəlincə
Loğman, təbibim oxuyur.

Saz tamam olur. Hind padşahı qızını tərifləyib deyir:

– Afərin, qızım, nə yaxşı oxuyursan. Gəlsənə aşıqlıq edəsən.

Sonra padşah Xorasan şahına cavab yazır ki, mən qızım Mahəfruzu minnətlə verərəm, amma bu şərtlə ki, mənim qızım bir dənə olduğundan onu gözümdən irağa verə bilmərəm. Oğlun Zinhar köçüb bura gəlsin.

Xorasan padşahı bu cavabdan qəzəblənib Hindistan padşahı ilə dava etmək fikrinə düşür. Lakin Zinhar bu işə razı olmayıb deyir:

– Ata, niyə iki nəfərin həyatı üçün bu qədər qan tökürsən. İzin verin mən qıza bir məktub yazıb onun fikrini soruşum.

Padşahın icazəsiylə Zinhar Mahəfruza bu məzmunda kağız yazır:

### «Qafiyə»

Gedərsən sevdiyin yarə,
Eşq-halım ona ərz et.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yaradan muradımız versin,
Dərdimi canana ərz et!

Röyadə badələr içdik.
Sevib, fərəhlənib keçdik.
Bərabər ədaları seçdik
Get yanə-yanə ərz et!

Eşqə salıb bu eşq dərdi,
Səninçün çəkərəm fəryadı.
Zinharam sevməm namərdi,
Dərdimi loğmana ərz et!

Bu naməni bir tam vasitəsilə Zinhar qıza göndərir. Tam isə Hində çataraq bir qarı tapır və naməni ona verir ki, Mahəfruza çatdırsın. Qarı məktubu Mahəfruza çatdırır.

Mahəfruz qarıya qızıl verərək, kağızın cavabını belə yazır:

**«Qafiyə»**

Dövlətli əfəndim, sənsən nuranim,
Gözüm Xorasanın yolunu gözlər.
Sənə qurban olsun bu şirin canım,
Gözüm Xorasanın yolunu gözlər.

Cəlalını görmək bil həvəsinə,
Bülbüləm düşmüşəm gülün bəhsinə.
Qulaq asammıram yarın səsinə.
Gözüm Xorasanın yolunu gözlər.

Əyər istəyirsən gəl bu diyarə,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən durmuşam yarım, bil ki, icarə.
Mahəfruz düşübdür yaman əfnarə,
Gözüm Xorasanın yolunu gözlər.

Namə Zinhara çatan kimi oxuyub halı olur, məhəbbətdən ürəyi ataş kimi yanır, birbaşa atasının yanına gedərək mətləbi ona çatdırır.

**«Qafiyə»**

Başına döndüyüm ey mənim atam,
Əyər izin olsa mən gedər oldum.
Gözü yolda qalıb verilmiş butam,
Əyər izin olsa, mən gedər oldum.

Qəfəsdə quş kimi düşübdü bəndə,
Yandırır canımı, dərd edir gündə,
Olmuşam mən fikir çəkməkdən hayın da,
Əyər izin olsa, mən gedər oldum.

Ərənlər əlindən nuş edib, qandım,
Butamın eşqinə gör necə yandım,
Şam kimi əriyib, gör necə söndüm,
Əyər izin versən, mən gedər oldum.
Cahillikdən əlim çəkmişəm inan,
Kaman tək belimi bükmüşəm, inan,
Yar yolunda qan-yaşı tökmüşəm, inan,
Zinharam, izin ver, mən gedər oldum.

Zinhar belə oxumaqda anası da gəlib çıxır, ağlamağa başlayır. Bunu görən Zinhar götürür görək nə deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**«Qafiyə»**

Sən ağlayıb, gəl məni də ağlatma,
Sevdiyimin yanına getməsəm, olmaz.
Ciyərimi yandırıban, dağlama,
Sevdiyimin yanına getməsəm, olmaz.

Gözümdə yaş yerinə bax, qanlar axır,
Yarım həsrət ilə yoluma baxır,
Bu qəmdə qalarsam, canım tez çıxır,
Gedib o yarıma çatmasam olmaz!

Fələk məni bu hallara kəsb etdi,
Möhübbət sevdası canımda bitdi.
Zinhar da yar üçün elindən getdi,
Dərdimi dərdinə qatmasam olmaz!

Zinhara ata-anası razılıq vermirlər. Zinhar qalır ağlaya-ağlaya. O gecə dərviş gələrək, Şövkət paşının yuxusuna girir, üzünə qışqıraraq:

– Niyə oğlunu Hind şəhərinə getməyə qoymursan? – deyib yox olur.

Şövkət paşa yuxudan ayılıb görür ki, tər içindədir. Arvadına əhvalatı söyləyərək, hər ikisi ağlamağa başlayır.

Zinhar məsələdən hali olur. Səhər açılır. Zinhar ata-anasının ağladığını bilib, alır görək nə deyir:

**«Qafiyə»**

Ağlayıb tökməyin yaş gözünüzdən,
Yarımın şirindi mənə dilləri.
Nə üçün ağlayıb məlul olursuz,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mərd igidlər gəzər qərib elləri.

Açılıb yarımın qönçə gülləri,
Durna tək düzülüb siyah telləri,
Gözdəyə-gözdəyə qalıb yolları,
Yarımın şirindi mənə dilləri.

Çox durmayıb qayıdaram, şah baba,
Gözəl röyada mən yetişib xaba,
Fələk verdi bu Zinhara bir dava,
Gedirəm dərməyə bağda gülləri.

Şövkət paşanın və arvadının əlacı kəsilib ona getməyə rüsxət verirlər. Hazırlıq görülür, tədarük olunur, halallaşmaq dəmi gəlir. Zinhar onlarla halallaşaraq alır görək, gözlərini yaşlı qoyub getdiyi ata, anasına nə deyir:

Salamət qalın siz, ay ata, ana,
Mənim qismətim var qərib ellərdə.
Belə çəkmiş ələlahi qələmi,
Mənim qismətim var qərib ellərdə.

Əqlimi başından aldı bəzəkar,
Çöllərdə tutacaq məni yaman ar.
Sevdiyim zülfünü nazınan dara,
Mənim qismətim var qərib ellərdə.

Aman baba sənin qədrin bilərəm,
Canımı yolunda fəda qılaram,
Məlkülmövt canımı alsa da, gələrəm
Mənim qismətim var qərib ellərdə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Zinharın ol yar gözlər yolunu,
Cavan ikən sındırıbdır belini.
Dal gərdənə dalğı töküb telini,
Mənim qismətim var qərib ellərdə.

Söz tamam olur. Zinhar ata-anasıyla vidalaşıb yola rəvan olur. Az gedir, çox gedir, gedib bir «Həsənqala» adlı qalaya çıxır. Əmbə orasını da deyim ki, Zinhar sazını da özüylə götürmüşdü. Oturur ki, qalanın kölgəsində bir az gincəlsin, elə bu vaxt bir dəstə yolçu bunun yanına gəlib:

– Aşıx, bizə bir az çalıb oxusana, – deyib, təvəqqe edirlər.

Zinharın onsuz da ürəyi coşa gəlmişdi, Telli sazını köynəkdən çıxarıb alır görək nə deyir:

Nə yaylaq yerdi bu Həsən qalası,
Hər yanı düzənlik, irmağı çaylar,
Gələnin bil gedər ürəyinin pası,
Xəstəni eyləyər həm çağı, çaylar.

Qərib-qərib mən gəzirəm ellərdə,
Vəsfin dastan olub gəzir dillərdə,
Məcnun təki gəzdim mən də çöllərdə,
Yar qoyub sinəmdə bu dağı, çaylar.
Zinhar çıxıb yoldan o bağı, gedir,
Ürəyində qoyub həm dağı gedir,
Aşıq pərvanəyə bil, yağı gedir,
Xoş deyil könlümün butağı, çaylar.

Söz tamam olur. Yolçuların çox xoşuna gəlir. O gecə yolçulara qonaq düşür.

Səhər üzünüzə xeyirliklə açılsın, səhər açılan kimi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Zinhar yenə yoluna davam edir.

Bir neçə gündən sonra gəlib Bağdada çatır. Bağdad şəhərində Zinhar dincəlmək üçün bir çayxanaya girir. Zinhar görür burada çöxlu uşaq var. Oxuyurlar. Aşıqlar Zinharın əlində sazı görüb girişirlər. Aşıqlardan biri deyir:

– Aşıq, indi növbə sənindir, lap vaxtında gəlmisən, biz qurtarmışıq, həm də yorulmuşuq. Bir az da sən oxu, camaat qulaq assın.

Zinhar etiraz etmədən sazı qaldırıb çalmağa və oxumağa başlayıvr:

Bu əziz şəhərdir, çox gözəl eldir,
Övliya, əmbiya, yurdudu Bağdad!
Neçə mömin gəlib burda dayanar,
Övliya, əmbiya, yurdudu Bağdad!

İsmi-əzəm sahibi də bundadı,
Tamam sənət elmi kannı bundadı,
Səyahət, həm ləzzət təamı bundadı,
Övliya, əmbiya, yurdudu Bağdad!

Cəmi alimlərin yığnağı, yeri,
Eylərəm, dillərdə dəstan əzbəri,
Zinhar da görübən olub sərsəri
Övliya, əmbiya, yurdudu Bağdad!

Söz tamam olur. Aşıqlar bir-birinə pıçıldaşaraq, Zinharla deyişməyi məsləhət görürlər. Deyirlər:

– Aşıx, görünür çox kamilsən, istərik, bir səninlə qavaxdaşaq, nə deyirsən?

Zinhar deyir:

– Nolar ki, özünüz bilən yaxşıdır, söz gəzdirən deyişər də, döyüşər də.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu məqamda, əvvəlcə Aşıq Məqsud adlı birisi ayağa qalxır.

Sazını da kökləyib, «Koroğlu» havasında, görək Zinhara nə deyir, Zinhar da ona necə cavab verir.

Aldı Məqsud:

Cəlib özünü bu məclisə yetirdin,
Bil bu məclis ər iyidin yeridir.
Çox gəlib gedibdir burdan səni tək
Bil, bu məclis ər iyidin yeridir.

Aldı Zinhar:

De əlif nöqtəsin əzbər etdinmi?
Oxuyub «Quranı» xətmər etdinmi?
Ərənlər əlində eşq libasın götürdünmü?
Mən iyidəm, söylə sən nəsən?

Məqsud:

Mənim əzbərimdi İlahi Allah,
Nə gözəldi ustalığın, maşallah,
Aşıq sövdasını bilirəm vallah,
Bil bu məclis ər iyidin yeridi.

Zinhar:

Mənim köməyimdi Əliylə Allah,
Qəlbimdə möhkəmdi sirləri, vallah,
Xəyanət eyləyib etmərəm günah,
Mən iyidəm, söylə görüm, sən nəsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Məqsud:

Bağdadda bülbüllər oxuyur uca,
Tovuz tək durnalar baxırlar uca,
Sən təki aşıqlar baxırlar uca,
Bu məclislər ər iyidin yeridi.

Zinhar:

Mən deyiləm hakimi loğman natab,
Sirrimdə almışam mən dərdli xitab,
Seyr etsin sözümü mənim beş kitab,
Mən iyidəm, söylə görüm, sən nəsən?

Məqsud:

Hardan gəlib sən haraya gedirsən,
Hərbə-zorba ilə bizə dersən?
Bu hal ilə kimin bağrın didirsən?
Bil, bu məclis ər iyidin yeridi.

Zinhar:

Xorasandan çıxmış idim mən dada,
Əşq ilə içmişəm bir dolu bada,
Hinddə dəyib qulağıma bir səda,
Zinhar ərdi, söylə görüm sən nəsən?

Söz tamam olur. Aşıqlar görürlər, yox bunda bir bala qabiliyyət var. Bu dəfə Zinhar fövtü əldən verməyib, deyir:

– Aşıx, əyər qalib aşıqsansa, dediklərimə cavab ver.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq Məqsud bir sağa baxdı, bir sola, gördü bütün gözlər ona dikilib, özünü sındırmayıb deyir:

– Razıy am, de gəlsin.

Alır Zinhar:

Qul huya surası vardı Quranda,
O hansı gün yazılıb bu yerə endi?
Hansı gündə ol Cəbrail gətirdi,
Hansı mehran üzrə minbərə endi?

Aşıq Məqsud, nə qədər fikirləşirsə, yadına bir şey düşməyir, bu sualda aciz qalıb deyir:

– Aşıq, sözünü tamam elə, bir yerdə cavab verərəm.

Zinhar dillənmir, alır gerisini:

Kim etdi sultanın qara gününü,
Kim yudu möminin qara əlini,
Kim öldürdü Həsən ilə Söyünü
Hansı gün Əliyə nur pirdar endi.

Məqsud yenə cavab verə bilmədi. Aldı Zinhar gerisini:

Hansı gündə təqrif etdi Cahana,
Nə işarətlə doğdu, de onu ana?
Neçəsində qılınc çəkdi, girdi meydana,
İlkin tərlan endi, yoxsa sar endi?

Zinhar sözünü tamam eyləyir ki, bəs Məqsud cavabını versin. Aşıqlar bir-birinin üzünə baxıb, pıçıldaşırlar. Heç kim cavab verə bilmir. Bunu görən camaat, Zinharı kamil aşıq kimi alqışlayırlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Zinharı o gecə Bağdadda qonax saxlayırlar. Səhəri yenə halal-hümmət edib hörmətnən yola salırlar. Xeyli vaxt yol gəlir, çıxılmaz dağlar aşır, çaylar, meşələr keçir, nağıllarda yol tez başa gələr, gəlib Zinhar Hindistana daxil olur. Bir yana gedə bilməyib şəhərin qulağında bir qarıya qonax düşür.

Qarıya bir qədər xərclik verib gəlməsini Mahəfruza bildirməsini qarıdan təvəqqe eləyir. Qarı deyir, bəs nə deyim, deyir apar bu məktubu ver.

Mahəfruz çox sevinir, bir qədər də qarıya muştuluq verir.

Qısa bir cavab yazıb bildirir ki, hər halda atanı görüb onunla məsləhət bir kağız yazır:

Mərhəmətkanı müqəddəs qəbruni,
İnna sən  olarsan dövlətli şahım.
Ərzum budur gözəl yarı görəydim,
Onunçün gəlmişəm dövlətli şahım.

Sədaqətli aşıqları gördünmü?
Möhübbətni sən onlara verdinmi?
Sən də cahillikdən bir gül dərdinmi,
Arzulayıb gəldim dövləti, şahım.

Yetişmiş övliya ərzumanısan?
Mən təki qəribin ruhi-kanısan,
Zən edirəm sən Zinharı tanırsan,
Arzulayıb gəldim, dövlətli şahım.

Zinhar məktubu qarıya verir ki, padşaha çatdırsın. Qarıya ipək qarıyda, bir söz demədən məktubu padşaha çatdırır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Padşah məktubu oxuyub işdən halı olduqdan sonra Zinharı yanına çağırtdırıb deyir:

– Oğlum, çox yaxşı sözlər yazmısan. Elə yazan yaxşı da çalıb oxumalıdır. Bir az çal, əlinin ustalığına da baxaq.

Zinhar baş əyir, bir söz demədən, gümüş telli sazını sinəsinə basır, alır görək nə deyir, deyək şad olun:

**«Divani şikəstə»**

Yaradan xudadan təqdir belədir,
Gəzdirdi abdal tək qərib elləri,
Vücudumda eşq atəşi qövr edir,
Gəzdirdi abdal tək qərib elləri.

Əqlim getdi, düşdüm eşqin narına,
Pərvan tək mayılam yar didarına,
Könlüm qulaq vermir öz qərarına
Gəzdirdi abdal tək qərib elləri.

Kimsə yoxdur hal-əhvalımı alsın,
Canını da eşqin oduna salsın.
Zinhar qulun olsun, qadanı alsın,
Abdal kimi gəzdim qərib elləri.

Hind padşahının Zinharın bu cür gözəl çalıb-oxumağı  çox xoşuna gəldi, dedi:

– Gözəl çalıb oxuyursn, çifayda ki, hələ çox uşaqsan, qəriblikdən çox şikayət eyləyirsən?

Zinhar tab gətirməyib, ürəyi eşq odunda yanır, sazı sinəsinə basıb görək Hind padşahına nə cavab verir:

Yar eşqi var mənim cavan canımda,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kəlam, kitab, namə bil sirriyəm mən.
Yarım görünməyir nəsə yanımda,
Kəlam, kitab, namə həm sirriyəm mən.

Qoy görənlər alsın məndən bir ibrət,
Gah gülürəm, gah da çəkərəm həsrət,
Səyyah olub gah da gəzərəm qürbət,
Kəlam, kitab, namə həm sirriyəm mən.

Müsafir xanədən gəlib köçürdüm,
Durna kimi havalanıb uçurdum,
İnsan keçməyən mənzillərdən keçirdim,
Kəlam, kitab, namə həm sirriyəm mən.

Söz tamam olur. Hind padşahının Zinhardan daha da xoşu gəlib deyir:

– Oğlan, doğrudan da çalıb oxumaqda səndən üstünü yoxdur. Mən səni hər vaxt öz sarayımda saxlayacağam. Di dur get bir bizim evdə dincəl, sonra da bizim ailəyə bir az çal kefləri açılsın.

Zinhar şaha təzim edib hərəmxanəyə daxil olur. Görür Mahəfruz da burdadır. Mahəfruzu görən kimi, heç bir istirahət etmədən sazı sinəsinə basır, alır görək nə deyir:

Diyari qürbətdə mehman olarmış,
Tərki-vətən olub gəzən aşıqlar.
Hər bir zaman kəndi əryan olarmış,
Tərki-vətən olub gəzər aşıqlar.

Ananın atanın üzünə həsrət,
Sevən yarın oldum qaş-gözünə həsrət,
Bülbül tək hey ötən sözünə həsrət,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tərki-vətən olub gəzər aşıqlar.

Ayrılmışam Xorasanın elində,
Bir qucaydım sevən yarın belindən,
Əl uzadıb sığallayıb telindən
Tərki-vətən olub gəzər aşıqlar.

Zinhar özünü nişan verib belə deyəndə Mahəfruzun səbri tükənir, gəlib onun boynunu qucaxlayır, başlayır üzündən-gözündən öpməyə. O biri qadınlar bunu görəndə yan otağa keçirlər. Bu xəbər şaha çatır. Şah əmr verib Zinharı zindana saldırır. Bunu görən Mahəfruz dözə bilməyib, bir baş atasının yanına gedir, ayaqlarına yıxılıb yalvarır.

Nə qədər edirsə, padşah yumşalımır. Axırda Mahəfruz bildirir ki, onu zindandan buraxdırmasa özümü öldürəcəyəm.

Padşah daha da qəzəblənir, hökm verir, Mahəfruzu da zindana saldırır.

Hər iki aşiq-məşuq zindanın qaranlıq bir güşəsinə çəkilərək, bir-birilərinə sarmaşaraq ağlamağa başlayırlar.

Elə bu halda həmin nurani şəxs zahir olaraq deyir:

– Balalarım, heç fikir eləməyin, mən gəlmişəm sizi bu zindandan qurtarmağa. Di durun ayağa.

Zinhar ilə Mahəfruz ayağa qalxdıqda dərviş əsanı divara vurur, o saat yol açılır. Yolun üstündə mayəntacı ilə hazır olan ağ ata Zinharla, Mahəfruz minirlər.

Nurani dərviş deyir:

– Di gözlərinizi yumun.

Hər iki aşiq-məşuqə bir-birilərini qucaqlayıb gözlərini yumurlar. Bir az keçməmiş at dayanır. Zinharla Mahəfruz gözlərini açanda özlərini Xorasanda görürlər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şövkət paşaya xəbər gedir ki, bəs bilməzsən oğlun sevgilisini də gətirib gəlib.

Oğlunun salamat qayıtmasını eşidən Şövkət paşa, yollara piyandazlar döşədir, böyük təmtəraqla oğlunu və gəlinini qarşılayır, 40 gün, 40 gecə toy-düyün çaldırıb, oğlunu Mahəfruzla evləndirir.

Bunların toyuna bir aşıx gəlib hər iki aşıq-məşuqənin macərası əsasında bir dastan yaradır.

## MAHMUD – NİYAR XANIM

### USTADNAMƏ

Bir adam ki, sənnən ülfət eyləyə,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yəqin onun əsl-zatı yaxşıdır.
Namərd leylü-nahar plov yedirtsə,
Mərdin quru məhəbbəti yaxşıdır.

Dad-hazar əlindən pəryarsız sazdan,
Ver qurtar əlindən nəzir-niyazdan.
Gəzəyən gəlindən, güləyən qızdan,
Söyləyən qarıdan lotu yaxşıdır.

Hərcayi sözlərdən bənd olduq başdan,
Sallabaş adamdan, çiyəri daşdan,
Bədnəzər qonşudan, yaman yoldaşdan,
Qədir bilənlərin iti yaxşıdır.

Aşıx Söyün deyər sözünü sağdan,
Şam yanar piltədən, mey çəkər yağdan,
Çörəksiz otaqdan, səbzəsiz bağdan,
Çölün çəmənliyi, otu yaxşıdır.

Ustadlar ustadnaməni bir deməz, iki deyər. Biz də deyək iki olsun, düşmənin ömrü gültək solsun.

Əlli mənəm, altmış mənəm, yüz mənəm,
Dərya mənəm, qəvvas mənəm, üz mənəm.
Yüz il keçsə əlim səndən üzmənəm,
Desələr də yarın getdi yad elə.
Hər kişinin nazlı yarı olmalı,
Yaşamağa dövlət-malı olmalı,
Sevgisinə etibarı olmalı,
Onda bil ki, əli dəyməz yad ələ.

Aləm bilir sən Əlinin gözüsən,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yaxşı saxla yaşmaq altda sözü sən.
Necə qoydun sinəm üstə közü sən,
Demədin ki, ya yandıra, ya dələ.

Bəli, ustadlar ustadnaməni iki deməz, üç deyək üç olsun, düşmənin ömrü puç olsun.

Dedim könül, nanəcibdən kənar gəz,
Bulunmaz odlara atacaq səni.
Nanəcibə bel bağlama dünyada,
Düşmən bazarında satacaq səni.

Yüz üzlü yaltaqla sən çıxma yola,
Başına gətirər bulunmaz bəla,
Quyruğun kəsməklə qurd olmaz tula,
Xainlər dəstinə qatacaq səni.

Növrəs İman, olmagınan diləfkar,
Qarğa laçın olmaz, yüz etsə şikar.
Müxənnət adama etmə etibar,
Axır dar ayaqda atacaq səni.

Xəbəri hardan verim, İsfahan şəhərindən. İsfahan şəhərində Xosa Vahid adlı bir kişi var idi. Onun gözünün ağı-qarası bir oğlu varıydı. Adı da Mahmud idi. Mahmud yeddi yaşına varıb məktəbə gedirdi.

Günlərin bir günündə Mahmud bazarda aşıqların çalıb-oxumasını görüb həvəsləndi ki, nə yaxşı olardı, mən də aşıq ola idim.

O gecə Mahmud aşıq olmaq həvəsiylə yuxuya getdi. Yuxuda ona bir badə verib nuş etdirdilər. Badəni içəndən sonra Mahmud ona mey verən nurani şəxsin əlindən bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

əksi görüb xəbər aldı ki, baba, bu gözəl xanım kimdir ki, mənim əqlimi başımdan çıxartdı. Nurani qoca cavab verdi ki, bu qız İstambullu Güldüm paşanın qızı Niyar xanımdı. Qoca sözlərini deyib qeyb oldu.

Səhər açılcaq Mahmudun halından xəbər tutub ahı-fəğan etməyə başladılar. Mahmudun dərdini tapa bil-məyib onun başına dünyagörmüş qarılardan topladılar ki, bəlkə onlar buna çarə tapalar. Qarılar gəlib hərəsi bir söz dedi. Biri dedi:

– Oğlanı ilan vurub.

O birisi:

– Büyə dişləyib – dedi.

Amma qarılardan bir dünyagörmüşü irəli yeriyib dedi:

– Niyə hərəniz bir avaz çəkirsiniz? Bu oğlana heç nə olmayıb, ancaq buta verilib. Heç işiniz olmasın, o, özü ayılacaqdır.

Qoca qarıya pul verib qarıları yola saldı. Mahmud isə bir sutka tamam olana qədər yatdı. Bir sutka tamam olandan sonra ayıldı.

Ata-anası, qohum-qardaşı onun əhvalını xəbər al-dıqda Mahmud cavab verdi ki, mənə saz versəniz, sizə sazla cavab verərəm.

O saat bir saz aldırıb Mahmud verdilər. Mahmud sazı alıb basır sinəsinə görək yığılanlara nə cavab verir:

**«Qafiyə»**

Bixəbərdən xabe oldum, qazılar,
Yeddi qat ərşin pərdarı gördüm.
Nagahdan zühr oldu Həzrəti Xızır,
Məğriblə məşriqdə diyarı gördüm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yalovlanıb canım dönübdü oda,
İnşallah fələk də yetişər dada.
Məni yetirər istədiyim murada,
Bağlarında heyvanı, narı gördüm.

Bil Mahmudu saldı böylə atəşə,
O gözəl yar ilə durdum yanaşa.
Ax gəzəydim bir onunla qoşa,
Diyar İstambulda Niyarı gördüm.

Mahmuda nə qədər öyüd, nəsihət verdilərsə də, Mahmudun fikri qızın dalınca qalmışdı. Getməkdən savayı bir çarə olmadı. Ata-anasının əlacı kəsilib Mahmud üçün yol tədarükü gördü. At, silah, azuqə hazırladılar. Mahmud atına süvar olub, ata-ana, qohum-əqrabasıyla bəylə vidalaşdı:

**«Şikəstə kəraməsi»**

Bir rüxsət istərəm gözüm anadan,
Ana, ata, bu gün rüsxət günüdü.
Ölüm fərz oldu fəna dünyadan,
Ana, ata, bu gün rüsxət günüdü.

Anası:

Sənə rüsxət verməк xeyli gümandı,
Bizi bu dərdlərə salma, can bala.
Bu gün ayrılığın axır zamandı,
Bizi bu dərdlərə salma, can bala.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mahmud:

Mən ömrümü ana, badə vermişəm,
Qızılgülü dəstə-dəstə dərmişəm.
İstambulda mən Niyarı görmüşəm,
Ana, ata, bu gün rüsxət günüdü.

Anası:

Sən gedəndə mən necə dözüm, Yarəb,
Yandı bağrım, oğul, bil oldu kabab.
Kim üçün bəzədin yaraqi-əsbab,
Getmə, oğul, getmə aman günüdü.

Mahmud:

İstəmirəm, ana, baxçadan, bardan,
Bil meylim yoxdu sən deyənlərdən.
Mahmudam, ayrılmam o nazlı yardan,
Ana, ata, bu gün rüsxət günüdü.

Anası:

Sən gedəndə necə dözüm burada,
Sənsiz necə dözüm, fani dünyada.
Oğul-oğul deyib yan, Pərizada,
Bizi bu dərdlərə salma, can bala.

Mahmud anasıyla halallaşıb birbaş İstanbula tərəf yol getməyə başladı. Yolda bir meşəliyə düşüb meşədə yolu azdı. Gecə qaranlıqda meşədə qalaraq, götürüb sa-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

zını görək nə deyir:

**«Qafiyə»**

Nə yaman olubdu hallarım mənim,
Qədir xuda, istərəm ya sənnən mədəd.
Könlüm arzulayır görə vətənim,
Qədir xuda, istərəm ya sənnən mədəd.

Qəm yükünü yükləmişəm binədən,
Dərdi-qəm hicranıyam fənadan.
Mən rüsxət almışam ata-anadan,
Qədir xuda, istərəm ya sənnən mədəd.

Cida olub düşdüm qərib ellərə,
Bülbül olub heç qonmaram güllərə.
Qurban olum şirin deyən dillərə,
Qədir xuda, istərəm ya sənnən mədəd.

Gənc ikən cavan ömrüm zay oldu,
Axıdıban gözüm yaşı çay oldu.
Düşübən çöllərə heyvanlara tay oldu,
Qədir xuda, istərəm ya sənnən mədəd.

Bil Mahmudun ömrü keçdi meşədə,
Qızılgül dərilməli, bənövşə də.
Sövdam heç gəlmədi bil ki, başa da,
Qədir xuda, istərəm ya sənnən mədəd.

Mahmud meşədə atını bir ağaca bağlayıb, özü qovaq ağacına çıxıb yatır. Həmin meşədə ovçular var imiş. Bunlar gəzinə-gəzinə gəlib Mahmudun atına rast gəlirlər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ovçulardan biri əli ilə atı açıb aparmaq istərkən Mahmud ağacdan sazını çıxarıb deyir:

**«Qafiyə»**

Sevərsiz Allahı, aman haram başı,
Mənim atım aparmayın, amandı.
Gözlərimdən axıtmayın qanlı yaş,
Mənim atım aparmayın, amandı.

Cavan ikən özümü çöllərə saldım,
Qəmi-hicran canına daldım.
Yolum azıb qaranlıq meşədə qaldım,
Mənim atım aparmayın, amandı.

Mən bülbüləm, qızılgülə yetmədim,
Sevən yarla sarmaşıban yatmadım.
Çöllərdə qalıb muradıma çatmadım,
Mənim atım aparmayın, amandı.

Ol yaradan məni çöllərə saldı,
Sövdüyümün gözü yollarda qaldı.
Anamın duvası ol qəbul oldu,
Mənim atım aparmayın, amandı.

Siz Allah, incitməyin mənim atımı,
Bilmək istərsiz Mahmudun zatını.
Amandı, artırmayın dərd xiffətini,
Mənim atım aparmayın, amandı.

Ovçular ağacdan səs eşitcək xofa düşüb atı aparmayıb gedirlər. Ovçular gedəndən sonra Mahmud arxayın olub yuxuladı. Aləmi-royada Mahmudun gözünə yenə də badə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

verən nurani şəxs görükdü. Həmin qoca Mahmuda dedi:

– Mahmud, deyəsən sən yollara yalqız düşmüsən? Budur, Təbrizli Qəmbər adlı bir cavanı sənə qardaş verirəm. Sənə həmdərd olar. Haydı, get, o sənin yolunu gözləyir.

Səhər açılan kimi Mahmud ağacdan düşüb atını mindi. Meşədən çıxmağa yol arayırdı. Birdən cınqıltı səs eşitdi, səs tərəfə getdi, gördü ki, bir karvan dəstəsi gedir. Mahmud karvan sahibi Bəziryan başının qabağına çıxıb ona deyir:

**«Qafiyə»**

Başına döndüyüm, bəziryan xoca,
Xocam, bu yol İstambula gedərmi?
Gündüzündən betər olubdu gecəm,
Xocam, bu yol İstambula gedərmi?

Xoca:

Başına göndüyüm, qurban olduğum,
Gəl getməynən, oğul, qayıt, dön bəri.
Ala gözlərinə heyran olduğum,
Gəl getməynən, oğul, qayıt, dön bəri

Mahmud:

Yar əlindən bir piyalə içmişəm,
Bu gün namərd ilə mərdi seçmişəm.
Bir yarın sorağına düşmüşəm,
Xocam, bu yol İstambula gedərmi?

Xoca:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu dünyada yetmiş iki bəndə var,
Kimi qara gündə, kimi hicranda var.
Mal, dövlət istəsən, o da məndə var,
Gəl getmə, oğul, qayıt, dön bəri.

Mahmud:

Atam Xoca, məni yoldan eyləmə,
Tiğ vurub, ciyər bağrım teyləmə.
Gülüm Xoca, elə sözü söyləmə,
Xocam, bu yol İstambula gedərmi?

Xoca:

Azıban yolları qalarsan çöldə,
Durnalar havalanıb üzərlər göldə.
Bülbüllər cəh-cəhlə oxuyar güldə,
Gəl getmə, oğul, qayıt, gəl bəri.

Mahmud:

Xoca, haqdan belə qismət olubdu,
Dərdim artıb, gül camalım solubdu.
Sevgilimin gözü yolda qalıbdı,
Xocam, bu yol İstambula gedərmi?

Xoca:

Oğul, sənin qamətində gözüm var,
Aman bala, sənə şirin sözüm var.
Bir dənə də nazlı-nazlı qızım var,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gəl getmə, oğul, qayıt, dön bəri.

Mahmud:

Söylə, varmı mən tək sinə dağlayan,
Şeyx Sənan kimi zinhar bağlayan.
Adım Mahmud, Xoca Vahid oğluyam,
Xocam, bu yol İstambula gedərmi?

Xoca:

Xoca Osman deyər, mənzil haradan,
Sənə kömək olsun bizi yaradan.
Əlin üzülməsin sevgili yardan,
Gəl getmə, oğul, qayıt dön bəri.

Xoca nə qədər elədisə, Mahmud qayıtmadı. Nəhayət, əlacsız qalıb İstambula gedən yolu Mahmuda göstərdi. Mahmud haman yolu tutub getməkdə oldu. Bir neçə vaxtdan sonra gəlib Təbriz şəhərinə çatdı. Təbrizli Qəmbər də Mahmudun yolunu gözləyərək, bir körpü üstündə durmuşdu ki, birdən Mahmud ilə üzləşdi. Mahmud Qəmbəri tanıyıb görüşdü, sazını çıxarıb sinəsinə basdı, görək nə dedi:

**«Dubeyt»**

Uca dağları aşmışam,
Yolum düşdü qərib elə.
Dərdi-qəmə mən düşmüşəm,
Mayıl oldum qızıl gülə.

Aldı Qəmbər:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qardaş özünü yetirdin,
Səfa gəldin, qardaş, sən səfa.
Cəmi mətləbin bitirdin,
Səfa gəldin, qardaş, sən səfa.

Mahmud:

Gəlib meşələrdə qaldım,
Eşqin oduna doldum.
Tuşumda mən səni gördüm,
Qurban olum şirin dilə.

Qəmbər:

Cün dərdimi hizləyirdim,
Ah çəkibən sızlayırdım,
Qardaş yolun gözləyirdim
Səfa gəldin, qardaş, sən səfa.

Mahmud:

Eşq ucundan sinə dağlıyam
Dərdimi kimə ağlıyam?
Mahmudam, Vahid oğluyam,
Qardaş, gəldim sizə elə.

Qəmbər:

Qəmbərəm, gözüm aydın,
Dərdi qamətimi əydin.
Sevdiyim gözü yolda qoydun,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səfa gəldin, qardaş, sən səfa.

Söz tamam olandan sonra Qəmbər Mahmudu öz evinə apardı. Qəmbərin anası Mahmudun aşıq olduğunu bilib oğluna dedi:

– Oğul, mənim evimə aşıx-maşıx gətirmə. O səni də ədəməl edib dərbədər edər, rədd elə getsin.

Qəmbər isə anasına avər etməyib qardaşlığını o gecə saxladı. Səhərisi Mahmudla getmək üçün anasından rüsxət ala bilmədiyindən Mahmud təklif edir ki, qarını sazla razı salsın. Mahmud sazını sinəsinə müstəhkəm edib deyir:

Sənə qurban olum, gül üzlü ana,
Ana, halal eylə biz gedər olduq.
Arif olan bu işləri tez qana,
Ana, halal eylə biz gedər olduq.

Qarı dedi:

– Gedirsən get, özün get, bir gecə qonax qalmağın bəs deyil, hələ mənim oğlumu aparmaq istəyirsən?

Aldı Mahmud:

Ördək, qazın meyli sona gölədir,
Cavanların eşqi cığa telədir.
Bizlərdə adətlər indi belədir,
Ana, halal eylə biz gedər olduq.
Aman ana, bir qulaq as sözümə,
Tutmaginən təqsirimi özümə.
Necə dözüm yarın şirin sözünə,
Ana, halal eylə biz gedər olduq.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Diləmişəm haqdan gələn diləyi,
Halal eylə verdiyin südü, əməyi.
Xudadan istərəm bizə köməyi,
Ana, halal eylə biz gedər olduq.

Ana, sən bax bu dünyanın təhrinə,
Necə dözüm qızılgülün qəhrinə.
Mahmudla Qəmbər İstambul şəhrinə,
Ana, halal eylə biz gedər olduq.

O günü qarı oğlunun aparılmasına qəti razı olmayıb Mahmudun xahişini rədd etdi. Mahmud o gecəni də qalıb səhəri Qəmbər təklif elədi ki, qarını hər halda razı salmalıdır. Odur ki, Qəmbər anasını aldadaraq bir dəhrə və bir çatı alıb dedi:

– Ana, qoy qonağı meşəyədək uzatım. Həmi də şələ odun gətirim.

Bunlar bu minvalla yola düşməkdə olsun, sizə xəbər verim İstambuldan. İstambulda Güldüm paşanın qızı Niyar xanım hər hansı aşıx görürdüsə, onunla deyişib sazını alırdı. Güldüm paşanın əyyarı paşaya bir gün sözgəlişi dedi:

– Paşam, siz niyə belə haqsız iş görürsüz. Niyar xanım nə haqla bu qədər aşığın çörəyinə bais olur. Olmaz ki, onun şəklini çəkib şəhərin darvazasından asasınız ki, qızınla yarışmağa layığı tapılarsa, o gəlsin deyişsin və məğlub olanda da o bir nəfərə cəza verilsin.

Əyyarın sözü paşanın beyninə batıb o dediyi kimi eylədi və şəkil asılan yerdə də qaraul qoyuldu ki, baxsın görsün qızı ilə deyişməyə kimin rəyi var. Sizə kimdən söyləyim indi Mahmudla Qəmbərdən. Bunlar hər ikisi İstambula yaxın bir şəhərə çatırlar. Bu şəhərdə Mahmud darı-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

xıb götürüb görək nə deyir:

Ayrıldıq vətənimizdən,
Tapammadıq bir çarə biz.
Bezdik şirin canımızdan,
Vurduq ona min yarə biz.

Qəmbər:

Mahmud qardaş, gəl ağlama,
Muradımıza irərik biz.
Bu həsrətlə ciyərimi dağlama,
İnşallah butamıza yetərik biz.

Mahmud:

Mən ahlar çəkib ağlaram,
Həsrət ciyərmi dağlaram.
Ömrümə qara bağlaram,
Yetişmədik nə yarə biz.

Qəmbər:

Cida düşdük biz çöllərə,
Bülbül də qona güllərə.
Gedərik necə ellərə,
İrərik muradımıza biz.

Mahmud:

Mahmudun sözü şirindi,
Gözündən axan irindi.
Burda qalmaq bir yerindi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İndi çəkərlər dara bizi.

Qəmbər:

Qəmbər deyər şad gülərəm,
Ellərdə qərib qalaram.
Dərdin, qadanı alaram,
İrərik muradımıza biz.

Mahmudla Qəmbər bu şəhərdə gecə qaldıqdan sonra İstambula yola düşürlər. Bir neçə gündən sonra İstambula çatdırlar. İstambulun darvazasındakı şəkli Mahmud görən kimi, vaqiədə gördüyü qız olduğunu bilib, dərhal sazını çıxartdı, görək nə dedi:

**«Qafiyə»**

Qəmbər qardaş, gözlərin aydın olsun,
Budur gül üzlü yarım gördüm.
Bu gün ölsəm, meylim yoxdur dünyada,
Ala gözlü nazlı yarım gördüm.

Didərgin düşmüşəm, yar sorağına,
Nişanı aşkardır gül yanağına.
Şəkili çəkilmiş yol qırağına,
Bu dünyanın bərabərin görmüşəm.

Gəzə-gəzə gəlib çatdım yanına,
Bülbül olub qonaydım gülşanına.
Al-yaşıl bəzənibdir donuna,
Qoynundakı qoşa narı görmüşəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Pərvanə tək eşq oduna yanaram,
İndi necə alışıban sönərəm.
Sevdiyimdən ayrı düşüb kənaram,
Heyva tək rəngini sarı görmüşəm.

Mahmudun dediyi doğru sözüdür,
Şəkili çəkilmiş yarın özüdür.
İstambullu Güldüm paşa qızıdır,
İsmin deyim, mən Niyarı görmüşəm.

Qaravolçular irəli gəlib dedilər:

– Aşıq, sən bu sözləri şəkiləmi deyirdin?

Qəmbər işin gerisindən qorxub dedi:

– Ay kişilər, bu aşıq-zad deyil, ağzına gələni deyir.

Bu danışığı eşidən Mahmud götürür sözünün mabədini görək nə deyir:

Zərrafa yalan satarsan,
Tuccar, səndən ləl istərlər.
Zanbursan, dağlar çiçəyi,
Cana səndən bal istərlər.

Aşalı, dağlar aşalı,
Əqlim başımdan aşalı.
Yox səndə aşıqlıq nişanı,
Səndən doğru yol istərlər.

Əyninə geymisən abı,
Sən kəsdin didəmi xabı.
Qəmbər çəksin haq-hesabı,
Mahmudnan Niyar istərlər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu sözü eşidən kimi qaravullar bunların hər ikisini tutub Güldüm paşanın hüzuruna apardılar. Güldüm paşa məsələni başa düşüb bunları sorğu-sual edir, Niyar xanım da aşığın tutulmasını eşidir, gəlir pəncərənin dalından baxaraq Mahmudu tanıyır. Mahmudun gözü Niyara düşən kimi alır, görək nə deyir:

**«Dübeyt»**

Özüm qərib elə saldım,
Durna tək baxan gözəl.
Yarı görüb eşqə daldım,
Canım eşqə yaxan gözəl.

Eyvana çıxıban durarsan,
Tovuztək boynun burarsan.
Kim ilə dövran sürərsən,
Düyməlidi yaxan, gözəl.

Salıbsan məni kəməndə,
Ağlım getdi səni görəndə.
Söhbəti şirin, bənzər qəndə,
Sirrimi sən qan, gözəl.

Nə durursan, mələkzadə,
Gəlmişəm mən aman-dada.
Yetginən sən fəryada,
Qurulubdu divan, gözəl.
Gül gəlib qonub budağa,
Verrəm fəğirə sadağa.
Tanımaram nə xan, ağa,
Eylə dərdə dərmani, gözəl.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ahım qalmaz mənim yerdə,
Divan vardı uzaq pirdə.
Mahmudu salmısan dərdə,
Sən də mən təki yan, gözəl.

Paşa deyir:

– Ay kişi, sən nə çərən-pərən danışırsan? Biz səndən nərəli olduğunu, nəçi olduğunu soruşuruq, əmma sən ağzına gələni səyləyirsən. Ayə, de görüm, nə karəsən?

Aldı Mahmud cavabında belə söylədi:

**«Dubeyt»**

Paşam, qulaq as sözümə,
Yanına dada gəlmişəm.
Yarım göründü gözümə,
Yanına dada gəlmişəm.

Dürlü badələr içmişəm,
Ol səbəbdən dərdə düşmüşəm.
Eşqi dolub mən çalmışam,
Yanına dada gəlmişəm.

Qısa olubdu dilimiz,
Mahmud deyər bülbülümüz.
İsfahandır elimiz,
Niyara dada gəlmişəm.

Paşa bu sözləri eşidən kimi əmr edir ki, Mahmudun boynu vurulsun. Əyyar söz alıb dedi:

– Paşam, niyə bu qədər camaatin içində bunu öldürürsən. Yaxşısı budur ki, bunları zindana saldırasan, sonra isə xəlvətdə çöldə aparıb öldürərsən. Yoxsa camaat sizi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ədalətsiz hesab edər.

Güldüm paşa bu tədbiri qəbul edib Mahmudla Qəmbəri zindana saldırdı. Zindanda Mahmud öz bəxtindən şikayətlənərək dedi:

**«Kərəm şikəstəsi»**

Qəmbər qardaş, bu nə zülüm görürük,
Qadir Allah, özün yetiş imdada.
Cavan ömrümüzü zindanda sürürük,
Qadir Allah, özün yetiş imdada.

Çərxi fələk bizi dərdlərə saldı,
Ata-anamızın gözü yollarda qaldı.
Yarın atası şirin canımıza qıydı,
Qadir Allah, özün yetiş imdada.

Mən Mahmudam, dad çəkibən ağlaram,
Ciyərimə yaraları bağlaram.
Deyin necə mən bu zindanda qalaram?
Qadir Allah, özün yetiş imdada.

Niyar xanım Mahmudun həbsə salınmasını bilib, ona əlli yumurta göndərib tapşırdı ki, o yumurtaların tamam sarısını çalıb bədəninə sürtsün. Onu öldürmək istəsələr sarılıq azarına düşən bilib buraxsınlar. Çünki onların qanununda xəstə adamı öldürmək qadağandır.

Mahmud Niyar xanımın tapşırdığı kimi elədi, əlli yumurtanın hamısını qırıb bədəninə sürtdü, özünü azarlığa saldı.

Güldüm paşa və Niyar xanımın nişanlısı – vəzirin oğlu ova getmək mahnısı ilə istədilər ki, Mahmudu zin-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dandan çıxarıb öldürməyə aparsınlar. Gəlib zindanın ağzını açdırdılar, onu gətizdirdilər. Baxanda gördülər ki, dümsarıdı, xəstə bilib aparmadılar. Onun əvəzinə Qəmbəri apardılar. Bunlar ova gedəndən sonra Niyar xanım adam göndərdi ki, Mahmudu çimizdirib öz yanına gətirsin. Qulluqçu qız Mahmudun yanına gedib onu çimizdirdikdən sonra Mahmud qızı Niyar bilib qarabaşı qucaqladı. Mahmudun bu hərəkətinə Hürü qulluqçu dedi:

**«Dübeyt»**

Bizim yerdə olsan müdam,
Oğlan, qoy məni, qoy məni.
Səsmizə gələr bir adam,
Oğlan, qoy məni, qoy məni.

Aldı Mahmud:

Haqq mənə qismət yetirdi,
Qız, əldən qoymaram səni.
İr neçə mətlub bitirdi,
Qız, əldən qoymaram səni.

Qız:

Bülbüllər gülə qonar,
Eşqin oduna yanar.
Asta sıx, şamama sınar,
Oğlan, qoy məni, qoy məni.

Mahmud:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bülbüləm, gülə qonaram,
Zərgərəm, gümüş yonaram.
Mən də bu dərdə yanaram,
Qız, əldən qoymaram səni.

Qız:

Baxçalarda barım var,
Heyvalarnan narım var.
Niyar təki yarın var,
Oğlan, qoy məni, qoy məni.

Mahmud:

Baxça barı neylərəm,
Vəcsiz narı neylərəm.
Özgə yarı neylərəm,
Qız, əldən qoymaram səni.

Qız:

Mənim könlüm zəifdir,
Gül butağın əyibdir.
Amandı, oğlan, ayıbdır,
Oğlan, qoy məni, qoy məni.

Mahmud:

Mən bülbüləm, gülüm var,
Şirin-şirin dilim var.
Sən təki bülbülüm var,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qız, əldən qoymaram səni.

Qız:

Hürüdə qalan bir səsdi,
Oğlan, səndə həvəsidi?
Öpdüyün, qucduğun bəsdi,
Oğlan, qoy məni, qoy məni.

Mahmud:

Mahmudam, burda qaldım,
Qolları boynuna saldım.
Ağ üzündən busə aldım,
Qız, əldən qoymaram səni.

Nə isə Hürü oğlanı çimizdirib xanımının yanına apardı. Hər iki sevgili bir-birini görən kimi ilan kimi bir-birinə sarmaşırlar. Niyar xanım Mahmuda bir qırağı naxışlı yaylıq bağışladı. Bunlar burada qalsın, eşqbazlıqda olsun, sizə xəbər verim paşadan. Paşa ovda Qəmbəri öldürmək istərkən yenə də əyyarı razı olmayıb dedi:

– Paşa sağ olsun, yaxşı olar ki, bunu Mahmudla bir yerdə öldürərsən.

Odur ki, Paşa bir aylıq şikar səfərindən qayıtmağa başladı. Bunlar şəhərə girər-girməz sədr-əzəmlər böyük, kiçik, o cümlədən Mahmud da qarşıya çıxdılar. Qəmbər qarşıya çıxanların içindən Mahmudu tanıyıb götürür görək nə deyir:

**«Dübeyt»**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şükür olsun ol Xudaya,
Göründü, qardaş göründü.
Bağlara dərilmiş gülü,
Göründü, qardaş göründü.

Mahmud:

Qardaş, bu gün yar sevmişəm,
Başında əlvanası var.
Qəsd etmişdi can almağa,
Əlində tər xınası var.

Qəmbər:

Dərin dəryalara dalma,
Lələyinən gəhər alma.
Yaylığın ucun yerə salma,
Göründü, qardaş göründü.

Mahmud:

Dərin dəryaya dalmışam,
Ləl ilə gəhər almışam.
Yardan yadıgar almışam,
İçində gülparası var.

Qəmbər:

Çox gəzdim bu çöllərdə mən,
Qaldım qərib ellərdə mən.
Yetmədim güllərə də mən,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Göründü qardaş göründü.

Mahmud:

Şükür qardaşım görmüşəm,
Mən dövranımı sürmüşəm.
Yarın sözünə irmişəm,
Qoynunda da yuvası var.

Qəmbər:

Açıldı dükan-bazarı,
Canıma düşüb azarı.
Yandırdı qardaş, Qəmbəri,
Göründü, qardaş göründü.

Mahmud:

Mahmudam, köştə çıxaram,
Bülbüləm, gülə baxaram.
Adını deməyə qorxaram,
Yanında xan balası var.

Vəzir Mahmudun cibindən sallanan, Niyar xanıma oğlu üçün nişan əvəzinə verdiyi yaylığı görüb cəld atını sürüb onu cindən dartıb Güldüm paşaya verir. Kinayə ilə: Qızın öz əvəzinə yaylığını qarşınıza göndərib, – dedi.

Paşa hirslənib Mahmudla Qəmbərin qollarını bağlatdırıb dəryaya atılmalarını tələb elədi.

Niyar bu əmri eşitcək zar-zar ağlamağa başladı. Bunu görüb Mahmud qəmginləşdi, götürdü görək Niyar xanımın ağlamasına nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**«Dübeyt»**

Gəlib qarşımda durma,
Ağlama, Niyar, ağlama.
Ciyərimə dərdi vurma,
Ağlama, Niyar, ağlama.

Dəryaya atılan bir daş,
Gözümdən axan qanlı yaş.
Amanat Qəmbər qardaş,
Ağlama, Niyar, ağlama.

Gözümün yaşı çay oldu,
Ağlamaqdan bil zay oldu.
Bir yaylıq mənə pay oldu,
Ağlama, Niyar, ağlama.

Mahmudam bəxtim qara,
Kim eyləyər dərdə çara.
Ciyərimə vurdu yara,
Ağlama, Niyar, ağlama.

Söz tamam oldu. Niyar xanım gördü, yarından onu ayırmaq istəyirlər. Mahmudu əldən gedir. Özünü saxlaya bilməyib dedi:

Niyar:

Gəl deyəndə gəlməseydin,
Özün oda salmaseydin,
Əmanətim almaseydin,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gedər əldən, yarım əldən.

Mahmud:

Sən ki, mənə gəl dedin,
Danışıban gül dedin.
Hər dərdimi bil dedin,
Gedərəm, dəryaya gedərəm.

Niyar:

Sən gedərsən, mən gələrəm,
Özümü dərdə salaram.
Mən belə ataşdə qalaram,
Getdi, yar əldən getdi.

Mahmud:

Sən eylədin bu zülümü,
Mənə qismət etdin ölümü.
Düşmana qoydun gülümü,
Gedərəm, dəryaya gedərəm.

Niyar:

Niyaram, gözüm qanlı yaşlı,
Danışaram gülnən xoşlu.
Sən olmusan gözü yaşlı,
Getdi, yar əldən, getdi.

Mahmud:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mahmudam, burdan gedərəm,
Qara bağrımı didərəm.
Babana minnət edərəm,
Getdim, dəryaya getdim.

Söz tamam olan kimi Mahmudla Qəmbər dərya kənarına aparıldıqda Niyar onların dalınca deyir:

Dəryalar abı geyinsin, dəryalar qara,
Dilim necə tutsun, yarım, vay deyim.
Ürəyim yaradır, ciyərim para,
Dilim necə tutsun, yarım, vay deyim.

Tərk etdim bülbülümü gülşanımı,
Yoluna qoymuşam şirin canımı.
Öz əlimlə etdim öz divanımı,
Dilim necə tutsun, yarım, vay deyim.

Mən Niyaram, özüm verrəm ölümə,
Bir od düşdü gülşanıma gülümə.
Siyah tellər tökülübdü əlimə,
Dilim necə tutsun, yarım, vay deyim.

Niyarı ağlıyan görən Güldüm paşa əmr elədi ki, Niyarı da Mahmudla bir sandığa qoyub dəryaya axıtsınlar. Söylədi ki, elə qız mənə lazım deyil.

Paşanın əmrilə Niyar xanım ilə Mahmudu sandığa qoyub tulladılar dəryaya.

Qəmbərə isə behuştəri (beşdarı) verib, bihuş salıb dənizin kənarında qoydular.

Qəmbər xeyli vaxtdan sonra özünə gəlir, baxır görür ki nə Mahmud var, nə də Niyar. Dərhal qayıdır Güldüm



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

paşanın evinə ki, bəlkə Mahmudu tapa. Orda da tapmayıb görək nə deyir, necə deyir:

**«Kərəmi şikəstə»**

Hündür alçağa çəkildi başım,
Qanlı saray, xan Mahmudu neylədin?
Tökülsün kərpicin, dağılsın daşın,
Qanlı saray, xan Mahmudu neylədin?

Sən ey fələk, məni saldın fəğana,
Şirin canım bil ki, dönübdü qana.
Tək qalmışam mən burada yana-yana,
Qanlı saray, xan Mahmudu neylədin?

Bizi görən gözlərə tikanlar batsın,
Şəhər veran olub işıqlar sönsün.
Başına qara geyib çərxi dolansın,
Qanlı saray, xan Mahmudu neylədin?

Gedib mən özümü dəryaya atam,
Var başımda bilirəm ki, bir xatam.
Qadir Allah, mən muradıma çatam,
Qanlı saray, xan Mahmudu neylədin?

Bu qarğışdan sonra Güldüm paşanın evi uçub dağıldı. Qəmbər oradan dərya kənarına qayıdıb tor atan balıqçılara rast gəlir. Onlardan Mahmudla Niyarı soruşub deyir:

Dərya qırağında gözəl torçular,
Allah üçün məni sudan keçirin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gözü yolda qalan güllər açılar,
Allah üçün məni sudan keçirin.

Dərin dəryadır keçə bilmirəm,
Sirr sözüm düşmənə aça bilmirəm.
Namısla qiryətdi qaça bilmirəm,
Allah üçün məni sudan keçirin.

Fələk salıb mənim tərsə işim,
Axıdıb gözlərindən qanlı yaşım.
Dəryada qərq olubdu mənim qardaşım,
Allah üçün məni sudan keçirin.

Görürsüz çəkirəm mən belə ahı,
Sevərsiniz bizi yaradan Allahı.
Siz tanrı, siz Allah o mövlanı,
Allah üçün məni sudan keçirin.

Mən də burada qərq oluban qaldım,
Pərvanə tək özümü eşqinə saldım.
Biçarə Qəmbərəm, dəryaya daldım,
Allah üçün məni sudan keçirin.

Balıqçılar Qəmbərin dediyinə əməl etməyib, öz işlərində oldular. Qəmbər isə «Ya Allah» deyib özünü yığışdırdı və bir addımda dəryada üzən, Mahmudla Niyar olan sandığın üstünə düşdü. Sandıq su ilə gedərək İstambulda Niyar adlı bir şəxsin bağının bərəsinin ağzında durdu. Bağban suyun kəsildiyini görcək bayıra çıxıb gördü ki, bir sandıq bərənin deşiyini kəsib, amma üstündə də bir nəfər oturmuşdur. Sandığı bağa gətirib ağzını açdıqda gördü ki, bu sandıqda iki cavan qol-boyun olub, tər tökə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tökə yatırlar. Bağban Qaraca oğlan sazını götürüb dedi:

Nə dillənirsən siyahi saz,
Sənin əslin ağacdandır.
Oynasın ördəklə qaz,
Donu xurma ağacdandır.

Maşallah ev-eşiyi,
Nə əcayıbdır döşəyi.
Məryam ananın beşiyi,
Bilsən o da ağacdandır.

Qaraca oğlan olar asi,
Getməz ürəyimin pası.
Nuh peyğəmbərin gəmisi,
Bilsən, o da ağacdandır.

Söz tamam olur. Sandığın içindəkilərə nəzər yetirib onların bir-birlərinə sarmaşıq kimi sarınıb yatdıqlarını görərək deyir:

Ay ağalar, Şıx Nəsirin bağında,
İki gül sarmaşıb bir-birinə.
Biri solundadır, biri sağında,
İki gül sarmaşıb bir-birinə.

Görəydim bunları asan kim imiş?
Hərami yolların kəsən kim imiş?
Görən bu güllərdən xüsən kim imiş?
İki gül sarmaşıb bir-birinə.

Cəmalları bənzər bədrələnmiş ayə,
Qaşları oxşayır çəkilmiş yayə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ya Rəbb, kim atıbdır bunları dəryayə?
İki gül sarmaşıb bir-birinə.

Qaraca oğlan oldu bu işdən ası,
Getməz heç ürəyindən pası.
Çərxi fələk versin davası,
İki gül sarmaşıb bir-birinə.

Bağban Mahmudla Niyarı və Qəmbəri apardı Şıx Nəsirin yanına. Şıx Nəsir bunlardan halı-qəziyəni öyrənib qırx gün, qırx gecə toy çaldırıb Niyarı Mahmuda köçürtdü. Toydan sonra Şıx Nəsir Mahmuda dedi:

– Oğul, budur sizi muradınıza çatdırdıq. İndi istəyirsən burada qal, istəyirsən ata-ananın yanına gedin. İxtiyar sizindir.

Mahmud Şıx Nəsirlə halal-hümmət edib vətəninə doğru rəvan oldu.

Bunlar bir şəhərə çatıb gördülər ki, bu şəhərdə padşah öldüyü üçün yenidən padşah seçmək üçün quş uçururdular. Quş isə havada dövrə vurub gəlib Mahmudun başına qondu. Quş uçurdanlar quşun Mahmudun başına qonmasını hesaba keçirməyib Mahmudu aparıb bir xarab dəyirmana saldılar. Quşu təkrar uçurduqda yenə də gedib dəyirmanın damına qondu. Şəhərin sədr-əzəmləri dedilər:

– Yəqin bu adam nəcibzadədir. Olmasa, quş nahaqdan onun başına qonmaz.

Elə bu sözə görə də Mahmudu bu vilayətin şahı seçdilər. Mahmud taxta çıxıb Qəmbəri də özünə vəzir təyin elədi.

Bir gün Mahmud şah Qəmbərə dedi:

– Qəmbər, get şəhəri gəz. Bir gözəl seç, səni evləndirək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qəmbər razı olub, gedib bir keçəl, kor, lal, çolaq qız tapıb Mahmud şaha təklif edir ki, onu alsın. Mahmud şah:

– Bundan yaxşısını tapmadınmı? – deyib, təəccüb eylədikdə deyir:

Qəmbər qardaş, gözlərin aydın olsun,
Hardan gətiribsən sən bu murdarı?
Sənə həmişə bu ağ gün olsun,
Hardan gətiribsən sən bu murdarı?

Heç kim buna etməz həvəsi,
Hardan gətirdin bu murdar kəsi.
Başı keçəl, saçı sirkə yuvası,
Hardan gətiribsən sən bu murdarı?

Mahmud versin sənə belə öyüdü,
Qolu çolaq, ayaqları həm gütü.
Axıb gedir üstən hər sirkəsi, biti,
Hardan gətiribsən sən bu murdarı?

Qəmbər cavab verdi ki, qardaş əli çolaqdır, oğurluq etməz, axsaqdır pis yerlərə getməz, kordur naməhrəm görməz, keçəldir başqasının mənzuru olmaz, elə bu yaxşıdı.

Əlqərəz, belə dilxorluqdan sonra pinti qızı yola salıb, Qəmbər üçün bir gözəl qızı gəlin gətirdilər. Qırx gün, qırx gecə toy eyləyib onları kəbin etdilər. Hamısı şad-xürrəm gün keçirib Mahmudun ömrünə duva eyləyiblər.

Məclisdə olan aşıq irəli yeriyib təzə gəlinin şəninə belə bir tərif dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu canım qurban boyuna,
Sərv boyu bala gəlin.
Şərbəti şöydü-şəkər,
Ləbində piyala gəlin.
Heyranam qaşa, gözə,
O sərraf kamala gəlin.
Səni görən kimsənə,
Tez gələ zavala gəlin.

Oğrun baxır, evlər yıxır,
Bir belə insan olarmı?
Bu hüsnüdə vəcahətdə,
Behiştdə qılman olarmı?
Gözəllikdə bərabəri,
Yusifi-Kənan olarmı?
Xəstələr şəfa tapar,
Baxsa üzdə xala gəlin.

Getmə dayan sözüm vardır,
Söylərik pünhanı sənə.
Yoxsa ki, göydən enibsən,
Kəsirlər qurban sənə.
Yaradan qismət eyləyib,
Bu dürrü nişanı sənə.
Mirzənin əlif qəddini,
Döndəribsən dala, gəlin.

## QULAM KƏMTƏR DASTANI

İsfahanlı Xoca Əhməd qocaldığından öz həmdaş tacirlərini başına yığıb oğlu Kəmtəri onlara tapşırır. Həm də onlardan xahiş edir ki, özlərinə qoşub sövdəyə apar-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sınlar. Tacirlər də sövdəyə hazırlaşarkən Kəmtərə də xəbər eylədilər. Onu da götürüb özlərilə sövdaya çıxartdılar. Yola düzəlib xeyli getdilər. Bir müddətdən sonra gəlib Qarsın düzünə çatdılar. Həmin yerdə qəflə-qatırı əyləyib, istirahətə məşğul odular. Kəmtər isə bir tərəfə çəkilərək incidiyi üçün öz-özünə belə şikayət elədi: «Axı mənə nə düşüb ki, bu zilləti çəkirəm. Əlbəttə ki, təqdiri-qəzadan keçmək olmaz. Demək qismət belə imiş».

Kəmtərin gözü yuxuya gedib, oradaca yatmağa başladı. Aləmi-röyada Kəmtərin gözünə Qeysər şəhərində Ədil şahın qızı Niyar xanım göründü, bir könüldən min könülə ona aşiq oldu. Sübh açılcaq, tacirlər gördülər ki, Kəmtərin halı hal deyil. Bihuş olub. Dedilər:

– Olmaya Əhmədə xəcalətdi çıxacağıq.

Nə başınızı ağrıdım, tacirlərnən Kəmtərin qulu Yusif bir təhər edib Kəmtəri ayıltdılar. Bihuşluğunun səbəbini soruşduqda Kəmtər deydi:

– İzn verin, mən öz dərdimi saznan, söznən deyim.

Tez ona saz gətirdilər. Kəmtər sazı sinəsinə basıb «Ruhani» havasıyla görək yığılanlara öz dərdini necə izhar edir.

Aldı Kəmtər:

Yığılan tacirlər, tacirbaşılar,
Yığın var-yoxumu vurun ambara.
Hər nə vardısa, siz cəm eyləyin,
Yığın var-yoxumu vurun ambara.

– Oğul, bir de görək sənə nə olub? Axı bəs biz gedib sənin atana nə cavab verəcəyik?

Aldı Kəmtər:

Səhər-səhər zülflərinin oduna,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Daş qalasam yanar eşqin oduna.
Hərdən gül cəmalı düşər yadıma,
Alışar cəsədim düşər əzbərə.

Fələyin əlində mən sinə dağlı,
Eşq məni tutubdu qolları bağlı.
Atam xəbər alsa, necədir oğlu,
Söylə, oğlun getdi şəhri Qeysərə.

Uçurtmuşam, sonasını, qazını,
Bu bir sövdadır, özüm çəkəm nazını.
Gərək görəm Ədil şahın qızını,
Deyin salıb mən Qulamı Kəmtərə.

Tacirbaşı irəli gəlib dedi:

– Ey oğul, Qeysər şəhri hara, sən hara! Gəl belə sözləri sən danışma. Bəs biz anana, bacına nə cavab verəcəyik?

Aldı Kəmtər cavabında görək nə dedi:

Gedin deyin mənim yazıq anama,
Var-yoxumu tamam vursun qələmə.
Dəmir əsa alsın, düşsün aləmə,
Qaldı bizim ellər, görünməz oldu.

Hər məclisdə mənim dərdim söyləsin,
Xəncər alıb qara bağrım teyləsin.
Deyin atam məni halal eyləsin,
Qaldı bizim ellər görünməz oldu.

Yaxşıya yamanı mən də seçərəm,
Eşqin badəsini mən də içərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dost yolunda başı-candan keçərəm,
Qaldı bizim ellər görünməz oldu.

Qul Kəmtərəm, sözüm düşər əzbərə,
Yazılar kağıza düşər dəftərə.
Mən getməli oldum şəhri Qeysərə,
Qaldı bizim ellər görünməz oldu.

Dedilər:
– Axı bu matahını burada töküb tək hara gedirsən?
Aldı Qulam Kəmtər görək nə dedi:

Mən düşmüşəm sövdasına, qəhrinə,
Necə sövdası düşüb ömrümün bəhrinə.
Çarə yoxdu, o Qeysərin şəhrinə,
Baş götürüb Qeysər deyib gedirəm.

Deyə bilməm yar yarından doyarmı?
Belə gözəl sevən əldən qoyarmı?
Gözümə görünən telli Niyarmı?
Baş götürüb Qeysər deyib gedirəm.

Haqq bəla versin bu dünyada namərdə,
Gözəlin üzünə olar bir pərdə.
Kəmtəri salmısan bulunmaz dərdə.
Baş götürüb Qeysər deyib gedirəm.

Tacir dedi:
– İndi bildim ki, sən eşq bəlasına düşübsən. Ata-ana deyəcəyin varsa, de.

Kəmtər:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yaxşı olar hərənin öz vətəni,
Tapmazlar qürbət eldə itəni.
Qızılgül yerinə qara tikəni
Bildim yar əlində, bəlkə gəlmədim.

Gözüm qalıb gözəllərin xalında,
Ayna qabağında, gül camalında.
Urum ölkəsində, ol mahalında,
Qaldım yar əlində, bəlkə gəlmədim.

Kəmtər deyər gör qəzanın işini,
Axıtma didəndən qanlı yaşını.
Bəlkə əcəl yastığına qoyam başını,
Öldüm yar əlində, bəlkə gəlmədim.

– «Daha başqa sifarişin?» – deyə soruşduqda. Kəmtər dedi:

Bir ah çəkdim ahım gəldi dərindən,
Ağlım, huşum, oynar, gedər sərimdən.
Mən dönə bilmərəm bu dilbərimdən,
Baş götürüb, Qeysər deyib gedirəm.

Gözüm qaldı o dilbərin xalında,
Ayna qabağında, gül camalında.
Biçarə Kəmtərin yorğun halında,
Baş götürüb, Qeysər deyib gedirəm.

Söz tamam oldu. Kəmtər öz qulu Yusiflə sövdakarlarla xudahafizləşib ayrıldılar. Bir qədər getdikdən sonra hava qaralmağa, boran qopmağa başladı.

Onlar bir daldanacaq tapa bilməyib, borana-çovğuna düşdülər. Çovğun onları bir-birilərindən aralı saldı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kəmtərin ürəyi yuxaldı, yaxın dostunu, öz sadiq qulunu itirdiyindən kövrəlib nə dedi:

Tülək təlanı götürdüm,
Özümü yarə yetirdim.
Qarsın düzündə itirdim,
Yusif tək cavan qulları.

Sinəmdə çapaz dağlıdı,
Deyirlər kimin oğludu?
Cəllad əlində bağlıdı,
Biçarə Kəmtər qolları.

Kaş bir şad olub güləydim,
Tapaydım, yerin biləydim.
Bu gündə Niyar gələydi,
Biləydi ərzi-halları.

Həmin vaxtda da Ədil paşanın qızı Niyar xanım başında qırx incə belli qızla öz sevgilisini, butasını axtara-axtara Qarsa doğru gəlməkdə idilər. Onlar öz dostundan çovğun zamanı aralı düşüb azan Yusifi tapırlar. Niyar xanım qızlara hökm verdi ki, həmin oğlanı mənim yanıma gətirin.

Xanımlar tez Yusifi Niyar xanımın yanına gətirirlər. Niyar xanım Yusiflə sorğu-sual etməyə başladı:

– Oğlan, de görüm, təksən, ya yoldaşın da varmı?

Yusif dedi:

– Xanım, bir qulaq ver, gör yoldaşım da var, ya yox!

Aldı Yusif:

Atası ağlardı, tökərdi qanlar,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Anası ağlayıb edər fəqanlar.
Mənim qardaş kimi, bir yoldaşım var,
Dilim tutmur, nə danışım, nə deyim?

Niyar yenə də təkid edib soruşdu:

– Oğlan, niyə öz yoldaşının adını söyləməkdən qorxursan?

Aldı Yusif:

**«Dübarə»**

Qaynayıbdı, peymanəsi dolubdu,
Saralıban gül irəngi solubdu.
Bilməm sağdı, yoxsa, yoldaş ölübdü,
Dilim tutmur, nə danışım, nə deyim?

Dostdan ayrı edirəm fəğan,
Axır gözlərimdə yaş ilə al-qan.
Yusifəm, yoldaşdan ötrü edirəm aman,
Dilim tutmur, nə danışım, nə deyim?

Niyar xanım gördü, xoşluqla Yusifdən söz ala bilməyəcək. Odur ki, qılıncını çəkib düşdü Yusifin üstünə:

– Haramzadə, yoldaşının kim olduğunu, adının nə olduğunu deməsən, bu saat səni iki parça edəcəyəm!

Bu halda Kəmtəri qolubağlı tutub buraya gətirirlər. Yusif Kəmtəri görüb sevincindən ağladı. Sazı sinəsinə basıb gəraylı havasıyla görək Niyar xanıma necə dedi, nə nişan verdi:

Sinəmdə var idi eşqin dəftəri.
Hər elimdə oxuyuram əzbəri.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Allaha bağışla, ağam Kəmtəri,
Öldür məni ollam əlin qurbanı!

Hər bağçanın gülüyəm, bülbülüyəm,
Lələsiyəm, süsəniyəm, gülüyəm.
Satın alıb, mən ki, onun quluyam,
Şirin danış, olum dilin qurbanı!

Nə vaxt olar sözlərim doğrular.
Dost bağına girər gizlin oğrular.
Vəfalı dost niyə bizdən yad olar,
Qaşın üstündəki telin qurbanı.

Niyar xanım evdən çıxıb Qarsa doğru gələndə, onu tanımasınlar deyə əyninə oğlan paltarı geymişdi. Burada da özünü bilməməzliyə vurub oğlan kimi göstərirdi. Əmmə Yusif onu tanımışdı. Odu ki, ona gözəl bir xanım olduğunu xatırlatmaq üçün bu tərifi dediyi vaxt, Niyar xanım hirsli-hirsli yerindən qalxıb Yusifin üstünə cumdu, dedi:

– Ədə, məyər mən qızam ki, mənə gözəlləmə deyirsən?!

Yusif onun Niyar xanım olduğunu bildiyini xanımı özünə bildirmək üçün dedi:

– Xanım, qulaq as, gör sən kimsən, mən kiməm, mənim ağam kimdi?

Aldı Yusif:

Ey Niyar, xalların qoşa-qoşadı.
Sevgi sevgisiylə yüz il yaşadı.
Adın Niyar, atan Ədil paşadı,
Şəhri Qeysər, Rumelin qurbanı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Niyar xanım dedi:

– Heç elə şey yoxdu, özündən uydurma, yoxsa səni zənnincə yanımdakılar da qızdı?

Bunu eşidər-eşitməz Yusif aldı:

**«Dübarə»**

Sağ yanında duran gül kirdarıdı,
Sınıq könüllərin pərəstkarıdı.
İsmi-nami alagözlü Pəridi,
Yusifin dərdindən xəbərdarıdı.

– Ədə, haramzadə, sən bizim hamımızı arvada oxşatdın, bu saat sənə göstərərik.

Aldı Yusif:

Sol yanında duran qəddi minadı,
Burnundakı cəvahirdən təladı.
İsmi-nami siyah telli sonadı,
Yusifin çəkdiyi ahu-zarıdı.

Yusif deyər, sən də onda var idin,
Onların şahısan, pərəstkar idin.
Xabda görmüş sən Kəmtərə yar idin,
Yusif hər elimdən bil ki halıdı.

Niyar xanım Yusifin son sözündən başa düşdü ki, gətirilən onun xabda görüb sevdiyi Qulam Kəmtərdi. Sevindiyindən yerində uşaq kimi atıldı. Tez qızları çağırıb əmr verdi ki, taam, hazır eləsinlər. Taam nuş ediləndən sonra Niyar xanım Qulam Kəmtərin doğrudan da aşiqi olduğunu bilmək üçün ondan gizlin məmələrinin üstünə bir neçə gül sancıb, üstünə də cuna salmışdı. Bunu görən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kəmtər özünü saxlaya bilməyib dedi:

Nə mürgüdür sənki qaya üstündə,
Cansız mürd səcər qala üstündə.
Heç bitərmi döşün lalə üstündə?
Çək sinəm gəl, dağı on yeddi!

Qul Kəmtər dərd salıb, yengi ayədən,
Rəqib dərd salmasın yegi ayədən.
Camalın şöyqüdü yengi ayədən,
Qızıl düymələrin bağı on yeddi.

Telli Niyar, işlər gəldi tamama,
Seçərlər baş tutar gələr salama.
Bostançı bəsləyər bir cüt şamama,
Çox zəhmətlər çəkib tağı on yeddi.

Niyar xanım cunasını üzündən atıb, qızları başından eləmək üçün gül gətirməyə göndərdi. Qızlar dağılandan sonra Qulam Kəmtəri yanına gətirib üç gün, üç gecə şirin mülaqəyə məşğul oldu.

Aradan üç gün keçmiş qızlar bir dəstə gül gətirib gəldilər. Qızların toplaşdığını görüb, Qulam Kəmtəri özündən bir az uzaqlaşdırdı. Xanımlar hazırlaşıb getmək istəyirdilər. Niyar xanım üzünü Qulam Kəmtərə tutub dedi:

– Kəmtər, mən şikar adı ilə bu qədər əyləndim. Biz bu gün nə olur-olsun qayıtmalıyıq. Sən də gəlib məni atamdan istərsən, gör nə deyəcək.

Niyar xanım, söznən dediyi kimi saznan da deməyə başladı:

Ala gözlü nazlı cavan,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ala gözlü yar, gedirəm.
Ölsəm başına sədəqə,
Qalsam intizar, gedirəm.

Üç gecə mən sənə mehman,
Olub gözlərinə qurban.
Səninlə eylədik dövran,
Axırı biixtiyar, gedirəm.

Niyaram, nəmək yemərəm,
Alı-yaşıllar geymərəm.
Ağlayıb qan-yaş tökərəm,
Ollam biqərar, gedirəm.

Niyar xanımın ağlaya-ağlaya dediyi sözlər Kəmtərin dərdini bir-beş artırdı. Sinəsi od tutub yanmağa başladı. Dedi:

- Niyar, qulaq as, qoy bir-iki kəlmə də mən deyim:

Aldı Kəmtər:

Dəstin bir qaydada, biləyin girdə,
Eynin əla, topuxların çuxurda.
Bir qat içində, sümüyün xırda,
Sən başdan-ayağa ağ bədən görək!

Alışan kürk geysən ziba min tənə,
Qızıl güllər ağ buxağa düzsənə.
Gümüşdən aşırma, almasından tənə,
Başda kişmir işi-tirmə şal görək!
Alışan otaq istər, aynəbənd, eyvan,
Olar da bəzənə zərinən nişan.
Bir yazın döşlək, xəli-Xorasan,
Səndən də Kəmtərə bir iqbal görək!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəli, qızlar şey-şüylərini yığışdırıb yola düzəldilər. Niyar xanım yola düzəlib gedərkən, Kəmtər də onun arxasınca həsrət-həsrət baxmağa başladı. Gözləri yaşla dolanda Yusif tab gətirməyib divanı havasıyla görək öz ağasına nə dedi:

Aldı Yusif:

Qurbanıq qaşın təhrinə,
Düşmüşük eşqin bəhrinə.
Gedərik Qeysər şəhrinə,
Ağlama, qardaş, ağlama.

Ay qabaq, bulut buxaqdı,
Gözləri şahı çırağdı.
Qardaş, Qeysər çox uzaqdı,
Ağlama, qardaş, ağlama.

Kəklik tək hər yanı sökər,
Özü qana-qana seçər.
Yusif zəhmətini çəkər,
Ağlama, qardaş, ağlama.

Kəmtərlə Yusif Niyarın dalınca Qeysər şəhərinə gedirlər. Güzarları bir dərya kənarına düşdü. Qulam Kəmtər dəryaya baxdıqda gördü ki, suyun dərinliyində necə dürlü alabəzək balıqlar üzüşürlər. Qulam Kəmtər götürür sazı görək balıqlara nə deyəcək:

Dəryalar göy geymiş, mahılar qara,
İnnən belə öz halıma vay deyim.
Bir iyit ki, qürbət elə varanda,
Qəriblərin ovhalına vay deyim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bax sinəmin düyününə, dağına,
Alma yanağına, bal dodağına.
Biz ki, düşdük viran qalsın dağına,
Çiskin deyim, boran deyim, qar deyim.

Kəmtər deyər, mən ayrıldım elimdən,
Bülbül kimi gülşənimdən, gülümdən.
Əlim çıxdı telli Niyar əlindən,
Ağlaya-ağlaya mən Niyar deyim.

Bunlar buradan ötüb bir qədər yol gedəndən sonra bir qarıya rast gəlirlər. Yusif qarını əyləyib soruşur:

– Nənə yol hara gedir?

– Oğul, bu yolda çox quldurlar və qaçaqlar olur, olduqca qorxulu yoldur. Mən sizə bu yolla getməmənizi arzu edərdim.

Bu sözdən sonra Kəmtər alır müxəmməs havasında görək qarıya nə deyir:

Qarı nənə, sən Allahın sevərsən,
Bir yol göstər, şəhri-yarə gedirəm.
Qorxma bu yollarda qalmam, avara,
Doğrasalar parə-parə, gedirəm.

Eşqin badəsindən mən də içmişəm,
Yaxşı ilə yamanı da seçmişəm.
Bir gözəlin sevdasına düşmüşəm,
Gəl eylə dərdimə çarə, gedirəm.
Bir ovçunun ovu getsə yaralı,
Necə gələr onun səbri-qərarı.
Kəmtər deyər, Niyar kimi maralı,
Dalısınca mən şikarə gedirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarı bunların belə ahı-fəğan etməsini görüb zülfündən iki tel ayırıb görən bunlara nə cavab verir:

Tülək tərlan məskan edər binada,
Oğul, dağın qalar bu ürəkdə, sinəmdə.
Öldürərlər, heyfim gələr sənə də,
Qayıt oğul, bu sevdadan qayıt, gəl getmə.

Hər yandan kəsiblər sağı-solu,
Saralıb gülşəni, pozulub gülü.
Qaçax, quldurlardır kəsiblər yolu,
Qayıt bu sevdadan, amandı getmə.

Əsmər qarı bu işin hamısını bilir,
Saralır heyvatək rəngi solur.
O yollara gedən sağ gəlmir ölür,
Qayıt bu sevdadan, amandı getmə.

Qarının bu sözündən sonra görək Qulam Kəmtər qarıya Koroğlu havasında nə cavab verir:

Belimə bağlaram Misri qılıncı,
Qaçaqla, quldurnan eylərəm leşi.
Qılıncım  itidi zəhərdən acı,
Qayıtmaram bu sevdadan, gedərəm.

Keçdi ata-anadan, xanımdan,
İyit olan heç qorxmasın qanından.
Yar yolunda oldum başı-canımdan,
Əl çəkmərəm bu sevdadan, gedərəm.

Kəmtər deyər, baxça-barı olmasa,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qızılgül yanında xarı olmasa.
Hər kimin Niyar tək yarı olmasa,
Əl çəkmərəm bu sevdadan, gedərəm.

Əsmər qarı gördü, oğlan buta dalısınca gedir. Mane omaq istəmədi. Buna bir daha sevinib dedi:

– Gedirsən get, uğur olsun, amma qoy sənə bir neçə kəlmə sözüm var, deyim, qulaq as.

Aldı Əsmər qarı:

Əsmər qarı qurban olsun gözünə,
Şirin söhbətinə, şirin sözünə.
Oğul sən yarının, yarın sənin nazına,
Oğul, durma, gözüm üstə tez yeri!

Sənə tərəf uzanıbdı qolları,
Ağ üzünə salıb qara telləri.
İntizardı, o gözləyir yolları.
Oğul, durma, gözüm üstə tez yeri!

O uyubdu, ləzzətinə, dadına,
Məcnun kimi yanır sənin oduna.
Oğul, sən gedirsən Niyar adına,
Oğul, durma, gözüm üstə tez yeri!

Kəmtərlə Yusif o gecə qarıya qonaq olub səhəri günə bir mənzil Qeysər şəhərinə yol başlayır. Əsmər qarı bunlarla halallaşanda deyir:

– Oğullarım, əyər Niyar xanımı gətirməli olsanız, qayıdan başı mənim qonağımsınız. Bax, məni unutmayın, qayıdanda bir baş buradan gələrsiniz.

Kəmtər razılıq verib qarı ilə razı-niyazlıq edəndən sonra, yola duçar oldular. Xeyli yol gedib Qeysərdən bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qədər uzaqlıqda bir balaca qəsəbəyə çatırlar. Bu qəsəbədə Hüseyn xan adlı bir şəxs yaşayırdı. O, Kəmtərlə Yusifi aşıq sanıb hər ikisini evinə dəvət edir, Hüseyn xanın bu təklifinə cavab olaraq Qulam Kəmtər deyir:

Eşqin badəsindən mən də içmişəm,
Bir dilbərin sövdasına düşmüşəm.
Mən o yolda başı-candan keçmişəm,
Baş götürüb Qeysər deyib, gedirəm.

Mənim dərdim şər dərdlərdən ziyadə,
Uzaq yollar olub bizlərə cadə.
Amən düşmüşəm bu sövdaya, piyadə,
Baş götürüb Qeysər deyib, gedirəm.

Könlümdə yəqindi, dilimdə əzbər,
Yanaram oduna misli səməndar.
Gərək getsin tapsın biçarə Kəmtər,
Baş götürüb Qeysər deyib, gedirəm.

Hüseyn xan xəbər aldı ki, belə əlim yandı ilə Qeysərə getməkdə xeyir ola, oğul, nə var, bir danış görək.

Qulam Kəmtər dedi:

– Qulaq verin, dililə deyə bilmirəm, gərək sazla, sözlə deyim.

Aldı Qulam Kəmtər:

Mən gələndə bahar idi, yaz idi,
Bu işlərdə sövda deyil, yazıdı.
Adı Niyar, Ədil şahın qızıdı,
Baş götürüb Qeysər deyib, gedirəm.

Hüseyn xan gördü bu eşq dalısınca gedir. Yenə də



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

təgid edib dedi:

– Oğul, gəl sən bu sövdadan vaz keç. Çoxları Ədil şaha oğul olmaq istəyiblər. Amma, o hər Adamı yaxın buraxmır. Gəl sən bu ağır sevdadan çəkin. Mən sənin üçü öz obamdan kimi istəsən ala bilərəm.

Bunu eşidən Qulam Kəmtərin yadına Niyar düşür, götürür görək şerin dal bəndini necə deyir:

Allama sən bu təxtə, şan-şövkətə,
Baxginən yazıya, sən bu qismətə.
Niyarla etdiyim eyşi-işrətə,
Baş götürüb Qeysər deyib, gedirəm.

Yalan olmaz mən fəqirin sözündə,
Qışın çilləsində, bahar yazında.
Əyləşdik viran Qarsın düzündə,
Baş götürüb Qeysər deyib, gedirəm.

Gəl, Kəmtər, sözünü yetir tamama,
Nə alim bilər, nə də üləma.
Niyar bəsləmişdi bir cüt şamama,
Baş götürüb Qeysər deyib, gedirəm.

Yenə Hüseyn xan dedi:

– Oğul, bu yekəlikdə yalan olarmı, sən hara, Qeysər hara, Niyar hara? Bir açıq danış görüm bunlar nə deməkdi?

Aldı Qulam Kəmtər:

Xab içində yatmış ikən görəndə,
Ziyah zülfün dal gərdəndə hörəndə
Ayıb dayəsinə cavan verəndə,
Aman dayə, bir sövdaya düşmüşəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qulaq verin mən fəqirin sözünə,
Bax bir baharına, bax bir yazına.
Mən həsrətəm yarımın gül üzünə,
Aman, ana, bir sövdaya düşmüşəm.

Qulaq ver sözümə bir müxtəsəri,
Sinəmə həkk olub eşqin dəftəri.
Axtarıb bulayım mən də Kəmtəri,
Aman, ana, bir sövdaya düşmüşəm.

Fələk məni şad eyləyib güldürür,
Ağladıban çeşmim yaşın sildirir.
Kəmtər dərdi bu Niyarı öldürür,
Aman, ana, bir sövdaya düşmüşəm.

Eşqin səməndini minib çaparam,
Sınıq, yıxıq könülləri yaparam.
Axtararam, sevdiyimi taparam,
Aman, ana, bir sövdaya düşmüşəm.

Sinəm üstə gülü-reyhan əkdirrəm,
Göz yaşıyla onu hasilə yetirrəm.
Gəl, ölməsəm, mən yarımı gətirrəm,
Aman, ana, bir sövdaya düşmüşəm.

Eşitginən Telli Niyar sözünü,
Mən çəkərəm onun ərk-nazını.
Gərək tapam mən Kəmtərin özünü,
Aman, ana, bir sövdaya düşmüşəm.

Söz tamama yetdi, düşmənin ömrü tamama yetsin!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kəmtər Niyar dəsti-xəttilə yazdığı naməni saznan oxuduğu kimi, yazılı şəkildə də Hüseyn xanın qarşısına qoydu.

Hüseyn xan məktubu oxuyub halı olandan sonra, yəqinlik hasil etdi ki, Kəmtər haqq aşiqidir. O gecəni Qulam Kəmtəri və Yusifi özündə qonaq saxladı. Səhəri isə onları böyük hörmətlə yola salaraq Ədil şaha öz dilindən bu məzmunda məktub yazdı: «Qibleyi-aləm, əvvəla ümdeyi-mətləb səhəti-vücud ömrü-dürazəst və sinayən hüzuruna iki nəfər xoş küftar, ba mərifət aşığı göndərirəm. Təvəqqi edirəm ki, mənə elədiyiniz hörməti onlara göstərərsiniz. Hörmətlə: qulunuz Hüseyn xan».

Bunlar naməni alıb bir neçə gün yol gedəndən sonra gəlib Qeysər şəhərinə çatdılar. Qulam Kəmtərlə Yusif Hüseyn xanın məktubunu Ədil şaha çatdırdı, gördü ki, doğrudan da çox xoş qılıq, baməzə «aşıqdılar».

İndi sizə deyim Niyar  xanımdan. Niyar xanım şikar səfərindən qayıdan gündən yorğan-döşəyə düşüb heç nə yeyib-içmirdi. Nə qədər şəhərdə həkim, loğman vardı, hamısı gəlmişdisə də bir çarə tapa bilməmişdilər. İndi bu baməzə «aşiqlərin» gəlməsini görən Ədil şah sevindi. Tez aşıqları qızı olan saraya göndərtdi, dedi:

– Bəlkə sazla qızımın kefi açılar.

Qulam Kəmtər böylə fürsət göydə axtarırdı, yerdə əlinə düşmüşdü. Elə ki, Niyar xanımın otağına daxil oldu, sazı sinəsinə basdı, aldı görək nə dedi, Niyar xanım nə eşitdi.

Aldı Qulam Kəmtər:

Mən səni sevmişdim bildir biçində,  
Lalələr açılmış qoynun içində.  
Bircə qönçə gülsən güllər içində,  
Bir dəstə nərgizim, solma, yazığam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qız bu sözləri eşitcək yatan yerindən qalxıb yastığa dirsəkləndi. O saat şaha xəbər verdilər ki, Niyar aşığın sözündən xoşlanıb yerində oturdu. Şah vəzirinə dedi:

– Vəzir, and olsun bizi yaradana qoy qızım sağalsın, əyər desə ki, o aşığa belə ərə gedərəm, özüm toyunu, xərcini çəkib etiraz etmərəm.

Qulam Kəmtər görək dal bəndin də nə deyir:

Mən səni sevəli bir neçə ildi,
Mənnən danışdığın nə şirin dildi.
Cəmalının şövqü qırmızı güldü,
Bu yazıq canımı alma, yazığam.

Mən səni sevəndən avdal olmuşam,
Bülbül kimi daldan dala qonmuşam.
Bir neçə gözəlin tərkin qılmışam,
Sən Kəmtərin tərkin qılma, yazığam.

Qız o saat yerindən qalxıb siyah zülfündən üç tel ayırıb basır nar məmələrinin arasına görək nə deyir:

Başına döndüyüm, ala gözdü yar.
Qədəm qoydun, sən buraya xoş gəldin.
Sən ki, yada saldın xəstə yarını,
Təbib oldun, sən yaraya xoş gəldin.

Sən girdin otağa, nur doldu bağa,
Sən gələn yollara canım sadağa
Xəstə oldum, qalxa bilməm ayağa,
Qədəm qoydunbu saraya xoş gəldin.

Niyar deyər, gülşən olsun sən gələn yollar,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çalxanar sonalar, bulanar göllər.
Bülbül nalə çəkər balası inlər,
Şükür olsun ol xudaya, xoş gəldin.

Söz tamama yetən kimi şaha xəbər getdi ki, mərd günün mübarək, qızın ayağa qalxıb aşıqla deyişir, xəstəlikdən üzündə bir əlamət yoxdu. Ədil şah sözdən xoşhal olub aşıqları yanına çağırtdırıb onlara böyük miqdarda ənam verilməsini fərman etdi, lakin Qulam Kəmtər etiraz edib dedi:

– Şah sağ olsun, mən pul-parə təmənnasında deyləm və pul-parə üçün də bura gəlməmişəm, məni bura gətirən yuxuda mənə buta verilmiş qızınız Niyar xanımdır. Onun toyuna nə qədər xərc olarsa, verməyə qüvvəm çatar.

Ədil şah vəzirə dedi:

– Vəzir, mən elə bildim ki, bu gədə-güdədi, sən demə əsilzadə imiş.

– Verdim qızımı sənə, Allah mübarək eləsin, Allah sizi şad eləsin.

O gündən etibarən şahın əmrilə qırx gün, qırx gecə nağara-zurnaya əl vurulub Niyar xanımı Qulam Kəmtərə gəlin köçürdülər.

Toy tamam olan kimi gəcavələr düzəlib Niyar xanımı böyük izzət, təmtəraqla Qulam Kəmtərlə bərabər Həmədan şəhərinə yola saldılar.

Niyar xanım ata-anasından həsrətlə ayrılarkən, öz qohum-əqrabası və vətəni ilə vidalaşıb yola düşərkən ürəyi tab gətirməyib "Gözəlləmə" havasında görək anasına nə deyir:

Ana, ağlama yana-yana,
Yandı bağrım döndü qana.
Gedər oldum Həmədana,
Ana, halal eylə, hümmət eylə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldım nəsihət öyüdünü,
Ana, mən əlində böyüdüm.
Ana, halal eylə südünü,
Ana, halal eylə, hümmət eylə.

Niyar gözəl təhridi,
Canıma düşən qəhridi.
Həmədan yaxşı şəhridi,
Ana, halal eylə, hümmət eylə.

Billəm qəriblik yamandı,
Qara bağrım dolu qandı.
Kəmtər bir şuxi tərlandı,
Ana, halal eylə, hümmət eylə.

Qızının bu sözlərindən ürəyi nazilən anası Zöhrə götürür görək qızına nə deyir:

Al məndən bir dua, duasız getmə.
Uçaraq quşlar kimi, yuvasız getmə.
Həyalıya get sən, həyasıza getmə.
Götür qeyrət, namus, arı yanınca.

Tərlan tərlanınan, sar da sarınan.
Bülbül öz gülüynən, yar da yarınan.
Çəmən gül-çiçəklə, dağlar qarınan,
Tərlan da götürməz, sarı yanınca.
Zəhrə sözün, sənə deyər punhanı.
Dağıtdın dövləti, o xanımanı.
Xar da girib, xəzan etsə gülşanı.
Bülbül də götürməz xarı yanınca.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəli, söz tamam oldu, ana-bala qucaqlaşıb görüşdülər, halallaşdılar. Niyar xanım anasından aralanıb Həmədana tərəf yola düşdü. Gəcavələr bir qədər yol getdikdən sonra Qeysə şəhəri yaxınlıqdakı qəsəbəyə gəlib çatdılar. Qulam Kəmtər Niyar xanımla birlikdə bu qəsəbədə məskən edən Əsmər qarının mənzilinə gəldilər. Qarı pişvaza çıxıb Qulam Kəmtərin gəlini qarşısında bir neçə qurban kəsdi. Qarının sevinci yerə-göyə sığmırdı. Onları pişvaz edib evinə gətirdi. Üzünü Qulam Kəmtərə tutub görək nə dedi:

**«Gözəlləmə»**

Gətirdin Çindən, Yəməndən,
Oğul, xoş gəldin, xoş gəldin!
Daha incimərəm səndən,
Oğul, xoş gəldin, xoş gəldin!

Həm yazına, baharına,
Düşmüş idim ah-zarına.
Qurbanam Niyar yarına,
Oğul, xoş gəldin, xoş gəldin!

Yaxşı bağçaların barı,
Yaxşı otaqlar pərgarı.
Sənə qurban Əsmər qarı,
Oğul, xoş gəldin, xoş gəldin!

Əsmər qarı Qulam Kəmtərin qafiyəsilə üç gün öz evində qonaq saxlayır. Üç gündən sonra onları üç mənzil məsafəlikdə müşayət edib deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gedər olsan Həmədana yetəsən,
El-qohumla mətləbinə çatasan.
Niyar sənə, sən Niyar butasan,
Yeri oğlum, yeri uğurlar olsun!

Sən gedəndə ata-anan şad olsun,
Düşmənlərin ölsün, ömrü bad olsun.
Bu nişanə Kəmtər üçün ad olsun,
Yeri oğlum, yeri uğurlu olsun!

Yazıq Əsmər beş xananı söylədi,
Dilində əzbərin tamam eylədi.
Oğul, Kəmtər, səni halal eylədi,
Yeri oğlum, yeri uğurlar olsun!

Bəli, söz tamam olan kimi onlar bir daha görüşüb ayrıldılar. Qafilə günü bir mənzil, təyyü minəzzil yol gedərək bir neçə müddətə gəlib Həmədana çatdı.

Qulam Kəmtərin atası-anası oğullarının gəlməsini eşitcək onun pişvazına çıxdılar. Bu müddət ərzində onlar lap qocalıb haldan düşmüşdülər. Qohum-əqrəbə Qulam Kəmtəri pişvaz edə-edə şəhərə doğru gətirdilər. Qulam Kəmtərin anası Pəri qarı gəlnini bir daha qucaqlayıb bağrına basdı, yenidən sinəsi cuşa gəldi, aldı görək "Müxəmməs havasında nə dedi:

Sən gəldin Qeysərdən,
İsmin götürdüm dəftərdən.
Sən ki, dönmədin Kəmtərdən,
Balam, xoş gəldin, xoş gəldin!

Müşgül işləri bitirdin,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Öyüd-nəsihət yetirdin.
Oğlumu mənə yetidin,
Qızım, xoş gəldin, xoş gəldin!

Pəriyəm, çaşıb xəyalım,
Daha dağılmaz cah-cəlalım,
Sənə qurban dövləti-malım,
Qızım, xoş gəldin, xoş gəldin!

Söz tamama yetdi, hər tərəfdən eşidənlər tökülüb gəldilər, qohum-əqrəbə yığıldı, yenidən qırx gün, qırx gecə bu iki cavanın toyunun kamlarına çatdılar, siz də kamınıza çatasınız.

## BƏHRAM ŞAH VƏ GÜLXƏNDAN

Xəbəri hardan söyləyim, ərənlər dəmindən, dünyanın nuh əyyamından, eşit İsfahan şəhərindən. İsfahan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şəhərində Bəhmən adlı bir şah vardı. Bəhmən şahın varı-dövləti həddən ziyada idi. Yarı sini keçmişdi, amma zür-yəti yox idi. Bəhmən şahın Haqverdi adlı bir vəziri var idi. Vəziri yanına çağırdı, dedi:

– Vəzir Haqverdi xan, buyurun münəccimlər gəlsin, görək mənim niyə züryətim olmur.

Vəzir münəccimləri şahın yanına çağırtdırdı. Bəh-mən şah münəccimlərə dedi:

– Mənim züryətim yoxdu, baxın görün, evladım ola-sıdırmı?

Münəcimlərbaşı uluduzlara baxmışdı. Bəhmən şahın taleyini bilirdi. İrəli yeriyib dedi:

– Şah sağ olsun, sənin arvadınnan əzəl bir oğlun, sonra da bir oğlun olacaq. Amma olmasa daha yaxşıdı.

Bəhmən şahın rəngi qaçdı. Dedi:

– De görək, niyə olmasalar yaxşıdı?

Münəccimbaşı dedi:

– Çünki oğlanların böyüyüb sənin yanında qalmaz-lar. Çıxıb torpağından gedərlər. Ya qismət gələrlər, ya gəlməzlər.

Sözlərini qurtarıb münəccimlər getdilər. Bundan bir nə qədər vaxt keçdi. Bəhmən şahın arvadı bari həmlin yerə qoydu. Bir oğlu old,. Üç günün tamamında oğlana ad qoyası oldular. Qarılar yığıldılar.

Qarılar üç qism olurlar: qarı ipək qarı, qarı var lə-pək qarı, qarı var köpək qarı.

Ləpək qarı irəli yeriyib dedi:

– Məndən olsa oğlanın adını Sijimqulu qoyarıx, si-jim uzundu, oğlanın ömrü də uzun olar.

Köpək qarı onun sözünü kəsərək irəli durdu:

– Yox, məndən olsa, oğlanın adını Örkənqulu qoya-rıq, örkən enli olur, oğlanın ömrü çox olar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İpək qarı onların ikisini də geri itələyib dedi:

– Səsinizi kəsin, sizdən yaxşı söz eşitmək olmaz. Yedik içdik gedək. Oğlana yiyəsi ad qoyar.

Qarılar çıxıb getdilər. Bəhmən şah oğlanın adını Bəhram qoydurdu. Bəhramı dayəyə verdilər. Bundan bir qədər vaxt keçdi. Bəhmən şahın arvadının bir oğlu da oldu. Onun da adını Heydər qoyduran Bəhmən şah Heydəri də dayəyə tapşırdı. Aylar, illər keçdi, Bəhram böyüdü, yeddi yaşına çatdı. Məktəbxanaya qoydular. Bəhram oxumağı, yazmağı öyrəndi. Bəhram on dörd yaşına çatdı. Pəhlivanlara tapşırdılar. Dava məşqini ona öyrətdilər. Bir gün vəzir Bəhramın yanına gəlmişdi. Bəhram dedi:

– Ay vəzir, mən nə vaxta kimi burada qalacam, istəyirəm şikara çıxım. Get atamdan şikar izini al.

Vəzir getdi Bəhmən şahın yanına ki, Bəhramın şikara çıxmasına icazə alsın. Bəhmən şah dedi:

– Vəzir, izindir, amma gözlə oğlum mənim torpağımdan özgə şahın torpağına keçməsin.

Vəzir «baş üstə» deyib, Bəhramın yanına gəldi. İzin xəbərini ona yetirdi. Qoşun hazır oldu. Bəhram başında qoşun atlandı, vəzir ilə bərabər şikara çıxdılar. Gəzə-gəzə şikar eyləyə-eyləyə o qədər getdilər ki, axırda Bəhrəm şahın torpağından çıxdılar. Vəzir dedi:

– Şahzadə, atayın torpağından çıxdıq, getməyək. Atan tapşırıbdır ki, özgə padşahın torpağına keçə bilmərik.

Bəhram dedi:

– Atam öz torpağında padşahdır. Burada padşah mənəm. Sür deyirəm, atını gedək.

Vəzir Bəhramın sözündən çıxa bilmədi. Atları sürdülər getdilər. Çəlxutan padşahı Gözəl padşahın torpağına çıxdılar. Çadır qurdular, düşdülər. Gördülər bunlardan qabaq qarşısında çadırlar qurulub. Bəhram vəzir ilə o ça-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dırlara getdi. Çadırlar kimin olsun? Olsun Çəlxutan padşahının qızı Gülxəndanın. Bəhram Gülxəndanı gördü, bir könüldən min könülə aşiq oldu. Qız da oğlanı gördü. Oğlana aşiq oldu. Çəlxutan padşahının vəziri orada idi. Qızı gəzdirməyə o gətirmişdi. Bəhmən şahın vəziri ona dedi:

– Qız oğlanı, oğlan qızı bəyənib, gəl Gülxəndanı Bəhrəmə ver, aparaq gedək.

Gözəl padşahın vəziri dedi:

– Sən oğlanı gəzdirməyə gətiribsən, mən də qızı. Qız yiyəsi deməzmi, qızımı nə elədin? Onda nə cavab verrəm?

Bəhmən şahın vəziri gördü ki, qızı belə asanlıqla almaq olmayacaq. Əlacsız qalıb Bəhramı dilə tutdu. Geri öz çadırlarına qaytardı, dedi:

– Şahzadə, bu gün səbr elə sabah gedib qızı sənə alaram.

Bunlar burda qalsınlar. O tərəfdən Gözəl padşahın vəziri gecəyarı qızı kəcavələrə mindirib, Çəlxutana yola düşdü. Bu tərəfdən sabah açıldı, Bəhram gördü Gülxəndan gedib, aldı görək Gülxəndanın getməsini vəzirə necə dedi, vəzir ona nə cavab verdi. Biz deyək eşidənlərin könlü şad olsun.

Bəhram:

Aman vəzir, əlac eylə dərdimə,
Görünmür gözümə oralar indi.
Seyraqublar yaman düşdü araya,
Necə uzaxlaşdı aralar indi.

Vəzir:

Oğul, qorxma müşgülünü bitirrəm,
Qoymaram sevgilini alalar indi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arzu edib mətləbinə yetirrəm,
O yar şux tərlana sonalar indi.

Bəhram:

Əlinə almışdı top ilə tüfəng,
Dünyaya gəlməyib bir beylə nəhəng.
Qoyduğu nişana atdığı xədəng,
Bağrımın başını yaralar indi.

Vəzir:

Adın çıxar dastan olar dillərdə,
Baş götürüb sən gəzərsən çöllərdə.
Qərib vilayətdə, qürbət ellərdə,
Gərək tanıyalar, qanalar indi.

Bəhram:

Çətin Bəhram bu dərtlərə dayana,
Yatmış könlüm bir qəflətdə oyana.
Görək üz çevirəm şəhri-Xutana,
Gülxəndan zülfünü qapalar indi.

Vəzir:

Vəzirəm, Gülxəndan gözlər yolunu,
Səndən qeyri yada verməz əlini.
Xar qonuban poza bilməz gülünü,
Qoymaram gülşənin solalar indi.

Söz tamam oldu, düşmənlərin ömrü tamam olsun. Bəhram qızın dalınca getmək istədi. Vəzir dedi:

– Şahzadə, Çəlxutan padşahı zorlu padşahdır. Biz bu az qoşunla gedə bilmərik. Qayıdaq atanın yanına. Qo-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şun götürək gedək, sevgilini xoşla verməsə, zorla alaq, gətirək. Atalar məsəli var: əzəli haqq əmrinnən, sonra olmasa, yan dəmirinnən - demişlər.

Bəhram vəzirin tədbirinə əlacsız qalıb razı oldu. Qoşun atlandı, geri qayıtdılar. Bəhram vəzir ilə atası Bəhmən şahın yanına gəldi. Bəhmən şah oğlunun boynunu qucaqlayıb üzündən öpdü. Gördü oğlunun rəngi qaçıbdı. Üzünü vəzirə tutub dedi:

– Vəzir, Bəhramın niyə rəngi qaçıb, şikarınız necə keçdi?

Vəzir dedi:

– Şah sağ olsun, şikarımıza ceyran çıxdı, Çəlxutan padşahının qızı Gülxəndan çıxdı. Oğlun Bəhram Gülxəndanı gördü, aşiq oldu. Dilə tutub yanına qaytarmışam, bu sən, bu da oğlun. Əlacını elə.

Bəhmən şah dedi:

– Oğlum, söylə görüm bu necə sevdadır düşübsən?

Bəhram dedi:

– Ata, mən dərdimi dil ilə deyə bilmərəm, izin ver saz ilə deyim.

Bəhmən şah izin verdi, aldı Bəhram görək atasına nə dedi, atası oğlunun cavabında nə dedi:

**«Yanıx Bəhram» havasında**

Bəhram:

İskəndərtək cəng libasın götürrəm,
İzin versən qayıtmaram bu yoldan.
Götürübən göz önündə itirrəm,
İzin versən qayıtmaram bu yoldan.

Bəhmən şah:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yaman yerdə qara etdin vaxtımı,
Getmə oğul, getmə aman günüdü.
Virana qoyarsan tacu-taxtımı,
Getmə oğul, getmə aman günüdü.

Bəhram:

Yetirsəm özümü şahən şahbazə,
Günü-gündən ömrüm olar tər tazə.
Gözəllər dəstə ilə çıxar pişvazə,
İzin versən qayıtmaram bu yoldan.

Bəhmən şah:

Sən gedərsən mən burda tək qalaram,
Saralıban heyva kimi solaram.
Qayıdana kimi bəlkə ölərəm,
Getmə oğul, getmə aman günüdü.

Bəhram:

Sənin duan olsa, mənim dalımca,
Saralıb gül rəngim dönməz narınca.
Bəhramam, gələrəm yarım alınca,
İzin versən qayıtmaram bu yoldan.

Bəhmən şah:

Bəhmən şahı fikir xəyal soldurar,
Dostları ağladıb, yadı güldürər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Anan bilsə, yəqin özün öldürər,
Getmə oğul, getmə aman günüdü.

Söz tamam oldu, atasına dedi:

– Oğul, gəl bu sevdaya getmə, burada kimin qızını deyirsənsə, alım.

Bəhram atasının cavabında aldı görək nə dedi:

Gecə-gündüz sızıldayıb ağlaram,
Necə dönüm əyri telli sonamdan.
Sinəm üstün düyünlərəm, dağlaram,
Necə dönüm əyri telli sonamdan.

Gördüm camalını düşdüm sevdaya,
Görək çıxardarmı qız məni baya.
Yolunda döndərrəm ömrümü zaya,
Necə dönüm əyri telli sonamdan.

Mən Bəhramam,çox çəkərəm ahi-zar,
Yarın qaşlarında mənim gözüm var.
Arada əhd qoyduq, bağladıq ilqar,
Necə dönüm əyri telli sonamdan.

Bəhmən şah gördü ki, oğlu sevdaya düşüb, sevdaya düşənləri sevdadan qaytarmaq olmur, əlacsız qalıb Bəhrama sevgilisinin dalınca getməyə icazə verir. Bəhram atası ilə halal-hümət eyləyib gəlir anasının yanına. Anası Bəhramın üzündən, gözündən öpüb dedi:

– Bala, qurbanın olum, şikardan nə gec qayıtdın? Çoxdandır mənim yanıma gəlmirdin.

Anasının cavabında aldı görək Bəhram görək nə dedi, anası ona nə cavab verdi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**«Yedəkləmə Dərvəndi» havasında**

Bəhram:

Şikara çıxmışdı gördüm bir ceyran,
Mən yanına iltimasa gəlmişəm.
Gedibdir əlimdən küllü ixtiyar,
Mən yanına iltimasa gəlmişəm.

Anası Gülçöhrə:

Şikara çıxanda nəyə tuş oldun?
Dərdin nədir, iltimasa gəlmisən?
Nə dindin, söylədin, nə xamuş oldun?
Dərdin nədir, iltimasa gəlmisən?

Bəhram:

Kəklik kimi mən gəlmişəm bu səsə,
Bülbül kimi giriftaram  qəfəsə.
Könül batıb bu xəyala, bu yasa,
Mən yanına iltimasa gəlmişəm.

Gülçöhrə:

Nə qəflətdir oyanıban yatmısan?
Nə eşqidir, nə sevdadır tutmusan?
Nə hicrana,  məhəbbətə batmısan?
Dərdin nədir, iltimasa gəlmisən?

Bəhram:

Bəhramam, sevdaya düşdüm biləsən,
Xancal alıb bağrım başın teylə sən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Südünü oğluna halal eylə sən,
Mən yanına iltimasa gəlmişəm.

Gülçöhrə:

Aman bircə eşit sən öyüdümü,
Oğulun anaya o rəhmi bumu?
Gülcöhrəyəm, halal etdim südümü,
Çünki mənə iltimasa gəlmisən.

Gülçöhrə çox yalvardı ki, oğul bu səfərə getmə. Amma gördü, Bəhram bu sevdadan əl çəkməyəcək, axırda əlacsız qalıb izin verdi. Bəhram anası ilə də halallaşıb ayrıldı. Yenə atasının yanına gəldi ki, axırıncı dəfə ondan səfərə izin alsın. Bəhram şah oğluna bir də izin verdi, dedi:

– Oğul, qoy qoşun cəm eləyim uzax yerə gedirsən, özünlə götür.

Bəhram razı olmadı, dedi:

– Mən əhd eyləmişəm, gərək sevgilimi gedəm tək gətirəm. Bəhram atasından ayrılıb bir ata səvar oldu, yola düşdü. Çox getdi, az getdi, aza qərar qoya bilmərik, getdi, yol kənarında bir pirana rast gəldi. Bəhram Çəlxutanın yolunu bilmirdi. Görək Çəlxutanın yolunu pirandan necə xəbər aldı:

**«Gəraylı üstündə»**

Bəhram:

Başına döndüyüm gül üzlü baba,
Baba, bu yol Çəlxutana gedirmi?
Bir gözəl eşqindən yanıram oda,
Baba, bu yol Çəlxutana gedirmi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Piran:

Başına döndüyüm gül üzlü bala,
Oğul, bu yol Çəlxutana getməyir.
Səni görcək düşdüm mən xoş xəyala,
Oğul, bu yol Çəlxutana getməyir.

Bəhram:

Qızılgülü dəstə-dəstə dərərsən,
Dəribən də pünhan yerə sərərsən.
Çəlxutan yolunu nişan verərsən,
Baba, bu yol Çəlxutana gedirmi?

Piran:

Qızılgülü dəstə-dəstə dərmişəm,
Dəribən də pünhan yerə sərmişəm.
Neçə sınıx könülləri hörmüşəm,
Oğul, bu yol Çəlxutana getməyir.

Bəhram:

Nə müddətdir bir sevdaya düşmüşəm,
Eşqin badəsindən alıb içmişəm.
Mən Bəhramam, mal-mülkdən keçmişəm.
Baba, bu yol Çəlxutana gedirmi?

Piran:

Piran deyər, heyran oldum mən sana,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əzəlindən qurban dedim can sana.
Oğul, əylən gecə mehman ol mana,
Oğul, bu yol Çəlxutana getməyir.

Söz tamam oldu. Düşmənlərin də ömrü tamam olsun. Axşam düşmüşdü, piran dedi:

– Oğul, getmə gecə mənim evimdə qonaq qal, sabah Çəlxutanın yolunu nişan verərəm, gedərsən.

Bəhram razı oldu. Piranın evinə qonaq getdi. Piranının arvadı Bəhrama çörək gətirdi. Bəhram çörək yedi. Söhbətə başladılar. Piran dedi:

– Oğul, Çəlxutan bir bəlalı yerdir, de görüm, nə üçün ora gedirsən?

Bəhram dedi:

– Baba, qulax as, gör nə üçün gedirəm, deyib «Qaraçı» havasında pirana nə cavab verdi:

Bir gözəlin sevdasına düşəli,
Ağıl başdan gedib, zayil olmuşam.
Qara bağrım alışıban bişəli,
Ala gözlərinə mayil olmuşam.

Əzəldən sözünə demişəm bəli,
Dərdindən olmuşam divanə-dəli.
Buna nisbət olmaz məlakə, pəri,
O səbəbdən saralıban solmuşam.

Bəhrəmam, sözümü söylərəm pünhan,
Əslin xəbər alsan nişan və nişan.
Dağılmış Xutamda o Gülxəndan,
Onunçün sevdaya səri salmışam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Piran Bəhramın eşq sevdasına düşdüyünü bilib istədi onu yoldan qaytarsın. Aldı «Gəraylı havasında» Bəhrama nə cavab verdi və Bəhram ona nə dedi:

Piran:

İyit gərək xam xəyala dalmaya,
Əbəs düşüb bu sevdaya gedirsən.
Zən əhlidir, sonra peşman olmaya,
Əbəs düşüb bu sevdaya gedirsən.

Bəhram:

Belə gözəl gəlməyibdir cahana,
Üz çevirib o canana gedirəm.
Dolansa bu dövran, dönsə zamana,
Üz çevirib o canana gedirəm.

Piran:

Ucundan çəkərsən çox ahu-zardan,
Keçərəm çatsın yaradan, barı.
Fələk gülə düşman yaradıb xarı,
Əbəs düşüb bu sevdaya gedirsən.

Bəhram:

Çəkinməm bəladan, min ahu-zardan,
Keçərəm hayadan, namusdan, ardan.
İgid də dönərmi vəfalı yardan,
Doğru çıxıb əhd-peymana gedirəm.

Piran:

Qaşı qara o gözləri yaməni,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Haqq götürsün aralıqdan yamanı.
Piran deyər, yandırarsan ya məni,
Tapşırıram ol xudaya gedərsən.

Bəhram:

Amanatı vardı mənim əlimdə,
Xarlar oynayamaz gülündə.
Bəhram deyər, səri qoydum yolunda,
Qəbul etsə, mən qurbana gedirəm.

Söz tamam oldu, Bəhram yatdı. Səbah açıldı, Bəhram gedəsi oldu. Piran gördü ki, Bəhram gedir, onun dörd oğlu var idi. Piran oğlanlarına dedi:

– Oğlanlarım, Bəhram qəribdi, yol bilməyir, atlanın, onu aparın Çəlxutanın yoluna qədər ötürün.

Piranın oğlanları atlandılar, şahzadə də atını mindi. Piran ilə görüşdü, Piran oğlanları Bəhramı apardılar, Çəlxuntanın yoluna qədər ötürüb geri qayıtdılar.

Bəhram atını sürüb tək yol getməyə başladı. Az getdi, çox getdi yol kənarında bir qalaya rast gəldi. Qala Mahənvər adlı bir qızın qalası idi. Mahənvər başında qırx kəniz o qalada olurdu. Mahənvər gözəlliyi ilə məşhur idi. Bəhram qalanın qabağından keçəndə qız onu gördü, baxdı bir gözəl oğlandır. Kənizlərdən birini göndərib Bəhramı qalaya çağırtdı. Bəhram qalaya gəldi, atdan düşdü, Mahənvər Bəhramı qalaya təklif etdi. Bəhram gəlib qalaçaya oturdu. Mahənvər gördü oğlan qəribdir. Uzaq eldən gəlir. Sazını sinəsinə basıb görək Bəhramın haradan gəlməsini, hara getdiyini nə dillərlə xəbər alır:

**«Qaraçı» havasında**

Mahənvər:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Başına döndüyüm, gül üzlü cavan,
Söylə görüm, nə məkandan gəlirsən.
Sənə layiq olsun məntək bir cavan,
Söylə görüm, nə məkandan gəlirsən.

Bəhram gördü Mahənvər ellərdə tək tapılan, bərabəri olmayan bir gözəldir. Eşqə doldu, sinəsi alışdı, sazını götürdü, görək Mahənvərə necə cavab verdi. Biz deyək eşidənlər şad olsunlar.

Bəhram:

Başına döndüyüm, gül üzlü dilbər,
Mən düşübən bir sevdaya gəlmişəm.
Dərdim artıb günü-gündən sərasər,
Əlif qəddim dönüb yayə, gəlmişəm.

Mahənvər:

Nə dilbərdir səni salıb sevdaya,
Mənimtək can gəlməyibdir dünyaya.
Səni görcək şükr eylədim xudaya,
Söylə görüm, nə məkandan gəlirsən?

Bəhram:

Belə gözəl görməyibdir zamanə,
Qaşları oxşayır yaylı kamana.
İyid gərək doğru çıxa peymana,
Mövla yardan şirin paya, gəlmişəm.

Mahənvər:

Mən Mahənvərəm, sözüm biləsən,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən danışam şad oluban güləsən.
Burda qalıb sən də məni alasan,
Söylə görüm, nə məkandan gəlirsən?

Bəhram:

Bəhram indi dərdin sənə söyləyər,
Xancal alıb qara bağın teyləyər.
Gülxəndan ağlayar fəğan eyləyər,
Döndərib ömrümü zaya, gəlmişəm.

Söz tamam oldu. Bəhram getmək istədi. Mahənvər dedi:

– Ay oğlan, gəl sən bu sevdadan əl götür. Məni al, burda qal.

Bəhram dedi:

– Yox, sevdamdan dönmərəm, gözümün ilk ovu, könlümün ilk sevgilisidir. Gedirəm qismət, olsa qayıdan-da burdan qayıdaram.

Bəhram Mahənvərlə halallaşıb ayrıldı. Atına mindi. Düz Çəlxutana üz qoydu.

Çox getdi, az getdi, onu deyə bilmərik, günlərin bir günü çatdı Çəlxutana, gördü Çəlxutan şəhərinin ətrafında çadırlar qurulub, çadırlar dolu qoşundur. Bəhram bir qocadan əhval bildi, bu qoşunun nə üçün burda olduğunu xəbər aldı. Qoca dedi:

– Ay oğlan, Çəlxutan padşahı Gözəl padşahın Gülxəndan adlı bir qızı var, gözəllikdə tayı-bərabəri yoxdu, yeddi padşah oğlu gəlib Gülxəndanı istəyir. Gülxəndan heç birinə getmir. Gecə-gündüz Bəhram deyir, Bəhram eşidir. Yeri yarır, göyü axtarır, Bəhramı gəzir.

Bəhram qocadan ayrıldı. Yeddi padşah oğlanları olan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tərəfə gəldi. Gördü yeddi padşah oğlu hərəsi bir ipək çadır qurub, içində əyləşiblər. Bəhram da getdi onların cərgəsində bir dərvişvarı çadır qurdu. Özü də dərviş paltarı geyib oturdu. Yeddi padşah oğlanları onun yanına gəldilər, dedilər:

– Sən kimsən? Hardan gəlirsən, nə istəyirsən?

Bəhram dedi:

– Qəribəm, mən də Gülxəndanı istəməyə gəlmişəm.

Yeddi padşah oğlanları dedilər:

– Biz padşah oğlanları, Gülxəndan bizə gəlmir, heç dərvişə gedərmi?

Yeddi padşah oğlanları qayıdıb çadırlarına getdilər. Bunlar burda qalsınlar, xəbəri kimdən verim, qızın atasından. Gözəl padşah arvadını çağırıb dedi:

– Arvad, get qızına öyüd-nəsihət ver. Bu gələnlərin birini seçsin. Bizim də başımız qavğadan qurtarsın.

Anası qızının yanına getdi. Atasının söylədiklərini ona dedi. Anasının cavabında götürdü Gülxəndan, görək nə dedi, biz deyək eşidənlər sağ olsunlar:

Gülxəndan:

**«Şadayı havasında»**

Gecə, gündüz həsrətini çəkirəm,
Könlüm bir cavanın intizarıdır.
Nə qəlbim açılır, nə üzüm gülür,
Yoxsa mənim könlüm qəm xırdarıdı?

Uzaqlaşıb, əlim çatmaz əlinə,
Bülbül olub qonanmadım gülünə.
Aşıq oldum söhbətinə, dilinə,
Yazıx canım onun cəfakarıdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gülxəndanam, qara gəldi bu illər,
Qalxanda sonalar bulanar göllər.
Sinəm üstə bəslədiyim bu narlar,
Şahzadə Bəhramın yadigarıdı.

Gülxəndan sözünü tamam eylədi. Anası dedi:

– Ay qızım, Bəhram kimdir? Niyə sənin könlün qəm xiridarıdır? Mən sözlərindən baş açmıram. Çıx bu yeddi padşah oğlanlarından birinə get. Bizim də canımız qurtarsın.

Gülxəndan dedi:

– Mən yeddi padşah oğlanlarını görməmişəm. Çıxaram onlar çadır qurduqları yerə. Baxaram bəyəndiyim olsa, gedərəm.

Gülxəndan bu sözü deməkdə fikir bu idi ki, bəlkə səbəb düşə, sevgilisi Bəhram gəlmiş ola. Yeddi şahzadə içində onu görə, ona gedə. Gülxəndanın anası Gözəl padşahın yanına qayıtdı. Gülxəndanın dediklərini ona söylədi. Ata-ana qızlarının çıxıb yeddi şahzadələrdən birini bəyənib, getməsini gözləyirdilər. Bunlar burda qalsınlar, sizə Gülxəndandan danışım. Gülxəndanın bir qul həbəşi var idi. Gülxəndan qul həbəşi yanına çağırıb dedi:

– Qul həbəş, get bir şəhər ətrafını dolan, gör təzə gələn-gedən varmı?

Qul həbəşi şəhər ətrafına çıxdı, dolandı, Gülxəndanın yanına qayıtdı dedi:

– Xanım, yenə elə bir xəbər yoxdur. Deyirlər, Bəhram adlı bir dərviş də gəlib səni istəyir.

Gülxəndan bildi ki, sevgilisi Bəhram gəlibdi. Qul həbəşi dabanı üstə geri qaytardı. Dedi:

– Get, Bəhram dərvişdən mənə bir xəbər gətir!

Qul həbəşi Bəhramın çadırına gəldi. Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Məni Gözəl padşahın qızı Gülxəndan sənin yanına göndərib. Ona bir sözün varsa, söylə, çatdıraram.

Bəhram bildi ki, qul həbəşi Gülxəndan göndərib, qıza olan, eşqi daha da artdı, aldı görək nə dedi:

**«Kərəmi» havasında**

Bəhram:

Yorğun-yorğun səhraları gəzirəm,
Bir gözəl çəkdirir min əzab mənə.
Dərdi-qəmlə bağrım başın əzirəm,
Çərxi fələk verib bir hesab mənə.

Gedibdir əlimdən küllü ixtiyar,
Sənə qurban olum, Gülxəndan yar.
Sübhü-şam çəkirəm sənsiz ahu-zar,
Gündüz səbir yoxdu, gecə xab mənə.

Sən mənim sultanım, sən mənim xanım,
Bəhramam, oduna axışır canım.
Allahı seversən Gülxəndamım,
Tezliklə göndər bir cavab mənə.

Bəhram bu sözü qələm götürüb bir kağıza yazdı. Naməni qul həbəşə verdi dedi:

– Bunu xanımına çatdırırsan.

Qul həbəş naməni götürüb apardı, Gülxəndana verdi.

Gülxəndam naməni oxudu. Yəqin elədi ki, Bəhram gəlir. Bir ürəkdən min ürəyə açıldı. Çox şad oldu, Gülxəndan qul həbəşi yenə yanına çağırdı, dedi:

– Qul həbəş, get yeddi padşah oğlanlarına de, hazırlaşsınlar, gəlirəm, əlavə de ki, xanım deyir, mənə var-dövlət,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qəddi-qamət, boy-buxun lazım deyil, mənə şirin dil lazımdır.

Qul həbəş Gülxəndanın tapşırığını quşun qanadı ilə yeddi padşah oğlanlarına yetirdi. Yeddi padşah oğlanları hazırlaşmaqda olsunlar, sizə Gülxəndandan xəbər verim. Gülxəndan yeddi qələm ilə özünə ziynət vurdu. Qul-qaravaş başında şəhərin ətrafına çıxdı. Yeddi padşah oğlanları çadır qurub əyləşdikləri yerə gəldi. Gülxəndan yeddi padşah oğlanlarının çadırlarının qabağından yüz nazü-qəmzə ilə sallana-sallana yeriş gətirdi.

Yeddi padşah oğlanlarının biri dedi:

– Gülxəndan, boyuna qurban.

Biri dedi:

– Qadan mənim canıma gəlsin.

Biri dedi:

– Yerdə yerimə, ayağına gül tikanı batar, üzümün üstündə yeri.

Biri dedi:

– Məni apar, Mina dağında qurban kəs.

Biri dedi:

– Kirpiklərindən bir ox at, bağrımın başına sancılsın.

Gülxəndan yeddi padşah oğlanlarının sözlərinə qulaq asmayıb, keçdi Bəhramın çadırının qabağında durdu. Bəhram Gülxəndanı görüb sinəsi dəmirçi kürəsi kimi alışdı, qəlbi cuşa gəldi, sazı sinəsinə basıb, «Orta müxəmməs havasında» görək nə dedi:

Bəhram:

Çıxıbdı çəmən seyrinə,
Hürü qılmandı bu gələn.
Şöləsi düşüb cahana,
Mahu təvandır bu gələn.
Xişim ilə adam öldürür,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yerişi qandır bu gələn.
On dörd gecəlik ay kimi,
İşıx salandır bu gələn.
Öpəsən ağ buxağını,
Nə gözəl candır bu gələn.

Barmağında üzükləri,
Üzüklərin qaşı yaşıl.
Sən alagözlü bir sona,
Çalxan göldə başı yaşıl.
Salıbsan bu canıma,
Eşqinin atəşi yaşıl.
Keçibsən ağ qəddinə,
Libasın qumaşı yaşıl.
Olum yerişin qurbanı.
Təzə canandır bu gələn.

Tayın yoxdu bu cahanda,
Məyər tapılar asimanda?
İnanginan məhəbbətin
Taqət qoymadı bu canda.
Görən zamandan gözlərim,
Qalıbdı qaşı kamanda.
Cəlladsan, hökm eylərsən,
Bilki boyunum fərmanda.
Görmədim sənin tayın,
Nə tavarda nə tarlanda.
Züleyxanın sevgilisi,
Yusif canandır bu gələn.

Söz tamam oldu. Gülxəndan Bəhramın çadırının qabağında durmuşdu. Yeddi padşah oğlanları ona çadırlarından tamaşa eyləyirdilər. Gülxəndan Bəhrama bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

söz deyə bilmədi. Bir-birinə qaş-göz ilə «xoş gəldin» işarəsi elədilər. Gülxəndam qayıtdı şəhərə. Öz otağına getdi. Bəhram yeddi padşah oğlanları intizarda qaldılar. O tərəfdən Gülxəndan yeddi padşah oğlanlarına qul həbəşlə xəbər göndərdi ki, məni gözləyin, kim xoşuma gəldiyini qırx gündən sonra deyəcəm.

Bəhram, yeddi padşah oğlanları gözlədilər. Qırx gün tamam oldu. Yenə Gülxəndan qul həbəşə dedi:

– Get, yeddi padşah oğlanlarına de, hazırlaşsınlar, gəlirəm.

Yeddi padşah oğlanları hazırlaşıb, Gülxəndanın yolunu gözləyirdilər. Gülxəndan da özünə yeddi yerdən zinət vurub öz qul qaravaşıyla budu gəldi. Yüz naz-qəmzə ilə yeddi padşah oğlanlarının çadırlarının qabağından keçdi. Gəldi, Bəhramın çadırının qabağında durdu. Ucadan dedi:

– Hər kim igid pəhlivandırsa, mən ona gedəcəyəm.

Gülxəndan bunu deyib, qul-qaravaş ilə çıxıb getdi. Bəhram bildi ki, Gülxəndan bunu sınayır. Bildi ki, mərdlik zamanıdı. Pəhlivanlıq libası geyinib meydana çıxdı. Üzünü yeddi padşah oğlanlarına tutub dedi:

– Kimin hünəri varsa, mənim meydanıma gəlsin.

Yeddi padşah oğlanları bir-bir Bəhramın meydanına gəldi. Bəhram onların hamısını yıxdı. Bu xəbər Xutan şəhərinə yayıldı. Bəhramın şücaətinə hamı məəttəl qaldı. Bəhramın igidliyini Gülxəndan da eşitdi. Çox şad oldu. Amma yeddi padşah oğlanları Bəhramın əlində yıxıldıqlarından çox pisikmişdilər. Bir gecə xəlbət yığışıb Bəhramı tutmaq barədə məsləhət elədilər. Yeddi padşah oğlanlarından biri dedi:

– Meydanda bizim heç birimiz onunla bacara bilmərik. Çarə budur ki, namərdliklə Bəhramı tutmaq, gecə meydanda quyu qazaq, üstünü örtək bilməsinlər. Sabah



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəhram meydana gələndə o quyuya düşsün, tutaq. Yoxsa Gülxəndamı əlimizdən alacaq. Yeddi şahzadələr hamısı bu təklifə razı oldular. Onlar gecə meydanda quyu qazdılar, üstünü örtdülər. Sabah açıldı. Bəhram meydana gəldi. Bilmədi düşdü quyuya. Yeddi padşah oğlanları töküldülər, Bəhramı tutdular, zindana saldılar. Bəhram zindanda qalmaqda olsun, sizə Bəhramın kiçik qardaşı Heydərdən xəbər verim.

Heydər böyümüşdü. Dava məşqi öyrənmişdi. Heydərdən ata-anası Bəhram adlı qardaşı olduğunu gizlədirdi. Qorxurdular ki, dalınca getsin, əlləri ondan da çıxsın. Heydər bir gecə yuxuda yatmışdı. Gördü deyirlər:

– Heydər, nə yatıbsan, sənin Bəhram adlı bir qardaşın var. Gülxəndan adlı sevgilisinin dalınca Xutan şəhərinə gedibdir. İndi düşmənlər tərəfindən namərdliklə zindana salınıbdı, get onu dardan qurtar.

Sabah açıldı, Heydər yuxudan oyandı, anasının yanına gəldi. Bu dillərlən anasından qardaşı Bəhramı xəbər aldı:

Ana, mənim bir qardaşım varmış,
Söylə, üz çevirib hayana?
Düşmənin əlindən kirifdarımış,
Namərdliklə salınıbdı zindana.

Mən sözümü eyləmərəm pünhanı,
Qardaşım yolunda qoyaram canı.
Gedib gəzərəm, İran, Turanı,
Bəlkə üz çevirib şəhri Tufana.

Sən Heydərin bir qulaq as dilinə,
Bir bülbüldü aşiq olub gülünə.
Gərək tapam əlim verəm əlinə,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tapşıram Bəhramı o Gülxəndana!

Anası gördü, Heydər qardaşının sevdaya düşüb, qürbətə getməsini, başına gələn bütün vaqiəni bilir. Ondan bu sirri gizlətmək olmacayaq. Əlacsız qalıb aldı görək ana öz oğluna nə cavab verdi:

**«Şəqai» üstə**

Nə müddətdi qəm evində nökərəm,
Oğlum üz çevirib gedib Xutana.
Otağında gülü-reyhan əkərəm,
Oğlum üz çevirib gedib Xutana.

Bülbül kimi həsrət qaldım gülünə,
Düşdü düşman fitnəsinə-felinə.
Dildə əzbər olan Xutan elinə,
Oğlum üz çevirib gedib Xutana.

Gülçöhrə də ağlamasın neyləsin,
Şirin canım sizə qurban eyləsin.
Fağır atan firan olub söyləsin,
Oğlum üz çevirib gedib Xutana.

Heydər anasından izin alıb gəldi atasının yanına. Atası da ona izin verdi.

Heydər bir ata minib, yola rəvan olmaq istərkən, atası çox dedi ki, qoşun götür, Heydər razı qalmayıb, dedi:

– Mən qardaşımın dalınca tək gedəcəyəm.

Heydər atını sürüb yola düşdü. Gecə-gündüz at sürüb gəldi, Mahənvərin qalasına yetişdi. Mahənvər gördü bu oğlan Bəhrama çox oxşayır. Elə bildi ki, dünyada tayı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bərabəri yoxdu. Qüdrət ilk qələmini Mahənvərin qaşlarını çəkmiş. Heydər bir ürəkdən min ürəyə Mahənvərə aşiq oldu. Heydər gecəni Mahənvərin qalaçasında qaldı. Sabah açılan kimi durub geyindi, getmək istədi. Mahənvər hələ də oğlanı tanımamışdı. Elə bilirdi ki, doğrudan da Bəhramdı. Heydər getmək istəyəndə, qızın ürəyi köyrəldi, aldı görək «gəraylı» ilə oğlana nə dedi, deyək siz də şad olun:

Getmə bir əylən burda,
Oğlan, al məni, al məni!
Sən ilə yetək murada,
Oğlan, al məni, al məni!

Mahəndərin bu sözü Heydəri daha da bənd eləyib saxladı. Qızın sözlərinin bəzilərinə cavab qaytarmaq üçün yaxına gəldi, aldı görək nə dedi:

Başına döndüyüm pəri,
Yola sal məni, sal məni!
Sinəm dolub qəm dəftəri,
Yola sal məni, sal məni!

Aldı Mahənvər:

Məni salma ahu-vaya,
Qəddimi döndərmə yaya.
Düşmüşəm yaman sevdaya,
Oğlan, al məni, al məni!

Aldı Heydər:

Gəl eylə danışma nadan,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mənə gəlsin sənin qadan!
Əl çəkmərəm bu sevdadan,
Yola sal məni, sal məni!

Aldı Mahənvər:

Mahənvərəm, mən bilmərəm,
Sənsiz şad olub gülmərəm.
Hərgiz tərkini qılmaram,
Oğlan, al məni, al məni!

Aldı Heydər:

Heydərəm, saralıb sollam.
Çətin, bu səfərdən qallam.
Qismət olsa, səni allam,
Yola sal məni. sal məni!

Heydər dedi:

– Ay gözəl, mənim Bəhram adlı bir qardaşım var. Sevgilisinin dalınca Çəlxutana gedib, bu vaxta kimi qayıtmayıb. İndi gedirəm onu tapam. Qayıdanda qismət olsa səni alar. Apararam.

Mahənvər Bəhram adını eşidib, bildi ki, bu onun qardaşıdı. Bəhramın buraya gəlməsini, sevgilisinin dalınca getməsini ona söylədi. Heydər Mahənvərlə halallaşdı, atına mindi, Çəlxutanın yolunu tutub, getdi. Gecə-gündüzə salıb, özünü Çəlxuntana yetirdi. Heydərin xəbərdən xəbəri yox idi. Çəlxutanın ətrafında çadırları görüb, o da gəldi yeddi padşah oğlanlarının yanında çadır qurdu, oturdu. Heydər bir gün öz-özünə dedi:

– Yəqin qardaşımı tutan bunlardı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Heydər meydana çıxdı, pəhlivan istədi. Yeddi şahzadələr elə bildilər ki, bu da Gülxəndamı almağa gəlib, bir-bir onun meydanına gəldilər. Heydər onların hamısını yıxdı.

Bunlar burada qalsınlar. Sizə Bəhramdan xəbər verim. Bəhram o zamandan yeddi padşah oğlanlarının zindanında idi. Gülxəndanın qul həbəşi gündə yeddi padşah oğlanlarından xəlvət gətirib ona çörək verərdi. Yenə bir gün qul həbəşi Bəhrama çörək gətirmişdi. Qul həbəşi Bəhrama çörək verib qayıdanda Bəhram dedi:

– Qul həbəş. Yenə nə xəbər var? Yeddi şahzadələrin davasına gələn varmı?

Bəhramın cavabında aldı görək qul həbəş nə dedi:

Qurbanın qullar ağası,
Gözlərindən tökmə yaşı.
Gəlibdi bir şir balası,
Gör necə edir döyüşü.

Meydan içində dilavər.
Qabağında durmur leşkər.
Şahzadə adıdır Heydər,
Meydanda qalayır leşi.

Qul həbəşi edər bəhsi,
Ərşə dirənibdi səsi.
Qulaq partladır nərəsi,
Meydanda var şər savaşı.

Bəhram gələndə qardaşı Heydər uşaq idi. Onun böyüyüb dalınca gəlməsini fikrinə gətirmədi. Elə bildi ki, bu da Gülxəndandan ötrü gələn bir pəhlivandı. Qul həbəşə dedi:

– Get yeddi padşah oğlanlarına de, məni zindandan buraxsınlar, gedim o pəhlivanın cavabını verim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qul həbəşi Bəhramın sözünü getdi şahzadələrə yetirdi. Yeddi şahzadələr dedi:

– Yaxşı, sözdür, qoy getsin, ya ölər, ya da öldürər! Ölsə də, bizim üçün yaxşıdı, öldürsə də bizim üçün yaxşıdı! Düşmənimizin biri əskik olar.

Yeddi padşah oğlanları Bəhramı zindandan çıxartdılar. Bəhram dava libası geyinib Heydərin meydanına gəldi. Heydər meydanda bir gözəl-göyçək oğlanı görüb aldı görək «Misri» havasıyla nə dedi, deyək şad olun!

Uzaq mənzilləri yaxın eylədim,
Baş götürüb bu meydana gəlmişəm.
Qardaşım Bəhramı salıb yadıma,
Baş götürüb bu meydana gəlmişəm!

Bəhram dedi:

– Bu pəhlivan mənim adımı haradan blir? Yoxsa kiçk qardaşım Heydərdi. Gəl bundan yerini-yurdunu, atanın-ananın adını xəbər al. Hərgah düzünü desə, onda yəqin ki, qardaşındı, dalınca gəlibdi.

Aldı Bəhram, görək Heydərə nə dedi:

Bəhramın atasının nədi adı?
Üz çevirib sən bu yana gəlibsən!
Oğlan, bu meydana gəlmək bəladı,
Qəsd eyləyib şirin cana gəlibsən!

Heydər:

Bəhmən idi o Bəhramın atası,
Gülçöhrədi o yazığın anası.
Yalan dedəm budu sözün mənası,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Baş götürüb bu meydana gəlmişəm.

Bəhram:

Bu sözünlə ciyərimi yandırdın,
Sınıq könlüm çırağını söndürdün.
Əcəb gəldin mən yağırı dindirdin,
Yön çevirib sən bu yana gəlmisən.

Heydər:

Bəlalı görmüşəm mən öz başımı,
Axıtdım didəmdən qanlı yaşımı.
Görcəyim tanıdım öz qardaşımı,
Səndən ötrü bu meydana gəlmişəm.

Bəhram:

Nə müddətdi düşmüş idim zindana,
Az qalmışdı ömrüm gedə tufana.
Zalımlar qəsd etdi bu şirin cana,
Yön çevirib sən bu yana gəlmisən!

Heydər:

Yəqin bil ki, sözlərimdə doğruyam,
Qardaşınam, Bəhmən şahın oğluyam.
Mən Heydərəm, dərd əlindən dağlıyam,
Səndən ötrü bu meydana gəlmişəm.

Bəhram:

Sinəmdəki peykan idi, ox idi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bağrım yaralıydı, dərdim yox idi.
Mən gələndə Heydər qardaş yox idi,
Bəhram kimi bir qurbana gəlmişəm.

Söz tamam oldu, düşmənlərin ömrü tamam olsun! Heydər gördü, Bəhram onu tanımır. Əyər fürsət tapsa öldürər. Aldı görək necə nişan verdi:

Əyər ki, sən mərdanəsən,
Mən ilə meydana gəl-gəl!
Bura aslan meydanıdı,
Mərd ilə mərdanə gəl-gəl!

Aldı Bəhram:

Yağı düşmən hiylə etdi,
Al dililə məni tutdu.
Namərd kimi oda atdı.
Salmışdı, zindana gəl-gəl!

Heydər:

Al sözünü deyim əzbər,
Sinəmdə dərd olub dəftər.
Tanı, bil ki, mənəm Heydər,
Anan yazıb namə gəl-gəl!

Bəhram:

İgid, mənə yalan satma,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sözlərinə böhtan qatma!
Əyri yolun izin tutma!
And verirəm peymana, gəl-gəl!

Heydər:

Heydərəm, yalan satmıram,
Sözümə böhtan qatmıram.
Əyri yolları tutmuram,
İnan bu fərmana gəl-gəl!

Bəhram:

Qulac qolunu bükərəm.
Üstünə bir od tökərəm.
Bəhramam qılınc çəkərəm,
Boyanarsan, qana gəl-gəl!

Heydər sözlə dediyi kimi də atasını, anasını, yerini, yurdunu Bəhrama söylədi. Bəhram Heydərin sözünə inandı. İki qardaş bir-birini tanıdılar. Qucaqlaşıb görüşdülər, öpüşdülər. Bəhram başına gələnləri qardaşı Heydərə söylədi. Yenidən hər iki qardaş atlara mindilər. Yeddi şahzadələrin üstünə hücum elədilər. Yeddi şahzadələr də onların davalarına çıxdılar. Yenidən baş kəsildi, qol qırıldı. Ata vay, ana vay səsi ərşə dirək oldu.

Dava çox çəkdi. Axırda yeddi padşah oğlanları şikəst oldu, basıldı. Ölən öldü, qalanları qaçıb öz yerlərinə getdilər. Bu tərfdən Bəhramla Heydər davadan əl çəkib Gözəl şahın yanına gəldilər. Gözəl şah onları hörmətlə pişvaz elədi. İmarətinə apardı. Heydər qardaşı Bəhramın Gülxəndana aşiq olduğunu Gözəl şaha söylədi. Gözəl şah Gülxən-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

danın ürəyini bildi. Onun da Bəhrama meyli olduğunu yəqin elədi. Məclis qurdu, adamlar yığıldı, Gülxəndanı Bəhrama verdilər. Bəhramla Heydər bir neçə gün burada qaldılar.

Bir gün Heydərlə Bəhram Gözəl şahdan öz yerlərinə getmək üçün izin aldılar. Gülxəndanı da götürüb yola düşdülər. Gecə-gündüz at sürüb gəldilər, Mahənvərin qalasına çatdılar. Mahənvər onları pişvaz elədi, qalasına apardı.

Bəhram qardaşı Heydərin Mahənvərə aşiq olduğunu bildi. Mahənvərin də onu sevdiyini bildi. Onları bir-birlərinə tapşırdı. Bir neçə gün burada qalandan sonra qalaçaqdakı qiymətdən ağır, vəzndən yüngül şeyləri də götürüb, Mahənvəri də özləri ilə bərabər alıb yola düşdülər. Gecə-gündüz at sürüb gəldilər, vətənə yetişdilər. Bəhramın gözünə vətən görünəndə ürəyi cuşa gəldi, aldı görək nə dedi:

Sənə qurban olum, qardaş,
Göründü, vətən göründü.
Qəsd elədi hindi-həbəş,
Göründü, vətən göründü.

Dolandıq qürbət elləri,
Yar üzdə qara telləri.
Əsdi vətənin yelləri.
Göründü, vətən göründü.

Bəhramam, sözüm amanat,
Uzaq yollarda yorduq at.
Şükür ki, gəldik salamat,
Göründü, vətən göründü.

Söz tamam oldu. Düşmənlərin ömrü tamam olsun! Bəhmən şaha oğlanlarının sevgililəri ilə bərabər qayıdıb gəlməsi xəbəri muştuluqçular tərəfindən çatdırıldı. Bəh-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mən şah vəzir-vəkil, camaatla onları pişvaz elədi, şəhərə gətirdi. Ata-ana oğlanları ilə, gəlinləri ilə görüşdülər. Öpüşdülər. Qırx gün, qırx gecə toy tutuldu. Gülxəndanın əlini Bəhramın əlinə, Mahənvərin əlini isə Heydərin əlinə tapşırdılar. Biz də duvaqqapmasına çatdıq. Biz duvaqqapmanı deyək, eşidənlər şad olsun:

Al yaşıl, abı sarı,
Bənövşə qara, qırmızı.
Alasan, geydirəsən,
Həmişə yara qırmızı.
Çərkəzi atlas ola,
Dizliyi xara qırmızı.
Mahalda yandırma məni,
Atarsan nara, qırmızı!

Aradan otaq içində,
Çıxanda dağı göy ola!
Səhər-səhər seyrə varaq,
Üstdə bulağı göy ola!
Qəsd ilə dişləyəsən,
Maya buxağı göy ola!
Sürəsən dövranını,
Bir sakit, xəlbət öy ola!
Əməsən ləblərindən,
Dönə şəkərə, qırmızı!

Hər kimin varı olsa,
O tikdirər xanəsi ağ.
Alışanda o şamları,
Dolana pərvanəsi ağ.
Bir uşaq ki, ağ ola,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əzəl onun anası ağ.
Görməmişəm beləsini,
Yanağı gül, çənəsi ağ.
Deyəsən ənlik çəkibdi,
Dönübdü nara qırmızı!

Açılanda bahar fəsli,
Tez görünür yolu sarı.
Yeməyə meyvələrdə
Nar, alma, gavalı sarı.
Səni kimi ağ olanın
Mənim kimi qulu sarı.
Hər kimin bu dünyada,
Çox görünsə pulu sarı,
Qıymaz ki, özgələrə,
Versin bir para qırmızı!

Saqi, sən döyran eylə,
Doldur ver tasın bənöyüş.
Görməmişəm sən tək gözəl,
Bir xublarxasın bənöyüş.
Geyirsə qırmızı gey,
Geyə libasın bənöyşüş.
Gəl, əyləş məclisimdə,
Eşidim səsin, bənöyüş.
Çünki mənim gizlin dərdim,
Oldu aşkara, qırmızı!

Açılıbdı bahar fəsli,
Nə götürür dağı yaşıl.
Pardaxlanıb qızılgüllər,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hər irəng, yarpağı yaşıl.
Şeydalar nalə çəkir,
Dolanırlar bağı yaşıl.
Neyləsin, şeydə bülbül,
Uyubdu xara qırmızı.

Ay mənə qara deyən,
Ağ üzü gül, xarı qara.
Heç olmaz sənin kimi,
Bəxt ilə iqbalı qara!
Qoy indən sonra gözəllər,
Geyinsinlər şalı qara.
Neyləsin Miskin Bürcü,
Taleyi, yığvalı qara.
Əl aç yalvar yaradana,
Eylər bir çarə, qırmızı!

## BAXIŞ – LEYLA

Mənim əzizlərim, sizə hardan xəbər verim, Yəmən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şəhərindən. Yəmən şəhərində Əmir şah adlı bir padşah vardı. Əmir şah yanında Humay adlı bir molla saxlayırdı. Özü də Humayı Əmir şahın özü oxutmuşdu, özü də evləndirmişdi. Bəli, gələr bir gün Əmir şahın bir oğlu, Molla Humayın da bir qızı olar. Aləm yığılıb onların hər ikisinə gözaydınlığı verər. Oğlanın adını Baxış, qızınkını isə Leyla qoyarlar. Uşaqların hər ikisini xüsusi dayələr tərbiyə edər, böyüdər, boya-başa çatdırarlar. Elə ki, uşaqlar yeddi yaşına çatar, verərlər Molla Humayın öhdəsinə ki, məktəbdə onlara dərs desin. Uşaqlar bir-birilərinə o qədər meyil salırlar ki, bir-birlərindən ayrı dura bilmirlər. Günlərin çoxunu oynamaqla keçirirlər. Aradan bir neçə il keçir, amma uşaqlar hələ də «Quran»ı yaxşı öyrənə bilmirlər. Molla Humay görür ki, belə getsə, işlər yaxşı olmayacaq. Uşaqlara göz olur, ciddi nəzarət eləyir. Uşaqlar isə bir-birlərinə məhəbbət bəslədiklərindən dərslərinə o qədər əhəmiyyət vermir, vaxtlarını oynayıb-gülməklə keçirirlər. Molla Humay işi belə gördükdə Baxışa acıqlanır, üzünə də bir şillə vurur. Bundan kədərlənən Baxış mollaya üzünü tutub deyir:

Açdım kitabımı, baxdım qarayə,
Göründü gözümə yaşılbaş sona.
Kitabım, kəlamım, dərsim, əzbərim,
Durubdur qarşımda, baxıram ona.

Heç bilmirsən fikrim, zikrim hardadı,
O da mənim kimi yanhayandadı.
Öldürsən də bil ki, gözüm ondadı,
Dönübdür qılmanə, mahi-tavana.
Bir yeni yetişmiş baxça-bar indi,
Bəslətmiş qoynunda qoşa nar indi.
Baxış deyər, məni Leyla yar indi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eyləyibdir Məcnun, dəli-divana.

Molla başa düşür ki, Baxış Leylaya aşiq olub. Ona görə də oxumur. Odur ki, elə həmin gündən qızı Leylanı Baxışdan ayırır. Məktəbə getməyə qoymur. Baxış dərsi başa vurduqdan sonra Leylanın yanına qaçır. Onu bağda gəzdiyi yerdə görür. Hər ikisi bir-birinə yaxınlaşıb kövrəlirlər. Baxış üzünü Leylaya tutub deyir:

Başına döndüyüm, qurban olduğum,
Beləmi danışdıq biz, Leyla xanım.
Ala gözlərinə heyran olduğum,
Qalıbdır yolunda göz, Leyla xanım.

Leyla görür ki, Baxışın dünyadan xəbəri yoxdur. Bilmir ki, atası məktəbə getməyini qadağan eyləyib. İnciməsin deyə, üzünü Baxışa tutub əhvalatdan onu xəbərdar eyləyir:

Gözü yolda qalan intizar oğlan,
Atam qoymur məni gedəm məktəbə.
Bu şirin canımla mən sənə qurban,
Atam qoymur məni gedəm məktəbə.

Baxış:

Atanın sözünə niyə baxırsan?
Bu canımı eşq oduna yaxırsan!
Dağı-düynü sinəm üstə çaxırsan,
Məndən ayrı indi döz, Leyla xanım!

Leyla:

Aman, məni salma yaman fəğana,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bil gəməz dadıma nə ata, ana.
Yandırma dərdimi sən qana-qana,
Atam qoymur məni gedəm məktəbə.

Baxış:

Dəstinə yaxıbsan əlvan xınalar.
Tərlan olan ovlağını binalar.
Yığılsa gözəllər, yüz min sonalar,
Sevməm səndən özgə qız, Leyla xanım.

Leyla:

Dəstimə yaxmışam əlvan xınanı,
Hələ görməmisən mərmər sinəmi.
Bu qədər yandırmaz insan insanı,
Atam qoymur məni gedəm məktəbə.

Baxış:

Mən aşiqəm bağda tər qızıl gülə,
Qurban olum ay qabaxda şux telə.
Mən sənin eşqindən gəlmişəm dilə,
Dərdini dastana yaz, Leyla xanım.

Leyla:

Sən qayıt məktəbə mən də gələrəm,
Səninlə danışıb şirin gülərəm.
O dərdi-qadanı özüm alaram,
İndi atam qoymaz gedəm məktəbə.

Baxış:

Baxış deyər, yar da yara yetməsə,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səryaqublar aramızdan itməsə.
Əhdi-peyman bil başacan getməsə,
İndidən əlini üz, Leyla xanım.

Leyla:

Leyla deyər, atam zülüm eyləyir,
Sinəm üstü dağı-düyün eyləyir.
Səni məndən, məni səndən eyləyir,
Bil ki, qoymur məni gedəm məktəbə.

Hər iki gənc bir müddət baş-başa verib ağlayır, göz yaşı tökürlər. Sonra da bir-birlərinə təskinlik verirlər. Leyla deyir:

– Baxış, mən istəyirəm ki, toyumuz ilin başına qədər olsun.

Baxış onun sözünü kəsib deyir:

– Mən bunu çoxdan istəyirəm. Amma mənim əlimdə əlac yoxdur. Əlac səndədir. Gedək heç olmasa, dərdimizi anamıza bildirək. Bəlkə bir kömək elədilər.

Bəli, hər iki gənc əl verib zorla ayrılır, birbaşa evlərinə gəlirlər. Baxışın anası görür ki, oğlu bu gün həmişəkindən bir başa evlərinə gəlirlər. Baxışın anası görür ki, oğlu bu gün həmişəkindən bir qədər gec gəlib, səbəbini soruşduqda Baxış dərdini söyləməyə onsuz da bir məqam axtarırdı. Deyir:

Başına döndüyüm ana,
Yarın eşqi var canımda.
Mən sevmişəm qana-qana,
Yarın eşqi var canımda.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Baxışın anasının adı Şahnaz xanım idi. Oğlunun elə ilk sözündən anlayır ki, kiməsə aşiq olub. Deyir:

Sızlama, oğlum, sızlama.
Sızlama sənə qız alım.
Həsrət ciyərim dağlama.
Dağlama, qoy lap tez alım.

Baxış:

İndi danışdım bağında.
Oturmuşdu lap sağımda.
Alı da var dodağında.
Onun eşqidir canımda.

Anası:

Atana verərəm xəbər.
Qoy boğmasın səni qəhər.
Etmə könlümü bir təhər,
Oğlu sənə yüz qız alım.

Baxış:

Baxış sevir Leyli yarı,
Mən ağlaram zarı-zarı.
Verdi mənə intizarı,
Yar eşqi vardır canımda.

Anası:

Nə deyim özüm-özümə,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şahnaz deyər, gül gözümə.
Sən gəl bax mənim sözümə,
Yüz qızdan bir ulduz alım.

Bəli, Şahnaz xanım işdən agah olan kimi bir az Baxışa öyüd-nəsihət verir ki, səbirli ol. Kimin qızını istəyirsən gedim alım. Baxış deyir:

– Ana, olsa, məni dediyim qızı al, olmasa, heç kəsi istəmirəm.

Şahnaz xanım özünü yetirir Əmir şahın yanına halqəziyyəni ona danışır. Əmir şah gülümsünüb deyir:

– Bundan asan nə var ki? Molla Humay mənim sözümdən çıxmaz. Bu saat çağırtdıraram, "həyə"sini də alaram. Sən get Baxışa söylə, fikir eyləməsin.

Bu tərəfdən Şahnaz xanım evə gəlir. O biri tərəfdən şah Molla Humayı hüzuruna çağırtdırıb deyir:

– Eşitdiyimə görə mənim oğlum sənin qızına aşiq olub. Bu işə gərək sən də sevinəsən.

Molla Humay istəyir əvvəlcə nəm-nüm eləsin, görür yox. O yer deyil. Dinməzcə başı ilə razılığını bildirir və deyir ki, şah sağ olsun, uşaqların ikisi də sənindi. Necə istəyirsən elə də et.

Şah bir qədər də bu sözdən xoşallanıb deyir:

– Molla Humay, halal olsun sənə çörəyim. Mən elə də bilirdim. Elə isə get hazırlaş. Az müddətdən sonra uşaqların toyunu edək. Bizim də arzumuz gözümüzdə qalmasın.

Molla Humay evinə gəlir. Qiymətdə ağır, çəkidə yüngül nə varsa, hamısını yığıb-yığışdırır. Ala-torandan qızını da götürüb Yəməndən qaçır. Səhər açılır. Baxış sevincək özünü salır Leylagilə. Baxıb görür nə Leyla görünür, nə də bir canı-cinni. Mollanın kələyini başa düşüb tək-tənha onun dalınca getməli olur. Xeyli gəldikdən sonra Mollanın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

karvanına çatır. Göz gəzdirir, dəvənin üstündə bürmələnib bikef oturan Leylanı görür. Ona yaxınlaşıb deyir:

Səfər salıb niyə üzün döndərdin,
Ala gözlü, Leyla xanım, gəl qayıt!
Şirin canım eşq oduna yandırdın,
Ala gözlü, Leyla xanım, gəl qayıt!

Leyla elə başa düşürdü ki, onların getməsini Baxış bilməyəcək, bir də onu görməyəcək. Qəfil Baxışın gəldiyini gördükdə üzü güldü, aynı-şaini açıldı, dedi:

Zornan aparırlar, görmürsən məni,
O beymürvət atam qoymaz qayıdam.
Heç kəsə getmərəm, gözlərəm səni.
O beymürvət atam, qoymaz qayıdam.

Baxış:

Erkən sevib tez ayrılmaq haramdı,
Bir göstər üzünü öldüm, amandı.
Göy üzünü bulud alıb dumandı,
Ala gözlü Leyla xanım, gəl qayıt!

Leyla:

Bizi ayırana qoy dəysin yaman,
Taqətdən qalmayıb məndə din-iman.
Minnətə tökülsə İrandakı xan,
O beymürvət atam, qoymaz qayıdam.

Baxış:

Baxış deyər, qüvvətim var qolumda,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Neyləyim, durublar sağı, solumda.
İllərnən gözüm qalar yolunda,
Ala gözlü Leyla xanım, gəl qayıt!

Leyla:

Bülbülsənsə, gözlə, gözlə yar məni.
Səndən ayrı kəsər ahı-zar məni.
Leyla deyər, üzür intizar məni,
O beymürvət atam, qoymaz qayıdam.

Molla Humay bir də baxır ki, qızı Leylaynan Baxış qarşı-qarşıya dayanıb söhbət edirlər. Onu başından eləmək üçün yenə uydurmaya əl atır. Yaxınlaşıb Baxışla görüşür, deyir:

– Oğul, nə əcəb atanı tək qoyub gəzməyə çıxmısan?

Baxış onun hiyləsini başa düşməyib deyir:

– Gördüm siz köçüb gedirsiniz, gəldim ki, Leyla ilə görüşəm.

Molla Humay deyir:

– Bala, biz hara gedirik elə gördüm Leyla darıxır. Çıxdıq ki, bir az havamızı dəyişib qayıdaq. Sən narahat olma. Biz İr-iki günə qayıdıb gəlirik. Sonra da sizin toyunuzu edəcəyik.

Baxış Mollanın sözünə inanıb evlərinə qayıdır. Bir neçə gün keçir amma molladan bir xəbər çıxmır. Bərk darıxır, dərdini deməyə adam axtarır. İşdən halı olan Şahnaz xanım şahın yanına gəlib, bütün əhvalatı ona nəql eyləyir. Şah onun sözünü kəsib deyir:

– Yaxşı ki, molla öz işini başa düşüb qaçıb. Onsuz da mən onu sürgün etdirəcəyəm. O ki, qaldı Baxışa, kimi istəyirsə onu alım.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şahnaz xanım evə gəlib oğluna öyüd-nəsihət verdi ki, kefini pozma. Vilayətdə kimin qızını istəyirsənsə de. Atan gedib gətirsin. Baxış anasının sözündən daha da məyus olub dinməz-söyləməz evdən çıxdı. Bir baş mollanın bağına gəldi. Sevgilisinin gəzdiyi yerrəri yadına salıb aldı görək nə dedi:

Yenə yada düşdü o keçən çağlar.
Görünmür gözümə, Leyla yar hanı?
Verana qalıbdı əlvan otaqlar,
Dərilməz meyvəsi, heyva, nar hanı?

Gəlib qonmur güllərinə bülbüllər.
Eşidilmir şirin gülüşlər, dillər.
Görüm yox olaydı fitnələr, fellər.
Sevdiyim Leyla yar, vəfadar hanı?

Gözləyə-gözləyə qallam yolları,
Yadıma düşübdü şirin dilləri.
Baxış deyər, yarın siyah telləri,
Düzülmüş gərdanda sərasər hanı?

Baxış sözünü tamam eyləyir. Bir qədər də bağda gəzib dolandıqdan sonra kor-peşman, bikef evlərinə gəlir. Ata-anasının evdə olduğunu görüb deyir:

– Mən daha dözə bilmirəm. Rüsxət verin gedim, harda olsa Leylanı tapıb gətirərəm. Yoxsa mən bu zülmə dözə bilmərəm.

Ata-anası nə qədər deyir ki, ay bala, kimin qızını istəyirsən gedim alım, ancaq bizi gözüyaşlı qoyub bu uzaq səfərə getmə! Bizim səndən başqa ikinci bir övladımız yoxdur, mən də qocalmışam. Taxta sahib duranım bir sənsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ancaq Baxış dediyindən dönmür, alır görək ata-anası ilə necə halallaşır:

Deyir bu gün ayrılmağın günüdür,
Halal eylə, ata, mən gedər oldum.
Sağlıq olsun görüşərik, gələrəm,
Halal eylə, ata, mən gedər oldum.

Atası nə qədər yalvarırsa, olmur ki, olmur. Ata dilnən dediyi kimi oğluna söznən də yalvarmalı olur:

Aman oğul, demə hələ o sözü,
Getmə, oğul, getmə aman günüdü.
Kor olar atanın, ananın gözü,
Getmə, oğul, getmə, aman günüdü.

Baxış:

Yarın qapısını görmüşəm bağlı,
Görürəm sinəmi düyünlü-dağlı.
Qayıdıb gələrəm damağı çağlı,
Halal eylə, ata, mən gedər oldum.

Əmir şah:

Sənin getməyinə olmaram razı,
Qoyma gözüyaşlı, sən ağlar bizi.
Gəl alım mən sənə ən gözəl qızı,
Getmə, oğul, getmə aman günüdü.

Baxış:

İzin verin gedim, ay ata, ana,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Baş əymədim nə sultana, nə xana.
Razı olmayın ki, ürəyim sına,
Halal eylə ata, mən gedər oldum.

Əmir şah:

Oğul, Əmir şahı gəl çəkmə dara,
Onsuz da ölkələr geyinib qara.
Eylə dərdimizə sənsən bir çara,
Getmə, oğul, getmə aman günüdü.

Baxış sözündən dönmür. Ata-anası ilə halallaşıb yola rəvan olur. Mollanın bağından adlayıb keçərkən, görür bir bülbül gülün üstünə qonub cəh-cəh vurur. Ürəyi alovlanır, alır, görək bülbülə nə deyir:

Səhər-səhər qan ağlayıb,
Yad edibsən gülü bülbül.
Ciyər bağrımı dağlayıb,
Danışmazmı dili bülbül.

İllərnən ağlar qalan,
Ağlayıb göz yaşın silən.
Eşq əhlinin qədrin bilən,
Beləmi olar halı, bülbül?

Düşdüm mən bilməz yollara,
Mayıl oldum o güllərə,
Xəbər ver yad ellərə,
Tərgimişəm eli bülbül.
Səhər əsər səba yeli,
Nazlıdır, incədir beli,
Nəzikdir, bəyadır əli,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İpəkdəndir teli bülbül.

Dolandım sən ilə belə,
Danışdım mən gülə-gülə.
Baxış düşdü bilməz yola,
Mənə göstər yolu bülbül.

Baxış sözünü tamamlayıb yoluna rəvan olur. Xeyli yol getdikdən sonra azacıq oturub dincəlmək istəyir. Bir də görür bir qırğı bir quşu caynağına vurub havaya qalxdı. Baxışın ürəyi yandı. Aldı görək qırğıya nə dedi:

Havalanıb göydə gəzər,
Görər dağı, düzü qırğı.
Bülbüllərin bağrın əzər,
Olar hakim özü qırğı.

Fağır quşlar gəlib təngə,
Şiqan edib alar həngə.
Bülbülü keçirib cəngə
Necə alıb gözü qırğı.

Baxış deyər, yaman haldır.
İşin-gücün qalmaqaldır.
Bülbülləri alhaaldır,
Bilməz həngi nazı qırğı.

Söz tamam olur. Baxış yoluna davam edib xeyli yol gəldikdən sonra bir bulaq başına əyləşir. Sərin bulaqda əl-üzünü yuyub bir neçə ovuc da içir. Sonra zümzümə edərək öz-özünə oxumağa başlayır:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hüsnü-gözəlliyinə aşiq olmuşam,
De, nədən bağlanıbdır yolların, Baxış.
Ağlayıb gah gülübən könlü şad eylər,
Nə qədər olar qeylü-qalların Baxış.

Elə bu dəmdə bulağa bir zənən suya gəlir, Baxışın zümzümə eləməsini görüb deyir:

– Oğlan, burada niyə oturursan? Bilmirsənmi buraya qızlar, gəlinlər suya gəlirlər, naməhrəm deyilsənmi?

Baxış qızın suallarına belə cavab verir:

Hökümdən divan eylər, adın Şahzada.
Zülm eyləsələr mənə, tez yetmiş dad,
Sallana-sallana sənə gəldin gülşada
Tökübsən sən dalınca qulların, Baxış.

Elə çiçək əlvalı baxça nasay olmaz,
Oxuyan bülbüllərə heç baxça bağ olmaz.
Bu bağları görənin sinəsində yağ olmaz,
Açılmış qönçələrin, güllərin, Baxış.

Düzülmüş sərvləri boyları göyçək,
Xoş ətir yayılır muyları göyçək.
Ördəyin, sonanın sayları göyçək,
Tərpəşir göy, yaşıl çöllərin, Baxış.

Gülləri qönçələri açır yazınan,
Gözəllər söhbət edir telli sazınan.
Ördəklər də oynaşır, quba, qazınan,
Dönüb Gülüstana bax ellərin Baxış.
Mən bir bülbüləm, gülzara gedərəm,
Qoynunda bəslənmş nara gedərəm.
Əmir şah oğluyam, yara gedərəm,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Onsuz söz tutmayır dillərin, Baxış.

Suya gələn zənən Baxışın oxumasından, sözündən çox xoşlanır, onu öz evinə qonaq aparır. Bir neçə gün Baxışı öz evində qonaq saxlayıb əlindən gələn hörməti eləyir. Baxış onun çox xoşuna gəlir. Hətta onunla evlənməsini də təklif eləyir. Baxış bu təklifi rədd eləyib yola hazırlaşır. Getmək istədiyini bildirir:

İndi oldu mənə getmək bazarı,
Düşübdür yadıma güllüzar indi.
Gözləyə-gözləyə qalıb yolları,
Gözü yolda qalıb intizar indi.

Baxışın getmək istədiyini görən qız tab gətirə bilmir. Saçından üç tel ayırıb sinəsinə basır. Alır cavabında görək nə deyir:

Şahzadə:

Baxış bəyim, sənə minnət eyləyim,
Minnət eşidib yar, qayıt indi.
Şərməndəyəm, mən yanında günahkar,
Küllü ixtiyarım var qayıt indi.

Baxış:

Yaşılbaşlı sona itirən mənəm,
Bir ah çəkib köksün ötürən mənəm.
Bülbül kimi gülün ğitirən mənəm,
Getməsəm, gülümü xar qucar indi.

Şahzadə:

Mən tək gözəl tapammazsan dünyada,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qaç qabaqdan baxginən bu şümşada.
Əcər mal istəsən həddən ziyada,
Nə istəsən məndə var, qayıt indi.

Baxış:

Baxış deyər, dövlət-varım var mənim,
Bir kəsərli ahu-zarım var mənim.
Leyla kimi xanım yarım var mənim,
Getməsəm, olaram biilqar indi.

Şahzadə:

Gözdən axıdaram qan ilə yaşı,
Alıb geydirərəm sənə qumaşı.
Şahzadəni eylə sən yol yoldaşı,
Dünya olar mənə dar, qayıt indi.

Söz tamam olur. Şahzadə söznən dediyi kimi, dilinən də başlayır yalvarmağa ki, bəlkə Baxış qayıtdı. Amma nə qədər eyləyirsə, Baxış dediyindən dönmür. Leyli adlı sevgilisinin arxasınca getdiyini bildirir. Bu zaman Şahzadə bildirir ki, heç olmasa özünlə yol yoldaşı eylə, az-çox köməyim dəyər. Amma Baxış fikirləşir ki, bu zənən xaylağıdır. Bəlkə elə yolda bir çovğuna düşdüm. Özümü qoruyum, yoxsa onumu. Oydu ki, bir təhər razılaşıb halallaşır. Amma söz verir ki, qayıdanda mütləq buradan gəlib səni də apararam.

Baxış yoluna rəvan olur. Xeyli getdikdən sonra yolda bir qalaça görünür. Fikirləşir ki, gedim oradan bir adam tapım. Mollanın hansı tərəfə getdiyini bəlkə öyrəndim. Amma yanılmışdı. Bir qədər getdikdən sonra həra-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

milərə rast olur. Həramilər onu buraxmayıb bəndə salırlar. Özünü də öldürmək qərarına gəlirlər. Baxış görür, bunlar hırnan-zırı qanmırlar. Ürəyi kövrəlir, Həramibaşına yalvarmağa başlayır. Alır görək nə deyir:

Başına döndüyüm Həramibaşı,
Doğramayın məni, aman günüdü.
Gözümdən axıtma qan ilə yaşı.
Doğramayın məni, aman günüdü.

Tərk eylədim vətənimi, elimi,
Bil ki, gözləyirlər mənim yolumu.
Nahaq yerə eyləməyin zülümü,
Doğramayın məni, aman günüdü.

Dad eylərəm dadım yetməz anama,
Haraylaram heç kes çatmaz xanama.
Baxış deyər, susamayın qanıma,
Doğramayın məni, aman günüdü.

Söznən dediyi kimi, Baxış dilnən də nə qədər yalvarırsa, olmur ki, olmur. Nəhayət, həramilər onu tutub zindana salırlar. Qaranlıq düşən vaxtı özünə də bir şam verirlər ki, yandırsın. Baxış şamı alıb yandırır. Elə bu zaman haradansa bir pərvanə gəlib şamın ətrafında fırlanır. Axırda da özünü şamın alovuna vurub yandırır. Bunu görən Baxış dözə bilmir, alır görək pərvanəyə nə deyir:

Şam oduna özün çaxan pərvanə,
Mən də sənin kimi sinədağlıyam.
Eşq oduna yanıb getdin mərdanə,
Mən də sənin kimi sinədağlıyam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Quştək gəlib mən qəfəsdə qalmışam,
Sənin kimi canı oda salmışam.
Qərib-qərib, məlul-müşkül olmuşam,
Mən də sənin kimi sinədağlıyam.

Aşıq olan məşuqəsini görər,
Əl uzadıb qönçə gülündən dərər.
Baxış kimdən Leyli yarını sorar,
Mən də sənin kimi sinədağlıyam.

Baxış o gecəni səhərə qədər yatmır, fikirləşir ki, görən bu zırramalar məni salamat buraxacaqlarmı? Səhərə yaxın gözünə bir qədər yuxu gedir. Yuxuda Leyla gəlib dayanır, aşının üstündə. Soruşur ki, bəs nə üçün bu qədər yubanırsan? Baxış cavab verir ki, neyliyim, görürsən ki, əl-ayağımı kəndirləyiblər. Qoymurlar ki. duram gedəm. Leyla deyir:

– Qoy kəndiri mən açım. Sən gec gəldin. Mən dözə bilməyib özümü yetirdim.

Leyla kəndiri onun əl-ayağından açır, deyir:

– Di dur gedək.

Baxış gözünü açır ki, qalxsın. Görür heç kəs yoxdur, amma səhər üzünüzə xeyirliklə açılsın, görür səhər açılıb. Zindanın qapısı açılır, Harami başı iki quldurla içəri girib onu sorğu-suala tutur. Həraminin sorğu-sualı qarşısında Baxış alır görək nə deyir:

Başına döndüyüm, Həramibaşı,
İzin verin mən düzəlim yoluma.
Unutmuşam ata-ana, qardaşı,
İzin verin mən düzəlim yoluma.
Eşq əhliyəm, dəryalara girmişəm,
Açılmamış qönçə gülü dərmişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu gecə yuxumda yarı görmüşəm,
İzin verin, mən düzəlim yoluma.

Gəlin siz Baxışa mərhəmət edin,
Qəsdimdə durmayın, bir hörmət edin.
O yarım gözləyir, tez azad edin,
İzin verin, mən düzəlim yoluma.

Bəli, uzun söhbətdən sonra Həramibaşı görür ki, dələduz adama oxşamır. Bir müddət əvvəl burdan keçib gedən Mollanın qızına aşiqdir. Həramilərdən biri Baxışa bildirir ki, haman molla Tehrana üz tutmuşdu. Baxış onlara dönə-dönə təşəkkür eyləyir, öz yoluna rəvan olur. Xeyli gəldikdən sonra bir naməlum vilayətə çatır. Şəhərin kənarınca bir qarıya rast gəlir. Qarıdan onu qonaq saxlamağını xahiş edir. Qarı onun kimliyini soruşduqda Baxış deyir:

– Qarı nənə, sevda əhliyəm, sevgilimin dalınca Tehrana gedirəm.

Baxışın «qarı nənə» deməsinə qarının acığı tutur. Deyir:

– Ey cavan, mənə qarı demə, əynimdəki paltarı malqaranı sağanda geymişəm. Paltarımı dəyişsəm, heç on yeddi yaşındakı qızdan ayırmazsan.

Qarı sözünü qurtarıb onu evinə gətir. Özü yan otağa keçib paltarını dəyişir, qoza düyməli təzə paltarını geyib, sallana-sallana oğlanın qabağına gəlir. İki qolunu onun boynuna salıb o üzündən, bu üzündən öpür. Bir qədər də nazlanır, işvələnir. Baxış qarının könlündəkini anlayıb bir təhər onun qolları arasından çıxır, qarıya da bərk acıqlanır. Ayağa qalxıb alır görək nə deyir, qarı ona nə cavab verir. Deyək, şad olun.

Baxış:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yumaq kimi bükülüfdü,
Yeriyir, kaftar yeriyir.
Bütün dişlərin tökülüf,
Yeriyir, kaftar yeriyir.

Qarı:

Mən sənin Leyla yarınam,
Getmə, oğlan, getmə, dayan!
Bəslənmiş qoşa narınam,
Getmə, oğlan, getmə, dayan!

Baxış:

Yüz sufatın kənarı,
İtil gözümdən ay qarı.
Başının tükü ağarı,
Yeriyir, kaftar yeriyir.

Qarı:

Oğlan, axtarma yaşımı,
Sən biləməzsən işimi.
Amandı quc qumaşımı,
Getmə, oğlan, getmə, dayan!

Baxış:

Bənzəyir ocaq daşına,
Yetmişdi yüz yaşına.
Yetkin oldum hər işinə,
Yeriyir, kaftar yeriyir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarı:

Başımda var gül qotazım,
Əlli qıza dəyər nazım.
Kəsir ağlım, görür gözüm,
Getmə, oğlan, getmə, dayan!

Baxış:

Hərgiz sənə baxmaz Baxış,
Sən get qapılarnan danış.
Ağzın, burnun qırtış-qırtış,
Yeriyir, kaftar yeriyir.

Qarı:

Bilginən adımdı Xalsa,
Sən bax məndəki həvəsə.
Yarınan girərəm bəhsə,
Getmə, oğlan, getmə, dayan!

Söz tamam olan kimi Baxış dil ilə də qarını nə qədər başa salamaq istəyirsə, qarı öz dediyindən dönmür ki, dönmür. Nəhayət, şər qarışır. Yatmaq zamanı gəlir. Qarı Baxış ilə öz yerini bir salır. Baxış görür yox, olmayacaq. Na əlac qalıb dillənmir. Deyir:

– Yaxşı, sən soyun uzan, mən də bayıra çıxıb gəlirəm.

Qarı sevincək soyunub yerinə girdi, Baxşı səbirsizliklə gözləməyə başladı. Amma Baxış gələnə kimi qarını yuxu apardı. Xoruldamağa başladı. Bu dəmdə Baxış içəri girib şeylərini yığışdırıb qarının evindən çıxır, yola rəvan olur. Leyla xanımın eşqi onu elə sarsıtmışdı ki, heç özü də bilmir ki, yolu necə gedir. Heç yanda dayanmadan, gecə-gündüz



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yol gəlir. Nəhayət, Tehran şəhərinə çatır. Yazıq Baxış burada da heç kəsi tanımadığından təsadüfən yenə bir qarıya rast gəlir. İstəyir ondan heç nə soruşmadan uzaqlaşsın. Olmur, əlacı, kəsilib, ona yaxınlaşır. Ona qonaq qalmaq niyyətini bildirir. Qarı bir söz deməmdən, onu evinə gətirir. Baxış başına gələn bütün əhvalatı qarıya danışır. Qarı deyir:

– Oğul, dediyin haman molla bu yaxınlıqda yaşayır. Qızını da bir bəyin oğluna nişanlamışdır.

Qarıdan Baxış xahiş edir ki, onun gəlməsini Leylaya xəbər versin. Qarı hal əhliydi. Özü də ipək qarılardanıydı. Tez özünü çatdırır Leyla xanımın yanına. Ona işvə-naz ilə Baxışın gəldiyini xəbər verir. Leyla xanım sevincək qarını qucaqlayıb öpür:

– Sən Allah düzmü deyirsən?

Qarı deyir:

– Cuval haqqı düz deyirəm, özü də bizdədir.

– Ay nənə, bəs cuval haqqı nədir?

– Qızım, cuval bir dərin kisədir ki, ona hər kəs and içsə, pul ilə dolar.

Leyla başa düşür ki, qarı muştuluq istəyir. Tez gətirib qarıya bir qədər qızıl pul verir, təvəqqe eləyir ki, Baxışı bağa gətirsin, görüşə bilsinlər.

Qarı özünü Baxışa yetirir, sevincək deyir:

– Nə durmusan, ay zalım, qız səni bağda gözləyir.

Baxış özünü hövlan qarı ilə birlikdə bağa salır. Hər iki aşiq-məşuq üz-üzə gəlib dayanır, görüşürlər. Hal-əhval bilirlər. Leyli tab gətirə bilməyib başını Baxışın sinəsinə söykəyir, əllərini onun saçlarında gəzdirir. Sonra da saçından üç tel ayırıb tər sinəsinə basır, alır görək Baxışa nə cavab deyir. Deyək siz də şad olun, xoşbəxt olun:

Leyla:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən yarımı itirmişəm,
Sən xoş gəldin, xoş gəldin.
Dərdim yüzə yetirmişəm,
Ay sən xoş gəldin, xoş gəldin.

Alır Baxış:

Bülbül idim, gəldim bağa,
Səni xoş gördük, xoş gördük!
Bu canım sana sadağa,
Səni xoş gördük, xoş gördük!

Leyla:

O kimdir bağlara baxan,
Daşqın sular kmi axan.
Canını da oda yaxan,
Oğlan, xoş gəldin, xoş gəldin!

Baxış:

Tərk etmişəm xanımanı,
Gəlib tapmış Tehranı.
İndi apararam səni,
Səni xoş gördük, xoş gördük.

Leyla:

Apararsan bizim elə,
Sarmaşarsan incə belə.
Leyla deyər, gülə-gülə,
Yarım, xoş gəldin, xoş gəldin!

Baxış:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Apararam bizim elə,
Sarmaşaram incə belə.
Baxış deyər, düşək yola,
Səni xoş gördük, xoş gördük.

Hər ikisi yenidən görüşüb qucaqlaşırlar. Baxış Leylanın ağ əllərindən, sinəsindən bir də qara xalından öpür, sinəsinə basır. Bunu görən Qarı nənə üzünü çevirib düz evinə gedir. Bağda heç kəsin olmadığını görüb Leyla da Baxışı öpüb qucaqlayır. Hər ikisi yenidən cuşa gəlir, görək nə deyib, nə eşidirlər:

Alır Baxış:

Leyla xanım, yüz nazınan,
Tutuban yolları gəlir.
Sığallanıb, xumar gözünən
Dərməyə gülləri gəlir.

Alır Leyla:

Get buradan, dəli oğlan,
Eşidib qulların gəlir.
Sən dəribsən gülü, oğlan,
Bülbülün gülləri gəlir.

Alır Baxış:

Sürmələnib qələm qaşı,
Canımı salır ataşı.
Geyinibsən al qumaşı,
Bürünüb şalları gəlir.

Alır Leyla:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Büllüllər doymaz gülündən,
Ördəklər çıxmaz gölündən.
Haray bu cavan əlindən
Öpməyə xalları gəlir.

Alır Baxış:

Bülbül tək qucaram gülü,
Yandırıbdı şirin dili.
Baxış bəyin şumşad əli,
Qucmağa belləri gəlir.

Alır Leyla:

Leyla xanım sübh səhəri,
Yoxdur canının təhəri.
Atama çatıb xəbəri,
Bil, yığıb elləri gəlir.

Söz tamam olur. Hər ikisi əl-ələ verib bağdan çıxır. Əvvəlcə qarının evinə gəlirlər. Baxış Leylanı qarının yanında qoyub bazara çıxır. Yaxşı bir at alıb geri qayıdır. Atı yəhərləyir, Qarı ilə halallaşıb, hər iki aşiq-məşuq Yəmənə tərəf yola düşürlər.

Nahar vaxtı Molla Humay görür qız yoxdu. Qonumdan-qonşudan xəbər alır, görən oldum deyen olmur. Axırda bir dilənçi xəbər verir ki, qızın bir oğlana qoşulub Yəmənə tərəf getdi. Bunu eşidən Molla Humay bilir ki, Leylanı Baxış gəlib aparıb. Tez Dostu Harambaşıya bir məktub yazıb göndərir ki, necə olur olsun, mənim qızımı o oğlanın əlindən alıb qaytarın. Məktubu aparan çapar Harami başını tapıb ona verir. Harami başı öz atılarını da götürüb kəsə yolnan Yəmən tərəfə gəlirlər. Baxışın atı yorulduğundan dincəlmək istəyir. Bir də baxırlar ki, arxadan elə bil



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ordu gəlir. Həramilər onları iki yolun ayrıcında dövrəyə alırlar. Vəziyyətin ağırlığını görən Baxış alır görək həramibaşıya nə deyir, o da nə eşidir. Deyək şad olun.

Alır Baxış:

Gəl məni incitmə, həramibaşı,
Qoy gedim yoluma, incitmə məni!
Döyüşdə, vuruşda deyiləm naşı,
Qoy gedim yoluma, incitmə məni!

Alır Həramibaşı:

Əyər istəyirsən tanı, bil məni,
Həramibaşıyam, adam soyanam.
Özündən dəm vurma, öldürrəm səni,
Həramibaşıyam, adam soyanam.

Alır Baxış:

Çox hərami gördüm, mən neçə-neçə,
Xiffət eylədilər gündüz, həm gecə.
Çəkərəm bil səni əyri qılınca,
Qoy gedim yolumla, incitmə məni!

Alır Həramibaşı:

Qorxmayıram sənin hərbə-zorbandan,
Nə bəyindən, nə paşandan, nə xandan.
Al qan axıdaram indi yaxandan,
Həramibaşıyam, adam soyanam.

Alır Baxış:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İndi tanımaram yaxşı-yamanı,
Axıdaram gözlərindən al qanı,
Əmir şah oğluyam, sən yaxşı tanı,
Qoy gedim yoluma, incitmə məni!

Alır Həramibaşı:

Hərami Eyvazam, adım-sanım var,
Gündə sənin kimi yüz qurbanım var.
Şirlə vuruşmağa polad canım var,
Həramibaşıyam, adam soyanam.

Söz tamam olur. Vuruşma başlayır. Baxış bir neçə hərami yaralayır, bir ikisini də öldürür. Leylanı öldürəcəklərindən qorxub təslim olur. Həramilər onun əl-qolunu bağlayıb zindana salırlar. Leylanı da qabaqlarına qatıb atasının yanına aparmaq istəyirlər. Sevgilisi Leylanın əli bağlı geri qaytarıldığını görən dəmdə tab gətirməyən Baxış, zindanın pəncərəsindən nalə çəkib görək nə dedi:

Başına döndüyüm, qurban olduğum,
Ala gözlü Leyla xanım, gəl qayıt.
O çatma qaşlara heyran olduğum,
Ala gözlü Leyla xanım, gəl qayıt.

Sənsən bu dünyada gözəllər şahı,
Bədənin büllurdur, boyun sürahi.
Dadıma yetişsin qadir ilahi,
Ala gözlü Leyla xanım, gəl qayıt.

Fələk niyə bizi bu günə saldı,
Atan yaman gündə qisasın aldı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Baxışın gözləri yolunda qaldı,
Ala gözlü Leyla xanım, gəl qayıt.

Həramibaşı gördü ki, doğrudan da qız oğlanı, oğlan da qızı qəlbən sevir. Vaxtilə özü də bir qız sevdiyi üçün çöllərə düşmüşdü. Keçən günlərini, sevgilisini gözləri qarşısına gətirib dedi:

– Axı bir mollanın sözündən ötəri biz niyə günaha batırıq. Bunların günahı nədir ki, bir-birindən ayırırıq.

Yoldan geri dönürlər. Qalaçadakı ayrı bir otağa gəlirlər. Oğlanı da çağırtdırıb yenidən məclis qurdururlar. Halal-hümmətliynən yola salarkən, Baxış bunun əvəzində ona çoxlu var-dövlət vəd etdi, Həramibaşı heç nəyə razı olmayıb dedi:

– Bir qızın ucbatından qaçaq düşmüşəm. Həramibaşı olsam da, sevgi-möhübbətdən vergi almıram. Karvan başı olsaydım, səni talayardım, indi isə xanımını da götür get.

Hər ikisi qardaş kimi qucaqlaşıb ayrıldılar. Baxış atına suvar olan vaxt Həramibaşı yaxşı bir at da gətirib Leyla xanıma bağışladı. Leyla xanım Baxışla yanaşı sürüb dayanmadan bir baş Yəmənə tərəf getməli oldular. Xeyli getdikdən sonra gəlib Şahzadə xanım yaşayan vilayətə çatdılar. Bir naçə gün də onlarda qalıb sonra üçü də atlanıb vətənə tərəf üz tutdular. Amma Baxış Şahzadə xanımı da özü ilə aparması Leyla xanıma bərk təsir eləmişdi. Bunu görən Baxış üzünü Leyla xanıma tutub dedi:

Başına döndüyüm, qurban oduğum,
Ala gözlü Leyla xanım, gəl barış.
İcazə ver qoy dolanım başına,
Ala gözlü Leyla xanım, gəl barış.

Bu dəfə Baxışın Leyla xanıma belə yalvarışına görə Şahzadə xanım bərk incidi. Yazıq Baxış qaldı iki suyun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

arasında. Üzünü Şahzadə xanıma tutub görək nə dedi:

Gözəllər şahının bərabərisən,
Hər iki gözəlin aşiqiyəm mən.
İncilər incisi, həm gövhərisən,
Sənə qurban şirin canım, gəl barış.

Sizsiniz Baxışın dini, imanı,
Süsəni, sünbülü, gülü, reyhanı.
Deyin mənə olan məhəbbət hanı,
Ay mənim şövkətim, şanım, gəl barış!

Qızların heç biri Baxışın sözünə əhəmiyyət vermədilər. Qabağa düşüb dinməzcə getdilər. Baxış gördü belə getsə, evlərinə tək qayıdacaq. Bir təhərliklə onlarla barışmalı oldu. Onların könlünü almaq üçün aldı görək nə dedi:

A gözəllər, niyə kirmiş gedirsiz,
Danışıb gülməyə dil yaraşıqdı.
Baxışlarla çiyinlərimi didirsiz,
Ceyran gəzməyə çöl yaraşıqdı.

Çoxdan arzulardım bu xoş saatı,
Gedək birgə edək toyu, busatı.
Gözəllərin olur şirin söhbəti,
Qol-qola getməkdə yol yaraşıqdı.

Mənə əzizsiniz baş ilə candan,
Sizi seçənmirəm huri-qılmandan.
Baxış deyər, hərənizə bir yandan,
Dolayım qollara, bel yaraşıqdı.

Sözünü tamam eyləyib Baxış atını qabağa sürür. Hər ikisini qucaqlayıb öpür, atdan düşürlər. Xeyli şirin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

söhbət eyləyib barışdıqdan sonra yenidən atlara suvar olub yol gedirlər. Xeyli gəldikdən sonra bir çobanla rastlaşırlar. Əvvəlcə çoban elə başa düşür ki, bunlar oğrudular. Qoyun-quzu aparmağa gəliblər. Baxış bir təhərliklə başa salır ki, Yəmənə gedirlər, Əmir şahın oğludu. Bunu eşidən çoban tez ayağa qalxır. Sən demə elə sürülər də Əmir şahın sürüsü imiş. Çoban bildirdi ki, Əmir şahın oğlu neçə müddətdi öz sevgilisinin dalınca gedib. İndi görür iki gözəl qıznan qayıdıb. Tez sürünü yoldaşlarına tapşırır, özü isə birbaş qaçır Əmir şahın yanına. Amma çoban yolda şahın mehtərinə rast gəlir. Əhvalatı ona danışır. Mehtər əvvəlcə inanmır. Təzədən geri qayıdırlar. Mehtər görən kimi Baxış bəyi tanıyır. Yanında iki qız görüb sevnir. Baxış da Mehtəri tanıyır. Ürəyi cuşa gəlir, ata-anası yadına düşür, alır görək Baxış Mehtərə nə deyir, Mehtər ona necə cavab verir:

Aldı Baxış:

Xeyir-xəbər yetir vəfalı Mehtər,
Ağadan tez xalat alasan gərək.
Meydan səninkidi hünərin göstər,
Açıban könlü güləsən gərək.

Aldı Mehtər:

Gedəndə əynimə geymişəm qara,
Əzəl dərdimizi biləsən gərək.
Ağamın gözünə yoxdur bir çara,
Onu öz əlinlə siləsən gərək.

Baxış gördü doğrudan da Mehtər qara geyinib. Səbəbini öyrəndi ki, Əmir şah oğlunu itirdiyi üçün ağlamaq-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dan gözləri kor olub, dava-dərman tapılmır. Odur ki, bütün şəhər əhli də ona yas saxlayıb qara geyinib. Baxışın ürəyi bir qədər də yumşaldı, aldı görək nə dedi:

O sənin ağandır, ölkə sərdarı,
Bizlərə bağlıdır əhdi-ilqarı.
Tez yetir, dayanma ona xəbəri,
Qayıt, xoş xəbərlə gələsən gərək.

Aldı Mehtər:

O mənim ağamdır, ölkə sərdarı,
Həddindən ziyadə dövləti, varı.
Amma ki, gedibdi ömrünün yarı,
Onun bu dərdini biləsən gərək.

Aldı Baxış:

Əmir şah oğluyam, Baxışdır adım,
De ki, başa çatıb əhdi-muradım.
Elimdir, yurdumdur mənim imdadım,
Sən də bizim ilə qalasan gərək.

Aldı Mehtər:

Nadan olan arifliyi gec qanar,
Günahkar adamlar tezcə utanar.
Mehtər xan Baxışı səsindən tanar,
Sən məni yadına salasan gərək.

Mehtərin ağzında söz qurtaran kimi atına suvar olur, çobanını da orda qoyub çaparaq muştuluğa qaçır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çoban allandığını görüb onun dalınca yüyürür. Amma görür çata bilməyəcək. Geri qayıdır. Görür uduzub. Son peşmançılıq fayda verməz. Təzədən sürünün içərisinə girir, toy üçün yaxşı erkək seçir. Çoban burda erkək seçməkdə olsun, sənə xəbər verim Əmir şahdan. Əmir şah xəbəri eşidən kimi əvvəlcə qulaqlarına inanmır. Sonra özü ayağa qalxıb Mehtərlə birlikdə oğlunun, gəlinlərinin pişvazına gəlir. Uzaqdan Baxışı görcək gözlərinə işıq gəlir, qaməti düzəlir, addımlarını şəstlə atır. Yaxınlaşıb oğlunu bağrına basır, gəlinləri ilə də görüşüb deyir:

– Məni istəyən varsa, Mehtərə xələt versin.

Yığılıb camaat hərə bir şey bağışlayır. O qədər nəmər yığılır ki, Mehtər iki ata yükləyir. Yenə yarısı yerdə qalır. Ucadan çobanı çağırıb deyir:

– Əyə, mən payımı götürmüşəm, o yerdə qalanı da sən apar.

Bütün vilayət əhli yığılır. Əmir şahın oğlunun sağ-salamat qayıdıb gəlməsi üçün şadlıq elan olunur. Mahalda nə qədər çalan, oxuyan varsa, hamısı buraya toplaşır. Böyük ziyafət düzəldilir. Qırx gün, qırx gecə toy çalınır, məclisə gələn aşıq sazı sinəsinə basıb bəylə gəlinlərin şəninə belə bir dastan qoşur:

Bənzəyir tovuz quşuna
Qırmızı, ala gəlin.
Aşiqinin canın alır,
O dodağı xallı gəlin.
Ağzın içi südlü qaymaq,
Dodaqları ballı gəlin.

Mahalları səddi tutub,
Əcəb qeylü-qallı gəlin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Geyinibdir aldan, şaldan,
Köynəyinə zər bəzənib.
Hərlənir tovuz kimi
Qəddi qələmkər bəzənib.
Süzür ala gözlərini,
Zənəxdana tər bəzənib.
Eşqi məcnun eyləyib
O Leyla misallı gəlin.

Sinədən söz eyləyib,
Dəftərə yazım deyirəm.
Sözümdə qələt olsa,
Qırılsın sazım deyirəm.
Sənin eşqinlə ucalsın,
Göyə avazım deyirəm.
Sən gözəl, yarın gözəl,
İşvəli nazım deyirəm.
Həsəndən incik olma,
Ay gülgəz camallı gəlin.

Məclisdəkilər hamı bir ağızdan aşığa afərin dedi. Onlar yeyib içib günlərini şad-xürrəm keçirdilər. Sizin də gününüz şad, gecəniz xoş keçsin.

## ÇOBAN MƏHƏMMƏDİN YALANBOL SƏFƏRİ



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## USTADNAMƏ

Axrı fikir eylə, qafil dolanma,
Qəlbini şeytandan yad elə, insan!
Elə iş tut, axirətdə utanma,
Bacar könül yıxma, şad elə, insan!

Bu dünyada dediyin fanıdır, fanı,
Əvvəl Nuh gəlmişdi, qalmayıb, hanı?!
Puç eylədi İsgəndər tək xaqanı,
Bizə də əsəcək bad elə, insan!

Alməmməd dünyada hələ bihuşdu,
Bənadəm dediyin vətənsiz quşdu.
Səxasız dövlətin axırı puçdu,
Ye malın, dahana dad elə, insan!

Ustadlar ustadnaməni bir deməyib, iki deyib, biz də deyək, iki olsun:

Yığdım bu dünyanın malın, dövlətin,
Əllini aşırdım, yüzə nə qaldı.
Ayaq getdi, əl gətirdi, diş yedi,
Baxmaqdan savayı, gözə nə qaldı.

Ölüm haqdı, çıxmaq olmaz əmirdən,
İpək tora halqa salma dəmirdən.
Aydı, gündü gəlir gedir ömürdən,
Darıxırıq, görən yaza nə qaldı.
Eşiyə çıxıram, hava məxşuşdu,
Gəzdiyim ovlaqlar yadıma düşdü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir gün eşidərsiz, Alı da köçdü,
Sındı telli sazı,Təzənə qaldı.

Ustadlar ustadnaməni iki deməyib, üç deyib. Biz də deyək, üç olsun, düşmənin ömrü puç olsun.

Ələstidən «bəli» deyən,
Sübhanə baş endirir.
Məhəmmədə nazil olan,
Qurana baş endirir.
Özü birdi, adı min bir
Vəhdəhu əl- laşərik,
Əhli- mömin görə bilməz,
Pünhana baş endirir.

Ölməyincə bu sevdadan,
Çətin, dönəm, usanam;
Həqiqətdən dərs almışam,
Şəriətdən söz qanam;
Şahi- Mərdan sayəsində
Elm içində ummanam,
Dəryaların qaydasıdı,
Ummana baş endirir.

Biçara Aşıq Ələsgər,
Olma elmə nabələd;
Danışanda doğru danış,
Sözün çıxmasın qələt.
Çox qazansan, az qazansan,
Beş arşın ağdı xələt;
Mal- dövlətə baş endirən
Əfsanə baş endirir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mənim əzizlərim, sizə haradan xəbər verim, Göyçə mahalının Ağkilsə kəndindən. Ağkilsə kəndində/ kimdən, Aşıq Ələsgərin qardaşı Şair Məhəmməddən.

1918-ci ildə ermənilər Göyçəni viran edəndə, Məhəmməd də doğma yurddan qaçqın düşmüşdü. O, ailəsini üç il Kəlbəcərdə saxladı, Şura höküməti qurulandan sonra, Ağkilsə kənlində qayıtdı. Ermənilər kəndi talamış, evləri yandırmışdılar.

Məhəmmədin üç keçisi, bir eşşəyi vardı. Hələ Kəlbəcərdə olarkən eşşəyi qabağına qatıb, xırda alver eləyirdi. Keçiləri isə dostları vermişdilər. Məhəmməd yaşamağa bir koma düzəldəndən sonra yenə Kəlbəcərdə olduğu kimi, başladı xırda alverə. Alver eləməsin, bəs, neyləsin; sürü ilə qoyun yox idi otara, öküz yox idi kotan qoşa...

Məhəmməd gedib, Gəncədən çərçi xırdavatı gətirir, Göyçənin, Kəlbəcərin kəndlərində satır, bir təhər çörək pulu çıxardırdı.

Bir gün Məhəmməd alverçi yoldaşları ilə bərabər Göyçədən Gəncəyə yol başladı. Onlar gəlib Sarı Məyələ çatanda, daracaq bir yerədə qayanın dalından səsləndilər:

– Tərpənməyin!

Yazıq karvançılar tüfəngin qabağından hayana tərpənə bilərdilər. Dayandılar. Tüfəngli iki adam daşın dalından çıxıb, bunlara yaxınlaşdı, sorğu- suala başladı:

– Harya gedirsiniz?

Məhəmmədin yoldaşlarından biri dilləndi:

– Arana.

– Nə işə?

– A bəy, dolanmağa çətinlik çəkirik. Gedirik ki, Gəncədən xırda-para şeylər alıb gətirək, Göyçədə sataq, bir təhər dolanaq. Çarəsizlikdir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Sizə hələ bu da azdı! Gərək hamınız dilənçi olasınız!

Məhəmməd özünü saxlaya bilməyib dilləndi;

– Axı, niyə?

– Ona görə ki, beş-on erməni dığasının qabağında davam gətirə bilmədiniz; hamınız qaçdınız, dağıldınız. Onlar da Göyçənin var- yoxunu talan elədilər.

– A bəy, göyçəliləri o qədər də qorxaq, cəsarətsiz hesab eləmə. Göyçənin dağılmasının günahı bir bizdədisə iki sizdədi.

– Niyə?

– Ona görə ki, bir aydan çox atışma getdi. Ermənilərə arxadan kömək gəldi. Göyçəlilər çapar göndərdi, sizdən kömək istədi; sizi kimi bir nəfər də Göyçə tərəfə boylanmadı ki, görək müsəlman qardaşlarımız nə gündədi. Əgər kömək versəydiniz, göyçəlilərin yarısı qırılsa da, qalanı Göyçədən çıxmazdı.

Məhəmmədin belə deməsi ona bərk toxundu. Bu tüfənglilər kim ola, kim olmaya, biri Goranboylu Ağamirzə, biri də Yevlaxlı Səməd.

Ağamirzə sərt- sərt dilləndi:

– A kişi, adın nədi?

– Adımı neynirsən, sözünü de!

Məhəmmədin yoldaşlarından biri Ağamirzəyə yaxınlaşıb, astadan dedi:

– Adı Məhəmmədi. Aşıq Ələsgərin qardaşıdı.

Ağamirzə Aşıq Ələsgərin adını eşidəndə, bir az yumşaldı:

– Məhəmməd, yoxsa, dediyim xətrinə dəydi?

– Bəy, dedin də, cavabını aldın da. Əslinə baxsaq, günah heç kəsdə deyil, fələkdədi. Başımıza nə iş gəlirsə, fələk gətirir. Biləsən, bu üç- dörd ilin içində göyçəlilər nə müsibətlər görüb, hamı kirpiyi ilə od götürüb.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Məhəmməd, sən Ələsgərin qardaşısansa, fələyi sözlə məzəmmətlə, görək başınıza nə iş gətirib.

Məhəmməd bir daşın üstündə əyləşdi, çəliyi sinəsinə saz kimi sıxdı, görək nə dedi, oradakılar nə eşitdilər. Biz sazla deyək, şad olun:

Dürüst fəhm elə, gör məni
Salıbsan nə hala, fələk!
Qarışdırıbsan başımı
Olmaz qilü- qala, fələk!
İki əlim olub, bir başım
Düşmüşəm mahala, fələk!
Əlimə bir zurna verdin,
Qaldım çala-çala, fələk!

İngilisdən gələn şalon
Göyçəni qoydu virana;
Öləni öldü, qaçanı
Dağlarda düşdü borana.
Ac qaldı uşaq, ağlaşdı,
Hamı yön tutduq Arana.
Çiynimizə xurcun verdin,
Döndərdin hambala, fələk!

Üzü qara olmuş bahalıq
Neçə nahaq qan elədi;
Mollalar dəftərə yazdı,
Aşıqlar dastan elədi.
Göyərdi gözəl qırxbuğum,
Maral güzəran elədi;
Görənlər qəh- qəhə çəkdi,
Güldü bu əhvala, fələk!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yaş yaşayıb, boy çəkəli
Dolu görmüşdük anbarı;
Deyirdik, nəyə lazımdı
Arpaynan dareqan, darı;
O qədər azdı əməlimiz,
Bəyənmədik gərdiyarı;
İndi ayran ilə pencər
Dönüb bizə bala, fələk!

Ağ aşı bəyənməyən
İndi hamı ayran içir;
Ah çəkir, boyun bükür,
Güzaranı belə keçir;
Ac qalır, əcəl gəlir,
Fanidən uqbaya köçür,
Kəfənsiz qoyulur,
Buyurur risala, fələk!

Gicitkən ilə unnuca
Yaxşı saxladı adamı;
Əgər ki onlar olmasa,
Məxluqat batardı hamı.
Şükür, Allah, kəriminə!
Görmədim ata- anamı;
Çox oğlanlar atasına
Çöndəribdi dal, a fələk!

Ağamirzə dilləndi:

– Məhəmməd, gicitkan ilə unnuca ymidinə qalan yaşaya bilməz.

– A bəy, Göyçədə olan pencər bir bunlar ha deyil;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yülərlə pencər var ki, hərəsi bir dərdin dərmanıdı.

– Onlar hansı pencərlərdi?

– Onda qulaq as.

Aldı Məhəmməd hansı pencərlərin adlarını çəkdi:

Laladibi, nəzikbədən
Onlar böyük ad elədi;
Ac qarınlar doydurdu,
Çox könüllər şad elədi.
Deyim, əvəlik, dübərtən
Mahala imdad elədi;
Şahpencəri yaddan çıxıb,
Heç gəlmir xəyala, fələk!

Ağamirzə dinib danışmırdı. Bikef halda qulaq asırdı. Məhəmməd aldı sözün o biri xanəsini:

Gözümüz yollarda qalıb,
Karvan havaxt yük gətirir;
Kiminin baxtı dolu,
Kimininki pük gətirir.
Bənadəm çəngəl yeməkdən
Heyvan kimi tük gətirir;
Hamısı löyündən çıxır,
Dönür arır mala, fələk!

Ağamirzə dilləndi:

– Məhəmməd, «pük gətirir» nə deməkdi?

– A bəy, qozu, fındığı sındıranda, bəzisinin içi boş çıxır. El arasında bunu deyirlər ki, qoz pük çıxdı, fındıq pük çıxdı. Karvanın pük gətirməyi odur ki, karvançı çalışır, cəhd eləyir, ya bir şey alıb yükə vura bilmir, ya da yükə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

vurduğunu yolkəsənlər soyub əlindən alır, evə boş qayıdır.

– Hə, aydın oldu. Sözün sonrasını de.

Aldı Məhəmməd:

Getdi əldən var, güzəran,
Məhəmmədəm, qaldım naçar;
Kişinin varı olmasa,
Enişə, yoxuşa qaçar.
Çağırram Şahi- Mərdanı,
Əlbət, bir xeyir qapı açar;
Sidqilə sığınmışam
Müşkülü həllala, fələk!

Mənim əzizlərim, elə ki Məhəmməd sözünü tamam elədi, Ağamirzə dedi:

– Məhəmməd, bu yol sizin üçün həmişə açıqdı. Gedəndə, ya da qayıdanda, sizə dəyib-dolaşan olsa, mənim adımı verin, heç kəs sizi incitməz.

Məhəmmədgil Ağamirzə və Səmədlə sağollaşıb, yollarına davam elədilər. Gün batandan xeyli keçmiş Gəncəyə yetişdilər. Səhər tezdən kimin pulu varıydısa, çarıbazara getdi ki, çərçi xırdavatı alsın. Kimin pulu yoxdusa, yaxında olan kəndlərə yollandı ki, işləyib pul qazansın, sonra lazım olan şeyləri alsın. Məhəmmədin pul azıydı. İki yoldaşla birlikdə o da kəndlərin birinə yollandı. Gəlib Mülkədar kəndinə yetişdilər.

Ot biçininin vaxtıydı. Çoxları ot biçdirmək üçün fəhlə axtarırdılar. Məhəmmədgili görəndə, başlarına toplaşdılar. Bir kişi soruşdu:

– Ot çalmağı bacarırsınızmı?

Məhəmməd dedi:

– Niyə bacarmırıq. Əkin- biçin bizim dədə- baba



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

işimizdi.

Bir qadın Məhəmmədgili aparıb, ot basmış çəpərini göstərdi:

– Bura mənimdi. Kimə göstərmişəm, biçməyə çətinləşib. Siz biçə bilərsinizmi?

Məhəmməd dedi:

– Biçərik. Lap yaxşı biçərik.

Arvad tez çay-çörək hazır elədi, qonu- qonşudan kərənti tapdılar. Məhəmmədgil yeyib-içəndən sonra, kərəntiləri nizamladılar, otu biçməyə başladılar, nə başladılar. Axşama qədər çəpəri yarı elədilər. Bunların səliqəli, təmiz işi hamının xoşuna gəldi. Qonşuda olanlar da bunları behlədilər ki, çəpərlərini biçdirsinlər.

Axşam yeməyinin vaxtı Məhəmməd gördü ki, iki uşaqdan başqa, arvadın evində ayrı adam yoxdu. Dili dinc durmadı:

– A bacı, evin kişisi hardadı?

– Evin kişisi olsaydı, mən niyə çəpəri biçdirməyə adam axtarıram!? Dörd ildi rəhmətə gedib.

Məhəmməd söz soruşmağa peşiman oldu. Arvadın böyük mülkü, neçvə otağı varıydı. Axşam otaqların birində Məhəmmədgilə yer saldı, yatışdılar. Səhər hamınızın üzünə xeyirliklə açılsın, səhər açılanda, Məhəmməd yoldaşlarını da yatağından qaldırdı. Səhərin sərin havasında işə başladılar, günorta olmamış otu biçib qurtardılar.

Məhəmməd arvadın çox xoşuna gəldi. Fikrindən keçirirdi ki, kaş indi onun belə bir əri olaydı. Məhəmmədin yoldaşlarından soruşdu ki, Məhəmmədin arvadı varmı? Bu mərdümazarlar onu aldadıb dedilər ki, yoxdur. Bu dəfə arvad belə bir qərara gəldi ki, Məhəmmədi evində saxlasın. Amma bu barədə ona açıq bir söz deyə bilmədi.

Qonu-qonşular növbə ilə Məhəmmədgili aparıb, çə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

pərlərinin otunu biçdirirdilər. Məhəmməd heç arvadın fikrindən çıxmırdı. Tez- tez gedib qonşuda onların işinə baş çəkir, «yorulmayasınız» deyirdi. Bu münvalla bir həftə keçdi. Bir gün arvad Məhəmmədə sözünü açıq dedi:

– Məhəmməd, öyrəndim ki, sənin arvadın yoxdur. Mənim evimi, mal- mülkümü də gördün. Əgər istəsən, bu mal-dövlətə sahib olub, burada qalarsan.

Məhəmməd bilmədi, nə desin. Gecdən-gec dilləndi:

– Ay xanım, qoy fikirləşi, bir söz deyərəm.

Məhəmməd məsələni yoldaşlarına dedi, gülüşdülər. Dedilər ki,arvadı aldatmışıq ki, Məşəmmədin arvadı yoxdur demişik. Məhəmməd yoldaşlarını bir qədər məzəmmətlədi, incidi. Daha nə etmək olardı.

Arvad Məhəmməddən cavab gözləyirdi. Məhəmməddən isə bir xəbər çıxmırdı. Arvadın səbri tükəndi, bir gün yenə Məhəmmədin yanına gəlib soruşdu:

– Məhəmməd, cavabın nə oldu?

Məhəmməd arvaddan yaxasını qurtarmaq üçün dedi:

– Ay xanım, mən özbaşıma belə bir işə qol qoya bilmərəm. Mənim də qohum-qardaşım var. Onlar «hə» desə, burada qalaram.

– Qohum-qardaşına kağız yolla, razılıqlarını bildirsinlər.

– Mən yazı bilmirəm.

– Mən mirzə gətirərəm.

Məhəmmədin sözü kəsildi. Arvad gedib qonşudan yaza bilən bir oğlan çağırdı. Tapşırdı ki, Məhəmməd nə desə, onu yaz. Özü də gözünü Məhəmmədin ağzına dikdi ki, görsün nə deyir. Məhəmmədin əlacı kəsildi. Aldı görək nə dedi, oğlan nə yazdı. Biz də sazla deyək, şad olun.

Könül bir gözələ aşiq olubdu,
Bilmirəm, almayım, yoxsa alım mən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aran çox istidi, yaylaq sərin,
Bilmirəm, qalmayım, yoxsa qalım mən?

Arvad dilləndi:

– Məhəmməd, niyə tez Aranın istiliyini yada saldın? Sən deməsən də Göyçəlilərin hamısı bilir ki, Aran istidi, yaylaq sərindi. Yaxşı olar ki, mənim barəmdə deyəsən.

Doğrudu, arvad ətli- qanlı idi, amma sifətdən çirkiniydi. Gördü ki, arvadı tərifləməsə, onun xətrinə dəyəcək. Aldı görək bu dəfə nə dedi:

Çox ziba gözəldi, gözəllər xası,
Geyinib əyninə əlvan libası.
Görünür gözümə eşqin dəryası,
Bilmirəm, qalmayım, yoxsa qalım mən?

– Xanım, xoşuna gəldimi?

– Çox yaxşı deyirsən. Dalını de!

Aldı Məhəmməd:

Məhəmmədəm, ağlım başdan azalıb,
Zimistan zəmhərin əldən yaz alıb.
Dəli könlüm altmışında saz alıb,
Bilmirəm, çalmayım, yoxsa çalım mən?

Arvad dedi:

– Məhəmməd, səndən qoçaq, səndən ağıllı kim var ki?! Niyə özünə elə deyirsən?

– Xanım, sözün urfatı düz gəlmək üçün elə dedim.

– Kağızı kimnən göndərəcəksən?

– Tanış adam var, sabah yollayacam. Bir həftəyə cavabı qayıdar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məhəmməd kağızı oğlandan aldı, dörd qatladı, pul kisəsinin içinə qoydu.

Xanım bir həftə gözlədi, cavab çıxmadı, on gün gözlədi, cavab çıxmadı, on beş gün gözlədi, cavab çıxmadı, səbri tükəndi, Məhəmmədin yanına gəlib dedi:

– Məhəmməd nə xəbər var?

– Xanım, gedən adam, bəlkə, kağızı çatdırmayıb. Əlimdəki işimi qurtarandan sonra özüm gedib, bir xəbər gətirərəm.

Məhəmməd arvadı beləcə başından elədi.

Məhəmməd zəhmət haqqını topladı. Özünü verdi Gəncənin bazarına. Yaxşı qiymətə gedən şeylərdən aldı, eşşəyin belinə yüklədi. Yoldaşları ilə bərabər Göyçəyə yola düşdülər.

Məhəmmədgil gəlib Ağyoxuş deyilən dağa çatanda, bunları güclü yağış tutdu. Bir qayalıqda daldalandılar. Yağış imkan vermədi ki, yollarına davam eləyələr. Gecə burada qaldılar. Səhər Məhəmməd gördü ki, halı hal deyil; düz əməlli xəstələnib. Yoldaşları birtəhər onu gətirib, Ağkilsəyə çatdırdılar. Məhəmməd yorğan-döşəyə düşdü. Düz bir ay qızdırmadan yatdı. Ara həkimləri dedilər ki, dava-dərman bir yana, yemək-içmək bir yana. Gərək yeməyi yaxşı olsun. Bəs nə yesin? Yazlıq buğdanın çörəyi, inəyin sarı yağı, erkəyin əti, beçənin balı. Əgər bir müddət bu yeməklərlə özünə yaxşı baxsa, canı sağa çıxar.

Göyçədə bu zaman çox qəhətlik idi. İnək nə gəzirdi ki, onun sarı yağı da olsun. Erkək nə gəzirdi ki, onun əti də olsun. Arı nə gəzirdi ki, onun balı da olsun.

Bir neçə gün keçdi. Məhəmməd özünü bir az yaxşı hiss eləyən kimi, xırdavatı eşşəyin belinə yüklədi, həkimin buyurduğu şeyləri alıb gətirmək üçün Yalanboy vilayətinə yola düşdü. Gün batanda Yalanbol vilayətinin Qə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

səmxor kəndinə yetişdi. Bir evin qapısında bir kişini görüb dayandı.

– Salaməleyküm.

– Əleyküməsalam.

– A kişi, bu gecə məni qonaq eləyərsənmi?

– Niyə eləmirəm; qonaq Allah qonağıdı.

Məhəmməd eşşəyin yükünü açdı, eşşəyi bir ağaca bənd elədi. Kişi Məhəmmədi evə apardı, çay-çörəkdən sonra soruşdu:

– Adın nədi?

– Məhəmməd.

– Gətirdiyin nədi?

– Çərçi xırdasıdı.

Ev sahibinin adı Əziz idi. Bir qədər söhbətdən sonra o biri evdə Məhəmmədə yer saldılar, yatdı. Sabah hamınızın üzünə xeyirliklə açılsın! Sabah tezdən Məhəmməd yerindən durdu, çay-çörək yedi, eşşəyi yükləyib, kəndin ortasına gəldi. Məhəmməd yükü açdı, gətirdiyi əlvan-əlvan ipək parçalardan tutmuş hər cür çərçi xırdavatını ortalığa tökdü. Camaat Məhəmmədin başına toplaşdı, malların qiymətlərini soruşmağa başladılar. Məhəmməd malların qiymətini dedi, sonra onu da bildirdi ki, hər kimin pulu yoxdursa, yağ, bal, ya da buğda unu gətirsin. Məhəmməd belə deyəndə bir kişi dilləndi:

– Güzdük unu, darı unu, arpa unu da götürürsənmi?

– Yox, bir az ağrıyıram, buğda unu lazımdı.

Buraya yığışanların bir çoxu evlərinə gedib, kimisi yağ, kimisi un gətirdi. Qız-gəlinlər parça demədi, sap demədi, sancaq demədi, iynə demədi, seçib bir tərəfə yığdılar. Məhəmməd seçilən şeylərin qiymətini yağ ilə də, un ilə də dedi. Un gətirənlər, yağ gətirənlər malların bir qismini alıb apardılar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sən demə, un gətirənlərin çoxu altından darı, güzdük, arpa unu qoyub, üstündən isə bir az buğda unu töküblərmiş. And içib, Məhəmmədi inandırmışdılar ki, xalis yazlıq buğdası unudu.

Axşam Məhəmməd yenə Əzizin evinə qayıtdı. Gecə yatdılar. Sabah hamınızın üzünə xeyirliklə açılsın. Sabah tezdən Məhəmməd una baxanda, əhvalı qarışdı, Əzizə dedi:

– Əziz, bu un buğda unu deyil. Mən demişdim, buğda unu gətirin .

Əziz una diqqətlə baxdı, dedi:

– Qarışıqdı; buğda da var, arpada var, darı da var, güzdük də. Bəs, alanda baxmırdın?

– Baxırdım, niyə baxmırdım. Görürdüm ki, buğda unudu?

– Altından darı, arpa, güzdük unu; üstündən də buğda unu qoyub, səni aldadıblar.

Təzədən nə etmək olardı. Məhəmmədi od götürdü. Əziz gördü ki, qonaq durub-dincələ bilmir, dedi:

– Məhəmməd, Allah pis adamların üzünü qara eləsin, keçib.

– Mən bu dərdi sinəmdə apara bilərəm. Gedək kəndin içinə. Camaata deyiləsi sözüm var.

Əziz daha Məhəmmədin sözünü çevirmədi. Məhəmməd Əzizlə bərabər dünən şey satdığı yerə gəldi. Beş-altı ağsaqqal burada söhbət eləyirdi.

– Salaməleyküm.

– Əleyküməsalam.

– Sizə deyiləsi sözüm var.

Buradakılar elə bildilər ki, nə isə bir şey soruşacaq. Ağsaqqallardan biri dilləndi :

– Buyur.

Məhəmməd camaatın gözlədiyi kimi cavab vermədi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əlindəki çəliyi sinəsinə saz kimi sıxdı, görək nə dedi, ordakılar nə eşitdilər. Biz sazla deyək, şad olun.

Yəqin vərəmlərəm, tiqq gətirrəm,
Açmayam bu sirri, nihan eyləyəm.
Cin başımı sıxır, şeytan-ayağmı,
Bunları rüsvayi-cahan eyləyəm.

Nəfs aldadıb, dosta yalan satanlar,
Namusunu, qeyrətini atanlar,
Halal dövlətinə haram qatanlar,
Mən sizə nə üzr, bəhana eyləyəm!?

Axırda, Məhəmməd bu sirri aça,
Görən gözün yumu, eşidən qaçı,
Bir şəxsin ki əsli ola qaraçı,
Mən onu haradan şahana eyləyəm.

Bayaqkı kişi dilləndi:
– Bir şey başa düşmədik.
– Başa düşmədiniz, birini də deyim.
Aldı Məhəmməd:

İstəmədim Həcv-hədyan danışım,
Dedim, el eşidər, kənddən ayıbdı,
Yazlığa danışıb, darı verənlər,
Əl götürsün belə fənddən, ayıbdı.

Əziz dilləndi:

– İndi başa düşdünüzmü?! Dünən şey-şüy alanlar kişiyə buğda unu əvəzinə darı unu veriblər.

Məhəmməd aldı sözün o biri xanəsini:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedim ki, naxoşam, darı yemirəm,
Darıynan dareqan mən istəmirəm.
Abırdan keçmirəm, hədyan demirəm,
Aralıqda məzəmmətdən ayıbdı.

Yalanmasın yemək ilə doymayan,
Ac qalar kasaya bir şey qoymayan.
Adam deyil məni adam saymayan,
Demədim Məhmmədəm, ayıbdı!?

Elə ki, Məhəmməd sözünü tamam elədi, Əziz dünən xırdavat alanlardan bir neçəsini çağırtdırıb, məzəmmət elədi ki, kişini niyə aldadıbsınız. Gələnlərin hər biri and içdi, ağı yaladı ki, mən buğda unu gətirmişdim. Təzədən kimə nə sübut eləmək olardı.

Əziz Məhəmmədlə bərabər evlərinə gəldi, un çuvalını ağzını açdı, bir dağarcıq buğda unu doldurdu, Məhəmmədə dedi:

– Məhəmməd, bu unu sana qardaşpayı verirəm. Sən ki belə şairsənmiş, halaldı sənə!

Məhəmməd istədi ki, unu qəbul eləməsin, Əziz məcburən verdi, sonra gülümsünüb dedi:

– Gözlə ki, bunu da dəyişdirməsinlər.

Məhəmməd bal almamışdı. Eşşəyini yükləyib yola düşəndə Əzizə dedi:

– Əziz, mənə bal lazımdı. Görəsən haradan almaq olar?

– Fırıldaqçı kəndində arı saxlayanlar çoxdur. Nə qədər istəsən oradan ala bilərsən. Qabaqdakı Haramxor kəndidi. Bu kənddən keçib bir qədər gedəndən sonra görəcəksən ki, dağın döşündə bir kənd görünür; ora Fırıldaqçı kəndidir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məhəmməd fırıldaqçı kəndinə yola düşdü. O, xırdavatı satıb qurtarmamışdı. Haramxor kəndinə çatanda, kəndin ortasında dayandı. Camaat onun başına toplaşdı. Məhəmməd gördü ki, eşşək yükün altında əziyyət çəkir, yükü açdı, satılası şeyləri açıb müştərilərə göstərdi, yavaş-yavaş satmağa başladı. Alıcının arası kəsiləndə, Məhəmməd yoluna davam eləmək istədi. Fırıldaqçı kəndi xeyli uzaqda görünürdü. Məhəmməd bu qərara gəldi ki, bu qədər yolu ağzı yoxuşa ulağı yüklü aparıb gətirmək hədər əziyyətdir; yaxşısı budur ki, aç, bu kənddə qoy. Bir kişiyə dedi:

– Fırıldaqçı kəndinə bal almağa gedəcəyəm; mən gələnə qədər bu unu sizdə qoymaq olarmı?

– Niyə olmur.

Kişinin evi yaxında idi. Ev sahibi də kömək elədi, un kisəsini də, dağarcığı da içəri apardılar. Məhəmməd unların ağzını bağladı, divara söykədi. Evdə olan bir gəlinlə bir qız Məhəmmədin hərəkətlərinə fikir verirdi.

Məhəmməd qalan xırdavatı götürdü, fırıldaqçı kəndinə tərəf üz qoydu. Yol ox yoxuş idi. Adam addım atdıqca nəfəsi darıxırdı. Həm də çox isti idi. Birdən hava qaraldı, güclü yağış başladı, dalını doluya çevirdi. Məhəmməd təmiz islandı. İslandığına baxmadı, çalışdı ki, bir təhər kəndə çatsın. Kəndə çatanda Məhəmmədə hal qalmamışdı. Onu möhkəm titrətmə tutdu. Yolun qırağındakı birinci evə döndü ki, əl-ayağını qızdırsın. Qapını açanda gördü ki, sarıyağız, göygöz bir qarı ocağın qırağında əyləşib. Dedi:

– Bacı, xəstəyəm, islanmışam, bərk üşümüşəm; olarmı, əl-ayağımı qızdıram?

– Olmaz! Cəhənnəm ol! Çıx çölə!

Məhəmməd gördü ki, çölə çıxsa, vəziyyəti çox pis olacaq; xəstəliyi təzələnəcək. Qarının söyüş-qarğışına



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

baxmadı, özünü verdi ocağın qırağına.

Qarı gördü ki, qonaq onu hesaba almadı; ocaqdan bir odlu kösöv çəkdi, istədi Məhəmmədin təpəsinə çırpsın. Məhəmməd qaçdı. Qarı bunun dalınca yüyürəndə, ayağı yun darağına ilişib yıxıldı. Daraq onu ağır yaraladı, qarı al-qanına bulandı, çığırıb haray qopardı. Səs-küyə qonum-qonşu toplaşdı. Tez qarının yarasını sarıdılar, yorğan-döşəyə uzatdılar. Sonra Məhəmməddən soruşdular ki, bu nə əhvalatdı?

Məhəmmməd dedi:

– Bərk üşümüşəm, dilim söz tutmur. Qoyun ocağın yanında canımı qızdırım, sonra deyim.

Dedilər:

– Qızdır.

Məhəmmədin canı qızandan sonra, çəliyi sinəsinə basdı, görək buradakılara nə dedi. Biz sazla deyək, saz olun.

Baxtın tənəzzülü, iqbalın xabı,
Mana bir biiman qarı tuş gətdi.
Beli donqar, dişi seyrək, gözü göy,
Məzəmmət nədi, o murdarı tuş gətdi?

Sənətiymiş gəlib-gedənə hürmək,
Oba arasında yortub, yüyürmək.
Əntər qaş-qabaqlı, dişləri seyrək,
Gözü göy, irəngi sarı tuş gətdi.

Məhəmmədəm, soruşmayın halımı,
Ürcah oldu mana Tanrı zalımı.
Kösövü götürdü, qıra belimi,
Cənab Əli Zülfüqarı tuş gətdi.

Qonu-qonşusu qarını tanıyırdılar. Məhəmməd belə deyəndə, bildilər ki, Məhəmmədin burada heç bir günahı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yoxdur.

Məhəmmədin titrəməsi kəsmirdi. Bir kişi onu evlərinə apardı. Paltarını dəyişdirib qurutdular çay-çörək verdilər, o gecə qonaq saxladılar. Sabah tezdən Məhəmməd gördü ki, əhvalı bir az yaxşıdı. O, bir qədər bal aldı, Haramxor kəndinə qayıtdı.

Məhəmməd istədi ki, ulağını yükləyib yola düşsün. Kisəyə, dağarcığa baxanda, gördü ki, özü qoyduğu kimi deyil; ikisinin də ağzı açılıb, təzədən bağlanıb. Dağarcığın ağzını açanda məəttəl qaldı, gördü ki, darı unudu.

Qızla gəlin Məhəmmədə tamaşa eləyirdilər. Məhəmməd dayana bilməyib dedi:

– Dağarcıqdakı yazlıq buğda unu idi; kim bunu darı unuda döndərib?

Hər ikisi dilləndi:

– A kişi, nə danışırsan?! Burada oğru var?! Heç kəs una əl vurmayıb; yəqin özgə yerdə dəyişiblər.

– A bala, mən unu alan kimi birbaş buraya gəlmişəm, özgə yerdə ayağımı saxlamışam.

– Yəqin, buğda unu deyilmiş, səni aldadıb, buğda unu əvəzinə veriblər.

– Mənim gözlərim hələ yaxşı seçir. Buğda unu ilə darı ununu ayıra bilirəm. Dağarcığa xalis buğda unu doldurmuşdum.

– A kişi, yalan danışma!

Məhəmməd astadan dillənirdi. Amma onlar, illah da ki, qız çığıra-çığıra, qəzəblə danışıb, Məhəmmədə hədə-qorxu gəlirdi.

Səs-küyə yaxın evlərdən də gələn oldu. Məsələdən halı olub, qızı danladılar. Dedilər ki, Sona (ona hamı «Çəpəl Sona» deyirdi), bu kişi yalan danışan adama oxşamır. Sənin əlin əyri olduğunu hamı bilir. Qonşuların



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

canını boğazına yığıbsan. Kişinin ununu gətir, yerinə qoy.

Elə ki, camaat oğurluğu təsdiq elədi, Sona cin atına mindi; hücum çəkdi ki, Məhəmmədi vura, mane oldular, imkan vermədilər.

Məhəmməd gördü ki, bu qalmağalın, bu cəhlin xeyiri yoxdu. O, ulağını yükləyib yola düşdü.

Bir saat çəkmədi, bu əhvalat bütün kəndə yayıldı. Hamı eşitdi ki, Çəpəl Sona qonaqlarının ununu oğurlayıb, özünü də döymək istəyirmiş, qoymayıblar.

Məhəmməd evdən bir qədər aralaşmışdı, üç-dörd adam onu saxlayıb soruşdu ki, bu nə əhvalatdır, sənin başına gəldi. Məhəmməd gördü ki, elə-belə nağıllamaqla ürəyi soyumayacaq, çəliyi sinəsinə basdı, aldı görək nə dedi, buradakılar nə eşitdilər. Biz də sazla deyək, siz eşidin:

Bir evdə dağarı amanat qoydum,
Bölüb ev yiyəsi, yarı eləyibdi.
Bir az yaxşı yazlıq unu varıydı,
Götürüb, yerinə darı eləyibdi.

Mən ağzın bağladım, qız qulaq asdı,
Dırnaqları uzun, dabanı yastı,
Duluzlu qarı qız, məməsi pasdı,
Yəqin, o səy, o xunxar eləyibdi.

Gördüm çox qırışır, çox gülür gəlin,
Anladım işini, qandım əməlin.
....................................................
Görən desin, haqqı var, eləyibdi.

Məhəmməd bu bəndi deyəndə, gülüşdülər, pərt olanı da oldu. Məhəmməd aldı o biri xanəsini:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

.....................................................
.....................................................
Yəni çox götürüb bir batman unu,
Aləmdə özünü xar eləyibdi.

Bu bəndi deyəndə, Məhəmmədə acığı tutanlar da oldu. Çəpəl Sonaya xəbər çatdırdılar ki, sizə gələn çərçi sənə həcv dedi, söydü, tamam biabır elədi. Çəpəl Sona əlinə bir ağac alıb gəlməkdə olsun, Məhəmməd aldı sözün tapşırmasın:

Toşa çul nə lazım, ata çəkərlər,
Qiyəmtini min manata çəkərlər.
Xalqlar bir iş tutub, xavta çəkərlər,
Məhəmməd də dilmurdarı, eyəlyibdi.

Buradakı adamlardan biri dedi:

– Məhəmməd, başa düşmədik ki, «dilmurdarı» nə deməkdi?

– Başqaları bir pis iş görür, bəd əməl işlədir, onun da xatasını çəkir; mən bədbaxt birinci həcv edirəm, dilimin balasını çəkirəm.

Məhəmməd adamlardan ayrıldı, yoluna davam eləmək istədi. Beş-on addım getmişdi, bir də gördü ki, Çəpəl Sona yolun daracığını kəsib. Yanında özü kimi üç-dörd qız da dayanıb. Məhəmməd bilmədi nə eləsin. Tez bayaqkı adamların yanına qaçdı, onlara yalvarmağa başladı, görək necə başladı:

Buraxasınız, məni çəkəcək dara,
Əl aman əlindən, bax bu qız, bu qız!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qonumu, qonşunu gətirib zara,
Cümləsi deyirlər: «Ax bu qız, bu qız!»

Camaat yenə Məhəmmədi əhatəyə aldı. Gördülər ki, Çəpəl Sona yolu kəsib. Əlində bir ağac var, kimə vursan, yerindən qalxa bilməz. Məhəmmədə «qorxma» dedilər. O bir az ürəkləndi, aldı sözün o biri xanəsini:

Bilin, unutmaram bu haqq-sayı,
Ölkənin murdarı, pisi, qolayı.
Götürüb əlinə bir çatma tayı,
Gör necə durubdu şax qız, bu qız.

Məhəmmədin oxumasını Çəpəl Sona da eşidirdi. Maraqda duran ovçu kimi, addım-addım irəli gəlməyə başladı. Məhəmməd onun gəldiyini görəndə, yenə qorxuya düşdü, buradakılara yalvarmağa başladı, görək nə dedi:

Məhəmmədəm, sizə eylərəm minnət,
Qoymayın qanımı tökə bu cəllət!
Çıxsanız aradan, versəniz fürsət,
Doğrayacaq məni bax bu qız, bu qız!

Camaat Çəpəl Sonanı danladı. Qızları məcbur elədilər ki, onu buradan uzaqlaşdırsınlar. Məhəmməd Çəpəl Sonanın cəngindən xilas oldu, yoluna davam elədi. Onun gözü Çəpəl Sonadan elə qorxmuşdu ki, tez-tez arxasına baxırdı.

Məhəmməd qorxa-qorxa getməkdə olsun, sizə Yalanbol vilayətinin camaatından deyim. Məhəmmədin bu vilayətin adamlarını həcv etməsi xəbəri tez yayıldı; bir günün içində hamı eşitdi. Bir «çərçi»nin onları biabır eləməsi çoxlarına yoxuş gəldi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yalanbol vilayətində Molla Cüppan adlı bir şair varıydı. Həcv olunan kəndlərin adamları tez gəlib, əhvalatı ona xəbər verdilər. Molla Cüpan özündən çıxdı:

– Bu saat gedək, hansı kənddədirsə onu tapaq. Ona bir gəliş gələcəyəm ki, adını da yadından çıxartsın!

Molla Cüppan üç-dörd adam da yanına aldı, Məhəmmədi axtarmağa başladılar. Haramxor kəndində dedilər ki, burada idi, bir saat olmaz, getdi. Molla Cüppan soruşdu:

– Hansı tərəfə getdi?

– Göyçə tərəfə.

Allah kasıblığı yox eləsin. Məhəmməd neçə gün idi ki, Yalanbol vilayətində dolanırdı, deməmişdi ki, haralıyam, hansı kənddənəm. Göyçəyə gedən yol Girəvəli gəldikdən aşırdı. Molla Cüppangil kəsə yol ilə gəlib, həmin gədiyin daracığında yolu kəsdilər, Məhəmmədin gəlib yetişməsini gözləməyə başladılar. Bir qədərdən sonra gördülər ki, bir kişi, qabağında da bir yüklü eşşək yavaş-yavaş gəlir. Məhəmmədi kənddə görənlərdən biri dedi ki, həmin adamdır, çərçi Məhəmməddir. Məhəmməd adamların yanına çatanda, ucadan dilləndi:

– Salaməleyküm.

– Əleyküməsalam.

Məhəmməd istədi ki, yoluna davam eləsin, Molla Cüppan qəzəblə səsləndi:

– A kişi, dayan!

Məhəmməd dayandı. Molla Cüppan əlindəki ağacı sinəsinə saz kimi sıxdı, aldı görək Məhəmmədə nə dedi. Biz də sazla deyək, şad olun:

Bir az ayaq saxla, Şair Məhəmməd,
Doğru söylə görüm, gəlirsən hardan?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bil ki, fot etmərəm bu fürsəti mən,
Bağlaram qolunu, asdırram dardan!

Məhəmməd gördü ki, yolu kəsməkdə olan bu adamların xüsusi məqsədləri var. Onlar əvvəlcə fikirləşib, düşünüb-danışıb, yolu kəsməyi qərara alıblar. Yoxsa, nə bilirdilər ki, gələn kimdir. Bunlar soyğunçu deyil; Məhəmmədlə haqq-hesab çəkmək üçün bu daracıqda durublar. Məhəmməd bircə ona şükr elədi ki, bu adamlar qolzoru göstərib, onu əzişdirməyəcəklər; bu söz meydanıdır. Məhəmməd də çəliyi sinəsinə basdı, görək yolkəsən kişinin sözünə nə cavab verdi:

Sığınıb Allaha, meydana girrəm,
Sidqilə çağırram; «Ya Şahi-Mərdan,
Qəvi düşman ilə rubəru durram,
Olgunan köməyim, sən qurtar dardan!»

Molla Cüppan Məhəmmədin yolunu kəsməyinin səbəbini bildirmək üçün aldı, görək bu dəfə nə dedi:

Hədyan söyləyibsən sən bizim yerdə,
Niyə danışıbsan xeyirdə, şərdə!
Ürcah eləyərəm elə bir dərdə,
Ölənədək qurtarmazsan azardan!

Aldı Məhəmməd:

Məni aciz bilmə, sahib-hünərəm,
Haqqın dərgahından sinədəftərəm.
Sən ki, bir danasan, mən şiri-nərəm,
Sərçə bac alarmı şahi-şonqardan!?

Molla Cüppan da özünü öymək üçün savadlı olduğunu bildirib, Məhəmmədi belə hədələdi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Molla Cüppan deyər, böyük adım var,
Sahibi-qələməm, çox savadım var,
Tufan qopardaram, tünd badım var,
Yağdırram üstünə borandan, qardan.

Molla Cüppanın belə hərbə-zorbasını Məhəmməd heç hesaba almadı, görək bu dəfə nə dedi:

Sənin sözlərini mən saydım hənək,
İndən belə gəl, biz olaq əhli-cəng.
Sana top nə lazım, bağlaram tüfəng,
Məhəmmədəm, yaman çallam şahmardan.

Molla Cüppan gördü ki, Məhəmməd onun dediklərini zarafata sayır, bir dediyinə beş cavab verir. Odu ki, Məhəmmədi aciz qoymaq üçün bağlama deməyə başladı, görək necə başladı:

Bizdən salam olsun, Şair Məhəmməd,
Şairlik elminin nədir binası?
O da bizim kimi candı, insandı,
Nə olub baisi, olublar xası?

Aldı Məhəmməd:

Al, cavabın verim, ay Molla Cüppan,
Nütfəsin pak tutub ata-anası.
Baisi gün-fəkan, şahi-insü can,
Doldurub Kövsərdən veribdi tası.

Aldı Molla Cüppan:

O nədi, sayılar sayağı yeddi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kim boyar irəngsiz boyağı yeddi?
O necə taxtdır ki, dayağı yeddi?
De görüm, kim idi onun bənnası?

Aldı Məhəmməd:

Cəhənnəm sayılır saygı yeddi,
Haqq boyar irəngsiz boyağı yeddi,
Namazın taxtıdır dayağı yeddi,
Möminin qəlbidir onun bənnası.

Aldı Molla Cüppan:

Hansı ər övrətlə eylədi bəhsi?
Onların birinə kim verdi səsi?
Şairlərin şeri, nəzmi, həvəsi,
Cüppanın sərinin nədir sevdası?

Aldı Məhəmməd:

Adəm ilə Həvva eylədi bəhsi,
Cəbrayıl Həvvaya yetirdi səsi,
Sən, gəl, Məhəmmədlə tutma bu bəhsi,
Haqqın vergsidir, gözəl sevdası.

Molla Cüppan gördü ki, Məhəmmədi bağlama ilə də susdura bilmədi. O belə hazırcavab şairi heç yerdə görməmişdi. Məhəmmədin haralı olması onu maraqlandırdı. Aldı, görək bu dəfə nə dedi:

Bir sual eyləyir Molla Cüppan,
Deyir Məhəmmədə: sən haralısan?

Məhəmməd imkan verəmdi ki, Molla Cüppan sözün dalını desin; onun sözünü kəsib, dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sualına cavab verir Məhəmməd:
Qarasoranmısan, nə karalısan?!

Molla Cüppan Məhəmmədin bu sözündən çox pərt oldu. Onu məzəmmətləyərək dedi:

– Məhəmməd, mən haralı oldğunu soruşdum, sən niyə elə cavab verdin?!

– Haralı olmağım nəyinə lazımdır? Mən bir türk oğluyam.

– Türk oğlu olduğunu bilirdim. Bəyəm, türk oğlunun haralı olduğunu soruşmaq qəbahətdir?!

– Qəbahət deyil. Ama döyüş meydanında belə sualı verməzlər.

– Verməzlərsə də, mən verdim. Davamız davadır, meydandan qaçmıram. Amma gərək bu sualımı da cavabsız qoymayaydın.

– Onda qulaq as:

Al, cavabın verim, ay Molla Cüppan,
Göyçə ki deyirlər, mən oralıyam.
Gözün aç, yaxşı bax, sən məni tanı,
Cəngdə düşmanı tez yoralıyam.

Məhəmməd yerini nişan verəndə, Molla Cüppan arabanı düzə endirdi, bir qədər yumşaq danışmağa başladı, aldı, görək nə dedi:

Çox sözlər demişəm ağaya, bəyə,
Dost gərək dostuna boynunu əyə.
Elə söz demədim, xətrinə dəyə,
A zalım, sən qəlbi nə qaralısan!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məhəmməd yenə əvvəlki hava ilə getdi. Yenə Molla Cüppana hədə-qorxu gəldi, görək bu dəfə nə dedi:

Sən qulaq as, mən söyləyim bir neçə,
Ariflər yaxşıyla yamanı seçə.
Mən alıcı quşam, sən çolpa, beçə,
Çalıb caynağıma, mən varalıyam.

Molla Cüppan gördü ki, Məhəmmədin yolunu kəsib, onunla söz meydanına çıxmaqda səhvə yol verib. Sözün tapşırmasında aldı, görək üzürxahlıqla nə dedi:

Girəvəli gəldikdə biz ki, görüşdük,
Salam verdik, əhval tutduq, soruşduq.
Molla Cüppan deyər, nahaq vuruşduq,
Bilmirəm, mənmi, ya sən yaralısan.

Aldı Məhəmməd:

Elə hərbələrdən qorxaram daha,
Olsa sənin kimi neçə müddaha.
Taleyim nəhəngdi, təbim-əjdaha,
Məhəmmədəm, belə macəralıyam.

Mənim əzizlərim, elə ki, sözlər tamama yetişdi, Molla Cüppan mehribaqlıqla soruşdu:

– Məhəmməd, Göyçəli olduğunu bildim. Çox sağ ol! Xahiş edirəm, deyəsən görüm, hansı kənddənsən, Aşıq Ələsgəri tanıyırsanmı?

– Mənim Göyçəli olduğumu bildiyin bəsdir. Daha özgə sual lazım deyil.

– Səni and verirəm Allaha, gərək bu sualımı da ca-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

vabsız qoymayasan.

– Allah sənə insaf versin, niyə məni bu qədər çətinliyə saldın?!

– Sabahdan bir dediyimə beş cavab verirsən; bunda niyə çətinləşirsən?!

Məhəmməd dillənmədi. Bir qədər fikrə getdi. Allah heç kəsin işini əysiyə salmasın! Məhəmməd özünü nişan verməyə arlanırdı. Axı necə desin ki, Aşıq Ələsgərin qardaşıyam. Bir də fikrinə gəldi ki, «El ilə gələn qara gün toy-bayramdır» deyiblər. Ağalar, bəylər də indi Məhəmməd kimi çərçilik edir. Bu ki, oğurluq eləmir; mal alıb, mal satır. Bunun elə bir əysikliyi yoxdur. Odur ki, Molla Cüppanın sualına cavab verməyi lazım bilib dedi:

– Göyçənin Ağkilsə kəndindənəm, özü də Aşıq Ələsgərin doğmaca qardaşıyam.

Molla Cüppan da, o biri adamlar da gəlib, Məhəmmədə əl verib, təzədən görüşdülər. Molla Cüppan dedi:

– Sən Aşıq Ələsgərin qardaşı Məhəmmədsənmiş?! Gərək məni bağışlayasan!

– Burada heç üzr istəmək lazım deyil; nə deyibsənsə, cavabını da alıbsan.

Molla Cüppan Yalanbol vilayətinin arxasınca söyləndi; onları asdı-kəsdi ki, niyə Məhəmmədi incidiblər.

Molla Cüppangil Məhəmmədlə xudahafisləşib, Yalanbol vilayətinə qayıtdılar. Məhəmməd də axşamtərəfi gəlib Ağkilsə kəndinə yetişdi.

Allah heç kəsin işini əysiyə salmasın! Allah mərdi namərdə möhtac eləməsin! Allah darda qalanların hamısının dadına yetsin!

## ÇOBAN MƏHƏMMƏDİN ÇUXA ƏHVALATI



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Ustadnamə**

Bəd övladı əzəl başdan tanıram,
Çör-çöp yığar, yad ocağın yandırar.
Səhər durar, namus-arın gözləməz,
Suyu tökər, öz ocağın söndürər.

Uluğun cuşa köpük yağ olmaz,
Söyüd bar gətirsə, bağça bağ olmaz.
Zibil təpə olsa, küllük dağ olmaz,
Yel əsəndə alçaqlara endirər.

Abbas bu sözləri deyər sərindən,
Arxı vurun, suyu gəlsin dərdindən.
El bir olsa, dağ oynadar yerindən,
Söz bir olsa, zərbi kərən sındırar.

Ustadlar ustadnaməni bir deməyib, iki deməyib, biz də deyək, iki olsun:

Bu dünyada mən təcrübə elədim,
Namərd körpüsündə heç bünyad olmaz.
Bir mərd ilə ağı yesən, şirindi,
Yüz namərdlə şəkər yesən, dad olmaz.

Yadın oğlu yağlı aşa mehmandı,
Dar günündə görərsən ki, ustandı,
Düşman günü düşmanınla düşmandı,
Yül il keçsə, qohum sənlə yad olmaz.
Ələsgərin sözün yetir nisaba,
Sərf edənlər səbt eləsin kitaba.
Heç namərdin adı gəlməz hesaba,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mərd bir olar, onda iki ad olmaz.

Ustadlar ustadnaməni iki deməyib, üç deyib; biz də deyək, üç olsun, düşmənin ömrü puç olsun!

Dərd üz verib, nitqim söylər kalamı,
Bəlkə, sözüm yatanları oyada.
Səs gəlsə guşuna, alar salamı,
Kişi gərək baxsın dost ilə yada.

Qəlbi doğru olan keçəmməz üzdən,
İnsan çox inciyər tənəli sözdən.
Biqeyrət oğuldan, binamus qızdan
Sonsuzluq yaxşıdı fani dünyada.

Tərbiyə gərəkdir ata-anadan,
Mərifət lazımdı əvvəl binadan.
Yüz də cəhd eyləsən, olarsan nadan,
Xidmətin olmasa kamil ustada.

Özgə zəhmətindən dövlət-var olmaz,
Kimsəyə bir zərrə xeyir-kar olmaz.
Kasıblıqla kişi üçün ar olmaz,
Bu şərt ilə, doğru çıxa üqbada.

Arif olan, huş ver sən bu sözlərə,
Naməmrd hər bəlanı gətirər sərə.
Kimdir səyyah olub düşə çöllərə,
İman kimi gəzə dərdin dəryada?!

Mənim əzizlərim, sizə haradan xəbər verim? Göyçə mahalının Ağkilsə kəndindən. Ağkilsə kəndində kimdən? Şair Məhəmməddən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Allah heç kimsənin işini əyməsin; Məhəmmədin işi birdən-birə çox tənəzzülə düşdü. Yaxşı ailəsi, xoş güzəranı var idi. Bir-birindən gözəl iki qızı, bir oğlu, çox mərifətli arvadı ilə yaxşı günlər keçirirdi. Elə oldu ki, uşaqların üçü də bir ilin içində xəstələnib öldülər. Arvadı Səlbinazın bir gözü oldu, min yaşı; gecə-cündüz ağlamaqdan görən gözləri görməz oldu. Yemədi, içmədi, axırda xəstəldəndi, dərdinə dərman tapılmadı. Az keçmiş Səlbinaz da ömrünü sizə bağışladı. Məhəmmədin dərd-qəmi başından aşdı. O, bir neçə il ailəsiz yaşadı. Aşıq Ələsgər, o biri qardaşları Məhəmmədi danladılar, öyüd-nəsihət elədilər ki, evlənsin. O, iki ayağını bir başmağa dirədi ki, daha mənə evlənmək yaraşmaz, evlənməyəcəyəm. Nəhayət, qonu-qonşular da onu üzdən-gözdən saldılar, evlənməyə məcbur elədilər.

Kənddə dilli-dilavər, vaxtı keçmiş qara bir qız varıydı. Bu qız hərəkətindən çox qoçaq görünürdü. Bu qızı peyğəmbəri qaydada Məhəmmədə aldılar. Səndemə bu, dil pəhlivanı imiş, əlindən bir iş gəmirmiş.

1918-ci ildə ermənilər Göyçəni viran eləyəndə Məhəmməd Kəlbəcərə köçmüşdü. O, xırda alverlə güzəran edirdi. Burada qaçqın ailəsindən olan qız-gəlinlər bir gün boş dayanmırdılar; gəbə, kilim, şal toxuyurdular, haqqını alırdılar. Məhəmmədin arvadı isə özünü işə vermirdi. Bu barədə söhbət düşəndə deyirdi:

- A kişi, sənin kimi adamın arvadının başqasına xalgəbə toxuması ayıbdı. Allah qoysa, Göyçəyə qayıdanda, mal-qoyunumuz olanda, gör nələr toxuyacam!

1921-ci ildə Şura hökuməti qurulanda Məhəmməd köçüb, Ağkilsə kəndinə qayıtdı. Kəndə qayıtmaqla nəyi var idi ki, dolana. O, Kəlbəcərdən gələndə üç keçi, bir də bir uzunqulaq gətirmişdi. Uzunqulağı Məhəmməd hələ qaçqın olduğu zaman Kəlbəcərli dostları vermişdilər. Mə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

həmməd orada üç il çərkilik eləmişdi.

Hökumət qurulsa da, Göyçədə vəziyyət ağır idi. Hamı çətinliklə dolanırdı. Öküz tapılmırdı ki, əkin eləyələr. Məhəmməd yenə çərkilik eləməyə başladı.

Məhəmməd uzunqulağını qabağına qatıb, günlərlə yol gedirdi, çərçi xırdavatı alıb-satırdı, amma bir şey artıra bilmirdi. Hər dəfə Məhəmməd səfərdən gələndə, arvadını qaş-qabaqlı görürdü.

Məhəmmədin arvadının adı Bahar idi. Amma çox zaman Məhəmməd ona yarızarafat, yarıgerçək «qara qız» deyirdi. Əvvəllər bu söz onun xətrinə dəyirdi; sonra öyrəşmişdi.

Məhəmmədin bu arvaddan üç oğlu olmuşdu. Böyüyünün adı Allahverdi, o birilərin adları isə Həsən və Hüseyn idi. Həsənlə Hüseyn əkiz idilər. Ailənin xərci artmışdı. Bahar yenə də əlini ağdan qaraya vurmaq istəmirdi. Hər dəfə Məhəmməd səfərdən gələndə güman edirdi ki, ona yaxşı paltar, parça alıb gətirəcək. Bunu görməyəndə, Məhəmmədi heç dindirmək istəmirdi.

Bir dəfə Məhəmməd yenə Gəncədən çərçi xırdavatı ilə qayıtmışdı. Bahar onun gətirdiklərini tökdü-töküşdürdü, gördü ki, ona yenə bir şey almayıb. Qaş-qabağını salladı. Məhəmməd bunu belə görəndə dedi

- Arvad, nə olub, niyə elə eləyirsən?

- Heç.

- «Heç» danaya, buzova deyərlər. Düzünü de görüm, nə olub?!

- Bundan artıq nə olacaq?! Neçə ildir, sənin evindəyəm, məni Allayaratdı bilib, arvad gözündə görmürsən!

- A Qara qız, sənin xətrini çox istəyirəm. Qoy, əlim bir az qalınlasın, sənə hər şey alacağam. Görürsən ki, öz əynimə-başıma da bir şey ala bilmirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məhəmməd dedi, arvad dedi, Məhəmməd dedi, arvad dedi. Axırda, Bahar Məhəmmədi yordu. Məhəmməd gördü ki, cəhldən bir şey çıxmayacaq, səsini kəsib fikrə getdi. Arvadının evə xeyir verməməsi, Kəlbəcərdə olanda da əlini işə vurmaması, onun bir sözünə həmişə beş cavab qaytarması, hər səfərdən gələndə də üzünə soyuq baxması Məhəmmədi lap haldan çıxardı, onu qəm dəryasına qərq elədi.

Bahar gördü ki, Məhəmməd fikirdən ayrılmır, əhvalı çox pərişandı, dedi:

- A kişi, yoxsa elə dediyim xətrinə dəydi? Bilsəydim ki, inciyəcəksən, deməzdim. Düzünü de görüm, halın niyə qarışdı?

Məhəmməd gördü ki, arvadı əl çəkməyəcək, belə çənəbazarı onu təngə gətirəcək. Odur ki, çəliyi sinəsinə saz kimi sazdı, dərdini sözlə deməyə başladı. Görək nə dedi, biz sazla deyək, şad olun:

Biləsən könlümün nədir davası,
Neçə yaraların, yar, sinəmdə var.
Yandırır cismimi eşqin havası,
Bimürvət, demirsən: qar sinəmdə var.

Gəlirəm, altım palaz atmırsan,
Səbəb nədi, məni alıb-satmırsan,
Axşam olur, gəlib yerdə yatmırsan,
Məlum, qocalıqdan kar sinəmdə var.

Yazıq Məhəmmədəm, yorğun, naçağam,
Belə işlərindən evdən qaçağam.
Çox qocalmamışam, hələ qoçağam,
Köhnə namus, qeyrət, ar sinəmdə var.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Söz tamam olan kimi, arvad yağlı dilini işə saldı.

- A kişi, sənin qadan-balan bu ürəyimə tökülsün! Deyəsən, məndən inciyibsən. İndi kasıbıq. Allah qoysa, varlanarıq da. Ürəyini heç sıxma. İndən belə başına pərvana kimi dolanaram.

- Arvad, sənin qadan-balan ürəyimə tökülsün! Mən də elə onu istəmirəmmi?!

Arvad Məhəmmədin nə dediyinin fərqinə varmadı:

- A kişi, sən Allah, elə demə. Sənsiz Allah mənə bir gün də ömür verməsin!

Məhəmməd güldü. Arvad elə bildi ki, onun sözü Məhəmmədə xoş gəldiyinə görə güldü.

Arvadın könlü açılmışdı. Evdə olandan çörək-xörək hazırladı. Uşaqları da süfrə qırağında əyləşdirdilər. Yaxşı yedilər, evlərinin on addımlığında olan bulağın buz kimi sərin suyundan içdilər. Əhvalları bir qədər yaxşılaşdı. Arvad Məhəmməd təzə gətirdiyi saqqızdan bir parça qırıb ağzına saldı, şirin-şirin çeynəməyə başladı. O gün beləcə keçdi.

Məhəmməd heç fikirdən ayrıla bilmirdi. Əgər bir qədər də belə getsə, dərd-qəm onu üzüb, əldən salacaqdı. O, belə güman eləyirdi ki, bu işlərin hamısını eləyən fələkdir. «Fələyin o qədər at işləməz yolları var» ki, səni də salıb onun birinə, bir yana çıxa bilmirsən. Məhəmməd durub, fikirli-fikirli tövləyə getdi ki, eşşəyi aparıb hörükləsin. Tövlədə beş-altı toyuq-cücədən başqa, bir şey yox idi. Qızıl inəyin axurunda pişik balalamışdı... Məhəmmədi od tutdu. Əlindəki əsanı sinəsinə saz kimi sıxdı, onu bu günə salan fələyə görək nə dedi. Biz sazla deyək:

Əymə qamətimi, bükmə qəddimi,
Eyləməynən qoca, Allahı sevərsən!
Bol elə ruzumu, ver qismətimi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qoymagınan ac, Allahı sevərsən!

Məhəmməd sözün o biri bəndini demək istəyirdi ki, gördü, tövlənin o biri başında səs gəlir. Bir az irəli getdi, bir şey görə bilmədi. Səs atın taxçısından gəlirdi. Məhəmmədə qeybdən cavab verdilər. Bildi ki, cavab verən fələkdir. Görək fələk Məhəmmədə necə cavab verirdi:

Aparma zəhləmi, tökmə beynimi,
Eləməynən gic, Allahı sevərsən!
Əlin ağrımayıb, zəhmət çəkməyib,
Görməyib iş-güc, allahı sevərsən!

Məhəmməd gördü ki, Fələk onu haqsız günahlandırır. Fələyin öz günahı isə yerə, göyə sığışası deyil. Aldı, görək bu dəfə nə dedi:

Çoxların özünə sən dost eylədin,
İçirtdin şərbəti, sərməst eylədin,
Axırda, ömrünə çox qəsd eylədin,
Olma belə bic, Allahı sevərsən!

Məhəmmədin bu sözündən Fələk bərk qəzəbləndi. Aldı, görək bu dəfə nə dedi:

Yəqin bil ki, zəhləm gedibdi səndən,
Gəlmə yaxınıma, gəz, dolan gendən.
Neçə pəhləvanlar gəlibdi, məndən
Almayıbdı bac, Allahı sevərsən!

Arvadı eşitdi ki, Məhəmməd tövlədə öz-özünə oxuyur. Elə bildi ki, başına hava gəlib. Yerindən durdu, yavaş-yavaş tövlənin qapısına yaxınlaşdı, dayandı. Fikir verəndə gördü ki, qeybdən Məhəmmədə səs verirlər. İçəri



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

girmədi, qulaq asmağa başladı.

Məhəmməd fikirləşdi ki, Fələyin onu belə çətinliklərə salması insafsızlıqdır. Çünki Allahın yanında onun heç bir günahı yoxdur. Aldı, görək bu dəfə nə dedi:

Məhəmmədəm, doğru sözü mən deyəm,
Yoxsulluq əlindən çox şərməndəyəm.
Haqqın irahında dürüst bəndəyəm,
Baxma mana gəc, Allahı sevərsən!

Deyəsən, Məhəmmədin bu sözündən sonra Fələk də bir qədər yumşaldı, ona məsləhət verdi, görək nə dedi

Dilin öyrənibdi həcv-hədyana,
Deyib-danışmağın bütün əfsana.
Bəsdir sana iki, ya üççə dana,
Olmayacan hacı, Allahı sevərsən!

Fələk sözünü tamam eləyən kimi, arvad qapıdan girdi, üzünü Məhəmmədə tutdu:

- A kişi, çəpinə çəkmə. Görürsən ki, fələk yaxşı məsləhət verir. Gəl, iki-üç dana alaq; iki ildən sonra hərəsi bir inək olacaq. Sən çılpaqlığın dərdini çəkmə. Yun alsan, şal toxuyaram, sənə ürəyin istədiyi paltar tikərəm. Başdan-ayağa bəy kimi bəzəyərəm.

- Arvad, düz deyirsən, yoxsa zarafat eləyirsən?

- A kişi, zarafat nədi. Başqa arvadlar bir ildə gördüyü işi mən bir ayada görərəm. Sən yun al!

Arvadın bu sözünə Məhəmməd inandı da, inanmadı da. Amma indiyə qədər yun almamışdı ki, görsün arvadı dediyinə əməl edə biləcəkmi? Dedi:

- Arvad, şalvar-serovum nimdaş olsa da, bir təhər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yola gedirəm. Mana bir çuxa çox fərzdir. Geyinəndə, o biri paltarların da üstünü örtər.

- A kişi, sənə dedim, yun al!

- Arvad, bilirsən ki, pulumuz azdır. Nə qədər yun alsam, görər?

- Put yarım bəs eləyər.

Məhəmməd elə başa düşdü ki, arvadı bu qədər çox yun aldırmaqda, çox iş görmək fikrindədir. Dedi:

- Günü sabah, gedib alacağam.

Məhəmməd Gəncədən gətirdiyi xırda-xuruşu satmışdı. Bir az da ondan-bundan borc götürdü, özünü verdi bazara. Bir put yarım yun aldı, iki kisəyə basdı, aşırdı eşşəyin belinə, üz qoydu kəndə. Elə bil ki, işlərinin hamısı düzəlib. Şad-xürrəm gəlib evə çatdı. Arvadı onu yaxşı qarşıladı. Yuna baxanda ağzını büzdü:

- Yox, yaxşı yun deyil.

- Şal toxumaq olmaz?

- Niyə olmur. Mənim əlimdə çox asan işdir.

- Arvad, Allah səndən razı olsun» Bəs, danaları almağa pulumuz yoxdur, neyləyək?

- Üzün tutan adamlardan borc götür. Yavaş-yavaş qazanıb verərsən.

Məhəmməd dost-tanışdan, qonu-qonşudan borc pul götürdü, o biri bazar gedib, iki dişi dana aldı.

Kənddə naxırçı yox idi. Hardan da olaydı?! Beş evdən birinin ya bir inəyi, ya da bir danası varıydı. Naxırçı on-on beş maldan ötrü papağını günə yandırmayacaqdı ki! Malı olanlar növbə ilə otarıdılar.

Məhəmməd gördü ki, səkkiz-on gündə bir ona da mal otarmaq növbəsi çatır. Özünün də alverdən macalı yoxdur. Əgər alveri tərgitsə, borcu da qaytara bilməz, özləri də çətin dolanarlar. Odur ki, danaların hərəsinə də bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hörük düzəltdi. Səhər tezdən danaları hörükləyir, tez-tez hörüyünü dəyişir, günorta olanda da sulayırdı. Bu münvalla bir neçə gün keçdi.

Bir gün Məhəmməd səfərə hazırlaşanda arvadına dedi:

- Arvad, bilirəm, yun başını çox qatacaq. Amma danaların hörüyünü tez-tez dəyişməyi yaddan çıxartma ki, əməlləşsindər. Əgər borclu olduğumuz adamların pulunu düzəldə bilməsək, birini satıb, borcumuzu kəsərik, birini də saxlayarıq, inək olar.

- A kişi, arxayın ol!

Məhəmməd olan qəpik-quruşunu götürdü, eşşəyi qabağına qatdı, üç-dörd adamla birlikdə üz tutdu Gəncə tərəfə. Onun Gəncəyə gedib-gəlməsi bir həftə, ya da on gün çəkirdi.

Məhəmməd gedəndən sonra arvadı yunu yumaq istədi. Bir az o tərəf-bu tərəfə çevirdi, sonra islağa qoydu ki, yuyanda kiri yaxşı təmizlənsin. Bir həftə keçdi, canı tutmadı ki, yunu islaqdan çıxarıb yusun. Səkkiz ötüb, doqquz deyən günü Məhəmməd səfərdən qayıtdı. Gördü ki, danalar kökəlmək əvəzinə, arıqlayıblar. Niyə də arıqlamasınlar?! Çox zaman axşama qədər bir hörükdə qalırdılar. Bahar qonşuda olan arvadlarla söhbət eləməkdən doymurdu. Saqqızı da çörək yeyəndən-yeyənə ağzından çıxardırdı.

Məhəmməd evə göz gəzdirdi, daraqdan, cəhrədən bir əsər-əlamət görmədi. Soruşdu:

- Arvad, yunun başına nə iş gətirdin?

- A kişi, yunu islağa qoymuşam. Yuyub qurudandan sonra, darayıb əyirəcəyəm.

Məhəmməd gətirdiyi xırdavatı satdı, yenə Gəncəyə qayıtdı.

Məhəmməd gedəndən sonra arvadı yunu sudan çıxardı, daşın-divarın, çəpərin üstünə sərdi ki, qurusun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yun bir həftə də çöldə qaldı, yarısını yellər apardı. Məhəmməd qayıdanda yunu sərili gördü, daha bu barədə bir söz soruşmadı. Çay-çörəkdən  sonra arvadına kömək elədi, yunu daşdan, divardan, kol-kosadan yığdılar. Məhəmməd gördü ki, yun lap azalıb, soruşdu:

- Arvad, yunun qalanı hanı? Burda bir pud da yoxdur.

- A kişi, yun çox kirli idi. Onu təmiz, çırpa-çırpa yudum, bu qədər qaldı.

Yunun azalmağından daha çox arvadının yubanmağı Məhəmmədi narahat eləməyə başladı. Gördü ki, bu hesabla arvadı ona bir ilə qədər də bir çuxalıq şal toxuya bilməyəcəkdir. Hövsələsi daraldı, dedi:

- Arvad, darağı gətir, yunu dara!

- A kişi, darıxma, darayacağam.

- Yox, gözümün qabağında işə başla!

Arvad gördü ki, Məhəmməd əl çəkməyəcək, yerindən durdu, darağı tapıb gətirdi. Daraqda daraqlıqmı varıydı? Nəmli yerə atıblar, dişləri elə pas bağlayıb ki, bir-birinə söykənib. Arvad dedi:

- A kişi, bunnan yun daranmaz.

Məhəmməd darağı götürdü, baxdı. Gördü ki, doğrudan da, yun daranası deyil.

Bir gün axşama qədər darağın dişlərini pasdan təmizlədi. Sonra şal cırığı ilə sürtüb, par-par parıldatdı. Darağın dili olsaydı, yuna deyərdi ki, gəl, səni darayım.

Məhəmməd arvadının bəhanəsini kəsmək üçün dedi:

– Gətir, cəhrəyə də baxım!

Arvad durub, cəhrəni gətirdi. Cəhrədə cəhrəlik qalmamışdı, çitəyin ipləri çürümüşdü, kirişi də üstündə yox idi.

Məhəmməd çitəyin iplərini təzələdi, yaxşı bir kiriş də düzəltdi, dedi:

– İyi gətir görüm!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arvad nə qədər axtardı, iy tapılmadı ki tapılmadı. Axırda Məhəmmədin əlacı kəsildi, polad məftildən bir iy düzəltdi, cəhrəyə saldı, cəhrə də hazır oldu. Elə bil ki, cəhrə yunu çağırıb deyirdi: «Gəl, səni əyirim». Məhəmməd arvadına dedi:

– A Qara qız, gör necədir?

– A kişi, əlin-qolun ağrımasın! Lap yaxşıdır.

– A Qara qız, yun da var, daraq da, cəhrə də. Daha əysik elə bir şey qalmadı ki?

– A Məhəmməd, mən darağın, cəhrənin fikrini çəkirdim. Arxayın ol. Gecəni gündüzə qatıb, şalı hazır eləyəcəyəm.

– Arvad, Allah özü sana kömək olsun!

Məhəmməd yenə səfərə çıxdı. Bahar gördü ki, bəhanəsi kəsilib, gətirib yunu daramğa başladı. Hər gün bir az darayandan sonra onu yuxu tuturdu. Doyunca yatdıqdan sonra gedib danaların hörüyünü dəyişdirdi, yemək hazır edib, uşaqlara yedirdi. Yeməkdən sonra yenə bir az yatırdı. Hər gün qonşu arvadları ilə doyunca söhbət eləməyini də yaddan çıxartmırdı. Bir də görürdü ki, axşam olub. Gedib danaları gətirib tövləyə salırdı. Gecə qara çıraq işığında yun daramaqdan qorxurdu ki, əli darağa düşər.

Məhəmməd səfərdən qayıdanda gördü ki, arvadı yundan bir az darayıb, evin küncünə yığıb. Dedi:

– A Qara qız, deyəsən tilsimi sındırıbsan. Amma yaman yubanırsan ha!

– A kişi, vallah, heç macalım olmur. Gündə neçə dəfə danaların hörüyünü dəyişirəm, sulayıram. Pencər yığıram. Uşaqlara yemək hazırlayıram, toyuq-cücəyə qulluq eləyirəm. Evin işini özün bilmirsənmi?

– Arvad, sənin şal toxumağın bu hesabla bir ilə başa gəlməz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Məhəmməd, razı olsan, şal toxumaq işini hələ dayandırarıq. Görürsən ki, mənim nə qədər işim var. Gündə nə qədər pencər yığıb xörək hazırlayıram. Çuxasız yola getmək olar, pencərsiz yox. Bir azdan da ot biçini başlayacaq, başımız ona qarışacaq. İstəyirəm, şal toxumağı payıza saxlayım.

Məhəmməd gördü ki, arvadı ilə söz güləşdirməkdən fayda yoxdur, dedi:

– Nə deyirəm, payız başla.

– Bahar Məhəmmədin bu sözündən çox xoşhal oldu.

Aradan bir müddət keçdi. Ot biçininin vaxtı gəlib çatdı. Məhəmməd qışda danaları, keçiləri, uzunqulağı saxlamaq üçün üç araba ot yığdı, arxayın oldu. Sonra Bahara dedi:

– A Qara qız, mal-heyvanın ələfini düzəltdik, qaldı öz yeməyimiz. İndidən taxıl alıb üyütməsək, sonra işimiz çətinə düşəcək.

– Nə eləmək istəyirsən?

– Deyirəm, danaları sataq. Həm taxıl alaq, həm də borcluların borclarını qaytaraq. Onları görəndə utanıram. Yazda yenə dana alarıq.

Bahar Məhəmmədin bu fikri ilə razılaşdı.

Danalar arıq idi. Məhəmməd özü danalara qulluq etməyə başladı. Gündüzlər otarırdı, gecələr isə yığdığı otdan qabaqlarını doldururdu., danalar səhərə qədər yeyirdi. Bir ayın içində danalar yaxşıca kökəldi. Məhəmməd qonu-qonşuya bildirdi ki, danaları satıram. Heç kəs «alıram» demədi. O, bir səhər tezdən danaları bazara apardı. Yaxşı qiymət verən olmadı. Fikirləşdi ki, gələn bazar yenə gətirsin danaları kəndə qaytardı.

Kənddə mala azar düşmüşdü. İki gün keçəndən sonra Məhəmməd gördü ki, dananın biri ələf yemir. Ağlına gəlmədi ki, xəstəlik tutub. Üçüncü gün nə elədi, dana yerindən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qalxmadı. İndi başa düşdü ki, «yanıqlara» xəstəliyi onu tutub. Qonşulardan gəlib baxanlara da dedilər ki, dirilməz. Dananı kəsdilər. Gördülər ki, bir tərəfi qap-qara yanıb. Bu xəstəlikdən ölən malların ətini yeməyə həkim icazə vermirdi. Odur ki, əti bir köhnə quyuya salıb basdırdılar.

Bəli, Məhəmmədin danasının biri belə getdi.

Bahar dananın o birini satılmağa qoymadı. Dedi ki, özüm saxlayıb, onu inək eləyəcəym. Məhəmməd razılaşdı. O yenə alverin dalınca getdi ki, pul düzəldib, həm taxıl alsın, həm də borcu kəssin.

Qış gəlib yetişdi. Məhəmməd Bahara dedi:

– Arvad, əynimə olan paltar da töküldü. Camaat içinə çıxası deyiləm. Bəs, nə fikirləşirsən?!

– A kişi, indi bu qarda, soyuqda eşikdə iş görmək olmaz. İçəridə yun darayanda, əyirəndə, tozu adamın nəfəsini kəsir. Qoy, yaz açılsın, havalar isinsin, evin kölgəsində yunu bir həftəyə darayıb əyirərəm, sonra şalı toxuyaram. Bir ayın müddətində şal hazır olar. Darıxma!

Məhəmməd gördü ki, arvadla söz güləşdirmək faydasızdır, dedi:

– Nə deyirəm, sən deyən olsun.

Məhəmməd yenə alverin dalınca getdi. Bahar danaya qulluq eləməyə başladı, görək necə başladı. Çox zaman gün çeştə qalxana qədər yatırdı. Duranda çörək-xörək qayırıb yeyəndən sonra dana yadına düşürdü. Gedib qabağına bir az ələf atırdı. Elə gün olurdu ki, danaya tezdən ələf vermək yadından çıxırdı. Dana mələyəndə, yadına düşürdü ki, danaya ələf verməyib. Yazıq dana çox zaman suyu da mələyib alırdı.

Məhəmməd səfərdən gələndə gördü ki, dana yaman gündədi. Bir həftə, on gün, on beş gün özü yaxşı baxırdı, dana bir az əməlləşirdi. Məhəmməd gedəndən sonra dana



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yenə öz dili ilə ələf-su istəyirdi.

Bu minvalla, dananı bir təhər yaza salamat çıxartdılar. Yenə hörükləməyə başladılar. Bir gün belə, beş gün belə. Bahar fikirləşdi ki, dananın hörüyünü gündə üç-dörd dəfə dəyişməkdənsə, onun hörüyünü uzadıb, ikicə dəfə dəyişmək yaxşıdır. Hörük çox uzun olsa, axşama qədər bir hörükdə də qala bilər. Bəs, uzun hörüyü nədən düzəltsin? Gətirdi, keçən il daradığı yunu ortaya tökdü, kesəşən cırcırı götürdü, iyirmi arşın uzunluğunda bir yoğun ip eşdi. Bundan sonra dananı bu iplə hörükləməyə başladı, onun hörüyünü dəyişmək qayğısından qurtardı. Bundan sonra dana axşama qədər bir hörükdə qaldı. Baharın yadına düşəndə, ərinməyəndə günortalar ona su verirdi.

Məhəmməd səfərdən qayıdanda gördü ki, dananın vəziyyəti yenə yaxşı deyil. Arvadından soruşdu:

– Bahar, dana niyə bu gündədi?

– Nə bilim, a kişi! Yeməkdən korluq ha çəkmir. Bir gör, nə uzunluqda hörük güzəltmişəm. Ağlı var, otlasın, kökəlsin.

– Arvad, səhər yerindən gec durursan. Gün qızandan sonra dananı hörükləyirsən. Mal-heyvan sabahın, axşamın sərinində yaxşı otlayır.

Məhəmmədin belə deməsi arvadına güllə kimi dəydi. Acıqlı-acıqlı dedi:

– Məhəmməd, indən belə gözümə yuxu getməz. Gecənin yarısından durub, dananı hörüklərəm. Sən yerindən duranda, dananı hörükdə görərsən.

– Arvad, gecənin yarısı lazım deyil; səhər açılanda hörükləsən, qoçaqsan.

Məhəmmədin «qoçaqsan» deməsi də Baharı yandırdı. O gecə ilan vuran yatdı, Bahar yatmadı. Səhər açılan kimi dananı aparıb hörüklədi. Məhəmməd yerindən dur-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

du, uzunqulağı aparıb hörüklədi, evə qayıtdı.

Aradan bir qədər keçdi. Bahar çörək-xörək hazır elədi. Yedilər-içdilər, gün çeştə qalxdı. Məhəmməd heyvanların hörüklərini dəyişməyə getdi. Gəlib nə görsə, yaxşıdır?! Gördü ki, dana arxasını yerə verib, ayaqlarının dördünü də göyə qaldırıb. Qarnı da o qədər şişib ki, az qalır partlasın. Məhəmməd başıalovlu evə qayıtdı. Bahara dedi:

– Dana gəbərib.

– Əşi, elə şey olmaz.

– Vallah, gəbərib.

Bu dəfə ikisi də dananın yanına qayıtdı. Bahar dananın leşinə bir qədər baxandan sonra, kinayə ilə dedi:

– A kişi, maşallah, gör dana nə qədər kökəlib; dərisinə sığmır.

Məhəmmədin dili gödəlmişdi. Dillənib arvadına cavab vermədi. Buraya gələn qonu-qonşular dedilər ki, buralarda ağılı ot var; dana şehli-şehli otlayıb, zəhərlənib.

Məhəmməd bikeflədi. Arvadı isə müharibədə qalib gəlmiş bir qəhrəman kimi şax dayanmışdı. Məhəmməd dananın gönünü soymadı da. İpi açdı, dəstələdi. Bahara verdi, evə gəldilər. Bahar dilləndi:

– Dananı şeh götürüləndən sonra hörükləsəydik, başımıza bu iş gəlməzdi.

– Camaat gecənin yarısından durub mal-heyvanını otarır; bəs, niyə onlarınkına bir şey olmur?!

– Başı açıq heyvanla hörükdəki bir deyil. Səni sağ olasan, qoymadın ki, həmişəki vədə hörükləyəm.

Məhəmməd gördü ki, arvadının dili çox uzanıb; bir dediyinə beş deyəcək. Daha dinmədi. Onu fikir götürmüşdü. Taleyinin əvvəldən gec gəlməsi yadına düşürdü. İndi işinin belə olmasında da Fələyi günahkar bilirdi. Axı, Fələyin özü Məhəmmədə dana alıb saxlamağı məsləhət



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bilmişdi. Bəs, danalardan niyə xeyir görmədi? Dayana bilmədi. Durub tövləyə getdi. Çəliyi sinəsinə saz kimi sıxdı. Üzünü o dəfə Fələyin səsi gələn taxça tərəfə tutdu, görək nə dedi. Biz sazla deyək, eşidin:

Mən sana neyləmişdim,
Qurdun mana al, a Fələk?!
Ağlımı aldın başımdan,
Möhtacam kamala, Fələk!
Dərd-qəm ilə ətrafıma
Qurdun hasar-qala, Fələk!
Sübhü şəm sızıldaram,
Çəkərəm çox nala, Fələk!

Məhəmməd bir qədər sakit dayandı ki, görsün Fələk ona nə cavab verir. Nə qədər gözlədi, Fələkdən bir cavab eşitmədi. Aldı sözün o biri bəndini:

Dost dedin, inandırdın,
Mənim kimi ağlıkəmə.
Qoltuğuma qarpız verdin,
Axırında, gətdin dəmə.
Cəmi dərdlərdən ziyada,
Bir dağ çəkibsən sinəmə;
Sənin qəhrindən ağarıb,
Xəddim olub çal, a Fələk!

Fələkdən yenə bir cavab gəlmədi. Məhəmməd aldı sözün o biri xanəsini:

Nə qədər dostluq elədim,
A bivəfa, inanmadın;
Zülüm, sitəm işlərindən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əl götürüb usanmadın;
Aldın dövləti, külfəti,
Ondan sa da utanmadın;
Özümü düşgün eylədin,
Qoydun daldan- dala, fələk!

Dostluğun heç başa varmır,
Sən necə yaman bəlasan;
Hər kəsə qəzəbləndin,
Az qaldı oda salasan;
Tökülsün şalvar- sertoyun,
Mənim tək uryan qalasan;
Sözlərim xətrinə dəysə,
Qapından qovala, fələk!

Bu işlərindən ülkmüşəm,
Onçu səndən yan çəkirəm;
Ölmürəm, dirilmirəm,
Zülüm ilə can çəkirəm;
Qoymuşuq pəncə-pəncəyə,
Sən çəkirsən, mən çəkirəm;
Bir gün camaat yığılar
Bizim qalmağala, fələk!

Biçarə Məhəmmədin
Başına gətdin nə xata;
İki danası var idi,
Müştəri olmadı, sata;
Birini payız öldürdün,
Birin yazda saldın ota;
Xain qarının heç doymasın,
Ha çalış, çavala, fələk!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mənim əzizlərim, Məhəmməd sözünü tamam elədi. Bir qədər də gözlədi, Fələkdən bir cavab ala bilmədi, fikirli-fikirli evə qayıtdı. Bahar bunu pərişan görəndə, dilləndi:

– A kişi, darıxma. Qəpik- quruş topla, yenə iki dana al, saxlayaq.

– Arvad, daha dana almaqdan keçdi. Fələk də bizlə düz demir. Onun sözünə baxdım, axırı da belə.

– Bəs, nə eləmək istəyirsən?

– Əlac ancaq alverə qalıb. Borçluların borcunu kəsə bilsək, böyük işdir. Sən əl tərpət, mənim çuxamı hazır elə. Görürsən ki, camaat içinə çıxası abırım qalmayıb.

– A kişi, istəyirəm, yunun qalanından eşşəyə bir yaxşı çulluq toxuyum.

– Arvad, qoy, çul hələ dursun, çuxanı qurtar.

– A kişi, səninlə alverə gedən yoldaşlarının eşşəklərinin çulu təzədi, həm də yaraşıqlıdı. Vallah, onların eşşəklərinin belindəki çula baxıb, bizim eşşəyin belindəki çula baxanda, xəcalətlənirəm. Bu yun yaxşı yun deyil. Allah qoysa, ağ yun alarsan, sənin çuxalığını ağ yundan toxuyaram.

Məhəmməd dedi, Bahar dedi; Məhəmməd dedi, Bahar dedi...

Məhəmməd gördü ki, cəhl çəkmək fayda verməyəcək, axırda əlacsız qalıb dedi:

– Yaxşı, sən deyən olsun.

Məhəmməd hazırlaşdı, yenə səfərə çıxdı. Onun bu dəfə səfərdən qayıtmağı düz on yeddi gün çəkdi. O belə hesab edirdi ki, bu qədər vaxtda arvadı eşşəyin çulluğunu toxumuş olar. Amma bu xam xəyal idi. Məhəmməd səfərə çıxandan sonra arvadı yenə əlini ağdan qaraya vurmadı. İş-peşəsi qonşu arvadları ilə söhbət eləmək və saqqız çeynəmək oldu.

Məhəmməd gördü ki, arvadı yunu heç əyirməyib də.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qəmli- qəmli soruşdu:

– Bahar, çulluğu niyə toxumayıbsan?

– A kişi, üstünə sağlıq, sən gedəndən sonra yaman xəstələnmişdim. İki gündür, ayağa durmuşam. Darıxma, on günə çulu hazır eləyəcəm.

Məhəmməd gördü ki, arvad xəstələnmiş adama oxşamır. Onun azarı tənbəllik azarıdır. Yəqin elədi ki, arvadı nə çulluq toxuyacaq, nə də çuxalıq. Yaxşısı budur ki, ucuz- bahalığına baxmasın, özünə paltarı bazırdan alsın.

Məhəmməd gətirdiyi xırdavatı bir həftənin içində dəyər- dəyməzinə verdi, qəpik- quruşunu cəmlədi, bir dəst paltarın pulunu düzəltdi.

Məhəmməd bazar günü tezdən yerindən durdu, Bahara dedi:

– A Qara qız, mənim çay- çörəyimi hazır elə, bazara gedəcəyəm.

–Məhəmməd, bazara nəyə gedirsən?! Satılası nə var ki?!

–Satmağa getmirəm, almağa gedirəm.

–Nə alacaqsan?

–Özümə paltar alacağam.

–Sənə paltarlıq şal toxuyacağam, darıxma!

– Arvad, iki ildir toxuyursan, heç bir şey ortaya çıxmır. Görürsən ki, lüt qalmışam. İndi paltar alım, sən şalı arxayın toxu. Bir dəst paltar da sən hazır eləyərsən.

Məhəmməd dedi, Bahar dedi, Məhəmməd dedi, Bahar dedi..., bu dəfə Məhəmməd Baharı bozartdı:

– Sənə deyirəm ki, paltar almaq olmaz.

Bahar gördü ki, Məhəmməd dediyindən dönəsi deyil, dedi:

– Onda mənə də al!

– Arvad, pulum azdır; bu dəfə özümə alım, sonra



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sənə alaram.

Bahar iki ayağını bir başmağa dirədi ki, əgər özünə paltar alsan, gərək mənə də alasan. Əgər mənə paltar almasan, gərək özünə də almayasan. Əgər mənə paltar almasan, daha bu evdə durmayacağam!

Məhəmməd hirsləndi, özünü saxlaya bilmədi. Əlindəki çəliyi iki dəfə arvadının kürəyinə çırpdı. Arvadı qəddini düzəldən kimi evin küncünə tərəf yüyürdü. Məhəmməd bərk qorxdu. Elə hesab elədi ki, Bahar baltadan, dəhrədən birini götürüb, onun üstünə qayıdacaq. İstədi qaça, kişilik qeyrəti qoymadı. Çəliyi şəkləyib, hazır dayandı. Bir də nə görsə, yaxşıdır; gördü ki, Bahar çömçə əlində qayıtdı. Məhəmmədin qarşısında dayandı, çömçəni sinəsinə saz kimi sıxdı, aldı görək, nə dedi, biz də sazla deyək, şad olun:

A kişi, get, mana paltar al gətir.
Boşanaram, günü qara düşərsən.

Bahar sözün bu iki yarpağını deyən kimi, Məhəmməd onun sözünü kəsib dedi:

–Arvad, qadan alım, qoy bu iki yarpağın cavabını verim, sonra qalanını deyərsən.

– De görüm!

Aldı Məhəmməd:

Arvad, məndən qeyri, səni kim saxlar,
Burdan özgə, gedib hara düşərsən?!

Məhəmmədin belə deməyi onu yandırıb yaxdı.

Aldı Bahar:

Məndən gözəl kimdi qızda, gəlində,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağkilsə kəndində, Göyçə elində?!
Yaxanı qoyaram yetim əlində,
Ah-vay çəkib, ahu zara düşərsən.

Aldı Məhəmməd:

Səndən gözəl birisini alaram,
Qul olaram, qulluğunda qalaram.
Yəqin bil ki, səni gözdən salaram,
Filan kimi qapılara düşərsən.

Aldı Bahar:

İşin, gücün söhbət olub, dəm olub,
Qocalıbsan, ağlın başdan kəm olub,
Qamətin əyilib, qəddin xəm olub,
Püşk atarlar, kora, kara düşərsən.

Aldı Məhəmməd:

Dedim, mana yaman qulluq eyləmə,
Arvad, çuxalığı çulluq eyləmə,
Özünü bir qara pulluq eyləmə,
Qiyməti bir quruş para düşərsən.

– Məhəmməd, quruş para nə deməkdir?

– Quruş qəpiyin dörddə biridir, paranı da özün hesabla.

– Bununla nə demək istəyirsən?

– Harda danışsalar ki, bu qədər yundan iki ildə bircə arşın da şal toxuya bilməyibsən, sənə quruş para qiymət verərlər.

Arvadı yenə od götürdü, dedi:

– Mən quruş-muruş bilmirəm. İndi ki, bazara paltar almağa gedirsən, gərək mana da alasan!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məhəmməd arvadı sakitləşdirmək üçün dedi:
– Bahar Məhəmmədin sözünə inandı, aldı görək nə dedi:

Get mana paltar al yaşıldan, aldan,
Əbrüdən, ətlazdan, tirmədən, şaldan.
Hamısı pürqiymət, bahalı maldan,
Neyləyim ki, qərzidara düşərsən!

Məhəmməd götürdü ki, arvadının ağlını kəsdirir, özü bir az da yuxarıdan getdi. Aldı, görək nə dedi:

Çəpgən aldım, qızıl düymə taxılı,
Onu görən hamı yanar, yaxılı.
Ocağım qaraldı, evim yıxılı,
Qorxuram ki, baxtavara düşərsən.

Bahar bu sözdən lap yumşaldı. Elə bildi ki, Məhəmməd ona qızıl düyməli paltar alar, amma baxtavara düşməkdən qorxur. Çox mehribanlıla dedi:

– A kişi, elə bilirdim ki, məni çox istəmirsən. Sağ ol! Allah səndən razı olsun! Mən də baxtavara düşməkdən qorxuram.

– Arvad, baxtavara düşməmək üçün sən nə cür paltar alım?

Arvad fikirləşdi ki, ucuz qiymətli paltar istəsin, bəlkə söz Məhəmmədin xoşuna gələ, bir az bahalı paltar ala. Aldı görək nə dedi:

Get mana paltarı tezdən al gətir,
Nə bacarsan, çoxdan, azdan al gətir,
Ucuz yolla ağdan, bezdən al gətir,
Qəfil gedib bahalara düşərsən!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arvad Məhəmmədin ona da paltar alacağına tamam inanmışdı. Paltar barədə olan bu söhbət çox uzun çəkdi, gün günorta oldu. Basar- keçərə bir şey almağa piyada gedənlər gərək tezdən yola düşə idilər ki, işlərini görüb, axşam olmamış evə qayıda bilsinlər. Odur ki, Məhəmməd aldı, görək nə dedi:

Məhəmməd söyləsin müxtəsər, gedək,
İndi günortadı, səhərdən gedək.
Yaraşır boyuna bez ilə qədər,
Qane ol ki, qeyri kara düşərsən.

Mənim əzizlərim, o gün keçdi. Sabah hamınızın üzünə xeyirliklə açılsın! Sabahısı gün Məhəmməd yerindən tez durdu, çay-çörəkdən sonra xurcununu da götürdü, bazara yola düşdü.

Məhəmməd gedəndən bir qədər sonra arvadı onun yolunu gözləməyə başladı. Gözlə ki, gözləyəsən. Gün günortadan xeyli keçdi, gözləməkdən arvadın gözünün kökü saraldı. Axşamtərəfi gördü ki, çiyni xurcunlu bir kişi gəlir. Yolun ayrıcına çatanda Məhəmmədgil tərəfə döndü. Bahar diqqətlə baxanda gördü ki, bu kişi Məhəmmədə oxşayır da, oxşamır da. Gəlhagəl, gəlhagəl, gəlib qapıya çatanda gördü ki, Məhəmməddi. Əynindəki mahud çuxa onun tanınmaz eləmişdi. Bahar dedi:

– Kişi, çuxan mübarək olsun!

– Arvad, sağ ol!

Məhəmməd ağzıbağlı xurcunu bir tərəfə qoydu, mütəkkənin üstündə əyləşdi. Arvad tez qayğanaq bişirdi, yedilər, içdilər.

Arvadın fikri xurcunun yanında idi. Tez- tez ona baxırdı. Dayana bilmədi, gətirib ağzını aça-aça dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Görüm, daha nə alıbsan.

– Nə almışam ordadı.

Arvad xurcunu boşaltdı. Gördü ki, bir sertov, bir şalvar, bir çüt də məstdən başqa bir şey yoxdur. Əhvalı dəyişdi, bu paltarlara görə Məhəmmədə «mübarək olsun!» deməyə dili tutmadı. Boş xurcunu qapının ağzına tulladı, dedi:

– Bəs, mənim paltarım hanı?!

– Arvad, pul ancaq bu paltarlara çatdı.

– Çuxa almışdın, qoyaydın şalvar, sertov hələ duraydı.

– Camaat içinə çıxıram, xeyir-şərdə oluram. Onda gərək çuxa həmişə əynimdə ola.

– Bəs, mən camaat içinə çıxmıram!? Toya, yasa getmirəm?

– Arvad, qoy bir az əlim qalınlasın, sana da yaxşı paltar alacağam.

– Yox, sabah get al!

– Bəs, cibimdə bir qəpik də yoxdur, nə ilə alım?

– Apar, eşşəyi sat!

– Arvad, bilirsən ki, eşşək olmasa, biz dolana bilmərik. Onu necə satım!

– Bilmirəm, yerdən çıxart, göydən endir, pul tap, mana da paltar al!

Məhəmməd dedi, arvad dedi, Məhəmməd dedi arvad dedi... Məhəmməd gördü ki, bu səsini alçaltdıqca, arvadı səsini ucaldır. Hirs vurdu başına, əlindəki çəliklə arvadın kürəyinə bir- iki sıyırtdadı. Bahar yıxıldı, haray- həşir qopartdı, Məhəmmədə qarğamağa başladı: ay sənin qolun qurusun! Bazardan salamat gəlməyəydin!... Sonra yerindən durdu, ufuldana-ufuldana, qarğaya-qarğaya bayıra çıxdı. Məhəmmədin acığı bərk tutmuşdu. Tənbəki qutusunu çıxartdı, bir papiros bükdü, yandırıb çəkməyə başladı. Xeyli gözlədi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bahar içəri gəlmədi. Haradan da gələydi? O, evdən çıxan kimi dədəsi evinə yollanmışdı. Məhəmməd bir qədər də gözlədi, sonra durub bayıra çıxdı, evin həndəvərini axtardı. Bahar qeybə çəkilmişdi. Bildi ki, küsüb, dədəsi evinə gedib.

Axşam oldu. Uşaqlar analarından ötrü ağlamağa başladılar. Məhəmməd uşaqlara yemək- içmək verdi. Bir qədərdən sonra yenə də səsləri kəsilmədi. Məhəmməd birtəhər onları sakitləşdirib inandırdı ki, sabah analarını gətirəcək. O gecə keçdi, Sabah hamınızın üzünə xeyirliklə açılsın! Sabah açılanda Məhəmməd qohum- qonşunun arvadlarından bir neçəsini minnətçi göndərdi ki, Baharı gətirsinlər, Bahar gəlmədi. Üç-dörd dəfə minnətə gedən oldu, hamısı boş qayıtdı. Məhəmməd gördü ki, evdə uşaqların səsi kəsilmir. Məcbur oldu, özü arvadı gətirməyə getdi.

Baharın qohumları gördülər ki, Məhəmmədin özü Baharın dalınca gəlib. Onlar da Baharı danladılar, öyüdnəsihət elədilər, o, heç kəsi eşitmək istəmədi. Məhəmməd gördü ki, arvadı sözlə yumşaltmasa, belə çənə söhbəti ilə yola gəlməyəcək. Odur ki, çəliyi sinəsinə sıxdı, görək Bahara necə minnət eləməyə başladı. biz sazla deyək, şad olun:

Yar heç soruşmadı mənim halımı,
Mən minnət eylərəm yara: dur gedək!
Mən sana neylədim, tanrı zalımı,
Axmaq olma, günüqara, dur gedək!

Bahar dilləndi:

– Elədiyini özün bilmirsən?!

Məhəmməd elə başa düşdü ki, çəliklə onu vurduğunu deyir. Gizləmədi, dedi:

– Sən məni çox hirsləndirdin, mən də sənə bir çəlik vurdum. Allaha şükür, qolun sınmayıb, qabırğan sın-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mayıb...

– Məhəmməd, doğru deyiblər ki, «qılınc yarası sağalar, dil yarası sağalmaz».

– Arvad, mən sənə söymüşəm ki?!

– Elə söz deyibsən ki, söysən, ondan yaxşı idi.

– Axı, nə demişəm ki, belə inciyibsən?

– Qulaq as, gör nə deyibsən. Bahar aldı, görək nə dedi, oradakılar nə eşitdilər:

Mən sana demirəm, məni döyübsən,
Heç minnət eyləmə, aldı getmərəm.
O zaman ki, mana «qara» deyibsən,
Qaçıb ağzımızın dadı, getmərəm.

Məhəmməd gördü ki, arvadın dərdi döyülmək dərdi deyil, çoxdan bu azarı sinəsində gəzdirirmiş. Onun könülünü almaq üçün gözəlliyini yalandan təriflədi. Aldı, görək necə təriflədi:

İnşallah, ağzımız tez tapar dadı,
Güldürmə üstümə qohumu, yadı.
Yanağın almadı, ləbin qonçadı,
Buxağın bənzəyir qara, dur gedək!

Aldı Bahar:

Xalqa tərif sən şüara deyirsən,
Camalına mahi- para deyirsən.
Hərdən- hərdən mana qara deyirsən,
Vurursan sinəmə odu, getmərəm.

– Arvad, sənə «Qara qız» deməyim, yoxsa xətrinə dəyir? Mən səni istədiyimdən elə deyirəm.

Məhəmməd gördü ki, arvadı onun bu dediyinə inan-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

madı, evə qayıtmayacaq. Fikirləşdi ki, gəl uşaqların ağlamağını onun yadına sala, bəlkə bir az yumşala. Aldı, görək nə dedi:

Məhəmməd ərz eylər, ey nuri- eynim,
Sözümü sındırsan, boynuna deynim.
Ağlar Allahverdim, Həsən, Hüseynim,
İrəhm eylə uşaqlara, dur gedək!

Məhəmməd belə deyəndə, Bahar daha ona cavab vermədi. Qohum-qardaşı, ordakıların hamısı onu danladılar, yenə dinmədi. Uşaqların ağlaşması xəbəri onu yumşaldıb, ipək kələfinə döndərmişdi.

Məhəmməd yenə dilləndi:

– A Qara qız, nə fikir eləyirsən?

Məhəmmədin Bahara «Qara qız» deməsinə buradakılar gülüşdülər. Baharın özü də gülümsündü, dedi:

– Nə fikir eləyəcəyəm. Gedək deyirsən, gedək.

Məhəmməd də Bahar da ayağa durdular, üz qoydular ev tərəfə. Bahar qabağa düşdü, Məhəmməd nə qədər yeyin yeridisə də evə qədər ona çata bilmədi. Gələndə gördü ki, Bahar uşaqları bağrına basıb.

Məhəmmədlə Bahar beləcə barışdılar. İki gün keçəndən sonra Məhəmməd yenə alverin dalınca getdi. Bir ayın içində çoxlu pul qazandı, borcunu kəsdi, Bahara da yaxşı paltar aldı.

Allah heç kəsin işini çətinliyə salmasın! Allah heç kəsə yoxsulluq əzabı göstərməsin! Amin!..

## QEYDLƏR

### AŞIQ TƏHMİRAZ



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"Adıgözəl və Aslan şah" dastanının variantlarıdır. Folklorşünas Ə.H.Tahirov tərəfindən Dərbənd bölgəsindən Muxtar Əli oğlu adlı şəxsdən toplanmışdır. 1939-cu ildə "Dastanlar" adlı kitabda işıq üzü görmüşdür.

## "KÜÇƏ RZA"

Dastan "Azərbaycan folkloru antologiyası"nın Şirvan folkloruna həsr olunmuş 11-ci cildindən (Bakı, "Səda", 2005) götürülmüşdür (tərtibçilər H.İsmayılov, S.Qəniyev).

## TUFARQANLI ABBAS

Dastan Yelizavetpol quberniyasının Zəngəzur mahalının Xocahan cəmiyyətinin Əbilcə kəndində Aşıq Abdulladan yazıya alınmışdır. Dastanı F.Ağazadə yazıyı almış, R.Təhməzoğlu Azərbaycan dilinə çevirmişdir.

## CƏLALI MƏHƏMMƏD VƏ TAVAT XANIM

Dastan Aşıq Molla Cuma tərəfindən qoşulmuşdur. Dastan "Azərbaycan folkloru antologiyası"nın Şəki folkloruna həsr olunmuş 4-cü cildindən (Bakı, "Səda", 2009) götürülmüşdür (tərtibçilər H.Əbdülhəlimov, f.e.n.R.Qafarlı, f.e.n. O.Əliyev, V.Aslan).

## SAYATBƏY VƏ SAYALI XANIM

Dastan Aşıq Molla Cuma tərəfindən qoşulmuşdur. Dastan "Azərbaycan folkloru antologiyası"nın Şəki folkloruna həsr olunmuş 4-cü cildindən (Bakı, "Səda", 2009) götürülmüşdür (tərtibçilər H.Əbdülhəlimov, f.e.n.R.Qafarlı, f.e.n. O.Əliyev, V.Aslan).

## ZİNHAR – MAHƏFRUZ

Dastan Qazax rayonunun Canallı kəndində yaşayan Alməmmədov Məqsəd İsmayıl oğlundan toplanmışdır. Məqsəd İsmayıl



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

oğlunun dediyinə görə, dastanı ona Qazax rayonunun Ağköynək kəndində yaşayan el sənətkarı Aşıq Məmmədyar söyləmişdir.

**MAHMUD – NİYAR XANIM**

Dastan 1974-cü il Tovuz rayonunun Alakol kəndində yaşayan Məsim Məsməliyevdən toplanmışdır.

**QULAM – KƏMTƏR**

Dastan 1967-ci ildə Tovyз rayonunun Aşağı Quşçu kəndində yaşayan Aşıq Avıdan toplanmışdır.

**BƏHRAM VƏ GÜLXƏNDAN**

Dastan 1968-ci il Qazax rayonunun Köçvəlli kəndində yaşayan Aşıq Əlidən toplanmışdır. Onun dediyinə görə, dastanın bir neçə variantı da vardır. Bunlardan biri də "Bəhram şah" adı ilə məşhurdur.

**BAXIŞ – LEYLA**

Dastan Dursun Qara oğlundan toplanmışdır. Həmin dastanı Dursun Qara oğluna Aşıq Əsədin qardaşı Aşıq Məhəmməd Rzayev danışmışdır.

**ÇOBAN MƏHƏMMƏDİN YALANBOL SƏFƏRİ**

Dastan İslam Ələsgər tərəfindət yazıya alınmış, alimin tərtib etdiyi "Çoban Məhəmməd" kitabına salınmışdır. Həmin dastanı Dursun Qara oğluna Aşıq Əsədin qardaşı Aşıq Məhəmməd Rzayev danışmışdır.

**ÇOBAN MƏHƏMMƏDİN ÇUXA ƏHVALATI**

Dastan İslam Ələsgər tərəfindət yazıya alınmış, alimin tərtib etdiyi "Çoban Məhəmməd" kitabına salınmışdır.

## MÜNDƏRİCAT



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq Təhmiraz.............................................................3
Küçə Rza....................................................................30
Tufarqanlı Abbas.........................................................62
Cəlalı Məhəmməd və Tavat xanım...........................92
Sayatbəy və Sayalı xanım.........................................107
Zinhar-Mahəfruz.......................................................146
Mahmud-Niyar xanım..............................................173
Qulam-Kəmtər..........................................................206
Bəhram şah və Gülxəndan......................................230
Baxış-Leyla..............................................................264
Çoban Məhəmmədin Yalanbol səfəri.......................296
Çoban Məhəmmədin çuxa əhvalatı.........................325



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bakı, "Nurlan" nəşriyyatı, 2011.

*Nəşriyyat direktoru:*
***Prof. Nadir Məmmədli***

Kompüterdə yığdı:
***Səadət Əliyeva***

**Korrektoru:**
***Günel Ələkbərli***

Kompüter tərtibçisi və
texniki redaktoru:
***Ramin Abdullayev***

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 22,5 ç/v
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab AMEA Folklor İnstitutunun
Redaksiya-Nəşriyyat şöbəsində yığılmış, səhifələnmiş,
"Nurlan" nəşriyyatında hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com